HACI SƏBUHİ İBRAHİMOV

# HEYDƏR ƏLİYEV
# VƏ
# ƏXLAQİ DƏYƏRLƏR

NAXÇIVAN – 2013



*Biz Azərbaycanda*
*öz milli-mənəvi dəyərlərimizə söykənərək,*
*eyni zamanda xalqımızın elminin,*
*mədəniyyətinin inkişafına,*
*milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə*
*zənginləşməsinə və vəhdətinə*
*xüsusi əhəmiyyət veririk.*

**HEYDƏR ƏLİYEV**

***“MƏN HƏYATDA YALNIZ ÜÇ ŞEYƏ ARXALANIRAM: YARADANIMA, ZƏHMƏTİMƏ VƏ BİR DƏ XALQIMA”***

**HEYDƏR ƏLİYEV**

*Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 19 fevral 2013-cü il tarixli (protokol №-05) iclasının qərarı ilə nəşr olunmağa tövsiyə edilmişdir.*

**Baş məsləhətçi:** **Nailə Vəlixanlı**
AMEA-nın vitse-prezidenti, akademik

**Elmi redaktor:** **Məmməd Rzayev**
*Fəlsəfə elmləri doktoru, professor*

**Rəyçilər:** **Möhsün Zeynəlabidin oğlu Nağısoylu**
*Filologiya elmləri doktoru, professor*
**Qoşqar Cəlal oğlu Əliyev**
*Fəlsəfə elmləri doktoru, professor.*
**Sənan Məmmədəli oğlu İbrahimov**
*Filologiya elmləri doktoru, professor*

*Dünya siyasi arenasında böyük nüfuza malik olan dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan xalqının sönməz məşəlidir. Ümummilli liderin milli mədəniyyətə, milli-mənəvi dəyərlərə və əxlaqi dəyərlərə verdiyi töhfələr xalqımız üçün əvəzsizdir. Məhz bu baxımdan da əxlaqi dəyərləri zənginləşdirən Naxçıvanın milli-mənəvi sərvəti olan əlyazma mətnlərindən geniş istifadə edilmiş və əsas zəruri hesab edilən məqamlara aydınlıq gətirilmişdir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvan öz zəngin tarixi keçmişini, dahi şəxsiyyətlərini və əxlaqi dəyərlərini daim qorumuş və bu gün də qorumaqdadır.*

*Bu baxımdan təqdim olunan monoqrafiya bir çox məqamlara işıq salır. Əsər əsasən elmi işçilər, aspirantlar, tələbələr, həmçinin xalqın dahi şəxsiyyəti, onun əxlaqi dəyərlərimizə göstərdiyi qayğı və Naxçıvan əlyazmalarının zənginliyi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

***Hacı Səbuhi İbrahimov.*** *Heydər Əliyev və əxlaqi dəyərlər. Naxçıvan-2013, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.. 280 səh.*

4700000000
053-2013

© "Əcəmi" 2013.

*Azərbaycan xalqının ümummilli lideri*
***Heydər Əlirza oğlu Əliyevin** doğum gününün*
***"90 illiyi"** münasibətilə dahi şəxsiyyətin ölməz ruhuna*
*və əziz xatirəsinə Allah sevgisilə ithaf edirəm*

**Hacı Səbuhi İBRAHİMOV**

# Ön söz

## Milli-mənəvi və əxlaqi dəyərlərə lider münasibətinin fəlsəfi tədqiqi

Sosial zaman ictimai proseslərin, cəmiyyətin, dövlətin və insanların həyatındakı tarixi dəyişikliklərin ölçüsüdür. Onun gələcəyə doğru inkişaf istiqaməti tarixi prosesdə görkəmli şəxsiyyətlərin rolunu zəruri edir. Cəmiyyətin yüksək xətt üzrə inkişafı, eləcə də, keçid mərhələlərində tarixi hadisələrin mürəkkəbliyi və ziddiyyətli xarakteri bu şəxsiyyətlərin aparıcı və həlledici rolunu ön plana çəkir.

Tarixi prosesdə filosoflar cəmiyyətin inkişafını «mütləq «mən»də, «böyük şəxsiyyətlər»də, «fövqəl-insan»da, «görkəmli şəxsiyyətlər», «texnokratik elita»və başqa amillərdə axtarmışlar. Sosial zaman kəsiyində tarixi inkişaf prosesi bizə müxtəlif mənəviyyata və zəkaya malik şəxsiyyətlər vermişdir. Onlar tarixi zərurət və ya təsadüf üzündən hakimiyyətə gələrkən ictimai hadisələrin gedişinə müxtəlif istiqamətlərdə təsir göstərmişlər. Bu zaman ya obyektiv inkişaf ləngimiş, xaos və özbaşınalıq yaranmış, ya da cəmiyyət tərəqqi və yüksəliş yoluna düşmüş, ictimai sabitlik formalaşmışdır. Bu baxımdan Hegelin şəxsiyyət haqqındakı fikri çox səciyyəvidir: «Siyasi tənəzzülə doğru sürətlə yaxınlaşmaqda olan xalqın taleyini yalnız dahi xilas edə bilər».

Bu bir həqiqətdir ki, tarixi şəxsiyyətlərə əsl düzgün qiymət müəyyən zaman keçdikdən sonra verilir. Lakin elə şəxsiyyətlər var ki, onlardan nə qədər yazılırsa, yazılsın, yenə də həyat və fəaliyyətlərini olduğu kimi əks etdirmək mümkünsüzdür. Azərbaycan xalqının ümummilli lideri möhtərəm Heydər Əliyev də məhz belə dahi şəxsiyyətlərdən idi. Heydər Əliyev şəxsiyyəti və onun ömrü siyasi-mənəvi tariximizdə elə uca bir zirvədir ki, biz o zirvənin əzəmətini gələcək nəsillərə çatdırmaq üçün əlimizdən gələni əsirgəməməliyik.

Heydər Əliyev xalq tərəfindən ümummilli lider kimi sevilir. Azərbaycan vətəndaşları onun ideyaları ətrafında sıx birləşmişlər. Heydər Əliyevin daxili aləmində, əməlində, sözündə, fikir və humanistliyində, əqidəsində xalqına və vətəninə bağlılığında müdrik keyfiyyətlər öz əksini tapmışdır. Ən qlobal məsələlərin həllində belə milli liderimizin iştirakı insanlarda nikbinlik hissi formalaşdırırdı. Təsadüfi deyildir ki, dünyanın ən inkişaf etmiş ölkələrinin dövlət başçıları və görkəmli siyasət adamları türk dünyasının ümummilli lideri Heydər Əliyevi dahi şəxsiyyət, böyük siyasət ustadı sayır və onun həyat yolunun bir məktəb olduğunu vurğulayırlar.

Heydər Əliyev vətəndaş qarşıdurmasına düçar olmuş və parçalanmaq təhlükəsi ilə üzləşmiş bir ölkədə xaosa və anarxiyaya son qoydu. Dünya şöhrətli siyasətçi müasir, müstəqil, inkişaf edən, sivil, demokratik-dünyəvi Azərbaycan dövlətini yaratdı, onun işlək idarəçilik mexanizmini formalaşdırdı.Heydər Əliyev milli – mənəvi dəyərlərimizi dirçəltdi və inkişaf etdirdi. Heydər Əliyev milli iqtisadiyyatı böhrandan çıxardı və onu azad bazar münasibətləri əsasında yenidən qurdu.

Ümummilli lider Azərbaycan xalqına dünya birliyində öz layiqli yerini tutan bir dövlət qoyub getdi. Heydər Əliyev Qafqazda sülhün bərqərar olması sahəsindəki xidmətləri ilə yanaşı, türk dünyasında cərəyan etməkdə olan münasibətlərin böyük rəhbəri idi. «Əsrin müqaviləsi» adlandırılan Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri layihəsinin memarı da məhz Heydər Əliyev olmuşdur.

Bu gün ümummilli lidersiz yaşadığımız bir dövrdə Heydər Əliyevin öz xalqına həsr olunmuş mübariz həyat yolunun elmi əsaslarla daha hərtərəfli öyrənilməsi, bu nadir şəxsiyyətin həyatının ayrı-ayrı dövr və məqamlarının bütünlüklə işıqlandırılması üçün geniş tədqiqatlar aparılmalıdır. **Ümummilli liderimiz möhtərəm Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında Azərbaycanın bu günkü və gələcək nəsillərinin müqəddəs borcu onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi naminə fədakarlıqla çalışmaqdan, milli birliyimizə sədaqətlə xidmət göstərməkdən ibarətdir.**

Heydər Əliyev xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasını, inamımızdan, dinimizdən və mənəvi mənbələrimizdən istifadə olunmasını dəfələrlə vurğulamışdır. Milli-mənəvi dəyərləri

Azərbaycan xalqının ruhunda yaşadan ulu öndər Heydər Əliyevin "**əzəmət və qüdrətinə, namus və qeyrətinə arxalandığım və güvəndiyim Azərbaycan övladları**" kəlamı bu gün də milli düşüncəmizin, şərəf və ləyaqətimizin, inam və imanımızın, dini-əxlaqi qaynağına çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2012-ci il dekabrın 22-də keçirilən dördüncü çağırış altıncı sessiyasında Ali Məclisin Sədri Vasif Talıbov demişdir: "2012-ci ildə muxtar respublika həyatının bütün sahələrində inkişaf təmin olunmuş, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Bütün bunlar Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev quruculuq xəttinin davam etdirilməsi, bu yola sədaqət hesabına əldə olunmuşdur. Ümummilli liderimizin quruculuq konsepsiyası 2013-cü ildə – "Heydər Əliyev ili"ndə də muxtar respublikamızda inkişafın əsas hərəkət verici qüvvəsi olacaqdır. Biz bu yolla gedərək, muxtar respublikamızı davamlı inkişafa qovuşduraraq doğma Azərbaycanımızın inkişafına öz töhfəmizi verəcəyik".

Əxlaqi dəyərlərimizi zənginləşdirən qədim Nuh yurdu Naxçıvanın tarixi əlyazmaları sözün əsl mənasında zəngin xəzinə və yeni tədqiqatların aparılması, yeni elmi biliklərin inkişaf etdirilməsi üçün əsl elm yoludur.

Ümummilli lider Heydər Əliyevin 07 avqust 2002-ci ildə imzaladığı tarixi sərəncama uyğun olaraq yaradılmış AMEA Naxçıvan bölməsinin tərkib hissələrindən biri də Əlyazmalar Fondudur.

Ümidvaram ki, Fondda saxlanılan əlyazmaların öyrənilməsi baxımından ərsəyə gələn bu əsər də öz növbəsində Heydər Əliyevin müdrik siyasətini, onun titanik fəaliyyətini insanlara yaxından çatdırmaq üçün bir daha geniş imkanlar açacaqdır. Həmçinin əsər dahi şəxsiyyətin əvəzsiz xidmətlərinin və azərbaycançılıq ideyalarının təbliğində və əxlaqi dəyərlərimizi zənginləşdirən Naxçıvan əlyazmalarının öyrənilməsi istiqamətində müstəsna rol oynayacaqdır.

**Məmməd RZAYEV**
***fəlsəfə elmləri doktoru, professor***

# I FƏSİL

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN DİNƏ VERDİYİ YÜKSƏK FƏLSƏFİ DƏYƏRLƏR

*Əsərdə əsasən, Heydər Əliyevin İslam dininə, müqəddəs Qurani-Kərimin ayrı-ayrı ehkamlarına, şəriət qaydalarına, müxtəlif İlahi fikirlərə, müqəddəslərə, ayin və mərasimlərə, dinin irəli sürdüyü müasir elmi mülahizələrə və əxlaqi dəyərlərə yüksək fəlsəfi qiymət verilməsi açıqlanmışdır. Həmçinin ümummilli lider Azərbaycan xalqının digər dinlərə olan münasibətini belə bir həqiqət anlamında olmasını qeyd etmişdir. Dində "səbir", "qəzavü-qədər" kimi məfhumlara və onların ifadə etdiyi mahiyyətə inanc çox əhəmiyyətlidir. İnsanların hərəkətlərinin, həyat yolunun İlahi qüvvə tərəfindən müəyyən edilməsi doğru və düzgün fakt kəsb edir. Allah yanında adamların sevinc və kədəri, xoşbəxtliyi və bədbəxtliyi qabaqcadan müəyyən olunmuşdur.*

*İslam dini hakim və məhkumlara bölünmüş cəmiyyəti, varlıların mövqeyini, məzlumların müti vəziyyətini araşdırmağa cəhd edir və hər cür ədalətsizliyə öz mövqeyin bildirir. İslam dininin və onun əxlaq qaydalarının ictimai həyatda son dərəcə xeyirli olduğunu görən ulu öndər Heydər Əliyev onun inkişafı üçün yardım etmək prinsipini əsas vəzifə kimi qarşıya qoyur.*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müqəddəs dinimizin fəlsəfi mahiyyətini qeyd edərək deyirdi: ***"Ulu Peyğəmbərimiz Məhəmməd əleyhissalamın yaydığı İslam dini və onun bütün müsəlman aləminə qoyduğu yadigar – Qurani-Kərim əsrlər boyudur ki, müsəlman dininə məxsus olan insanların həyatında çox böyük rol oynayır. Onların həyatı, yaşayışı, bu günü və gələcəyi, bu dünyada, o dünyada xoşbəxt olması üçün zəmin yaratdı"(1, s. 3).***

Ulu öndər Heydər Əliyev bütün şüurlu həyatını Azərbaycan xalqının siyasi və mənəvi cəhətdən azadlığa çıxarmaq, dini

saflığı və milli-mənəvi dəyərləri xilas etmək kimi nəcib bir məqsədə sərf etmişdir. Onun dəyərli kəlamları öz mahiyyəti etibarilə, əsasən İslamın müqəddəs ehkamlarına və onlardan irəli gələn əxlaqi vəzifələrə kömək etmişdir. Odur ki, ulu öndər Heydər Əliyevin dinə verdiyi yüksək fəlsəfi dəyərlər İslam dininin, onun əxlaq qaydaları və ibrətamiz mərasimlərinin tərifi mühüm yer tutur.

İslam dini Azərbaycan xalqını uzun illər ərzində ağıllı və kamillik pilləsində saxlayaraq, onun tərəqqi və inkişafına kömək olmuşdur. İslam dini hakim və məhkumlara bölünmüş cəmiyyəti, varlıların mövqeyini, məzlumların müti vəziyyətini araşdırmağa cəhd edir və hər cür ədalətsizliyə öz mövqeyin bildirir. İslam dininin və onun əxlaq qaydalarının ictimai həyatda son dərəcə xeyirli olduğunu görən ulu öndər Heydər Əliyev onun inkişafı üçün yardım etmək prinsipini əsas vəzifə kimi qarşıya qoyur.

Ulu öndər Heydər Əliyevin dini əxlaq qaydalarını dəyərləndirməklə bilavasitə əvvəl onun fəlsəfi mahiyyətini bilmək zəruri və vacibdir.

Heydər Əliyev İslam dininə, müqəddəs Qurani-Kərimin ayrı-ayrı ehkamlarına, şəriət qaydalarına, müxtəlif İlahi fikirlərə, müqəddəslərə, ayin və mərasimlərə, din xadimlərinin elmi mühakimələrinə böyük qiymət vermişdir. Hətta o, Allahın varlığının nə qədər böyük olduğunu, Onun bütün məxluqatı yoxdan yaratması fikrini qeyd edərək təkallahlıq mövqeyində durmuşdur. O, deyirdi: ***"Dini etiqad Allahın varlığı ilə əlaqədardır. Ona görə Allahın insanlar tərəfindən qəbul edilməsi ilə müxtəlif dini inanclar, o cümlədən tövhid məsələsi də qəbul edilir. Bununla belə Allahın varlığına inanmaq hər bir şeyin mövcudluğuna inanmaq deməkdir".*** *Həmçinin* ***"İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir"*** *(6)* deyə söyləmişdir.

Ulu öndərimiz Allahın varlığının həqiqi olduğunu və bütün canlıların, o cümlədən insanların da onun tərəfindən haqq olaraq xəlq olunması fikrini irəli sürmüşdür. Ulu öndər həmçinin elm ilə dinin vəhdətini, sintez təşkil etdiyini göstərmişdir.

Din insanları maarifləndirərək həyatı dərk etməyi anladır və yaradan qarşısında azad qul olaraq qiymətləndirir. Bu isə adamların hər bir tərəqqi və onun inkişafından bəhrələnməsinə səbəb olur, nəticədə kamillik və ariflik bilgisinə nail olunur. İslamda olan ayrı-ayrı dini ayin və mərasimlərin icrasını, Məkkə, Mədinə, Hacc, Kərbəla, Məşhəd ziyarətini, müqəddəslərə inamın xeyirli və insan mənəviyyatı üçün arzu olunmaz dərəcədə çox gərəkli və xeyirli olduğunu, həmçinin insan həyatı üçün xoşbəxtlik gətirən bütün varlığı ilə qeyd edən ulu öndər H.Əliyev demişdir: ***"İslamın müqəddəs abidələrini, Həzrəti Məhəmməd (s) Peyğəmbərin məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm"(2).***

İslamda göstərilir ki, əxlaq və din ayrılmazdır, əxlaq ayrıca olaraq dindən kənarda mövcud ola bilməz. Dini etiqada görə, ancaq dini ehkamlara sadiq olanlar yüksək əxlaqlı adamlardır. Dünyada dinsiz məxluq yoxdur. Hər bir insanın dini inancı var ki, istər təkallahlılıq, istərsə də qeyri fövqəl-təbii qüvvələrə inanmaq. Mahiyyət etibarilə hər hansı dinlə dərindən maraqlananlar, dini elmləri hərtərəfli öyrənmək vasitəsilə "kamil insan" olar və öz əxlaqlarını yaxşılaşdıra bilərlər. "Dindən ayrı düşmək" isə insanın kamilləşməsinə, insani ünsiyyətin yaranmasına mane olur, onu başqa hala salaraq mənəviyyatını korlayır. Hikməti – İlahidə bilmək insanı kamil edər. Adamların "gözəl əxlaqa" sahib olması ancaq ilahiyyət və dini etiqad vasitəsilə mümkündür.

İslamda din əxlaqın əsasında durur, dini etiqad və adətlər adamları pis işlərdən çəkindirir. Deməli, dini adət və ənənələri yerinə yetirən, milli-mənəvi dəyərləri qoruyub saxlayan, günlərini ibadət və itaətlə, halal əməklə keçirən adamlar yaxşı və əxlaqi hərəkətlər etməkdən qürur duymaqla bu nemətlərdən səmərəli istifadə etmiş olur. ***"İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən hər bir azərbaycanlı səmərəli istifadə etməli və xüsusən, cəmiyyətdə davranışda islam dininin tələblərinə uyğun olaraq özünü göstərməlidir"*** deyən ümummilli lider Heydər Əliyev bir daha xalqımızın yüksək əxlaq sahibi olmaq imkanlarını vurğulamışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: ***"Biz Azərbaycanda öz milli-mənəvi dəyərlərimizə söykənərək, eyni zamanda xalqımızın elminin, mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsinə və vəhdətinə xüsusi əhəmiyyət veririk" (3).***

Həmçinin ümummilli lider Azərbaycan xalqının digər dinlərə olan münasibətini belə bir həqiqət anlamında qeyd edirdi: ***"Azərbaycanda qədim dövrlərdən müxtəlif xalqların nümayəndələri yaşamış, bir çox xalqların dinləri mövcud olmuşdur. Azərbaycan və onun xalqı həmişə dini dözümlülüyü ilə fərqlənmişdir" (4).***

Belə ki, insanlar İslamın ayin və mərasimlərini öz qaydası ilə yerinə yetirir, digər tərəfdən "dostluq və qardaşlıq" prinsipləri, humanizm, bərabərlik və yoldaşlıq münasibətlərin nümayiş etdirirlər.

Dinə inanmaq, onun ehkamlarını yerinə yetirmək, axirət qorxusu insanların pis işlərdən çəkinməsinə səbəb olur. Dini etiqad nəinki adamları əxlaqlı hərəkət etməyə sövq edir, həmçinin pis işlərdən çəkindirir, daha da onların mənəviyyatını işıqlandırır. Din həqiqətən də deyildiyi kimi insanlar arasındakı münasibətləri yaxşılaşdırır, ailənin səmimi və mehriban olmasına səbəb olur. Din insanların mənəviyyatını saflaşdıran, onları yüksək əxlaq ruhunda tərbiyə edən bir vasitə olmuş və olacaqdır. Əsasən gənclərimizin təlim-tərbiyə obyekti olan təhsil ocaqlarında milli-mənəvi dəyərlərin mənimsənilməsi sağlam və saf insanların inkişafına gətirib çıxarır. Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının ali məqam sahiblərinə üzün tutaraq deyirdi: ***"Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır".*** Belə ki, insanlar dini elmlərlə yanaşı, müasir dünya elmlərini öyrənmək vasitəsilə həyat hadisələrini, özlərinin hərəkət və rəftarlarının düzgünlüyünü dərk edir, elm, maarif yolu ilə kamilləşər və mənəviyyatca yüksələ bilərlər.

Din mənəvi paklıq olaraq insanlara tövsiyə edir ki, adamlar öz hərəkət və əməllərində azad olsunlar, çünki ***"Allahın iradəsi xaricində heç bir hadisə baş verə bilməz"***, bütün hadisələr, o cümlədən adamların adi hərəkətləri də qabaqcadan İlahi qüvvə tərəfindən müəyyən edilir, ***"əzəldən nə yazılıbsa o olacaqdır"***, ***"qismət" və "tale"*** kimi süzülüb gəlmiş ehkamlar iradəli müsəlmanların bütün varlığına kömək edir və onlar Allahın yaradıcı qüvvə sahibi olduğu kimi xeyirli ehkamları əldə rəhbər tuturlar.

Allahın vahid varlığına inam anlayışı insanların hərəkətlərində sərbəst fikir azadlığını qəbul etməyə gətirib çıxarır. Allahın vahid varlığına inam adamların istək və arzularının məsuliyyətli və olduqca əhəmiyyətli olduğunu irəli sürərək onlarda öz gücünə inamı yaradır, çətin vəziyyətdən çıxmaq üçün çıxış yolu axtarmaq, mübarizə etmək əzmini gücləndirir.

Dində ***"səbr", "qəzavü-qədər"*** kimi məfhumlara və onların ifadə etdiyi mahiyyətə inanc çox əhəmiyyətlidir. İnsanların hərəkətlərinin, həyat yolunun İlahi qüvvə tərəfindən müəyyən edilməsi doğru və düzgün fakt kəsb edir. Allah yanında adamların sevinc və kədəri, xoşbəxtliyi və bədbəxtliyi qabaqcadan müəyyən olunmuşdur. Gözəl həyata, xoş güzərana sahib olmaq üçün taleyin ağuşuna, Allahın mərhəmətinə sığınmaq olduqca əhəmiyyətlidir, bundan ötrü taət və ibadət, halal zəhmət çəkmək, elm öyrənmək, bilik əldə etmək lazım gəlir.

Hər bir mübarizə və fəaliyyətdən bəhrələnməklə ümidini Allaha bağlayan və yalnız Ondan kömək diləmək hər hansı bir adam üçün dəyərlidir. Hər zaman Allahın mərhəmətin istəyən adama – Allah kömək edər. Bu dünyada hər kəsin ki, nəyə şövqü var oxumaq, elm öyrənmək, bütün fənlərdən xəbərdar olmaq, dil bilmək, sənət bacarığı əldə etmək, ticarət öyrənmək və başqa lazımlı şeyləri çalışaraq əldə etməlidir. ***"Mən həyatda yalnız üç şeyə arxalanıram: Yaradanıma, zəhmətimə və bir də xalqıma"*** deyən Dahi şəxsiyyət öz inancını bu cür tərənnüm etdirmişdir.

Din bütün mömin müsəlmanların hərəkətlərini əxlaq qaydaları çərçivəsinə salaraq, onların tam sərbəstliyini təmin edir

və müstəqil iş görməsinə kömək edir. İnsanlar hətta ən ali məsələlərdə fikir yürütmək qabiliyyətinə malikdirlər. Məhz bu səbəbdən də bütün müsəlman olmuş hər kəs böyük iş üçün də, kiçik iş üçün də azad və səlahiyyətlidirlər.

Dinin təsiri nəticəsində insanlar *"qorxmaz", "mübariz"* və olduqca sərbəst olurlar ki, özləri hansı günün yaxşı və hansı günün pis olmasını müəyyənləşdirirlər. Buna görə də o, adamların hərəkət və davranışlarında dinin nə qədər böyük rolu olduğunu təsdiq edən İslam dini əxlaqına, onu yaşadan və müdafiə edən insanlar göstərir ki, adamların bu qədər geniş səviyyəli olması, mənəvi kamilliyə yetişməsi deməkdir. Adamlar özləri də tamamilə sərbəst olmaq mənasını görür və getdikcə daha artıq başa düşürlər ki, Allah insanları nə qədər qiymətli və gözəl xəlq etmiş, onlarda dostluğa, həmrəyliyə, birliyə çağıran düşüncə qabiliyyəti qoymuşdur. ***"İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir"*** *(7)* deyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bir daha dini əxlaqın nə qədər əhəmiyyətli olduğunu xatırlatmışdır.

Din insanların azad və firavan yaşaması üçün ehkamların yerinə yetirilməsini əsas xüsusiyyətlərdən biri hesab edilir. Din cəmiyyət üzvlərinin oxumasına, bilik, savad kəsb etməsinə, şəxsiyyətin intellektual inkişafına böyük əhəmiyyət verir. Onun ehkamlarına görə, adamlar ancaq bu yol ilə öz hərəkət və əməllərində sərbəst olar, müstəqil fəaliyyət göstərə bilərlər. Din belə bir nəzəriyyəni də əsaslandırır ki, insanların iradə azadlığı dinlə bağlıdır, Allahın iradə azadlı çərçivəsində insanların hamısı elmə və biliyə nail ola bilərlər. Dinin təbirincə, adamların əqli inkişafı, savad dərəcəsi nə qədər yüsək olarsa, onlar öz hərəkətlərində bir o qədər azad və firavan olarlar.

Zəngin və qədim keçmişə malik olan İslam dini bütün aktual problemlərin həllini bəyan edərək göstərir ki, o, insanların hərəkət və əməllərində mütləq iradə sahibi olan Allahın iradə azadlığı daxilində mümkündür. Din onu da xatırladır ki, adamlar

öz hərəkətlərində Allahı düşünməklə, əqlə müraciət etməlidirlər. Ancaq belə hərəkətlər insanı gözəlləşdirər, mənəvi cəhətdən yüksəldə bilər. ***"Biz Azərbaycanlılar – bu, sonralar gələcək bütün nəsillərə də tövsiyə olunur heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq" (5, s. 81)*** deyən ümummilli lider Heydər Əliyev bir daha öz yüksək fəlsəfi dəyər və bilgisini bəyan etmişdir.

Din insanları bu dünyada halal zəhmətlə yaşamağı təbliğ edən əxlaq normalarını yüksək qiymətləndirir və passivlik təlimini tənqid edərək bəyan edir ki, passivlik insanları aldadaraq onları maddi və mənəvi olan halal nemətlərdən məhrum edir. Həmçinin nəticə etibarilə real gerçəkliyi nəzərə almaqla mövcud olan hər hansı qeyri-varlıq növü, o cümlədən insan, əxlaqın nizamlanması naminə səy göstərir və həyat tərzinin saflaşmasına xidmət edir.

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

*Müstəqilliyimizin 20 illik tarixi müşahidələri göstərir ki, heç bir xalq öz mütərəqqi mənəvi dəyərlərini nəinki kənara atmır, əksinə keçmiş mədəniyyətdə qiymətli nə varsa onları mənimsəyiб yeniləşdirərək, zənginləşdirir. Bu baxımdan ümummilli lider Heydər Əliyevin xalqımıza olan misilsiz xidmətləri nəticəsində müstəqilliyə, azadlığa, demokratiyaya nail olmuş və bu proseslərdə də milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz geniş vüsət alaraq inkişaf etmişdi.*

*Milli-mənəvi dəyərlər, adət-ənənələr milli mədəniyyətin bir növü kimi keçmişlə gələcək arasında bir körpü salır, varislik yaradır. Mənəvi tərəqqiyə yeni yollar açır. Gənc nəslin milli mədəniyyət, milli adət-ənənələr ruhunda tərbiyəsi ilə yanaşı qloballaşma prosesində mədəniyyət sahəsində meydana çıxan görkəmli nailiyyətlər onları zənginləşdirir və gələcək bəşəri inkşafa hazırlayır. Gənclərdə Azərbaycançılıq məfkurəsinin, vətəndaşlıq şüurunun formalaşdırılması, milli-mənəvi dəyərlərin milli adət-ənənələrin, dini-əxlaqi keyfiyyətlərin onlar tərəfindən mənimsənilməsi ilə bilavasitə bağlıdır.*

Hər bir xalq özünün milli-mənəvi dəyərləri köksündə tərəqqi tapır, dünyada öz adət-ənənələrini həyata keçirməklə zənginləşdirir və daim yaşadır. Adət-ənənələrin əsas həyatiliyi yeni fəlsəfi tarixi şəraitdə yeni nəsillər tərəfindən müəyyən edilir. Adət-ənənələrə kor-koranə münasibət ictimai həyatda durğunluq yaradırsa, onlara səhlənkarlıq tarixi və mədəni inkşafda irsiyyətin pozulmasına, fəlsəfi və mənəvi sahələrdə dəyərlərin itirilməsinə səbəb ola bilər. Öz dinin müqəddəs uca olduğunu dərk edən hər bir azərbaycanlı bilməlidir ki, bu din bizim milli-mənəvi, dini-əxlaqi, adət-ənənələrimizi yaradan və qoruyub saxlayan bir

inancdır. Bunun bariz nümunəsini ulu öndər Heydər Əliyevin söylədiyi kəlamla desək ***"Biz bir dövlət kimi İslam dininin son dövrdə geniş və çox sürətlə inkişaf etməsini bəyənirik və bundan sonra da Azərbaycan Respublikasında, müstəqil Azərbaycanda hər bir insanın sərbəst olaraq öz dini adət-ənənələrinə xidmət və onlardan istifadə etməsinə bütün imkanları yaradacağıq. ... İslam Azərbaycan xalqının, bütün İslam aləminə mənsub olan insanların, məxluqun ən yüksək mənəviyyat mənbəyidir" (1, s. 5)*** lap yerinə düşər.

***"Hər bir xalqın adət-ənənələri, milli-mənəvi dəyərləri həmin xalqın mentalitetini, fəlsəfi-psixoloji xüsusiyyətlərini səciyyələndirir" (12, s. 14)*** deyən ulu öndər Heydər Əliyev bir daha Azərbaycan xalqının yaşadıgı əsas psixoloji xüsusiyyətləri dəyərləndirmişdir. Deməli, onların itirilməsi həmin xalqın milli varlığının, onun özünəməxsusluğunun (mentalitetinin) itirilməsinə gətirib çıxara bilər. Ümummilli lider Heydər Əliyev 2001-ci il noyabrın 9-da tarixi bir gün Dünya Azərbaycanlılarının 1-ci qurultayında azərbaycançılıq məfkurəsi haqqında demişdir: ***"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürür hissi keçirməlidir və biz azərbaycançılığı-Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"***.

Müstəqilliyimizin bizə verdiyi müasir cəmiyyətdə ictimai həyatın tənzimlənməsində əsas rol ictimai institutlara aid olsa da, milli-mənəvi dəyərlər, dini-əxlaqi keyfiyyətlər cəmiyyətin həyatında mövcud olub yaşayır, milli birliyi təmin edir, fərdi davranışları tənzimləyir. Xalq bayramları, ailə-məişət münasibətləri, toy və yas məclisləri, əmək vərdişləri, dini mərasimlər, dini bayram və matəmlər, böyük- kiçik münasibətləri, övlad-valideyn səmimiyyətləri və s. milli-mənəvi dəyərlər və onun fəlsəfi tarixinin sisteminə daxildir.

Lakin milli-mənəvi dəyərləri donuq və dəyişilməz bir ictimai qaydalar toplusu kimi qəbul etmək səhv olardı. Ictimai həyatın yeniləşməsi ilə əlaqədar olaraq milli-mənəvi dəyərlərdə də

müəyyən əlavələr və dəyişikliklər baş verir. Çünki müəyyən prosesdə inkişaf etmək istəyən ölkələrin iqtisadi asılılığı əsasında onların milli-mənəvi dəyərlərinin mövcudluğu sarsılıb eroziyaya uğrayır və onlar assimiliyasiya təhlükəsi ilə üzləşir. "Heç təsadüfi deyil ki, milli mənafelərə üyğun gəlməyən bu kor təbii iqtisadi-mədəni prosesə qarşı etiraz əlaməti olaraq antiqlobal hərəkət meydana çıxmaqdadır" (11, s. 83). Buna görə də qloballaşma prosesi kontekstində milli mövcudluğun əsası olan adət-ənənələrin milli-mənəvi dəyərlərin, eləcədə milli mədəniyyətin və dini əxlaq normalarının qopunması məsələsi aktuallıq kəsb edir. Hətta Nizami Gəncəvi yaradıcılığına nəzər salanda görürük ki, insan xilqəti şərəfli yarandığından o zəngin mənəviyyatı, böyük əməllər yolçusu olmalıdır. Bunun üçün insandan dərrakə, bacarıq, ağıl, kamal və mərifət tələb olunur. Bunlara sahib olmaq üçün isə insanların təhsil və tərbiyəyə ehtiyacı vardır. O yazırdı:

Yaxşısan, pis işə əsla qoşulma,
Vəhşilik eyləmə, gəl vəhşi olma.
Pis, yaxşı nəyin var demək malındı,
Lakin sənə vacib olan öz kamalındı (13, s. 4).

Nizaminin fikrincə insan, öz biliyi, hünəri, zəhmətkeşliyi, ədaləti ilə seçilməlidir. Özünə zəhmət, dostlarına isə rahatlıq axtarmalıdır. Xalq uğrunda zəhmətə qatlaşmağı yüksək insani keyfiyyət sayan Nizaminin sözləri ibrətamizdir.

"Gərək özünü şam edib özgələrin xatiri üçün yanasan", "Səy et ki, xalqın işinə yarayasan ki, əməlinlə xalq geysin zərxara", Gül kimi xoş xasiyyətli ol ki, "Xoş ətrin dünyanı bürüsün".

Məsələn, xalqımızın qədim tarixi-milli-mənəvi abidəsi olan "Avesta"dan xalqın milli mənəviyyatına hopmuş "hər kəs xeyir düşünməli, xeyir söz və xeyir əməl sahibi olmalıdır" kimi xeyirxahlıq ənənəsi milli mentalitetin, milli xarakterin mühüm xüsusiyyəti kimi həm də ümümbəşəri mənəviyyata bir töhfədir. Bu cəhətdən milli xarakterlər, milli mentalitetlər özünəməxsusluğu ilə seçilir. Heç təsadüfi deyil ki, F.Engels yazırdı: "Ingilis milli xarakteri həm alman, həm də fransız milli xarakterindən əsaslı surətdə fərqlənir (14, s. 602). Veliçko

azərbaycanlılar haqqında isə belə deyir: "Azərbaycanlılar qan etibarilə nəcibdirlər; onlar təbiətin xeyirxah, mərd, alicənab olub, zehni və əxlaqi inkişafa qabildirlər" (15, s. 155).

Müstəqilliyimizin 20 illik tarixi müşahidələri göstərir ki, heç bir xalq öz mütərəqqi mənəvi dəyərlərini nəinki kənara atmır, əksinə keçmiş mədəniyyətdə qiymətli nə varsa onları mənimsəyiб yeniləşdirərək, zənginləşdirir.

Milli-mənəvi dəyərlərin yaşadılması və qorunması heç də ümumbəşəri mədəniyyətin formalaşmasına nəinki mane olmur, əksinə ümumbəşəri mədəniyyət məhz milli mədəniyyətlərin nailiyyətləri əsasında formalaşır. Milli və ümumbəşəri mədəniyyət bir-birini tamamlayır və qarşılıqlı surətdə zənginləşdirir. Hər bir adət-ənənələlərdə, milli-mənəvi dəyərlərdə, milli mədəniyyətdə ümumbəşəri qayə və keyfiyyətlər mövcuddur. Məsələn, sadə dini əxlaqi anlayışlar (düzlük, doğruçuluq, saflıq, ədalət, xeyir-şər və s.) demək olar ki, bütün millətlərin xalq yaradıcılığına xasdır və bu onları yaxınlaşdıraraq, birləşdirir. Bununla bərabər müasir ümümbəşəri ideyalar, məsələn, demokratiya, qanunların aliliyi, insan haqları kimi ideyalar vardır ki, bütün millətlər onları mənimsəməyə çalışır. Qərb ölkələri və Amerika Birləşmiş Ştatlarında bu sahədə artıq böyük tarixi təcrübə varsa, Şərq ölkələri bu yeni fəlsəfi adət-ənənələri mənimsəməkdədirlər. Postsovet respublikaları, o cümlədən müstəqil Azərbaycan respublikası üçün həmin ümumbəşəri adət-ənənələr, milli-mənəvi dəyərlərin mənimsənilməsi bir aktuallıq kəsb edir.

Milli-mənəvi dəyərlər, adət-ənənələr milli mədəniyyətin bir növü kimi keçmişlə gələcək arasında bir körpü salır, varislik yaradır. Mənəvi tərəqqiyə yeni yollar açır. Gənc nəslin milli mədəniyyət, milli adət-ənənələr ruhunda tərbiyəsi ilə yanaşı qloballaşma prosesində mədəniyyət sahəsində meydana çıxan görkəmli nailiyyətlər onları zənginləşdirir və gələcək bəşəri inkşafa hazırlayır. Gənclərdə Azərbaycançılıq məfkurəsinin, vətəndaşlıq şüurunun formalaşdırılması, milli-mənəvi dəyərlərin milli adət-ənənələrin, dini-əxlaqi keyfiyyətlərin onlar tərəfindən mənimsənilməsi ilə bilavasitə bağlıdır. Böhran keçirən Qərb

sivilizasiyasının yad və bayağı təsirlərindən, eləcə də kosmopolitizmindən, mənəvi düşkünlüyündən qorunmaqla milli-mənəvi dəyərlərdən istifadə edilməsi zəruridir.

Müstəqillik dövründə dünya azərbaycanlılarının bir milli məfkurəsi, azərbaycançılıq məfkurəsi ətrafında, milli-mənəvi dəyərlərin kontekstində bir milli varlıq kimi birləşməsi, mövcud olub fəaliyyət göstərməsi üçün milli mədəniyyətin qorunması, onların inkişaf etdirilməsinin mühüm əhəmiyyəti vardır. Müxtəlif ölkələrdə fəaliyyət göstərən Azərbaycan diasporası Azərbaycan milli konqresi halında birləşmək üçün milli-mənəvi dəyərlər, o cümlədən milli mədəniyyətdən bir vasitə-resurs kimi istifadə etməsi məqsədə uyğundur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycançılıq məfkurəsinin nə demək olduğunu qeyd edərək deyirdi: ***"Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, dünya sivilizasiyasına inteqrasiyasından bəhrələnmək hər bir insanın inkişafının təmin olunması deməkdir" (9, s. 141).***

XX əsrdə bir sıra xalqların həyatında olduğu kimi, Azərbaycan xalqının milli-mənəvi həyatında, eləcə də onun mədəniyyətində, adət-ənənələrində bəzi deformasiya halları baş vermişdir. Lakin, indi müstəqillik əldə edən, vətəndaş cəmiyyəti formalaşdıran Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərini, milli adət-ənənələrini, milli mədəniyyətini, dini-əxlaqi normalarını bərpa edib zənginləşdirmək yolu ilə irəliləyir.

Bu baxımdan ümummilli lider Heydər Əliyev xalqımıza olan misilsiz xidmətləri nəticəsində müstəqilliyə, azadlığa, demokratiyaya nail olmuş və bu proseslərdə də milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz geniş vüsət alaraq inkişaf etmişdi. Müstəqilliyimiz dövründə ulu öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı 13 avqust 2001-ci ildə xalqımıza ünvanladığı bəyanatında haqlı olaraq qeyd edirdi ki, ***"Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın***

***mənaviyyatını təşkil edən amillərdir. Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir".***

Həmçinin müstəqil Azərbaycan adına böyük tarix yazan, onun memarı və qurucusu ümummilli lider Heydər Əliyevin adını yuxarıda qeyd etdiyimiz tarixi bəyanatında Azərbaycan ziyalılığından tələb olunduğu kimi, ***"...biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".***

Milli adət-ənənələr, milli-mənəvi dəyərlər milli birliyin səciyyəvi xüsusiyyətlərini təmsil etdiyi üçün millətlərin bir-birini tanıması zərurəti baxımından da müəyyən maraq və əhəmiyyətə malikdir. ***"Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə, mentalitetinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adətlərini yaşatmalıyıq" (9, s. 239)*** deyən ümummilli lider Heydər Əliyev qeyd etmişdir. Milli adət-ənənələri, milli-mənəvi dəyərləri, milli özünəməxsusluğu qorumaqla, yeni ümumbəşəri dəyərləri mənimsəməklə, onların ahəngdar vəhdətinə nail olmaq dövrümüzün zəruri tələbatıdır. Bu baxımdan xalqımız ulu öndər Heydər Əliyevin bu xidmətlərini heç zaman yaddan çıxarmayacaq və hər zaman ülvü xatirələrlə onu yad edəcəkdir.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN ŞƏRQ MƏDƏNIYYƏTI ILƏ BAĞLILIĞI, TARİXİ KÖKLƏRİ VƏ FƏLSƏFİ DƏYƏRLƏRİ

Doğma vətənimiz Azərbaycan, milli mənsubiyyətindən asılı olmayaraq hər bir xalqın, millətin nümayəndəsi üçün əziz və doğma olmalıdır. Çünki odlar yurdu Azərbaycan öz milli mədəniyyəti ilə digərlərinə örnək ola bilən bir çox keyfiyyətlərə malikdir. O cümlədən islami dəyərləri, mənəvi amilləri, dini-əxlaqi dəyərləri olduğu kimi, həm də başqa müsbət keyfiyyətli prinsiplərə malik olan ən qədim xalqdır. Ulu öndərimizin tarixi kəlamı ilə desək ***"Azərbaycanda islam dini VII əsrdən yayılıb və Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsasını təşkil edir. Bizim çoxəsrlik islam dövrü tariximiz zəngindir. Bu gün iftixar hissi ilə deyirik ki, Azərbaycanın islam mədəniyəti, islam dini ilə bağlı olan dahi insanları – Nizami, Füzuli, Nəsimi, Tusi, Qətran Təbrizi və bir çox digər böyük şəxsiyyətləri dünya sivilizasiyasına böyük töhfələr vermiş və islam mədəniyyətini zənginləşdirmişlər. Biz bunlarla fəxr edirik".***

XIV əsrin sonu və XV əsrdə Azərbaycan dilində yazıb yaratmış Seyyid İmadəddin Nəsimi, Qasim Ənvar, Əbdürrəşid əl-Bakuvi, Məhəmməd Hinduşah Naxçıvani, Seyyid Yəhya Bakuvi, Cəlaləddin Dəvvani, Şah İsmayıl Xətai, Məhəmməd Süleyman oğlu Füzulu, XVII əsrdə Saib Təbrizi, İbrahim Ordubadi, Hüseyn Bürham, Mirzə Sadiq Ordubadi, Naci Ordubadi kimi bütün Yaxın və Orta Şərq ölkələrində geniş şöhrət qazanmış görkəmli şəxsiyyətlərin həyatı, ictimai-siyasi, elmi və ədəbi fəaliyyəti milli-mənəvi dəyərlərimizin səviyyəsini nümayiş etdirir. Onuda qeyd etmək olar ki, bunlar Azərbaycanda təşəkkül tapmış intibah dünya mədəniyyəti tarixinin ən parlaq səhifələrindən birinə çevrilməklə yanaşı, həm də xalqımızın çox böyük mənəvi uğurlarının məntiqi nəticəsi olmuşdur.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin yaranmasında, formalaşmasında alimlərin, ədiblərin, şair və yazıçılarımızın o cümlədən ziyalıların rolunu həmişə yüksək qiymətləndirmişdir. O, milli-mənəvi dəyərlərimizdən və onun yaradıcılarından danışarkən demişdir: ***"Xalqımız öz böyük şəxsiyyətləri vasitəsilə Azərbaycanın milli-mənəvi dəyərlərini formalaşdırmış, qoruyub saxlamış, zənginləşdirmiş və bu gün onu ümumbəşəri dəyərlərin bir hissəsinə çevrilmişdir. Milli-mənəvi dəyərlərimiz dedikdə, burada inam və etiqadımız, böyük şəxsiyyətlərimizin və mütəfəkkirlərimizin yaratdığı ümumbəşəri ideyalar və milli mədəniyyətimiz, adət-ənənələrimiz, milli-əxlaqi keyfiyyətlərimiz nəzərdə tutulur".***

Həmçinin Azərbaycan xalqının böyük tarixi şəxsiyyətlərini, yazıçı və mütəfəkkirlərini milli-mənəvi sərvətimiz hesab edən ulu öndər Heydər Əliyev yüksək düha, aydın məslək və əqidə sahiblərinin siyasi, elmi və ya ədəbi irsinin mahiyyətini birmənalı şəkildə belə qiymətləndirmişdir: ***"Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin və yüzlərlə bu kimi böyük şəxsiyyətlərin yaratdığı əsərlər Azərbaycan xalqının mənəvi sərvətidir".***

Azərbaycan Respublikasının müstəqil yaşamaq ümidini yaradan, milli mədəniyyətimizin ən böyük banisi ümummilli lider Heydər Əliyev günümüzə gəlib çatmış tarixi abidələrin, müqəddəs ocaqların mühüm əhəmiyyətindən bəhs edərək demişdir: ***"Qobustan, Gəmiqaya və başqa qayaüstü təsvirlər Kür-Araz və Xocalı mədəniyyətinə məxsus maddi-mənəvi mədəniyyət nümunələri, nurqan tapıntıları Azərbaycanda hələ qədim dövrlərdən yüksək və zəngin mədəniyyətin mövcud olmasını sübuta yetirir".***

Azərbaycanın islam mədəniyyəti, islam dini ilə bilavasitə bağlılığı konkret olaraq xalqımıza çox böyük ərməğanlar bəxş etmişdir. Planetar miqyaslı ictimai şüur formalarından biri, bəlkə də ilki olan islam şüuru Azərbaycanda əsasən VII əsrdən, daha sonra isə 1991-ci ildən, o cümlədən, xüsusilə 1993-cü ilin ikinci

yarısından sonra xalqımızın qədim və zəngin mifoloji, bədii-estetik, əxlaqi-mənəvi, fəlsəfi, hüquqi, iqtisadi, habelə hərbi şüuru ilə bir konteksdə təkamül yolu ilə təşəkkül taparaq formalaşıb inkişaf etməyə başlamışdır.

İslam mədəniyyəti şüurumuza yuxarıda qeyd olunan dövrlərdən başlayaraq xalqımızın tarixi yaddaşının bərpa olunmasında xüsusi rol oynaması, milli mənlik şüurunun təkrar istehsalında bilavasitə özünəməxsus xüsusi çəkiyə malik olması, milli mentalitetin zənginləşməsində aparıcı istiqamətlərdən birini təşkil etdirilməsi, xüsusən islam amili kimi 1991-ci ildə müstəqil Azərbaycanın İslam Konfransı Təşkilatına üzv seçildikdən sonra ölkəmizin beynəlxalq miqyasda nüfuzunun artmasında çox böyük rol oynamışdır.

Müstəqil Azərbaycan qurucusu, həmçinin onun xilaskarı olan ümummilli lider Heydər Əliyevin uzaqgörən, müdrik, Şərq dünyası siyasətində apardığı uğurlu yol, onun 1994-cü ildə ilk dəfə islamın tarixi vətəni olan Səudiyyə Ərəbistanına rəsmi dövlət səfəri, müqəddəs Məkkə və Mədinə ziyarətlərindən sonra Azərbaycan xalqı dinimizin çox zəngin ümumbəşəri mənəvi dəyərlərindən ölkəmizdə dünyəvi, hüquqi, demokratik dövlət, humanist, sivilizasiyalı və vətəndaş həmrəyliyi cəmiyyəti quruculuğunda islam mədəniyyətinin səmərəli və məqsədyönlü şəkildə istifadə olunması bir daha özünü büruzə vermişdir.

Dünya şöhrətli ictimai, siyasi və dövlət xadimi Heydər Əliyevin uzaqgörən, apardığı müdrik daxili və xarici, o cümlədən, Şərq siyasətinin və onun uğurlu, layiqli davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyevin titanik fəaliyyətində də islam amilinə, mədəniyyətinə xüsusi diqqət yetirilir. Bununla belə bəzi faktlara müraciət etməklə görürük ki, həqiqətən 1993-cü ildə ümummili liderimizin **"Allahın yolunda hamımız bir olaq"** adlı kitabı Azərbaycan və bir neçə xarici dilə, o cümlədən, ərəb dilində nəşr olunmuşdur. Bu kitabda qarşıya qoyulan başlıca ideya ölkə daxilində iqtidarla müxalifəti, ölkə xaricində isə bütün dünya insanların, o cümlədən, xüsusilə müsəlmanları vahid Allah ideyası ətrafında birləşdirərək ölkəmizi gözəl, parlaq gələcəyə inam

hissinə sadiq olmağa çağırışdan ibarət idi. Bu ideya ulu öndərimizin hər zaman öz düşüncə tərzində duran ən mühüm zəruri və məqsədyönlü düşüncələrindən biri idi. Çünki O deyirdi: ***"Biz Azərbaycanlılar - bu, sonralar gələcək bütün nəsillərə də tövsiyə olunur heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq" (5, s. 81).***

Bu bir danılmaz həqiqətdir ki, Azərbaycanın islam mədəniyyəti ilə bağlılığı demək olar yüksək səviyyədə öz bəhrəsini verməkdədir. Müstəqil Azərbaycan Dövləti müsəlman ölkələrinin Azərbaycandakı, ölkəmizin Şərq dövlətlərindəki diplomatik qurumları ilə Heydər Əliyevin apardığı uğurlu siyasət hazırda ulu öndərimizin layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən müntəzəm olaraq layiqincə uğurla həyata keçirilir.

Ümummilli liderin hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən bir neçə müsəlman ölkələrinə xüsusən Türkiyə və İrana səfəri, sonralar yəni 1994-cü ildə İslam Konfransı Təşkilatının VII sammitində Mərakeş İslam Respublikasında, 1997-ci ildə Tehranda keçirilən VIII Zirvə toplantısında iştirakı, orada Azərbaycan həqiqətləri, reallıqları haqqında dərin məna, məzmun və mühim dərəcə kəsb edən çıxışları, İKT-nın üzvü olan ölkələrin, dövlətlərin başçıları ilə olan təkbətək, ikitərəfli və çoxtərəfli görüşləri zamanı etdikləri söhbətlər ölkəmizin islam mədəniyyəti ilə sıx bağlılığını o cümlədən Şərq siyasətinin düzgün aparılması üçün yeni-yeni perspektivlər açmışdır.

Lakin təəssüf hissi ilə deyə bilərik ki, XIX əsrin əvvəllərindən etibarən Azərbaycan rus mədəniyyətinin güclü təsirinə məruz qalmış, bu mədəniyyət vasitəsilə o dövrün tərəqqi meyarı kimi qəbul edilən Qərb mədəniyyətinin nailiyyətləri ilə tanış olmuş, həmin nailiyyətlərdən bəhrələnmiş, tədricən milli inkişaf yönümləri, o cümlədən türkçülük və avropalaşma Qərbin təsiri altında təşəkkül tapmışdır. XX əsrin əvvəllərindən etibarən Azərbaycan islam hüdudlarından, demək olar ki, qoparılmışdır.

Ümummilli lider 1998-ci ildə İslam Konfransı Təşkilatının tövsiyəsi ilə Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumdakı proqram xarakterli məruzəsində demişdir:

*"... Azərbaycanda islamşünaslıq sahəsində XX əsr, demək olar ki, tam itirilmişdir. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır. Bu məqsədlə Azərbaycan Milli Elimlər Akademiyası, Bakı Dövlət Universiteti və elmi-tədqiqat institutları həmin sahə üçün xüsusi təşkilatlar, orqanlar və elmi mərkəzlər yaratmalıdırlar. Belə təşəbbüsülər olsa, mən onları dəstəkləyəcəyəm, bunlar üçün hər cür şərait yaradacağam. Buna arxayın olun"(50, s. 208).*

Ölkəmiz ikinci dəfə müstəqillik əldə etdikdən sonra qərbləşmə prosesi dayanmasa da, islamlaşmaya meyl demək olar ki, güclənmişdir. Azərbaycan mədəniyyətinin inkişafında islamın yeri və bağlılığı məsələsindən danışarkən, hər şeydən əvvəl qeyd edilməlidir ki, islam din, əxlaq və hüquq normaları məcmusu, həyat tərzi kimi Azərbaycanın ayrı-ayrı bölgələrini vahid Azərbaycan müsəlman cəmiyyətində birləşdirmək üçün güclü bir vasitə olmuşdu. Azərbaycan islamı qəbul etməklə öz tarixində ilk dəfə olaraq bütün bölgələri üçün vahid din, ümumi hüquq, eyni yazı sistemi, hamı üçün məqbul həyat tərzi kəsb etmişdi. Beləliklə ən başlıcası o idi ki, Azərbaycan islam dünyasının (dar əl-islam) tərkibinə daxil olmaqla böyük bir mədəni-iqtisadi bölgəyə inteqrasiya olmuşdu. Bölgənin əhalisi arasında gediş-gəliş intensiv xarakter daşıyırdı. Böyük-böyük köçmələr adi hal almışdır. Bütün bunlar sənətkarlığın və ticarət əlaqələrinin çiçəklənməsi üçün şərait yaradırdı. İnkişaf etmiş iqtisadi, siyasi və mədəni əlaqələri ilə fərqlənən şəhərlər mədəniyyət mərkəzlərinə çevrilirdilər. Təbriz, Gəncə, Ərdəbil, Naxçıvanda müxtəlif millətlərə mənsub adamlar məskən salırdılar. Bu şəhərlərin əhalisi başqa müsəlman şəhərlərlə, ümumiyyətlə, xarici aləmlə geniş ticarət və mədəniyyət əlaqələrinə girir və nəticədə qarşılıqlı təsir və təsirlənmə

əməkdaşlıqda iştirak edən bütün tərəflərin mədəni inkişafına kömək edirdi.

Azərbaycanın intibah dövrü hesab edilən XII əsrdə Naxçıvanda elmi mərkəzlər yaradılırdı. Naxçıvan Atabəylər dövlətini idarə edən Şəmsəddin Eldəgizlərin sarayında dövrün ən mötəbər alimləri toplanmışdılar. Onlar riyaziyyat, təbiətşünaslıq, tibb, kimya, fəlsəfə, məntiq, hüquq, astronomiya, ərəb və fars ədəbiyyatı sahələrində böyük uğurlar qazanmışdılar. Bu dövrdə Azərbaycan özünün fiqh və hədis alimləri ilə məşhur olmuşdur ki, bunların da çoxu "Naxçıvani" ləqəbi ilə tanınaraq dünya tarix səhnəsinə öz layiqli adlarını salmışlar. İslam dünyasının hər yerində olduğu kimi, Azərbaycanda da beynəlxalq ünsiyyət vasitəsi rolunu Quran dili olan ərəb dili oynayırdı. Ərəb dili həm də elm və ayinçilik dili idi. Azərbaycanda təşəkkül tapan yeni mədəniyyət özünü bu dildə ifadə edirdi, çünki islamı qəbul etmiş bütün xalqlar ərəb-müsəlman mədəniyyətinin ümumi inkişafında öz paylarını əsasən ərəb dilində əlavə edirdilər.

Amma bütün ortaq Azərbaycan mədəniyyətində islam ünsürü güclü və aparıcı olmuş, başqa ünsürləri müəyyən etmiş və istiqamətləndirmişdir. İslam mədəniyyətinin bütövlüyünü müəyyənləşdirən əsas hüdudları islam özü, həm də müstəqil şəkildə aydınlaşdırır və dəqiqləşdirirdi. Yeni-yeni islam ənənələri yaranırdı. Nəticədə Azərbaycanda fəlsəfi fikir, elm, incəsənət, memarlıq, poeziya, hüquq sahəsində islami dəyər və normalarından bəhrələnmiş, islamın müəyyən etdiyi hüdudlar daxilində inkişaf etmişdir. Azərbaycanda islamın gəlişi ilə ərəb-müsəlman mədəni təsirlərinin güclənməsi heç də qədim milli-mədəni ənənələrin bütünlüklə sıxışdırıb aradan çıxarılması ilə müşayiət olunmamışdır. Lakin Azərbaycan cəmiyyətinin islamlaşması onun etnoqrafik simasını tədricən dəyişikliyə uğratmışdır. Müsəlmanlar geyimlərinə, görkəmlərinə, davranış və məişətlərinə görə qeyri-müsəlmanlardan fərqlənirdilər. Eyni zamanda, islamın təbliğ etdiyi dəyərlər, o cümlədən təmkinlik, səbirlilik, dözümlülük, salehlik, yaxşılığa əmr etmək və pislikdən çəkindirmək əhval ruhiyyəsi, müxtəlif dinlər və millətlər arasında

hörmətli münasibət, azad dialoq mədəni inkişaf üçün münasib şərait yaradırdı. Bir sözlə Azərbaycanda islamın qəbul edilməsi, yayılması və möhkəmlənməsi ölkənin həmin dövrdə təşəkkül tapan islam mədəniyyəti sisteminə qoşulmasına, bu sistem hüdudlarında öz milli mədəniyyətini inkişaf etdirmək üçün güclü mənəvi dəyərlər kəsb etməsinə şərait yaratdı.

Azərbaycan xalqının mənəvi dayağı olan, öz xalqının tarixi-mədəni keçmişinə, milli-mənəvi dəyərlərinə bütün varlığıyla bağlı olan ulu öndər cəmiyyətin dini-mənəvi ehtiyaclarına son dərəcə diqqət və qayğıyla yanaşır, dövlət-din münasibətlərinin tarixi-milli ənənəyə və müasir hüquqi prinsiplərə uyğun olaraq tənzimlənməsinə, vicdan azadlığının maneəsiz təminatına, dini-mənəvi, əxlaqi-etik dəyərlərin cəmiyyətdə təbliğ və təşviq edilməsinə böyük əhəmiyyət verirdi. Bu sadalanan müsbət münasibətləri böyük nəzmilə qələmə alan Asiya Müsəlmanları Komitəsinin sədri, Kuveytin vəqflər və islam işləri nazirinin müavini doktor Adil Abdulla əl-Fəlahın **"Heydər Əliyev və milli-mənəvi dəyərlər"** haqqında yazdığı qiymətli kitab buna əyani sübutdur ki, həqiqətən Azərbaycanın dahi insanı islam mədəniyyəti ilə nə qədər bağlıdır və öz milli mədəniyyətinə, milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə sadiq olan bir şəxsiyyətdir.

Ukraynanın böyük filosofu həmçinin görkəmli alimi E.K.Bıstriçkiy özünün məşhur "Dünya mədəniyyətində şəxsiyyət" adlı əsərində qeyd edir ki, həqiqətən insan amili onun təbii varlığının yaşanması deməkdir. Həmçinin filosof izah etməyə çalışır ki, "İnsanın mədəniyyətdəki varlığı heç də həmişə sözün əsl mənasında şüurlu səviyyədə qavranılmır, lakin o həmişə insanın mədəni dünyaya təbii mənsubiyyətinin yaşanması, hiss olunması deməkdir. Buna görə də fərdin mədəniyyətə münasibəti mədəni ənənələrin, dilin, adətlərin, xislətin – bütövlükdə mədəni mühiti təşkil edən bütün amillərin qorunub saxlanılması və möhkəmləndirilməsi praktiki vəzifəsini ifadə edir. Sözügedən baxımdan yanaşdıqda şəxsiyyətin mədəniyyət aləmində varlığı, onun real həyat prosesi kimi çıxış edir (53, s. 42).

Hər hansı bir mədəniyyətin yaranması ilə əsl insanın formalaşması prinsipcə eyniyyət təşkil edir. Mədəniyyətin yaranması o deməkdir ki, insanın təbiətə münasibəti onun yaratdığı əmək alətləri sistemindən keçərək baş verir, dünyanın bilavasitə anlaşılması və bir-biri ilə ünsiyyət simvolları vasitəsilə qavramağa və ünsiyyətə çevrilir, davranışın təbii instiktiv requlyasiyası sosial-normativ tənzimləmə ilə əvəz olunur. Azərbaycanda islam mədəniyyətinin yayılması və inkişaf etdirilməsi xalqımız üçün çox önəm daşımışdır. Mədəni bağlılıq deyəndə hər hansı mədəniyyət insanın onu əhatə edən mühitə fəal yaradıcı və dəyişdirici münasibətini ifadə edir. "Mədəniyyət özü də təbii – bioloji amillərin sosial amillərə çevrilməsi nəticəsində yaranmışdır. O, insan nəslinin şəxsiyyətə məxsus həyat qüvvələrinin təcəssümü deməkdir"(52, s. 92).

Dünyanın böyük şəxsiyyətlərindən olan ulu öndər islamı sülh dini kimi qiymətləndirməsi bir tarixi həqiqətdir. Bu tarixi həqiqətə əsaslanaraq islam dünyası da hər zaman öz böyük oğlunu sevmiş və dəyərləndirmişdir. Azərbaycan xalqı isə böyük dühа sahibi ulu öndəri ilə dünyada fəxr edir və özünə sanki bir böyük mənəvi dayaq tapır. Bunun nəticəsidir ki, 2009-cu ilin fevral ayından Azərbaycan islam mədəniyyətinin mərkəzi təyin edilmişdir. Həmçinin aprel ayının 25-27-si İslam mədəniyyətinin paytaxtı elan olunmuş Bakı şəhərində keçirilmiş bütün dünya dinləri arasında **"Sülh uğrunda mübarizə"** beynəlxalq konfransı bütün bunlara bir daha bariz nümunəsidir.

Azərbaycanda islamın qəbul edilməsi dövründə ölkənin həm cənub, həm də şimal ərazilərində fikir və əqidə ayrılıqları olduqca müxtəlif idi. "Burada xristianlıqla yanaşı nəsturilik, manilik, bütpərəstlik və atəşpərəstlik də yayılmışdı" (49, s. 147).

Azərbaycana islam ordularının daxil olması üçün əsas dayaq nöqtəsi İraqın Mosul və Kufə şəhərləri olmuşdu. İkinci xəlifə olan Ömər ibn əl-Xəttabın hakimiyyəti dövründə ərəb-islam qoşunları deyilən bu şəhərlərdən hücum edərək birinci Rey və Qəzvini sonra isə Azərbaycana doğru hərəkət etdilər.

Azərbaycanda çox güman ki, islam qoşunlarının tarixi qələbəsi bir çox başqa yerlərdə olduğu kimi daha çox siyasi müahidələr tarixini xatırladır. "Hicrətin 18-ci ilində "Azərbaycan əhli ilə", 21-ci ilində Muğanla, 22-ci ilində Şirvanla, 25-ci ilində Təbriz, Talış, Naxçıvan (Arran) və başqa ərazilərdə yaşayan əhali ilə sülh müahidələri imzalandı. Başqa şəhər və vilayətlərlə də buna bənzər müahidələr imzalanmışdı" (46, s. 326).

Azərbaycan ərazisində ilk dəfə olaraq Ərdəbil yaxınlığında 18/639-cu ildə Azərbaycan mərzbanı İsfəndiyar ibn Fərruxzadla müahidə bağlanılmışdır. Müahidəyə çoxlu maddələr daxil olsa da əsasən aşağıdakı məzmunda sənəd imzalanmışdır.

"Bismillahir-rəhmanir-rəhim. Ömər ibn əl-Xəttabın canişini Üqbə ibn Fərqəd Azərbaycanın vadilərindəki, dağlarındakı, nahiyələrindəki və sərhədlərindəki əhalisinə, dinlərinin ardıcıllarına – özlərinə və mal-dövlətlərinə, dinlərinə və ailələrinə - əmin-amanlıq verir, o şərtlə ki, uşaqlardan, qadınlardan, dünya malından heç nəyi olmayan mütəmadi xəstələrdən və dünyada hər şeydən əl çəkmiş abidlərdən savayı, onlar gücləri çatdıqları qədər cizyə ödəsinlər. Bu onlara və onlarla yaşayanlara aiddir. Onlar müsəlman döyüşçülərindən bir müsəlmanı bir gün – bir gecə saxlamalı və ona yol göstərməlidirlər. Onlardan kim hansı ildə orduya cəlb olundu, o həmin ilin vergisindən azad olunur, kim qaldı – ona qalanlarla eyni şey verilir, kim çıxdı – ona sığınacağına çatana kimi əmin-amanlıq verilir. Yazdı – Cündüb. Şahidlik etdilər – Bükeyr ibn Əbdullah əl-Leysi və Simək ibn Xərəşə əl-Ənsari. Yazıldı – 18-ci ildə" (47, s. 255-256).

Həqiqətən bu bağlanan mühüm və əhəmiyyətli müahidələrə əsasən ərəblər təəhhüd götürürdülər ki, "əhalidən heç kim öldürülməyəcək, əsir edilməyəcək, atəşgədələrdən heç biri dağıdılmayacaq..., əhaliyə bayramlarda öz rəqslərini ifa etməyə, əvvəllər nə edirdilərsə, onu etməyə mane olmayacaqlar" (48, s. 161).

Mühüm əhəmiyyətə malik olan bu müahidələr onu deməyə əsas verir ki, vaxtilə elmdə belə bir fikir irəli gəlmişdi ki, islam

dini guya zorakı yolla, qılınc gücünə, qorxuyla yaxud iqtisadi məcburiyyət siyasəti sayəsində yayılmışdır. İslam dünyası xaricində ancaq ciddi tədqiqatlar bu cür yalnış təsəvvürlərdən uzaq olmuşlar. V.M. Vott, A.Mets, V.V.Bartold bu cür islam araşdırıcı tədqiqatçılarındandır. Akademik V.V.Bartold yazırdı ki, islam zorakılıqla yayılmışdır. "Ancaq bu dinin yayıldığı ərazilərdə nə xristianlar, nə də zərdüştilər təqibə məruz qalmamışlar" (41, s. 88). İslamın Azərbaycana gəlişindən sonra bu dinlə yerli dinlər arasındakı münasibətlərin təşəkkülü də həmin fikri təsdiqləyir. Bir məqam da heyrətləndirici və "maraqlıdır ki, 360/970-ci ildə Azərbaycan yepiskopu da islamı qəbul etmişdi" (49, s. 152).

Azərbaycanda islamın yaranması və inkişaf etməsi xalqın mənəvi həyatının yüksəlişi üçün güclü bir əsas oldu, mədəni tərəqqiyə təkan verdi. Əvvəlki mədəniyyət qazandığı nailiyyətlərlə birlikdə yeni islam mədəniyyətinin tərkib hissəsinə çevrildi, canına-qanına hopdu. Eyni zamanda bu mədəniyyətin mənəvi məzmunu dəyişdi, o, yeni əxlaqi keyfiyyətlər və dəyərlər kəsb etdi. "İslamın Azərbaycanda yayılması ölkədə uzun müddətli siyasi sabitlik üçün şərait yaratdı. Şəhər mədəniyyəti inkişaf etdi, müsəlman şəhərləri siyasi və mədəni mərkəzlərə çevrildi, sənətkarlıq və əkinçilik geniş vüsət aldı, zəmanəsinə görə mürəkkəb suvarma şəbəkələri yaradıldı, ticarət əlaqələri və dənizçilik genişləndi" (49, s. 154).

Azərbaycanda iqtisadi sahələrdə olduğu kimi, elm sahələrində də müəyyən inkişaf prosesi getməyə başladı. Coğrafiya, riyaziyyat, həndəsə, təbabət, nücum elmləri sahələrində əldə edilən biliklərin daha da dərinləşməsi zərurətini ortaya atdı. elmlərin yüksəlişi ümummədəni səviyyənin artması üçün zəmin yaratdı. Fəal mədəni həyatın təşkiledici mərkəzləri məscidlər və mədrəsələr idi. Burada elmi-təbii, dini və fəlsəfi tədqiqatlar aparılırdı.

İslamın Azərbaycanda yayılması ilə bağlı demək olar ki, sözün əxlaqi təsirinə də çox böyük əhəmiyyət verilmişdi. Söylənilməmişdən əvvəl söz insafla zəka və mənəvi saflıq mizan-tərəzisində ölçülüb-biçilməli idi. İslam dini əxlaqına dair çoxlu

zəngin məzmunlu əsərlər və kitablar yazılmışdı. Elm və bilik bütün insanları daxilən saflaşdıran, nəcibləşdirən və mənən yüksəldən xüsusi dəyər kimi qiymətləndirirdi. Alimlərə və onların elmlərinə böyük hörmət və ehtiram bəslənilirdi. Həmçinin islamda başqa dinlərdən fərqli olaraq, kilsə təsisatı yoxdur. İslamın dəyərləri birbaşa insanlara, dinin daşıyıcılarına, mədəniyyət qurucularının özlərinə yönəlmişdir. Azərbaycanda islamın milli mədəniyyətə göstərdiyi təsirdən, bu mədəniyyətin təkamülünün təbiətindən və yönümlərindən danışarkən, həmin dövrdə baş verən mədəni tərəqqinin əsas xüsusiyyətlərini qeyd etmək vacibdir. Bu xüsusiyyətlərdən birincisi çoxmədəniyyətlilik hadisəsi ilə əlaqədar idi, daha doğrusu, təşəkkül tapmış yeni mədəniyyət müxtəlif təsirləri, əgər onlar əxlaqi yetkinliyə xələl gətirmirdilərsə, məqbul sayırdı. Bütünlüklə islam mədəniyyəti kimi təşəkkül tapan bu mədəniyyətdə ellin, atəşpərəstlik, zərdüştilik, Sasani mədəniyyətlərinin müəyyən təsirini izləmək mümkündür. İkinci xüsusiyyət çoxdillilik1ə bağlıdır. Orta əsrlər Azərbaycan mədəniyyəti ərəb, fars və Azərbaycan – türk dillərində inkişaf edirdi: əhali arasında və işgüzar həyatda Azərbaycan – türk dili üstünlük təşkil edirdi, ədəbi mühitdə fars dili öz güclü təsirini qoruyub saxlayırdı, dinin tədrisində və təbliğində ərəb dilindən istifadə olunurdu. Elmi əsərlər fars və ərəb dillərində yazılırdı. Üçüncü xüsusiyyət onunla əlaqədardır ki, islamın zühurundan sonra mədəniyyətlərin bir-birindən faydalanması və bir-birinə yaxınlaşması bütün müsəlman dünyasında mühaciratı gücləndirmişdi. Azərbaycanda xeyli ərəb və fars məskən salmışdı. Gəncədən, Bərdədən, Beyləqandan, Şirvandan, Naxçıvandan, Dərbənddən çıxmış bir çox alim, memar, şair və ilahiyyatçılar Dəməşqdə, Bağdadda, Qahirədə, İsgəndəriyyədə, Mədinədə yaşayıb yaratmışlar. Həqiqətən bütün bu xüsusiyyətlər onu deməyə əsas verir ki, Azərbaycan mədəniyyəti nəzərdən keçirdiyimiz dövrdə ümumdünya əhəmiyyətli orta əsrlər müsəlman mədəniyyətinin ayrılmaz tərkib hissəsi kimi inkişaf etmişdir.

Azərbaycanda islamın qəbul edilməsi sayəsində təşəkkül tapmış yeni müsəlman mədəniyyəti elmə misli görünməmiş maraq oyatmışdı. Müqəddəs Qurani-Kərimin özü də "bilənləri" "bilməyənlərdən" üstün tutmaqla müsəlmanları elmə, biliklərə yiyələnməyə həvəsləndirir və zövq edirdi. "Müsəlman orta əsrlərində təşəkkül tapmış elmlər iki qismə - islam elmlərinə təfsir, hədis, fiqh, üsul əd-din, fəlsəfə, məntiq və eləcə də bunlara köməkçi elmlər kimi ərəb dilçiliyi, bəlağət və s. daxil idi. Təcrübi elmlər sahəsində isə təbabət, həndəsə, riyaziyyat, kimya, nücum elmləri, coğrafiya və s. daha çox inkişaf etmişdi. Bütün bu elmlər Azərbaycanda da təmsil olunmuşdu" (49, s. 157).

Azərbaycanda fəlsəfi fikrin yaranması və inkişafı orta əsrlər üçün səciyyəvidir. Çünki fəlsəfənin hikmət adı altında təşəkkül tapması əl-Kindi, əl-Fərabi, İbn Sina, İbn Rüşd, Əbu Bəkr ər-Razi ilə yanaşı Azərbaycan filosofu Bəhmənyar ibn əl-Mərzban kimi də böyük mütəfəkkirlərin təlimləri ilə sıx əlaqədardır. Bəhmənyar ibn əl-Mərzban əl-Azərbaycani (458/1065-ci illərdə vəfat etmişdir) fəlsəfədə əl-Kindi, əl-Fərabi, İbn Sina kimi müsəlman mütəfəkkirlərinin ənənələrini davam etdirərək öz əsərlərində qədim yunan filosoflarını düşündürən dünyagörüşü məsələlərini yeni təməl üzərində - islam müddəaları əsasında nəzərdən keçirmiş və izah etmişdir. O izah edirdi ki, Böyük Yaradan hər bir insana zəka bəxş etmişdir və məhz bu zəka sayəsində insan heyvandan fərqlənir. Ancaq insanın zəkası başqa mövcud şeylərin insana təsiri nəticəsində oyanır və fəaliyyətə başlayır.

Azərbaycanda yaranmış fəlsəfi fikr nəinki Azərbaycan, ümumiyyətlə ərəb-müsəlman fəlsəfi fikrində Şihabəddin Marağayi, Şihabəddin Yəhya Sührəvərdi, Əfzələddin Xunəci, Siracəddin Mahmud ibn Əbu Bəkr Urməvi, Nəcməddin ibn Ömər ibn Əli Qəzvini, Əhvədi Marağayi, Mahmud Şəbüstəri və bir çox başqa filosof – mütəfəkkirlər orta əsrlərdə xüsusi yer tutmuşlar.

Azərbaycanda islamın yayıldığı bir zamanda dilçilik sahəsində də böyük şəxsiyyətlər yetişmişdir. Bu sahədə əsasən Əbu Zəkəriyyə ət-Təbrizi və Əbulfəzl Hübeyş bin İbrahim bin

Məhəmməd əl-Kəmali ət-Tiflisi, nücum elmlərində Nəsirəddin Tusi, tibb elmlərində Ömər ibn Osman, Məhəmməd Bərgüşadi, Hüseyn Hadi, Mahmud ibn İlyas, İsa ər-Raqi ət-Tiflisi, Müzhəbəddin ət-Təbrizi, Fəxrəddin Əbu Əbdullah Əhməd ibn Ərəbşah ən-Naxçıvani, Əkmələddin ən-Naxçıvani, coğrafiya elmində Əbd ər-Raşid əl-Bakuvi və s. məşhur olmuşlar. Azərbaycanda xəttatlıq və rəssamlıq işində istifadə olunan maddələrin və boyaların hazırlanması üsullarına, müxtəlif xətlərlə yazı üslublarına dair xüsusi əsərlər yüksək qiymətləndirilirdi. Orta əsrlərdə Şərq dünyasında tanınmış rəsm ustası Məhəmməd ibn Hinduşah Naxçıvani olmuşdur. "Məhəmməd ibn Hinduşah Naxçıvani rəsm ustalığına dair məsləhətlərini dini-əxlaqi öyüd-nəsihətlərlə əlaqədar şəkildə təbliğ edirdi" (49, s. 162).

Haqlı olaraq tanınmış Amerika şərqşünas alimi F.Rouzental qeyd edirdi ki, "müsəlman xəttatlığında din ilə incəsənətin qovuşması həqiqətə çevrilmişdir" (51, s. 33).

Orta əsrlərdə Azərbaycanda kitab incəsənəti geniş intişar tapmışdı. Kitabın bədii tərtibatında müxtəlif ixtisas sahibləri – xəttatlar, rəssamlar, ləvvahlar (naxış ustaları), cədvəlkeşlər, cildçilər və başqa sənətkarlar iştirak edirdilər. Azərbaycan sənətkarlarının kufi, nəsx, reyhani, rüqə, təliq, nəstəliq xətt üslubunda bədii şəkildə tərtib etdikləri əlyazmaları miniatur rəsm mədəniyyətinin inkişafına güclü təsir göstərmişdir. Hətta XIV-XV əsrlərdə Azərbaycanda yaşamış Mirəli Təbrizi tərəfindən "nəstəliq" xətti icad edilmişdir. O bunu keçmiş ərəb xətləri "təliq" və "nəsx" in əsasında yaratmışdır.

Orta əsrlər Azərbaycanda miniatur məktəbinin əsas şəxslərindən biri Sultan Məhəmməd Təbrizi olmuşdur. "Onun miniatürləri bədii üslubun özgünlüyü, insan hissiyatına təsir gücü, ifa incəliyi, boyalarının zənginliyi ilə fərqlənən kamil sənət əsərləridir" (54, s. 12).

Azərbaycanın islam mədəniyyəti ilə bağlılığının əsas bir xüsusiyyəti də tətbiqi sənətin ən qədim növlərindən olan xalçaçılıqda, toxuculuqda, tikmə sənətində yeni keyfiyyət dəyişiklikləri əmələ gəldi. Xüsusilə, xalça və tikmələr üzərində

salınan sonsuz nəbati və həndəsi naxışları insanla Allah, bu dünya ilə axirət aləmi arasındakı vəhdətin incəsənətdə əks etdirilməsini nəzərdə tutur, yeni mənəvi dəyərlərin mənimsənilməsinə kömək edirdi.

Orta əsrlərdə islam mədəniyyəti öz səciyyəvi xüsusiyyətləri ilə Azərbaycanda inkişaf etməyə başladı. Əsasən memarlıq sahəsində Təbrizdə memar və xəttat Nemətullah Bəvvab oğlunun inşa etdiyi Göy məscid, Naxçıvanda Əcəmi bin Əbu Bəkrin tikdiyi Atabəy günbəzi adı ilə məşhur olan Möminə Xatun türbəsi və Atababa türbəsi adı ilə tanınan Yusif ibn Küseyr türbəsi müsəlman memarlıq sənətinin ən gözəl nümunələrindəndir.

Azərbaycanın islam mədəniyyəti ilə bağlılığının əsas göstəricilərindən biri də orta əsrlərdə ədəbiyyata verilən qiymətdir. Qeyd edilməlidir ki, o dövrdə sözün qüdrəti, dilin şirinliyi, sənətkarın bədii ustalığı və yaradıcılıq ilhamı ilə yanaşı daha bir meyar əsas götürülmüşdür – sənətkarın dünyabaxışı meyarı. Ancaq o sənətkarlara yüksək qiymət verilmişdir ki, onların bədii ustalığı mütərəqqi dini, fəlsəfi, siyasi, əxlaqi baxışları ilə ahəngdar olmuşdur, biri digərini tamamlamışdır. Məhz bu meyarın təsiri altında islam qədim yunan fəlsəfəsinin və elmini öz dünyaduyumu süzgəcindən keçirib mənimsəyə bildiyi halda, sənətkarlıq baxımından güclü, ancaq bütpərəstlik əsatir və əfsanələri əsasında təşəkkül tapmış yunan ədəbiyyatını qəbul etməmişdir. Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli kimi Azərbaycan söz ustaları bu meyara cavab vermiş, öz əsərlərində dini olanla dünyəvi olanın vəhdətini bədii üslubda ifadə edə bilmişlər.

## HEYDƏR ƏLİYEV FƏLSƏFƏSİ MİLLİ DÜŞÜNCƏMİZİN FENOMENİDİR

Azərbaycanın ən yeni milli-fəlsəfi düşüncəsində yeni səhifə açan ümummilli lider Heydər Əliyev cəmiyyətin mükəmməl ideya nəzəriyyəsi haqqında deyirdi: *"Xalqa xidmət elə, xalqın yolunda özünü fəda elə. Bax, budur ideya, budur fəlsəfə!"* (9, s. 54).

Ümumbəşəri siyasi liderlər həmişə gəldi-gedər olmaqla yanaşı, eyni zamanda onlar özlərindən sonra xalqının tarixində ya acı xatirə dolu bir boşluq, ya da zəngin siyasi təcrübəyə əsaslanan yenilikçi ruhunda olan mütərəqqi fikirlər və ölməz ideyalar qoyub gedirlər. Bu mütərəqqi fikirlər, nəcib işlər və ölməz ideyalar xalqının sosial və tarixi yaddaşında daim yaşamaqda davam edir. Məhz onların xoşbəxtliyi də elə bundadır. Çünki əgər bu ideyalar və fikirlər xalqın ümüd və arzu çıraqlarını yandırmasa, xalqın şərəfi, ləyaqəti, mənəvi sağlamlığı, dini-əxlaqi dəyərləri və milli mentaliteti barədə qayğılanırsa, onda bunlar milyonlarla insanın qəlbində və zəkasında özünə dərin yer edərək zəngin əqidəyə çevriləcəkdir.

Heydər Əliyev fəlsəfi düşüncəsi Azərbaycan xalqının şərəf və ləyaqətini, milli mentalitet fenomeninin qorunması və formalaşmasını bacarıqla, tarixi borc hissi olmaqla məsuliyyətlə həyata keçirmişdir. O bu nəcib fəaliyyətə nəinki özü, başqalarını da maarifləndirmiş, onları dəyərli ideyalarla, məsləhətlərlə, müdrik nəsihətləri ilə silahlandırmışdır.

Milli düşüncənin ən başlıcası odur ki, insan özünüdərk prosesində özü haqqında biliklər əldə edir, özü haqqında bilmədiyi biliyi qazanmaq isə insanın hisslərini, duyğularını ülviləşdirir, təfəkkürün zənginləşməsinə, onun mentalitetinin məzmununa yeni keyfiyyət gətirən yollar açır. Bu proses insanın öz ətrafına və özünə münasibəti təcrübəsini müdrikləşdirir, mənəviyyatını və

mentalitetini saflaşdırır. Bu isə bütövlükdə düşüncə sahibli fərdlərdən ibarət cəmiyyəti saflaşdırır.

Milli düşüncə fenomeninin meydana gəlməsi dünya mədəniyyəti tarixində epoxal əhəmiyyət kəsb edir. Məhz bu baxımdan milli düşüncə insana belə bir həqiqəti aşkarlayır ki, fərdin varlığının fəlsəfi mənası, onun yaradıcı şəxsiyyəti kimi mövcudluğu milli düşüncə varisliyi məcrasında mümkündür, çünki yaşamaq və düşünmək qabiliyyətini insana milli düşüncə prosesi verir. Milli düşüncə son nəticədə mənəvi və etik dəyərdir, insanın aləmlə bağlılığını şərtləndirən vacib bir intellektual vasitədir. Deməli, zəngin milli düşüncəyə yiyələnmədən milli düşüncə varlığının qaynaqlarını dərk etmək, milli təfəkkürün, milli-mənəvi dəyərlərin, milli-mədəniyyətin və milli-mentalitetin sosial-əxlaqi mahiyyətini anlamaq qeyri mümkündür. Elə bu baxımdan da ulu öndər Heydər Əliyev deyirdi: ***"Həyatımızın mənəvi, mədəni sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər olsa da, mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirilməli və bu sahənin geri qalmasına yol verməməliyik"*** (9, s. 82).

Milli düşüncəmizin yaratdığı böyük fəlsəfi ideya olan "həyatın mənası" odur ki, xalqın milli mənlik şüuru və milli mədəniyyətini qoruyub saxlamaq onun azərbaycanlı yaddaşını və dünyagörüşünü hifz etməkdir, onun bugünki həyat tərzini saflaşdırmaq və mənalandırmaqdır. Elə bu baxımdan ulu öndər Heydər Əliyev deyirdi: ***"Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın"*** (9, s. 82).

Heydər Əliyev fəlsəfəsi milli düşüncəmizin fenomeni olmaqla yanaşı həmçinin, milli iftixarımızın, vətənpərvərlik hissinin daha da yüksək, sönməz zirvələrə qalxmasını təmin edir. ***"Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini bir daha dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə, gənc nəsldə milli iftixar, vətənpərvərlik hissini daha da yüksəldəcəkdir"*** (9, s. 83) deməklə ümummili lider Heydər Əliyev bir daha vurğulamışdır. Bu

baxımdan da dahi şəxsiyyətlərin, böyük zəka sahiblərinin dühasından bəhrələnmiş milli düşüncə milli mənlik şüurunun formalaşması kimi Azərbaycan vətəndaşlarında real gerçəkliyə söykənən qürur hissi keçirməyə mənəvi əsas verir.

Azərbaycan xalqının milli düşüncə tarixinin formalaşmasında İslam dininin, onun etik-estetik dəyərlərinin rolu misilsizdir. Təsədüfü deyil ki, öz xalqının milli-mənəvi xəzinəsindən güc alan ulu öndər Heydər Əliyevin sosial fəlsəfəsində milli düşüncə məsələsi dini etiqadların azərbaycanlıların milli-mənəviyyatında oynadığı rol ilə vəhdətdə nəzərdən keçirilir. Həqiqətən xalqımız bu dinin, onun müqəddəs kitabı olan Qurani-Kərimin əxlaqi dəyərlərini, öyüd nəsihətlərini öz milli mentalitetində, milli düşüncəsində və mənəviyyatında saxlamış və bu günə qədər imkanları çərçivəsində hərəkət və davranışlarında həyata keçirməyə çalışmışdır. Elə bu baxımdan da Azərbaycan xalqının milli düşüncə yaddaşında yaşayan din insanların kollektiv psixologiyasının öyrənilməsində böyük əhəmiyyətli rol oynayır.

Azərbaycan xalqının milli düşüncə fenomeninin inkişafında ümummilli lider Heydər Əliyevin dini baxımdan əsaslandırılması tarixi faktdır. Məkkə və Mədinə şəhərlərini sözün əsl mənasında layiqli, özünəməxsus şəkildə ziyarət edib öz arzu və niyyətlərinə çatan ulu öndər biz nəsillər üçün böyük bir örnək yolu qoyub getmişdir. İslamın mənəviyyatını, fəlsəfəsini, elmini və ümumbəşəri duyğularını yüksək qiymətləndirən Heydər Əliyev Mədinə şəhərindəki sevimli Peyğəmbərimiz həzrəti Məhəmməd əleyhis-salamın məscidinin şərəf kitabına yazdığı mənalı eyni zamanda hikmətli sözləri xalqımızın milli düşüncəsinin mühüm qayəsini təşkil edən İslami dəyərlərə dərin hörmət və ehtiramın parlaq təcəssümünü ifadə edərək deyirdi: ***"Allaha şükr olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha İslam mənəviyyatının nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim"***(9, s. 88).

Bu həqiqətlər bir daha onu göstərir ki, ümummili liderimizin İslamın sevimli peyğəmbəri həzrəti Məhəmməd əleyhis-salamın qoyduğu yolla gedən müsəlman şəxslərin səmərəli fəaliyyətinə böyük qiymət verməsi milli düşüncəmizin İslam dini ilə bağlı olan Müstəqil Azərbaycan Respublikasının mənəvi imicinə şərəf və ucalıq gətirməklə bərabər, azərbaycanlıların mənəviyyatında əxlaqi yeniləşmənin əsasını qoymaq deməkdir. Çünki Azərbaycan xalqının yetmiş (70) il Səudiyyə Ərəbistanında yerləşən Məkkənin müqəddəs Kəbə evinin ziyarətinə həsrət qalması tarixi faktdır. Bu ziyarətin yenidən reallaşması ulu öndər Heydər Əliyevin Məkkə ziyarətinə gedib qayıtması və ***"...Səudiyyə Ərəbistanına gəlmək, burada Azərbaycanı tanıtmaq ölkəmizin həqiqi vəziyyətini təbliğ etmək özü bir nailiyyətdir" (9, s. 89)*** söyləməsi bir daha milli düşüncəmizin formalaşması, müstəqil ölkənin tanınması və təbliğ olunması deməkdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adət-ənələrimizə, milli-mənəvi dəyərlərimizə, əxlaqi münasibətlərə və istərsə də dini həyat tərzinə göstərdiyi qayğı başqa xalqların dünyagörüşündə xalqımızın milli düşüncə fenomeni haqqında xeyli xeyirxah psixoloji rəy yaradır. Digər tərəfdən, ümummilli liderin İslam dünyası ilə xoş məramlı görüşlərin keçirilməsi və sıx münasibətlərin yaratması xalqımızın milli düşüncəsində bir müddət gizli şəkildə həyata keçirdiyi şəriət qanunları ilə yaşaması müqəddəs İslam dininə olan hörməti artırır, milli düşüncənin saflaşması üçün psixoloji imkan yaradır.

Akademik Mahmud Kərimov "Heydər Əliyev fenomeni" adlı elmi-fəlsəfi tədqiqat məqaləsi əsərində qeyd edərək bildirirdi ki, "...Heydər Əliyev Azərbaycanın milli-mənəvi dəyərlərinə, maddi mədəniyyət abidələrinə xalqın, millətin varlığının təcəssümü kimi həmişə böyük diqqət və qayğı göstərmişdir. Milli Elmlər Akademiyasının həyatında baş vermiş əlamətdar hadisələrdən biri 2002-ci ilin oktyabr ayının 24-də Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin böyük Azərbaycan dramaturqu Hüseyn Cavidin ev muzeyinin açılışında

iştirak etməsi və həmin gün Əlyazmalar İnstitutuna Azərbaycan şifahi və yazılı ədəbiyyatının şah əsəri olan "Kitabi-Dədə Qorqud"un ən qədim əlyazması olan Drezdən əlyazmasının nəfis şəkildə hazırlanmış nüsxəsini (faksimilesini) hədiyyə kimi şəxsən təqdim etməsi olmuşdur" (92, s. 40).

Bu mənada Dahi şəxsiyyət Heydər Əliyev fəlsəfi fikrinin öyrənilməsi bunu deməyə imkan verir ki, həm metodoloji baxımdan onun sosial-siyasi baxışlarında cəmiyyətimizi, onun dinamikasını, elmi şəkildə onun dərkinin prinsip və qaydalarını, metodlarını fəlsəfi istiqamətdə mənimsəmək, qoyulan problemlərin millətin tarixi yaddaşını başa düşmək, həm də xalqın yeni milli düşüncə fenomeninin formalaşmasında meydana çıxan psixoloji amillər bir başa müstəsna rol oynayır. Bu baxımdan ümummilli lider Heydər Əliyevin xalqımızın əxlaqi dəyərlərinə sosiomədəni amil kimi yanaşması normal psixoloji mühitin, mənəvi əmin-amanlığın təmin olunmasında funksional roluna diqqət yetirməsi onun intellektinin geniş diapozona malik olmasından xəbər verir. Bu, Dahi maarifpərvər şəxsiyyətin intellekti ona bütün sosiomədəni təzahürlərə həm vətəndaşlıq, həm də rasional tənqidi nəzəri-metodoloji mövqeyindən yanaşmağa imkan verir.

Gürcüstan Respublikasının sabiq Prezidenti Eduard Şevardnadze Dahi şəxsiyyət Heydər Əliyevin fəlsəfi ideyalarının fenomenini qiymətləndirməklə nəinki Azərbaycanda bütün Qafqazda milli düşüncədə indi və gələcəkdə nə qədər rol oynadığını qeyd edərək deyirdi: "Qafqazın müstəqilliyi ilə azadlığın işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcək".

Heydər Əliyev fəlsəfəsi milli düşüncəmizin fenomeni olmaqla yanaşı, xalqımız onun müdrik kəlamlarına, milli həmrəylik fəlsəfəsinin milli təfəkkürümüzü mənalandıran mülahizələrinə dəfələrlə müraciət edəcək və yararlanacaqdır. Ulu öndər həyati müdrikliyi ilə zəhmətkeş bağbanı xatırladır: o bilirdi ki, bu gün əkdiklərindən gələcək nəsillər də bəhrələnərək istifadə edəcəklər. Şübhə etmirik ki, xalqının qeyrətli oğlu ümummilli

lider Heydər Əliyevin milli müstəqilliyimizin ruhundan mayalanmış həyat fəlsəfəsi, onun milli düşüncəmizin inkişafı naminə tövsiyə etdiyi mütərəqqi ideyalar bir çox nəsillərin qəlbinə yol tapacaq və azərbaycanlıların əməli fəaliyyətində real təcəssümünü əks etdirəcək.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 yanvar 2013-cü il "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi"nin ölkə miqyasında layiqincə keçirilməsi haqqında verdiyi sərəncamda bir daha vurğulamışdır: **"Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur".**

Müasir Azərbaycan Respublikasının memarı və qurucusu Azərbaycanın müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində, ölkələr və xalqlar arasında hərtərəfli münasibətlərin yaranması və inkişafında, həmçinin genişlənməsində Heydər Əliyevin tarixi rolu misilsizdir. Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuşdur. Onun müqəddəs adı ölkəmizin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır. Bu da bir həqiqətdir ki, Heydər Əliyev özünün bütün istedad və müdrikliyini, Vətənə məhəbbətini, əməksevərliyini və fədakarlığını Azərbaycanın tərəqqisi naminə həsr etmişdir.

Həqiqətən də bu deyilən əsaslı elmi mülahizələrin məntiqi nəticəsi kimi onu demək olar ki, Dahi şəxsiyyətin uzaqgörən fəlsəfəsi Azərbaycanın ən yeni simasını müəyyənləşdirməklə bərabər, həm də milli düşüncəmizin fenomen gözəllik məfkurəsini yaratmışdır. Qədirbilən Azərbaycan xalqı daim borclu qaldığı ümummilli liderinə sadiq qalacaq və heç zaman unutmayacaq.

# II FƏSİL

## NAXÇIVANIN MİLLİ-MƏNƏVİ SƏRVƏTİ OLAN ƏLYAZMA MƏTNLƏRİNİN ARAŞDIRILMASI

*AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun qısa zaman kəsiyində araşdırdığı məqamlar, Naxçıvanın milli-mənəvi sərvəti olan orta əsr incisi sayılan əlyazma mətnlərinin tarixi köklərindən ətraflı məlumatlar verilməklə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının milli ideologiyasında yaratdığı mühüm və əvəz edilməz bir sahəni ətraflı tərənnüm edir. Həmçinin otra əsr əlyazma mətnlərdə Araz çayı sahilində yerləşən Naxçıvan diyarının tarixi əhəmiyyəti şəffaf şəkildə qiymətləndirilir.*

*Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan və onun milli sərvəti olan əlyazma mətnləri tarixi baxımdan çox əhəmiyyətlidir. Əsaslı mənbələr onu deməyə imkan verir ki, həqiqətən milli mədəniyyətimizin zirvəsində duran Naxçıvan əlyazma mətnləri bir mənəvi sərvət olaraq bu gün öz elmi bəhrəsini verməkdədir.*

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan tarixi titanik keçmişə malik olmaqla həmişə öz mənliyini qoruyub saxlamışdır. Bunu təsdiq edən sənəd qədim Naxçıvan əlyazmalarının mövcud olmasıdır. Naxçıvan tarixinə aid olan qədim əlyazmalar demək olar ki, doğma Azərbaycanımızın daş yaddaşından xəbər verir. Qədim əlyazmalarımızın isə toplanıb araşdırılması günün ən aktual və zəruri atılacaq addımlarından biri idi. Ümummilli Liderimiz Heydər Əliyevin bu baxımdan doğma Naxçıvanımıza göstərdiyi əbəssiz sayğısı və dəyərli qayğısı buna əyani sübutdur. Çünki ulu öndərimizin 07 avqust 2002-ci ildə imzaladığı tarixi sərəncama uyğun olaraq yaradılmış AMEA Naxçıvan Bölməsi və onun tərkib hissəsindən biri Əlyazmalar Fondu bunun bariz nümunəsidir. Elmə, təhsilə böyük diqqət verən ulu öndər Heydər Əliyev deyirdi: ***"Azərbaycan Elmlər Akademiyasının keçdiyi şərəfli yol Azərbaycan xalqının tarixində böyük bir səhifədir. Çoxəsrlik tariximizdə böyük***

***elmimiz, alimlərimiz olubdur. Ancaq Azərbaycan elmi heç vaxt bu qədər mütəşəkkil və bu qədər qüvvətli, güclü, çoxsahəli olmayıbdır. Müstəqil Azərbaycanın Elmlər Akademiyası bütün elmi potensialı özündə cəmləyərək, xalqımızın yaradıcılıq sahəsində nəyə qadir olduğunu dünyaya göstəribdir" (92).***

Bu bir həqiqətdir ki, Azərbaycan xalqı tarixi keçmişində demək olar məşəqqətli və olduqca füsunkar bir həyat tərzi keçirmişdir. Azərbaycanın tarixi coğrafiyasının 500 min kv km-dən artıq olduğunu, bu ərazidə 100-dən çox irili xırdalı dövlət qurulduğunu, 365-dən artıq müxtəlif miqyaslı müharibələrin olması, 1813-cü ildə **"Gülüstan"** müqaviləsi, 1828-ci ildə **"Türkmənçay"** müqavilələri ilə Vətənimizin iki hissəyə Cənubi Azərbaycan və Şimali Azərbaycana bölünməsi, XX əsrin əvvəlləri yəni 1918-1920-ci illərdə Şimali Azərbaycanda qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin erməni xəyanəti və rus işğalı nəticəsində çevrilməsini, xüsusən bolşeviklər tərəfindən araya quşkeçməz tikanlı məftillərin çəkildiyini və uzun illər Vətənimizin iki hissə arasında heç bir əlaqənin mövcud olmadığını, Şimali Azərbaycanda dəfələrlə "əlifba" dəyişikliklərini, bu günkü Azərbaycan Respublikası vətəndaşlarının əlifba və dil ucbatından 1400 illik tarix. ədəbiyyat və mədəniyyətimizlə birbaşa ünsiyyət qura bilməmələrini, tarix və mədəniyyətimizin ağlasığmaz dərəcədə zənginliyini, saysız-hesabsız ədəbi, elmi və tarixi şəxsiyyətlərimizin mövcudluğunu, bu günə kimi nə qədər yazılsa da Azərbaycanşünaslığın hələ tam mənası ilə tədqiq olunmadığını nəzərə alaraq həm Azərbaycan tarixinin, həm də bütövlükdə elmi və mədəniyyətinin, onun ayrı-ayrı sahələrinin inkişaf tarixi və müxtəlif dövrlərdəki uğurlu nəticələr arasında rabitənin və ümumən tarixi yaddaşın bərpası, tariximizin sistemli şəkildə lazımınca öyrənilməsi və tədqiq edilməsi, onun dünya mədəniyyətindəki layiqli yerinin ortaya qoyulması və təbliği üçün bir imkan, vəsilə olmasından ötrü Naxçıvan Əlyazmalar Fondunun qarşısında çox böyük ümumxalq və ümumdövlət əhəmiyyətli vəzifələr durduğunu dərk edərək fəaliyyətə başlamışdır. AMEA Naxçıvan Bölməsi Əlyazmalar

Fondu fəaliyyətə başladığı ilk gündən bu məqsəd və vəzifələrin ən geniş aspektdə və maksimum keyfiyyətlə yerinə yetirilməsi üçün ilkin şəraitin yaradılmasına çalışmışdır. AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondu 4 aprel 2005-ci il tarixdən fəaliyyət göstərir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Akademiyanın əsas xüsusiyyətlərindən danışarkən deyirdi: ***"Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq" (92).***

Onu da qeyd etmək lazımdır ki, AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun yaradılması ulu öndərimizin qabaqgörən ülvü və pak dühasının təzahürü kimi qiymətləndirmək olar. Ona görə də bu müəssənin işinin lazımı səviyyədə qurulması günün tələbləri səviyyəsində təşkil edilməsi və qarşıda duran vəzifələrin öhdəsindən layiqincə gəlinməsi ümummilli liderimiz Heydər Əliyev ideyalarının-arzularının əməli həyata keçirilməsi və onun ölməz xatirəsinə ən böyük ehtiram olacaqdır. Bu mənada Naxçıvan Əlyazmalar Fondunun yeni və demək olar ki, sıfırdan yaradıldığını, bu işin xalqımız, dövlətimiz, mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz, elmimiz və ümumən Naxçıvan tarixinin dərin köklərinin araşdırılması və öyrənilməsi üçün fövqəladə əhəmiyyətini və bununla yanaşı həmdə çətin olduğu qədər də şərəfli olduğunu nəzərə alaraq hər bir əməkdaşdan maksimum səy tələb edir

Naxçıvanın milli-mənəvi sərvəti olan qədim əlyazma mətnləri tarixin həqiqi yaddaş reallığını özündə əks etdirir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvan, öz zəngin tarixi-keçmişi və ədəbi-mühiti ilə dünya sivilizasiyasının önündə gedir. Qədim Naxçıvan əlyazma mətnləri tarixi baxımdan çox əhəmiyyətli dərəcədə başqa əlyazma mətnlərindən fərqlənir. Naxçıvanın əlyazma mətnlərinin araşdırılması, milli-mənəvi, dini-əxlaqi, tarixi-keçmişi, ədəbi-mühiti, fəlsəfi və regional baxımdan geniş bir sahəni əhatə etdiyi üçün çox böyük əhəmiyyət kəsb edir.

Araz çayı sahilində yerləşən qədim Naxçıvan diyarı özünün zəngin tarixi-keçmişi ilə dünya mədəniyyəti xəzinəsinə

əvəzsiz dahi şəxsiyyətlər bəxş etmişdir. Cöğrafi şəraitinə görə Araz çayının fövqündə duran Naxçıvan, böyük strateji əhəmiyyətə malik olmuşdur. Sanki Araz çayı Naxçıvanın dünyada tanınma işarə-mərkəzi olmuşdur. Qədim əlyazma mətnlərdə rast gəldiyimiz Araz çayının forma və məzmun baxımdan necə çay olması barədə qısa da olsa məlumat verilir. Şərqin tanınmış böyük alimi İbn əl-Vərdi "Xəridət əl-əcaib və fəridət əl-qəraib" əsərində nümunə olaraq Araz çayı haqqında verilmiş əlyazma mətnin bir hissəsinin Mahmud Şirvani tərəfindən tərcümə edilmiş cümləsinə nəzər yetirək.

"Nəhr Araz Azərbaycandadır. Qayət bərk akar və içində böyük taşlar var, bəzi bəllüdür, bəzi degil. Ol səbəbdən gəmi anda yürüməz. Bu dəxi mübarək sudur, qərq olmuşların əksəri nicat bulmuşdur..." (33, s. 126b).

Araz çayı boyunca Naxçıvanın şəhər və kəndlərinin yerləşdiyi bir ərazidə tarixin zəngin arxiv materialları gizlənir. "İstər osmanlı, istərsə də onlardan əvvəlki dövrlərin mənbələrindən Naxçıvan diyarının şəhərləri kimi Naxçıvan və Ordubadın adı qeyd edilir. XVI əsrin II yarısından etibarən şəhərlər sırasına Culfanın (Culha) əlavə olunduğu görülür. Döğrudur, osmanlı narrativ mənbələrində Culfanın "qala" olduğu göstərilsə də, 1590-cı il tarixli İrəvan əyalətinin və 1727-ci il tarixli Naxçıvan sancağının "müfəssəl dəftər"lərində Culfanın "kənd" ("qərye") olduğu yazılmışdır" (34, s. 15).

Bu gün əlimizdə çox qiymətli əsər olan "Naxçıvan sancağının müfəssəl dəftəri" qədim Naxçıvan əhalisinin mətanətliliyindən, dəyanətliliyindən, qeyrətindən xəbər verir. "Baxmayaraq ki, osmanlılar tərəfindən təqibə məruz qalmış naxçıvanlılar tez bir zaman kəsiyində inkişaf etmiş və tərəqqiyə nail olmuşlar" (35, s. 127).

Naxçıvan əhalisi həmişə olduğu kimi XVI-XVIII əsrlərdə də öz milli-mənəvi dəyərlərin qorunmasında fəal iştirak etmiş və etiqad etdikləri dinin mənafeyi üçün mühüm əhəmiyyətli addımlar atmışlar. Elə bunun sayəsində də XVI-XVIII əsrlərdə Naxçıvan tipik bir müsəlman şəhəri, hərbi-inzibati, ticarət, sənətkarlıq

mərkəzi olmuşdur. Bu dövrdə Naxçıvan şəhərində 3 came; cameyi-Qızıl Arslan, cameyi-Məhəmməd kəndxuda, cameyi-Şərif və 10 məscid; Ağa məscidi, Hacı Xəlil məscidi, Keçəçi məscidi, Molla Əhməd məhəlləsinin məscidi, Sultan Mahmud məscidi, Hacı Sani məscidi, Bəsri məscidi, Şeyx Əminəddin məscidi, Ətməlik məscidi, İsmayilan məscidləri fəaliyyət göstərirdi. Son zamanlara qədər "Mömünə-xatun" məqbərəsinin kənarında yerləşən Qızıl Arslan camesi sovetlər dönəmində baxımsız qalaraq yerlə yeksan edilmişdir. Ayrı-ayrı tarixi sənədlərin açılmasında tərcümə edilən Naxçıvan əlyazma mətnlərinin əhəmiyyəti olduqca böyükdür. Belə nəşrlərə nümunə olaraq, Elmira Seyidbəylinin "Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri" (38) adlı əsərini göstərmək mümkündür.

Naxçıvanın milli-mənəvi sərvəti olan qədim əlyazma mətnlərinin araşdırılması, tədqiqi və nəşri günün ən mühüm mövzularından biridir. Çünki Naxçıvanın tarixi əvəz edilməz reallıqdır. Naxçıvan dünyanın aynasıdır ki, hər bir yerdən şəffaf və aydın özünü büruzə verir. Naxçıvan əlyazma mətnlərinin ən böyük xüsusiyyəti ondan ibarətdir ki, bütün reallıqları özündə əks etdirir. İstər XII-XIII əsr Naxçıvan Atabəylər Dövlətinin qiymətli, eyni zamanda ən zəngin əlyazması olan "Munisnamə" əsəri, istər Azərbaycan mədəniyyəti tarixində XIII-XIV əsrlərdə çoxcəhətli yaradıcılığa malik olan bir alim, şair və dövlət xadimi kimi tanınan Hinduşah Naxçıvaninin "Əs-Sihah əl-əcəmiyyə" əsəri və istərsə də XIX əsrin görkəmli nümayəndəsi olan Hacı Molla Məhəmməd Naxçıvaninin "Qürrətul-Əbsar" (Gözlərin nuru), "Dürrətül-Əbrar" (Söylənilməmiş inci sözlər), "Kəşkülü-Nur" (Nur Qabı), "Məzahir ən-Nur" (Nurların zahir olduğu yerlər) və "Səhabəd-Dümu" (Buludların Göz yaşları) kimi böyük əhəmiyyətə malik olan əsərləri Naxçıvan həqiqətlərinin bariz nümunəsidir ki, heç zaman tarix səhnəsindən silinməyəcəkdir.

"Munisnamə" əsəri XII-XIII əsr Naxçıvan Atabəylər Dövlətinin iqamətgahında yazılan nadir əlyazma nüsxəsidir ki, əsli Britaniya muzeyində mühafizə olunur. Əlyazmanın foto

surətinin Naxçıvana aid hissələri öz doğma dilimizə tərcümə edilərək ilk tədqiqat obyekti olmuşdur.

Son dövrlərə qədər tədqiqatçıların diqqətindən yayınmış "əs-Sihah əl-əcəmiyyə" lüğəti Azərbaycan ərazisində, azərbaycanlı müəlliflər tərəfindən tərtib edilmiş, ilkin dövrlərdə dilimizin leksikası və nəsri haqqında məlumat verən qədim və hələlik yeganə abidə kimi diqqəti cəlb edir. Farsca-türkcə ikidilli lüğət olan "əs-Sihah əl-əcəmiyyə"də 5117 fars sözünün müqabili kimi verilmiş türk mənşəli sözlərin təxmini sayı 10.000-ə yaxındır. Hinduşah Naxçıvaninin bu qiymətli əsərinin orjinalı Qərbi Berlin, Bratislava, və Sank-Peterburq Şərq əlyazmaları xəzinəsində saxlanılır.

Fəxrəddin Hinduşah Naxçıvani "dövrünün görkəmli tarixçisi, mütərcimi, munşisi, şairi və dilçisi olmuş, özündən sonra "əl-Sihah əl-əcəmiyyə" adlı farsca-türkcə lüğətini, ərəb dilində yazılmış "Məvarid əl-ərəb" adlı məşhur tarixi əsərini və bir sıra farsca şerlərini irs qoyub getmişdir" (36, s. 5).

Milli mədəniyyətimizin xəzinəsinə dastan kimi daxil olan məşhur "Yusif və Züleyxa" əsəri xalqımız tərəfindən sevilmiş və indinin özündə də böyük maraqla qarşılanır. Suli Fəqih tərəfindən yazılan "Yusif və Züleyxa" əsərinin əlyazması çox yüksək persenajla işlənib oxucuların ixtiyarına verilmişdir.

XIX əsr ictimai mühiti üçün səciyyəvi xarakter daşıyan Hacı Molla Məhəmməd Naxçıvaninin "Səhabəd-Dümu" (37) əsəri fəlsəfi baxımdan olduqca böyük əhəmiyyət kəsb edir. İstər islam fəsəfi nöqteyi nəzərindən, istər insanlıq baxımından, istərsə də dini baxımdan özündə qeyri-adi hadisələri canlandıran və insanları coşa gətirən əsər böyük bir fenomenliyi ilə diqqəti cəlb edir. Bu baxımdan da əsərin müəyyən hissələri tədqiqata cəlb edilmiş və nəticədə I-II cilddə "Hacı Molla Məhəmməd Naxçıvaninin "Səhabəd-Dümu" əsərində fəlsəfi düşüncələr" adlı monoqrafiya çapdan çıxaraq ictimaiyyətə çatdırılmışdır.

Naxçıvan əlyazma mətnlərinin digər bir xüsusiyyəti ondan ibarətdir ki, əlyazmalar müxtəlif xətlərlə yazılmış və sonralar isə katiblər tərəfindən üzü köçürülmüşdür. Bu baxımdan əsl yazılma

tarixlərin müəyyən edilməsi çətinliklərinin obyektivliyinə gətirib çıxarır ki, o da öz növbəsində işin aktiv və fəal yerinə yetirilməsinə mane olur. Əlyazmalarda əsasən müəllifin adının göstərilməsi mühüm əhəmiyyət kəsb edir. Hansı tarixdə yazılması və hansı tarixdə çap olunması əsas şərt kimi qəbul edilir.

Məlum olduğu kimi, Azərbaycan xalqı ən qədim və çox zəngin ədəbi-mədəni ənənələrə malik olan Şərq xalqlarından biridir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1994-cü ildə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar Yubiley üzrə Dövlət komissiyasının iclasında söylədiyi Yekun sözündə bu barədə demişdir: ***"Eyni zamanda, qeyd etdiyim kimi, biz daim çalışmışıq ki, Azərbaycan xalqını dünyaya daha yaxın tanıdaq. Bilsinlər ki, xalqımızın çoxəsrlik, zəngin tarixi, mədəniyyəti var. Bilsinlər ki, Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır. Bu ona görə lazımdır ki, hamımıza məlum olan düşmən qüvvələr sübut etməyə çalışırlar ki, Azərbaycan xalqının zəngin tarixi olmamışdır, onun kökü yoxdur. Şübhəsiz ki, bu cəfəngiyyatdır. Bəzən buna heç cavab vermək istəmirsən. Lakin xalqımıza düşmən olan, qəsd etmək istəyən dairələr, qüvvələr, bəzən də millətlər, respublikamızı parçalamaq, onun ərazisini qəsb etmək istəyənlər əvvəllər də çalışmışlar və indi də çalışırlar sübut etsinlər ki, guya Azərbaycan xalqı tarixi kökə malik olan bir xalq deyildir" (39, s. 94-95).***

Nəticə etibarilə belə qənaətə gəlmək olar ki, əsaslı bu yazılı mənbələr həqiqəti deməyə imkan verir ki, Azərbaycan xalqı üçün lazım olan hər bir yazılı mənbələrin milli mədəniyyətimizin fövqündə duran hər hansı əlyazma mətnləri bir mənəvi sərvət olaraq bu gün öz bəhrəsini verir.

## MİLLİ DƏYƏRLƏRİMİZİ ZƏNGİNLƏŞDİRƏN "NOVRUZ" ƏLYAZMA VƏ MÜASİR MƏNBƏLƏRDƏ

Xalqımızın ümummilli lideri Heydər Əliyev 18 mart 2001-ci il tarixdə Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edərkən deyirdi: ***"Dünyanın yaranmasının tarixən ilk yaz günü ilə bağlayan xalqımız əsrlər boyunca bahar bayramını əziz tutmuşdur. Təbiətin oyanmasını, varlığın yenidən canlanmasını müjdələyən Novruz bayramı sadəcə şadlıq, sevinc, səadət bayramı olmamış, tariximizin ən çətin anlarında insanlarımızın ürəyində özünə yer eləmiş, həyatına daxil olmuş, işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusunu yaşatmışdır".***

Həqiqətən də, Azərbaycan xalqının ən müqəddəs milli bayramlarından biri olan Novruzun tarixi kökləri lap qədim dövrlərə söykənir. İnsanlara xoş təsir bağışlayan Novruz xalqımızın milli dəyərlərinin zənginləşdirilməsində böyük rol oynamışdır. Bununla belə zəngin tarixi keçmişə malik olan Naxçıvan əlyazmaları milli dəyərlərimizin qorunub saxlanılmasında olduqca böyük əhəmiyyət kəsb edir. Əlyazmalar dini-əxlaqi, maddi-mənəvi və milli dəyərlərimizin qorunub saxlanılması ilə yanaşı, milli-mədəniyyətimizin də inkişafına güclü təsir göstərir. XIX əsrin qiymətli əlyazması olan, məşhur mütəfəkkir – filosof Məhəmmədbaqir ibn Məhəmmədtəqi hicri-qəməri tarixi 1288-ci ildə yazdığı "Zadəl-Məad" ("Axirət-azuqəsi") əsərində Novruzla bağlı bir neçə fəlsəfi fikir irəli sürmüşdür. Əsərdə alimlər arasında Novruz gününün hansı vaxtda olması mübahisəli olmuş və bəziləri "Rum təqvimi ilə Əyyar ayının onuncu və ya Şubat ayının doqquzuncu günü olması ehtimal verilsə də, əsasən ümumi fikir Şəmsi (Günəş) ilinin başlanması və Günəşin "həməl" ("qoç") bürcünə ilk girişini Novruz günü hesab etmişlər"(18, s. 241).

Əsərdə əsasən Müəlli ibn Xənəs adlı şəxs imam Sadiq əleyhis-salamın səhabələrindən biri Novruz gününün bir neçə fəlsəfi əlamətlərini ondan soruşmuş və cavab almışdır. Birinci budur ki, "Allah Təala bütün bəndələrinin ruhlarını yaratdı, onlardan əhdi-peyman aldı ki, Ona şərik qərar verilməsin və o günə "Ruzi-Ələs" deyilərək əvvəlinci gün, yəni "yeni gün" hesab edilsin, həmin gün də Novruz günü adlandı"(18, s. 241).

Əlyazmanın digər fəslində "ilk dəfə günün çıxdığı, küləyin əsdiyi, ağacların sulanması və vəchə gəlməsi, güllərin və çiçəklərin yer üzünə yaraşıq verməsi ilə səpələnməsi"(18, s. 242) məhz Novruz gününə təsadüf edilmişdir. Əsərdə ilk insan əcdadı olan Adəm əleyhis-salamın xəlq olunması da Novruz gününə təsadüf etmişdir.

Digər bir maraqlı bənddə isə Naxçıvanla əlaqəli olan Nuh əleyhis-salamla bağlı məlumat verilir. Qeyd edilir ki, "tufandan sonra Nuh əleyhis-salamın gəmisi böyük bir yüksəkliyə dəyərək orada qərar tutmuş və Həqq-Təala ikinci yeni həyatın başlanmasını onlara bəxş etmişdir, həmin gün Novruz gününə təsadüf edilmişdir"(18, s. 242).

Novruz gününə təsadüf edilən digər bir maraqlı xəbəri öncə müqəddəs Qurani-Kərimin əl-Bəqərə surəsinin 243-cü ayəsində Allah-Təala bəyan edərək buyurmuşdur: **"(Ya Rəsulum) Minlərlə adamın (taundan) ölüm qorxusu ilə öz yurdlarını tərk edib getdiklərini görmədinmi? Allah onlara: "Ölün!" – dedi və sonra da (yenidən) diriltdi. Həqiqətən, Allah insanlara lütf edəndir, lakin insanların bir çoxu şükür etməzlər!"(16, s. 39).** Bu hadisə və əhvalatla bağlı əlyazmada geniş məlumat verən müəllif qeyd edir ki, "bir kənddə 30 min nəfərin taun xəstəliyindən vəfat etməsi nəticəsində məhv olması və bir neçə yüz il üstündən keçəndən sonra Həzqil adlı peyğəmbər həmin diyardan keçəndə o ölülərin sümüklərini görərək təəccüb etmiş, o qarışmış sümüklərin qiyamət günü bir-birindən seçilib yenidən necə birləşərək dirilməsini düşünmüşdü. Bu zaman Allah Təaladan onların üzərinə su səpilməsi əmri edilmiş və nəticədə orada olan bütün insanların cəsədləri Allahın izni ilə qalxaraq

dirilmiş, məhz həmin gün də Novruz gününə təsadüf etmişdir"(18, s. 242). Bu səbəbə görə də Novruz günündə insanlar tərəfindən bir-birlərinin üstünə su səpilməsi dirilik, aydınlıq əlaməti kimi qəbul edilmişdir.

Həmin günlə bağlı digər bir maraqlı hadisə müsəlman aləminə təsadüf edilmiş Rəcəb ayının 27-ci günüdür ki, Həzrəti Məhəmməd əleyhis-salama Allahın axırıncı peyğəmbəri olduğu müjdəsi verilmişdir. Bu da müsəlmanlar arasında sevilib seçilən "Məbəs" bayramı elan edilmişdir ki, yenə o da Novruz gününə təsadüf etmişdir. Novruz gününə təsadüf edən digər bir maraqlı hadisə, Məkkədə Kəbə evində qoyulan 365 bütün sındırılıb məhv edilməsi böyük önəm daşıyır.

Əlyazmanın digər fəslində mühüm əhəmiyyət kəsb edilən tarixi qaynaqlar da milli dəyərlərimizin zənginləşməsində böyük rol oynayır. Bununla belə İslam tarixində "Qədir-xumm" deyilən bir məkanda Həzrət Peyğəmbərimizin xütbə oxuması və o, rehlət edəndən sonra onu əvəz edən yeganə şəxsin Həzrəti Əli olmasını bəyan etməsidir ki, "o gün də Novruz gününə təsadüf etmişdir. Müsəlmanlar arasında o günə "Cənabi-Əmir" bayramı da deyilir"(18, s. 241).

Ümumbəşəri bayram olmağına baxmayaraq ən çox müsəlman fəlsəfi fikrini canlandıran və el arasında sevilən Novruz günü daha bir əlamətdar hadisə ilə ona görə bağlıdır ki, "Ali Məhəmməddən qaim olan (qeybə çəkilən) bir şəxsin Allahın izni ilə zühur edərək insanlara yeni sevinc, xoş gün, ədalətin yer üzündə zəfər çalmasını təmin etməklə yeni əhval-ruhiyyənin nəsib etməsidir. Həmçinin o, Dəccal deyilən üsyankar və qeyri-insani bir varlığa, şər qüvvəyə qalib gələrək Kufə şəhərində onu məhv etməsidir"(18, s. 243).

Əsərin digər bir fəslində İmam Sadiq əleyhis-salamın səhabəsi Müəlli ibn Xənəsə verdiyi bir neçə tövsiyələr də geniş əksini tapmışdır. Həmin günün ediləcək yaxşı əməllərindən sayılan "yuyunaraq pak olmaq, təzə və təmiz paltar geyinmək, gözəl qoxulu ətirlərlə ətirlənmək, oruc tutmaq, 4-rəkət namaz

qılmaq və bir neçə xeyirli dua oxumaqla Allahdan mərhəmət diləmək məsləhət bilinmişdir"(18, s. 343).

Həmçinin elmi-fəlsəfi mənbələrdə qeyd olunan Novruz "yeni gün" mənasını verməklə yazın gəlişi deməkdir. Bahar bayramı ilə tanınan Novruz Azərbaycan xalqının qədim ənənəvi milli bayramı hesab olunur. Yazın girməsi ilə gecə ilə gündüzün bərabərləşdiyi, Yerin öz oxu ətrafında bir dövrə vurması ilə ilin tamam olduğu gündə (miladi təqvimi ilə mart ayının 21-22-də) Novruz təntənəli qeyd edilir. Dünya xalqlarının bir çoxu yazın gəlməsini və təbiətin canlanmasını bahar fəslinin gəlişi ilə bağlı müxtəlif adlarda, günlərdə qeyd etmiş, Novruzu yeni ilin başlanması sayaraq özlərinin milli xalq bayramına çevirmişlər. Əlyazma mətnlərdə verilən ən qədim zamanlardan başlayaraq İran, İraq, Əfqanıstan, Pakistan, Orta Asiya və digər Şərq xalqları baharın gəlməsini "yeni gün", Novruz kimi qeyd edərək bayram etmişlər. Yazın – yeni ilin gəlişini Azərbaycan xalqı "Novruz bayramı" adı ilə qarşılayır və böyük milli bayram mərasimi kimi hər il qeyd edir. Azərbaycanda olduğu kimi bəzi müsəlman Şərq xalqlarında da bu gün, yəni martın 21-i rəsmi yeni il bayramı sayılır və tətil edilir. İnsanı düşündürməyə vadar edən təbiət hadisələrindən biri — ən ilkini qışla yazın birinin digərini əvəz etməsidir. Hər bir düşünən beyin öz idrakına, dərkinə görə yaşadığı mühitə dürlü anlamlar, mənalar və adlar verməyə çalışmışdır. Mətnlərdə rast gəldiyimiz qədim insanın idrakı azdan çoxa artdıqca təbiətə, onun hadisələrinə mənfi, müsbət, pis, yaxşı münasibətlər dəyişilmiş və dərinləşmiş, tamlığa doğru inkişaf etmişdir. Əlyazmalarda rast gəlinən Novruzun mənşəyi, onunla bağlı əsatirlər, miflər istər tarixi, istərsə elmi nöqteyi-nəzərindən çox maraqlıdır. Qədim insanlar baharın gəlişini, təbiətin yenidən canlanmasını, havaların istiləşməsini səbirsizliklə gözləmiş və onu sevinc əhval ruhiyəsi ilə qarşılamışlar. Azərbaycan xalqının milli dəyərləri kimi qəbul edilən bu bayramla əlaqədar "həyatın oyanması, canlanması", "təbiətin dirilməsi" kimi deyilən ifadələr tez-tez işlədilir ki, bu da onu mənşəcə qədim insanın təbiətin ölüb-dirilməsi haqqındakı ibtidai animistik görüşünə aparıb çıxarır.

Yazın başlaması, əkinçiliyin meydana gəlməsi ilə Novruz gününün bayram edilməsi öz məzmununu başqa formada dəyişmişdir. Əkinçiliyin yaranması bəşər tarixində çox mühüm dövr adlanırdı. Çünki əkinçilik işləri yazın əvvəlinə düşürdü. Ayların bəzilərinin adı təsərrüfatla bağlı idi (məs., e.ə. 2-ci minilliyə aid mixi yazılarında "əkin ayı" adına rast gəlinir). Əkinçilərin əkin işlərinin başlandığı vaxt, yaxud o ərəfə insan şüurunda yeni ilin, yəni təsərrüfatın, kənd həyatının başlanğıcı kimi əks olunmuşdur. Bəzi tadqiqatçılar Novruz gününün Yaxın Şərqin məhz qədim əkinçi xalqları içərisində meydana gəldiyini söyləyirlər. Bunu həmin gün və onun ərəfəsində görülən tədbirlər, onunla bağlı folklor nümunələri, adət, mərasim və oyunlar da sübut edir. Bütün əkinçi xalqlara bu və ya başqa şəkildə məlum olan bahar bayramı ətrafında hər bir xalq öz etnik, yerli, milli xüsusiyyətlərinə uyğun özünəməxsus mövsüm və mərasim nəğmələri yaratmışlar.

Yazın və onun istisinin gəlişinə Azərbaycanda "Xızır İlyas", "Kos-kosa" mərasimi və "Şəngülüm, Şüngülüm, Məngülüm" mifik nağılı həsr olunmuşdur. İstər "Xızır İlyas", istərsə də "Kos-kosa" mərasimlərinin və adı çəkilən "Şəngülüm, Şüngülüm, Məngülüm" nağılının yaranmasına azərbaycanlıların, onların soykökündə duran əski soyların, qəbilə birləşmələrinin təbiətə təsir etmək cəhdi impuls vermiş, bu sonralar zənginləşmiş və şaxələnmişdir. Adətə görə Novruz günündə müxtəlif toxumlardan (xüsusilə buğda) səməni göyərdirlər. Səməni yazın rəmzi kimi yaşıllığı təmsil edir, həm də insanın əsas dolanacaq vasitəsi kimi meydana gəlmiş əkinçiliyin rəmzidir. Azərbaycanda xalq içərisində "Səməni, saxla məni, ildə göyərdərəm səni..." mahnısı geniş yayılmışdır. Azərbaycan kəndlisi taxılın cüzi bir hissəsini evində göyərtməklə növbəti məhsul ilinə bərəkət, bolluq arzulamışdır.

Novruz gününə dörd həftə qalmış hər çərşənbə və nəhayət, bayram günü Yerdə tonqal qalayıb yandırmaqla göydə Günəşi səsləmiş, onu qara şər qüvvələrdən xilas olub parlamağa, təbiəti isindirməyə çağırmışdır. Bütün bu mərasimləri nəinki islam

dinindən, hətta atəşpərəstlikdən çox-çox qədim dövrlərdən məlum olan Günəş və əkinçilik etiqadı ilə əlaqələndirirlər. Novruz gününü ayrı-ayrı tarixi şəxsiyyətlərin adı ilə də bağlayırlar. Rəvayətə görə, İran şahı Kəyumərs Günəşin Qoç bürcünün birinci dəqiqəsinə səhər daxil olduğu günü müəyyən etmiş, kahinləri çağırıb, ili bu andan başlamağı buyurmuşdur (zərdüştiliyin müqəddəs kitabı olan "Avesta"da Qayə Mərdan). Kəyumərs obrazı insanlara mədəniyyət nemətləri gətirən ilk insan haqqında təsəvvürlə əlaqədar idi. Bu rəvayət Firdovsinin "Şahnamə"sində, Ömər Xəyyamın "Novruznamə"sində də əksini tapmışdır. Sonralar Novruz günü əsatiri əfsanəvi İran şahı Cəmşidin adına bağlanmışdır. Lakin bu əfsanələr tarixi həqiqətə uyğun deyil. Əməkçi həyatının, əkinçilik məişətinin ən dərin qaynaqlarından doğulmuş bu müqəddəs Novruz bayramını əsrlər boyu din xadimləri həqiqi köklərinin daha da dərinliklərinə varmağa çalışmasına səy etmişlər. Çünki orta əsr müəllifləri Şərq ölkələrində İslam dini yayıldıqdan sonra da Novruz günündə yaz əmək ənənələrinin, əkinçilik təqvimi etiqadlarının möhkəm yer tutduğunu göstərirlər. Novruz günü dünyəvi keyfiyyətlərlə zəngindir. Onun cüzi də olsa mürtəce cəhəti, istismar xarakteri olmamışdır.

XI əsrin görkəmli filosof və mütəfəkkiri Əbu Reyhan Məhəmməd ibn Əhməd əl-Biruni əl-Xarəzminin dövrümüzədək çatmış ilk irihəcmli əsəri olan "Keçmiş nəsillərdən qalan izlər" ("Xronologiya") qiymətli əsərində qədim bayram günlərini belə səciyyələndirmişdir: "Bu bayramlar arasında elələri var ki, səbəbi dünyəvi işlərdir, bayramlar da var ki, səbəbi dini işlərdir" (19, s. 14). Biruniyə görə, dini bayramlar insanların ruhunu şadlandırmaq, xüsusilə kasıbların ağır güzəranını yüngülləşdirmək, dərdlərini azaltmaq, Allaha ümidlərini artırmaq məqsədilə keçirilir. Dünyəvi bayramlar içərisində isə Biruni özünün də həmişə qeyd etdiyi Novruz bayramı haqqında müxtəlif rəvayətlər, onların yaranması səbəblərindən danışmış, bu bayram münasibəti ilə xalq arasında yayılmış adət-ənənələri təsvir etmiş,

Novruzun təbiətin oyanması, əkinçilik təsərrüfatının başlanması ilə bağlı əsl dünyəvi bayram olduğunu göstərmişdir.

XI əsrin digər bir nümayəndəsi Nizam əl-Mülk özünün "Səyahətnamə" əsərində Novruz günü bayramının baharın gəlişi ilə əlaqədar keçirilən kütləvi xalq bayramı olduğunu söyləmişdir. Qədim azərbaycanlıların bahar bayramını hələ eramızdan əvvəl qeyd etdiklərini Nizami Gəncəvi "İsgəndərnamə"də təsvir etmişdir.

Novruz bayramından bəhs edən orta əsr müəllifləri Şərq ölkələrində İslam dini yayıldıqdan sonra da bu bayramda yaz əmək ənənələrinin, əkinçilik etiqadlarının möhkəm yer tutduğunu göstərirlər. Əhməd Kəsrəvi yazır ki, "Novruz bayramı günü buğda, arpa, qarğıdalı, mərcimək, düyü, paxla, küncüt unundan müxtəlif şirniyyat növləri, qoğallar bişirilib süfrəyə düzülürdü. Arpanın böyüməsini müşahidə etmək yaxşı əlamət sayılırdı. Su sıçratmaq adəti geniş yayılmışdır"(19, s. 15). Bir sıra tarixçi-şərqşünaslar (A.Mets, İ.S.Braginski, L.İ.Klimoviç və b.) orta əsr müəlliflərinin məlumatlarına əsaslanaraq Novruzun – bahar bayramının və digər xalq bayramlarının əmək prosesləri barədə təsəvvürlərilə bağlı olduğunu qeyd edirlər. Xalq kütlələri bahar bayramı olan Novruz gününə təsədüf edilən bütün hadisə və proseslərin şamil olduğunu təbii qəbul etmişlər.

Görkəmli tacik yazıçısı Sədrəddin Ayni öz "Xatirələr"ində inqilabdan əvvəlki Orta Asiyada Novruz şənliklərini, mahnı və oyunlarını məharətlə təsvir etmişdir. O zaman Novruz günündə camaat kütləvi xalq bayramları düzəldərək şənlik edir, mahnı oxuyur, varlıları və məmurları lağa qoyur, kəskin tənqid atəşinə tuturdu. Xalqın etdiyi bu bayram ənənələrinin təsiri o qədər güclü idi ki, "sadə adamları" bu cür hərəkətlərə görə təqib etmir və cəzalandırmırdılar. Novruzqabağı bir qayda olaraq, ağac əkilir, bağ-bağça salınır, abadlıq işləri aparılır, ev-eşik səliqə-səhmana salınır, həyət baca silinib-süpürülür, əhənglənib-ağardılır, küsülü olanlar bu gündə barışır, yaslılar yasdan çıxır. Novruz günündə el-obalarda qara zurna dilə gəlir, "Koroğlu" nəğməsinin səsi aləmə yayılır. Aşıqlar Novruzu mədh edirlər. Oğlan və qızlar çalıb-

oynayır, yallı gedirlər. Cavanlar at çapır, güləşir, küştü tutur, hünər, igidlik göstərirlər. "Haxışta", "Bənövşə", "Kos-kosa" oynayırlar. Beləklə, Novruz günü ta qədimdən azərbaycanlılar arasında da yaz fəslinin, həm də əkinçilik təqviminin başlanğıcı hesab edilmişdir. Xalq arasında Novruz "ilin gözəl fəsli" adlanan bahar bayramı, əmək və şənlik bayramı, əkinçilik bayramı kimi yaşayır. Əmək dedikdə insanların hər hansı bir sahənin inkişaf etdirilməsi onun başlanğıcı və açarı hesab olunur. İstər əkinçilik, istər yaz-tarla işlərinin başlanması, istərsə də təhsil sahəsində bilik və bacarığa zəhmətlə nail olmaq nəzərdə tutulmuşdur. XIX əsrin görkəmli maarifpərvər şairi Seyyid Əzim Şirvani deyirdi: "Təhsil xəzinədir, əmək onun açarı".

Əmək bolluq və bərəkət rəmzidir, bu mənada nəinki müqəddəs İslam dini, ondan qabaq əski dinlər də halal əməklə məşğul olmağın axirət üçün faydalı olduğunu söyləmişlər. Ən qədim dinlərdən olan "Zərdüştlük" təlimində də insan əməyi öz əksini tapmışdır. "Zərdüştə görə, düzgün və sağlam həyat tərzi dinc və halal əməklə məşğul olmaqdan ibarətdir. Onun fikrincə, bu həyatda fövqəltəbii qüvvələrin mərhəmətinə axirətdəki səadətə çoxlu qurbanlar verməklə nail olmaq mümkün deyildir. Səadət əməkdədir, **«taxıl dəni cücərəndə divləri (şər qüvvələri) şər basır; dəni sovuranda divlər zəifləyir; dən üyüdüləndə divlər fəryad qoparırlar, bağırırlar... Qoy həmişə dən, un yeməkləri olsun»**" (20, s. 36).

Ölkə Prezidenti cənab İlham Əliyev 19 mart 2008-ci il tarixdə Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində deyirdi: ***"Təbiətin əbədi qanunları və kainatın dəyişməz nizamı ilə əlaqədar olan Novruz bayramı gecə ilə gündüzün bərabərləşdiyini xəbər verən ilk bahar günü yurdumuza qədəm qoyur. Qədim əcdadlarımızın bizə misilsiz yadigarı kimi Yaz bayramının gəlişi Odlar diyarında yüzillərdən bəri xüsusi mərasimlərlə qarşılanır, təntənəli el şənlikləri ilə müşayət olunur. Milli varlığımızı və ulu babalarımızın mənəvi aləminin zənginliyini ən incə çalarlarınadək nümayiş etdirən bu***

***el bayramı əsrlərin sınağından çıxmış gözəl adət-ənənələri ilə bu gün də çox sevilir, uca tutulur və layiqincə qorunub yaşadılır".***

Bütün bu mühüm xüsusiyyətlərin məntiqi nəticəsidir ki, 2011-ci il dekabr ayının 29-da dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasında Naxçıvanımızda 2012-ci ili "Milli dəyərlər ili" elan edilmişdir. Ali Məclisin Sədri hörmətli Vasif Talıbov həmin sessiyada demişdir: ***"2012-ci ildə milli-mənəvi dəyərlər sahəsində tədbirlərə diqqət artırılacaq, milli dəyərlərin bərpası, qorunması və gələcək nəsillərə çatdırılması ilə bağlı əvvəlki illərdə başlanmış tədbirlər 2012-ci ildə daha geniş miqyasda davam etdiriləcəkdir. Hər birimiz bu sahədə fəaliyyətimizin nəticəli olmasına çalışmalı, milli dəyərlər ilində muxtar respublikamızın inkişafına öz töhfəmizi verməliyik".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin milli dəyərlərimizə verdiyi önəm ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi xəttin davamıdır. Doğma Naxçıvanımızda da xalqımızın ən müqəddəs milli dəyərinə - Novruz bayramına böyük önəm verirlər. Milli dəyərlərin qorunması, milli şüurumuzun, milli dövlətçiliyimizin qorunub saxlanılması və inkişafı baxımından çox əhəmiyyətlidir.

Nəticə etibarilə onu demək olar ki, Naxçıvan əlyazma mətnlərdə rast gəlinən milli dəyərlərimizi zənginləşdirən amillərə, əməyə, həyata, təbiətə məhəbbəti göstərən Novruz öz ruhuna, mahiyyətinə uyğun ənənəvi, nəcib, mütərəqqi xüsusiyyət və keyfiyyətləri ilə zənginləşmiş, fərəhli olmuş, yeni məna çalarları kəsb etməklə daha da müqəddəsləşmişdir. İnanırıq ki, milli dəyərlərimizin qorunması rəmzinə çevrilmiş bir el bayramı olan Novruz doğma Naxçıvanımızın qoruyub saxladığı müqəddəs düşüncə məfkurəsini daha da möhkəmləndirəcək. Çünki Novruz bayramı dünya sivilizasiyasının başlanğıcı hesab edilən müasir Naxçıvanda milli təfəkkürümüzün və milli-mənəvi dəyərlərimizin parlaq təcəssümü sayılır.

## HACI MOLLA MƏHƏMMƏD NAXÇIVANİNİN "QÜRRƏTUL-ƏBSAR"ƏSƏRİ HAQQINDA

*Ulu öndər Heydər Əliyevin AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunu yaratmaqla əldə edilən tədqiqatlardan biri olan Hacı Molla Məhəmməd Naxçıvaninin "Qürrətul-Əbsar" əsərinin araşdırılması mövzusu kimi xüsusi elmi əhəmiyyət daşımağı ilə bərabər müqəddəs dinimiz olan İslamın mənəvi paklıq köklərini, tarixi inkişaf proseslərini və fəlsəfi dünyagörüşünün öyrənilməsi istiqamətində aparılan mühüm və olduqca elmi əhəmiyyət kəsb edən bir sahəni əhatə etməsi haqqında geniş məlumata malikdir. Bununla belə müasir dövrdə milli dəyərlərin mənimsənilməsi istiqamətində işlərin aparılması, milli mədəniyyətimizin öyrənilməsi, dini-əxlaqi dəyərlərimizin qorunması və gənclərimiz tərəfindən hər tərəfli təhlil edilməsi günün ən aktual məsələsi kimi böyük əhəmiyyətə malikdir.*

*Bu istiqamətdə aparılan elmi tədqiqat işi göstərmişdir ki, on dörd əsr keçməsinə baxmayaraq bu milli ruhu bizdə yaradan və yaşadan insanlar həmişə düşünərək bu amal uğrunda ağıllı addımlar atmışlar. Milli mentalitetimizə uyğun məqamların əsərdə öz əksini tapması bir daha söz söyləməyə əsas verir ki, yüksək intellektual gücə malik olan, bilik və bacarıq sahibi, XIX əsrin görkəmli alimi və filosofu Hacı Molla Məhəmməd Naxçıvani əsərdə milli-mənəvi dəyərlərimizin, milli mədəniyyətimizin, həmçinin dini dəyərlərin qorunub saxlanılmasında geniş və hər tərəfli təhlillərin aparılması ilə yanaşı əxlaqi dəyərlərin də böyük əhəmiyyət kəsb etməsini qeyd etmişdir. Müəllif əsərdə əsasən dörd mühüm xüsusiyyət kəsb edən yerlərin, göylərin, okeanların, çayların, hərflərin, mələklərin, səmtlərin, səmavi kitabların və s. başqa ünsürlərin əlamətləri haqqında geniş və fəlsəfi mühakimələr irəli sürmüşdür.*

Haqqında danışılacaq böyük elm sahibi, Naxçıvanın Şərq aləmində özünəməxsus yer tutmasında xidmətləri olmuş görkəmli istedad sahibi Hacı Molla Məhəmməd Naxçıvaninin "Qürrətul-əbsar" (Gözlərin nuru) əsəridir. M. Naxçıvani bu əsəri yazmazdan əvvəl öz dövrünün tanınmış görkəmli alimi, mütəfəkkiri olmaqla,

eyni zamanda bədii xüsusiyyətlərə malik olan bir insan kimi tanınmışdır. O, dövrünün yaşadığı vaxtlarda yəni, XIX əsrin yaradıcılıq intibahında öz zəngin bacarığını nümayiş etdirərək hicri-qəməri tarixi ilə 1318-ci ildə (miladi 1897-ci il) Naxçıvan vadisində, həzrəti Məhəmməd peyğəmbər əleyhis-salamın "Əhli-beyt" sevgisini nəzərə alaraq bu əsəri qələmə almışdır. Dərin düşüncə və bilik nümayiş etdirməklə yanaşı yüz əlli etibarlı mənbələrdən dəlillər gətirərək bu əsəri yazaraq Naxçıvan əhlinə, o cümlədən bütün Azərbaycan ictimaiyyətinə böyük ehtiramla təqdim etmişdir. O, əvvəllər Hacı Molla Məhəmməd Məşhədi Baba oğlu Naxçıvani kimi el arasında tanınmışdır. Onun həyatı demək olar ki, elmə bağlanmış və bu istiqamətdə inkişaf edərək islam aləmində ən yüksək elm adamına çevrilmişdir. Dahilər vətəni qədim Naxçıvan şəhərinin Şihab məhəlləsində dünyaya göz açan Hacı Molla Məhəmməd Məşhədi Baba oğlu Naxçıvani yaradıcılıq illərində "Qürrətul-Əbsar" əsərindən başqa bir neçə məşhur əsərlərin də müəllifi olmuşdur. Bunlardan, "Səhabəd-Dümu" (Buludların göz yaşları) 1309 h.q., "Kəşkülü-Nur" (Nur Qabı) 1312 h.q., "Dürrətül-Əbrar" (Söylənilməmiş inci sözlər) 1315 h.q., "Məzahir ən-Nur" (Nurların zahir olduğu yerlər) 1317 h.q. əsərləridir ki, istər ölkə daxilində, istərsə də Şərq aləmində böyük oxucu marağına çevrilmişdir. Hələlik onun hansı tarixdə anadan olması və vəfat etməsi heç bir mənbədə göstərilməmişdir.

Müasir dövrdə milli-mənəvi dəyərlərin mənimsənilməsi istiqamətində işlərin aparılması, milli mədəniyyətimizin öyrənilməsi, dini-əxlaqi dəyərlərimizin qorunması və gənclərimiz tərəfindən hər tərəfli təhlil edilməsi günün ən aktual məsələlərindəndir. Bu istiqamətdə Hacı Molla Məhəmməd Naxçıvaninin "Qürrətul-Əbsar" əsəri, tədqiqat əsəri kimi xüsusi elmi əhəmiyyət daşımaqla bərabər müqəddəs dinimiz olan İslamın mənəvi paklıq köklərini, tarixi inkişaf proseslərini və fəlsəfi dünyagörüşün öyrənilməsi istiqamətində aparılan mühüm və olduqca elmi əhəmiyyət kəsb edən bir əsərdir.

On dörd əsr keçməsinə baxmayaraq bu milli ruhu bizdə yaradan və yaşadan insanlar həmişə düşünərək bu amal uğrunda

ağıllı addım atmışlar. Milli mentalitetimizə uyğun məqamların əsərdə öz əksini tapması bir daha yeni fikir söyləməyə əsas verir ki, yüksək intellektuallığa malik olan, bilik və bacarıq sahibi Hacı Molla Məhəmməd Naxçıvani milli-mənəvi dəyərlərimizin, milli mədəniyyətimizin, dini-əxlaqi dəyərlərin qorunub saxlanılmasında əvəz edilməz xidmətlər göstərmişdir.

Həqiqətən milli ənənələrimizə, adətlərimizə, müqəddəs dinimizə, tutduğumuz ali məqam məsləkinə həmişə sadiq qalmaqla Azərbaycan xalqı və onun ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvan diyarının əhalisi bu gün də qürur hissi keçirir. İslam tarixində özünəməxsus silinməyən yaddaş saxlayan Peyğəmbər əhli-beytinin başına gələn analoqu olmayan müsibət və onun tarixi proseslərini dərindən düşünərək elmi potensiallıqla qələmə alan həmyerlimiz, yüksək ustalıqla tarixi mənbələrə istinad edərək əsaslı dəlillərlə "Qürrətul-Əbsar" (Gözlərin nuru) əsərini yazaraq özünə və həmçinin daşıdığı "Naxçıvani" ləqəbinə dünyada böyük şöhrət qazandırmışdır.

"Qürrətul-Əbsar" əsərinin yazılış üslubunu əsasən üç qismə (azərbaycan, ərəb və fars ) dillərinə ayırd etmək olar. Tədqiqat olduqca çox maraqlı bir mövzunu əhatə etməklə yanaşı, islam tarixi köklərinin fenomen incəliklərini özündə açıq-aydın büruzə verən əlverişli bir tədqiqat əsəridir.

Əsərin filoloji baxımdan tədqiqi onu deməyə əsas verir ki, müəllif apardığı əsas elmi dəlillərlə kitabın adın "Qürrətul-Əbsar" qoymuşdur. Lüğət baxımından əsərin "qürrət – nur və əbsar - gözlər (gözlərin nuru) mənasını verməklə əsas dörd mühüm adlandırdığı kəlmələri, dörd mühüm əlamətlərlə qiymətləndirmişdir.

Müəllif dörd mühüm əlamətlərin fəlsəfi mahiyyətini təhlil etməklə İslamda ən müqəddəs kəlmə sayılan Quran ayələrindən dəlillər gətirərək Allahın hidayətinə, rəhmətinə, fəzilətinə və qədərinə yetişmək üsullarını açıq şəkildə bəyan etmişdir. O, göstərmişdir ki, həqiqətən Allah dörd sifətin sahibi "Əxyar (xeyirxah), Əbrar (doğruçu), Qadir (qüdrət və qüvvət sahibi) və Qəhhar (yetərincə güclü) olmaqla Ərşi-əzimi (Allahın taxt-tacı

olan 9-cu və ən böyük göy kürsüsü) bu sütünlar üzərində yerləşdirərək qərar vermiş və ucaltmışdır"(21, s. 4). İnsanı gecə və gündüz Onun zikrin etməkdə ən gözəl və ən şərafətli dörd təsbihatdan ibarət olan «"Sübhanəllah", "Vəlhəmdulillah", və "La ilahə illəllah", "Vəllahu əkbər"»(21, s. 4) deməyi əsasən məqsədəuyğun hesab etmişdir. Müsəlman aləmində ən böyük bayramların "Fitr" bayramı, "Qurban" bayramı, möminlərin "Cümə" bayramı və "Qədr-xumm" bayramıdır ki, dörd əsas seçilmiş günlər adlandırmışdır. Dörd müsəlman aylarının Allah yanında hörmətli olduğunu və bu ayda müharibə etmək, qan tökmək, savaş və münaqişə yaratmaq haramdır ki, bunlar Zilqide əl-həram, Zilhiccə əl-həram, Mühərrəm əl-həram və Rəcəb əl-mürəccəb aylarıdır. Allahın böyük adı çəkilən «"Bismillahir – rəhmanir – rəhim" kəlməsində dörd çeşmənin və müxtəlif dad verən suyun axması qeyd edilir ki, **birinci;** gözün ağından axan "mim" çeşməsidir ki, Allahın "bism" kəlməsinin hərfi olmaqla "su çeşməsi" adlanır; **ikincisi,** gözün ağından axan "ha" çeşməsidir ki, "Allah" kəlməsinin hərfi olmaqla "süd çeşməsi" adlanır; **üçüncüsü,** gözün ağından axan "mim" çeşməsidir ki, "rəhman" kəlməsinin hərfi olmaqla "cənnətdəki şərab çeşməsi" adlanır; **dördüncüsü,** gözün ağından axan "mim" çeşməsidir ki, "rəhim" kəlməsinin hərfi olmaqla "bal çeşməsi" adlandırmışdır»(21, s. 4). Həmçinin Allah-Təala insanı ixtiyar sahibi etmişdir dünyanın dörd bir tərəfinə, Şərq, Qərb, Şimal və Cənub. Allah – Təala dünyada dörd böyük nəhrləri (çayları) böyük, bərəkətli, xeyirli və mənfəətli yaratmışdır ki, bunlardan Fərat, mübarək Nil, Ceyhun (Amurdərya) və Seyhan (Sırdərya) çaylarıdır.

Müəllif əsərdə əsasən nəzərdə tutduğu əhli-beyt sevgisinin təzahürü olan dörd təziyə mərasiminin saxlanılma əhəmiyyətinin Allah yanında izzətli olmasını qeyd edərək Səyyidüş-şühəda, "Peyğəmbərin sevimli nəvəsi, həzrət Əlinin gözünün nuru, Fatimeyi-Zəhra salamullahi əleyhanın əziz balası və onun övladları, dostları, yaxınları kimi qiymətləndirilmişdir. Səyyidüş-şühədaya dörd məxsus yer əza tərtib verərlər. Birincisi, "Beytüs-sərax"dır ki, Allahın öz Ərşi-əzəmətidir. İkincisi, "Beytul-

məmur"dur ki, dördüncü göydədir. Üçüncüsü, "Beytul-mərmər"dir ki, behiştdə yerləşir. Dördüncüsü, göy qübbəsinin altında yerləşən "Kərbəla" torpağıdır"(21, s. 4).

İmam Kazım əleyhis-salamdan rəvayət olunur ki, müsəlman gündəlik dörd şeyə möhtacdır. Birincisi, kiçik canamaza ki, onunla namaz qılınır. İkincisi, üzük ki, barmağa taxılır. Üçüncüsü, misvak ki, hər gün onunla dişlər təmizlənir. Dördüncüsü, İmam Hüseyn əleyhis-salamın türbətindən (torpaq) olan təsbeh zikridir ki, hər dənəsinə qırx həsənə (savab) yazılar. Əsərdə Kafi kitabından nəql olunur ki, həzrəti Peyğəmbər əleyhis-salam buyurur: Şəqavətin (bədbəxtçiliyin) dörd əlaməti vardır: Şorgözlük, xayin qəlb, dünyapərəst və günah etməkdə israrlı olan. Yer üzündə Şərqdən Qərbə qədər olan yerlərdən cəmi dörd məkan vardır ki, o yerlərdə müsafir (səfərdə olan) namazını bütün qılır: Məscidül-həram (Məkkə, Kəbə evi), Peyğəmbər məscidi (Mədinə), Kufə məscidi (Nəcəfi-əşrəf) və Kərbəla məscidi Kərbəla). Allah yanında ən böyük müqərrəb (yaxın) olan dörd mələk vardır ki, xüsusi yer tuturlar: Cəbrayil, Mikayil, İsrafil və Əzrayil əleyhuməs-səlamlardır. Dörd şəhər vardır ki, Allah Qurani-Kərimdə onların adlarına and içərək bəyan edir: Beytul-müqəddəs, Tur dağının ətrafında olan şəhər, əminiyyətli olan Məkkə və Mədinə şəhərləri. Qurani-Kərimdə dörd vacibi səcdə vardır ki, hər bir müsəlman onu eşitsə vacibdir ki, səcdəyə düşsün və natəmiz olan insan onu oxuması haramdır: Nəcm surəsi-62, Əla surəsi-19, Səcdə surəsi-15 və Fussilət surəsi-37. Allah-təala dünyada dörd qadını ixtiyar sahibi edib: Məryəm əleyhas-salamı, Asiya əleyhas-salam, Xədicə əleyhas-salamı və həzrəti Fatimə əleyhas-salamı. Bütün mürsəl peyğəmbərlərin içində seçiləcək dörd peyğəmbər ümmətini ixtiyar sahibi edilmişdir: Həzrəti İbrahim ümmətini, Həzrəti Musa ümmətini, Həzrəti İsa ümmətini və peyğəmbərlərin sonuncusu həzrəti Məhəmməd ümmətini. Həzrəti Məhəmməd əleyhis-salamın əshablarından seçilərək ona daha yaxın əsas dörd səhabəsi olmuşdur: Cənabi Salman əleyhi rəhmə, Cənabi Əbazərr əleyhi rəhmə, Cənabi Miqdad əleyhi rəhmə və Cənabi Əmmar əleyhi rəhmə. Dörd əsas səmavi kitab

nazil olub dörd peyğəmbərə: Tövrat həzrəti Musa əleyhis-salama, İncil həzrəti İsa əleyhis-salama, Zəbur həzrəti Davud əleyhis-salama və Quran həzrəti Məhəmməd əleyhis-salama"(21, s. 4).

Dörd əlamətlərlə sadalanıb məsəl gətirilən hər bir kəlmələrin məntiqi mahiyyəti ona gətirib çıxarır ki, "Qürrətul-Əbsar" kitabı dörd babdan ibarət olan hadisələrlə bağlıdır. Müqəddimədən sonra birinci babda həzrəti Məhəmməd peyğəmbərin həyat və yaradıcılığı, İslam dininin yaradıcı səbəbkarı, 23 il Peyğəmbərlik müddətində qazandığı nəaliyyətlər və apardığı məşəqqətli mübarizəsi özünə geniş yer almışdır.

İkinci babda həzrəti Əli əleyhis-salamın fəzilətləri barədə ətraflı məlumatın verilməsi, möcüzəvi Allah evində Kəbədə dünyaya gəlməsi, Allah evində məsciddə hansı hal ilə zərbətlənməsi və şəhadətə yetməsi, sevimli peyğəmbərimizin layiqli vəsisi olması və onun İslamda olan qəhrəmanlıq salnamələri haqqında geniş və ətraflı məlumat verilmişdir.

Üçüncü babda Peyğəmbərin sevimli qızı Fatimeyi-Zəhra əlehas-salamın atasından sonra hansı müsibətlərə düçar olmasından və başına gələn dözülməz mərhumiyyətlərdən geniş və hər tərəfli danışılmış və vəfat etməyinə neçə səbəbin olması qeyd edilmişdir.

Dördüncü babda isə həzrəti İmam Həsən əleyhis-salamın şərəfli həyat yolu, fəzilətləri, başına gələn böyük müsibətləri bir neçə mərhələdə işıqlandırılmış və geniş şərh olunmuşdur.

Kitab Hacı Molla Məhəmməd Naxçıvaninin sonuncu yaradıcılıq nümunəsi olmuş və onunla da elmi fəaliyyətinin, o cümlədən həyat prosesinin tamamlanmasına səbəb olmuşdur. Əsərin yazılış nümunəsi XII əsrdən etibarən işlədilən Firdovsinin, Sədi Şirazinin, Nizami Gəncəvinin və s. şairlərin divanların yazdıqları şikəstə xətti ilə yazılmış və vərəqlərin kənarında iki qara xətt dördbucaq çəkilərək içərisində yazılmış və kitabın ümumi həcmi 546 səhfədən ibarətdir. Hər bir səhfənin yuxarı hissəsində xüsusi formada işlənmiş damaların içərisində qara nəstəliq xətti ilə hadisələrin adları xüsusi qeyd edilmiş və səhfələrin kənarlarında mövzuya aid bəzi cümlə və ya sözlər əlavə

yazılaraq öz nümunəvi gözəlliyini biruzə vermişdir. Azərbaycan mətnşünaslıq elmində milli-mənəvi və dini-əxlaqi dəyərlərimizi zənginləşdirən əlyazma mətnlərdə Naxçıvan mütəfəkkirlərinin əməyi əvəzedilməzdir.

Bütün bu mühüm xüsusiyyətlərin məntiqi nəticəsidir ki, milli dəyərlərimizin qorunub saxlanılmasında böyük əhəmiyyət kəsb edən Naxçıvan əlyazma mətnləri və onlarda rast gəlinən, milli dəyərlərimizi zənginləşdirən amillərə, əməyə, həyata, təbiətə məhəbbəti göstərən dini-əxlaqi dəyərlər öz ruhuna, mahiyyətinə uyğun ənənəvi, nəcib, mütərəqqi xüsusiyyət və keyfiyyətləri ilə zənginləşmişdir. Şübhəsiz ki, doğma Naxçıvanımızın qoruyub saxladığı müqəddəs düşüncə məfkurəsini daha da möhkəmləndirəcək dəyərli əlyazma mətnləri dünya sivilizasiyasının başlanğıcı hesab edilən müasir Naxçıvanda milli təfəkkürümüzün və milli-mənəvi dəyərlərimizin parlaq təcəssümünə çevriləcək. Hesab edirik ki, Hacı Molla Məhəmməd Naxçıvaninin "Qürrətul-Əbsar" əsərinin tədqiqi milli-mənəvi dəyərlərin qorunması, milli şüurumuzun, dini-əxlaqi proseslərin qorunub saxlanılması və inkişafı baxımından çox əhəmiyyətlidir. Çünki hər bir dövlətin intellekual səviyyəsi onun başlıca geosiyasi gücünün amilidir. Bu amillər isə Azərbaycan xalqının mədəniyyəti, dini, elmi və təhsilidir ki, bu da ən böyük milli-mənəvi dəyərlərdir.

## ƏLYAZMA MƏTNLƏRDƏ NAXÇIVAN ATABƏYLƏR DÖVRÜNÜN TİBB ELMİ

*Araşdırılan əsərlər, ulu öndər Heydər Əliyevin Naxçıvan ədəbi mühiti üçün ən zəruri hesab edilən əlyazma qaynaqlarının dərindən öyrənilməsi istiqamətində yaratdığı real şəraitin nəticəsində əldə olunan mənbələrdən, xüsusən Orta əsr Azərbaycan Atabəylər Dövlətinin tarixini araşdırıb xəbər verən Sədrəddin Əbul Həsən Əli ibn Əbul Fəvaris Nasir ibn Əli əl-Hüseyninin "Səlcuq əmir və hökmdarlarından xəbərlər verən tarixlərin qaymağı" adlı əlyazma əsəri olduqca maraqlı və Naxçıvan üçün əhəmiyyətli olan mənbələrdən istifadə edilmişdir. Həmçinin Azərbaycan Atabəylər Dövlətinin siyasi hadisələri haqqında bizə gərəkli olan əsas məlumat qaynağını verən İzzəddin Əbül Həsən Əli ibn Məhəmməd ibn əl-Əsirinin Şərq aləmində məşhur olan çoxcildlik əsəri – "Mükəmməl tarix" kitabından müəyyən qaynaqlar əldə edilmişdir.*

*Bununla belə, Azərbaycan Atabəylər Dövlətinin mühüm xüsusiyyətlərindən biri də o olmuşdur ki, tibb elminin inkişafı naminə əvəzedilməz addımlar atılmış və nəticədə də lazımı nəaliyyətlər əldə olunmuşdur. Buna bariz nümunə olaraq onu qeyd etmək olar ki, orta əsr tibb elmində sayılıb seçilə bilən əsərlərdən biri məhz "Müxtəsər tibb" əsəridir ki, şəxsən Azərbaycan Atabəylər Dövlətinin hökmdarı Qızıl Arslanın tapşırığı ilə yazılmışdır. Bu baxımdan əlyazma mətnlərdə Naxçıvan Atabəylər dövrünün tibb elmi kifayət qədər inkişaf etmiş və böyük təkamül yolu keçdiyi haqqında geniş məlumat verilmişdir.*

Məlumdur ki, zəngin dövlətçilik tarixinə malik olan orta əsr Azərbaycan Atabəylər Dövlətinin əsas xüsusiyyətlərini əldə etmək üçün bəzi məxəzlərdən materialların araşdırılması və onların tədqiqatı bir çox çətinliklərlə bağlıdır. Tarixi hadisələrin cərəyanını bərpa etmək üçün ərəb, fars dillərində yazmış orta əsr müəlliflərinin əlyazma mətnlərinin bir birilə müqayisə etmək, onları numizmatika və epiqrafikanın dəlilləri ilə yoxlayıb dəqiqləşdirmək lazım gəlir. Bu vaxta qədər Azərbaycan Atabəylər

Dövlətinin siyasi tarixindən və tibb elminə göstərdiyi qayğıdan, ələlxüsus o dövrün müalicə üsullarından və həmçinin ayrı-ayrı hadisələr dəqiq surətdə öyrənilməmiş, ümumi vəsaitlərdə isə oxucu bu dövlətin yalnız qısa ümumi oçerkinə rast gələ bilərdi. Ona görə də tədqiqatın əsas məqsəd və istiqaməti orta əsr Azərbaycan Atabəylər Dövlətinin tibb elminə göstərdiyi qayğı, təbii üsullarla müalicə qaydaları, məhz həmin dövrdə Azərbaycanda mədəni inkişafın çoxcəhətli təzahürünə yalnız qısa nəzər salmağa imkan verir.

Orta əsr Azərbaycan Atabəylər Dövlətinin tarixini araşdırıb xəbər verən Sədrəddin Əbul Həsən Əli ibn Əbul Fəvaris Nasir ibn Əli əl-Hüseyninin "Zubdat ət-təvarix fi əxbar əl-umara vəl-muluk Əs-Səlcuqiyyə" ("Səlcuq əmir və hökmdarlarından xəbərlər verən tarixlərin qaymağı") adlı əlyazma əsəri olduqca maraqlı və Naxçıvan üçün əhəmiyyətlidir.

Daha bir tədqiqatçı alim XII əsrin ikinci yarısında baş verən Azərbaycan Atabəylər Dövlətinin siyasi hadisələri haqqında bizə gərəkli olan əsas məlumat qaynağını verən İzzəddin Əbül Həsən Əli ibn Məhəmməd ibn əl-Əsiri (1160-1233) olmuşdur. Onun Şərq aləmində məşhur olan çoxcildlik əsəri – "Əl-Kamal fit-tarix" ("Mükəmməl tarix") olmuşdur.

İbn əl-Əsir tarixi hadisələri qiymətləndirərək elmə, təhsilə, mədəniyyətə, həmçinin o dövr üçün böyük əhəmiyyət kəsb edən təbii üsulların müalicəsini ətraflı verməklə və onları birmənalı düzgün qiymətləndirməkdə orta əsr ərəbdilli tarixçilər, o cümlədən öz müasirləri arasında başqalarından daha çox tanınır.

Şərq dünyasında tanınmış alim – adət ənənələri dərindən bilən, tarixçi, Əbül Fərəc Əbdürrəhman ibn əl-Cövzinin (1114-1200) " Əl-Muntəzəm fi tarix əl-muluk vali umam" ("Hökmdarların və millətlərin tənzimləşdirilmiş tarixi") əsərində, maraqlandığımız dövrün hadisələrinin həddən artıq yığcam verilməsinə baxmayaraq, bizim üçün heç də az əhəmiyyət kəsb etmir. Bu əsər əsasən xilafətin 1179-cu ilə qədərki tarixini illər üzrə ardıcıl təqdim edir. Hər ildə baş verən hadisələr ardıcıl

göstərilməklə yanaşı, həmin ildə vəfat etmiş tanınmış elm adamların haqqında da yığcam məlumat verilir.

Bu bir həqiqətdir ki, Azərbaycan Atabəylər Dövləti tarixində hər bir sahədə olduğu kimi elm sahəsində də böyük intibah dövrü olmuşdur. Bu elm sahəsində əsasən tibb elmi böyük inkişaf etmişdir. Təbii üsullarla müalicə demək olar dövrün ən böyük inkişaf mərhələlərindən biri olmuşdur. O, dövrdə Azərbaycanın müalicə suları çox məşhur idi. Əlbətdə, orta əsr müəllifləri həmin suların real təsiri haqqında öz müşahidələrini təsvir etmir, yalnız müasirlərinin fikirlərini bildirir. Lakin, şübhəsiz ki, onların bir çox məlumatları çoxillik təcrübəyə əsaslanmışdır.

"Bəzzdə və Ərdəbildə qoturluğu (keçəlliyi) və kök salmış qızdırma xəstəliyini müalicə edən isti bulaqlar olmuşdur. Salmasda qoturluğu və cüzamı müalicə edən bulaqlar var imiş. Əbu Dulaf və Yaqut belə bulaqlardan biri – Zəravənd haqqında yazırlar: "Üstü örtülmüş və bitişmiş yarası olan adamı və ya heyvanı həmin bulağa salsalar, altında zəifləmiş sümüklər, gizlənmiş şüşə qırıqları və dərinə batmış tikan olan yaraların ağızları açılır və oradan irin, çirk axmağa başlayır. Təmizlənmiş yaralar qovuşur və insan bu bəladan xilas olur. Mən bir adam tanıyırdım, onu həmin bulağa aparmaq istəyirdim. Onun xəstəlikləri keçəllik, xənazir, sancı, dəmirov, baldırlarında ağrı və daima onu narahat edən və qızdırma gətirən oynaqlarındakı zəiflik idi. Bundan əlavə onun bədənində ox qalmışdı. Oxun ucu ətə batmışdı. Biz qorxurduq ki, bir gün səhər və ya axşam ox onun qara ciyərini deşəcək . O, üç gün (bulağın suyunda) oldu və ox onun böyründən çıxdı" (22, s. 207).

Həmin dövrdə müalicəvi suların əhəmiyyəti olduqca zəruri idi. Çünki tibb elminin bir o qədər də inkişaf etməməsi ərəfədə müalicə olunmaq ancaq təbii üsullarla aparılmış və insanlara ilk tibbi yardım edilmişdir. Bununla əlaqədar "Əbu Dulaf həmçinin qeyd edir ki, bu bulağın yanından soyuq su axır və əgər adam onu içsə, özünü boğaz iltihabından, dalağın nazik damarlarının genişlənməsindən təhlükəsizləşdirilmiş olar və asanlıqla öd

kisəsini yaxşılaşdırar. Əgər görmə qabiliyyəti pis olan adam həmin bulağın soyuq suyu ilə gözlərini islatsa, onda o, yaxşı görəcək, həmin bulağın gilini (palçığını, lilini) iyləyən adamın gözləri isə qar korluğu (qara baxa bilməmə) xəstəliyinə məruz qalmayacaqdır. Əgər bu bulağa heyvan girsə, onda nə o, nə də balaları qoturluq tutmayacaqlar" (22, s. 208).

Azərbaycan Atabəylər Dövlətində atabəy Şəmsəddin Eldənizin daimi yaşayış yeri olan Naxçıvan vilayətinin torpaqları tac (xass) torpağı idi. Həmçinin atabəyin ixtiyarında olan Rey öz ətrafı ilə, Həmədan vilayəti, Gəncə, Beyləqan, Şəmkur və Şutur, Ərdəbil, Salmas, Urmiya, Xoy əyalətləri də onun xass torpaqları sırasında idi. Bu torpaqların hər birində fərqli-fərqli müalicəvi sular mövcud idi. "Xoy yaxınlığında Qotur adlı bulaq var idi, onun suyu qızdırma xəstəliyinə kömək edirdi. Burada, Vəşələ kəndi yaxınlığında isə bulaq vardır, kim onun suyunu içsə, dərhal qarnı işləyər və onun mədəsində nə varsa, hamısı boşalar. Əgər o, hətta azacıq çörək yeyib həmin sudan içsə, yenə də dərhal qarnı işləyəcək" (22, s. 208).

"Marağada çoxlu isti bulaqlar vardır, şillər və əlillər çimmək üçün ora gəlirlər" (22, s. 208).

O cümlədən Naxçıvanın Culfa ərazisində yerləşən "Darıdağ" dağı ətəyində yerləşən "Şorsu " deyilən bulağın isti şəkildə qaynayıb daşması böyük müalicəvi əhəmiyyətə malik idi. Ayaq ağrılarının, duzlaşmanın, hər hansı bir oynaq xəstəliklərinin müalicəsi üçün olduqca yararlı idi. Həmçinin dağın digər bir tərəfində, yəni qərb hissəsində yerləşən "Narzan" mineral suyu mədə və mədəaltı vəzlərin müalicəsi üçün çox əhəmiyyətli olmuşdur.

"Təbrizin yaxınlığında kükürd hamamları vardır ki, onların heyrətamiz faydalı xassələri vardır. Xəstələnənlər və xroniki xəstəliyi olan adamlar ora gedirlər. Təbriz kəndlərindən birində bulaq var imiş. Əgər onun suyunda bir şey bişirib, həlimi içsələr, onda bişmişin suyu işlətmə vəsaiti kimi mədəyə əla təsir edirdi" (22, s. 208).

Həmçinin Azərbaycanın digər bölgələrində də belənki müalicəvi suların mövcud olması inkaredilməzdir. "Gəncənin yaxınlığındakı dağlarda mövz və ya xar (tut) adlanan bitki var idi. O, Suriya tutuna oxşayır və qara ciyər ağrısını sakitləşdirir. Gəncə və Şirvandan başqa o heç yerdə yoxdur" (22, s. 208).

Ən önəmlisi budur ki, ot bitkilərindən, otların yarpaqlarından, xaşalarından, çiçəklərindən və zoğlarından olduqca çox istifadə olunub. "Şirvanda "tülkü xayası" (enliyarpaqlı səhləb) adlanan qəribə bitki var idi. Bitki iki yumurtacığa oxşayır: biri solğun, digəri təzə. Solğun cinsiyyət potensialını zəiflədir, təzə isə onu qüvvələndirir" (22, s. 208).

Azərbaycan Atabəylər Dövlətinin mühüm xüsusiyyətlərindən biri də odur ki, tibb elminin inkişafı naminə əvəzedilməz addımlar atmış və bunlarada lazımı səviyyədə nail olmuşlar. Buna bariz nümunə olaraq onu qeyd edə bilərik ki, orta əsr tibb elmində sayılıb seçilə bilən əsərlərdən biri məhz "Müxtəsər tibb" əsəridir ki, şəxsən Azərbaycan Atabəylər Dövlətinin hökmdarı Qızıl Arslanın tapşırığı ilə yazılmışdır. Müəllif əsəri əsas etibarilə iki böyük hissəyə bölmüşdür:

1. Təbabətin nəzəri cəhətləri.
2. Təbabətin əməli cəhətləri.

Əsərdə təbabətin nəzəri cəhətləri 7 bəhsdən ibarət olub, hər bir bəhs bir neçə fəsillərə bölünmüşdür.

Birinci bəhsdə havanın əhəmiyyəti, ilin ayrı-ayrı mövsümündə hansı yeməklərin faydalı olması, insanın sağlam yaşaması üçün təbii şərait, geyim üsulları, içməli suyun növləri, şərabın orqanizmə müsbət və mənfi təsiri, yuxu və yuxusuzluq haqqında, hərəkət və sakitliyin əhəmiyyəti, işlətmə dərmanları və sair vasitələrlə istifadə eləmək, hissiyatdan əmələ gələn xəstəliklər və onların müalicəsindən danışılır.

Burada həmçinin qocalıq və bu zaman səhhətin hifz olunma yolları və nəhayət, müsafirlər haqqında qanunlar və məsləhətlər qeyd olunmuşdur.

II bəhs 7 fəsildən ibarətdir. Bu bəhsdə xəstəliyi təyin etmək, xəstəliyi törədən amillər, xəstəliyin böhranı, xəstəliyin

qabaqcadan müəyyən edilməsi və onun əmələ gəlməsini əvvəldən bildirən əlamətlər, nəhayət, xəstəliyin ölüm hadisəsilə nəticələnəcəyini müəyyənləşdirmək hallarından danışılır.

Bunlardan başqa, bu bəhsdə baş və beyin, göz, qulaq, burun, ağız, diş, zökəm, nüzlə, ciyərlərin iltihabı; ürək, ciyər, mədə, isal, qulunc, məqəd, dalaq, sarılıq, istisqa; dəri-zöhrəvi xəstəlikləri, qadın xəstəlikləri, yel, isitmə, yara, şiş, sümük sınması və zəhərlənmənin müalicəsindən danışılır.

Əsərin həcmi heçdə çox olmayan 125 vərəq olmasına baxmayaraq cəlbedici və böyük əhəmiyyətə malikdir.

Həmçinin o dövr tibb aləmi üçün qiymətli sayılan Əbu Əli ibn Sina əsərləri diqqətdən kənar deyildi. Onun "Qanun", "Əl-mücəllidüs-sani min -əl-qanun fi-t-tibb" tibbə aid olan əsərləri tam geniş mənada işıqlandırılmış və istifadə edilmişdir. Azərbaycan Atabəylər Dövləti tarixində böyük nüfuz qazanmış filosof və təbib Nəcməddin Əhməd ibn Əbubəkr Naxçıvani məhz tibb elminin bilicisi olmuşdur. O, Naxçıvanda fəlsəfənin və təbiət elmlərini dərindən öyrənməklə mənimsəmişdir. İbn Sinanın əsərləri ilə yaxından tanış olan Naxçıvani "Tənasüx" təliminə güclü meyl göstərmişir. "Filosofun "Məntiqin məğzi və fəlsəfənin xülasəsi" ("Lübab əl-məntiq və xülasət əl-hikmət") traktatının bir əlyazması Nəcəf (İraq) şəhərində mühafizə edilir. Onun İbn Sinanın "Tibb qanunu" ("əl-Qanun fi-tibb") kitabına yazdığı şərh Parisdə, "İşarələr və qeydlər" ("əl-İşarət vət-təlbihat") kitabına yazdığı şərh İstanbulda saxlanılır" (8, s. 303).

Naxçıvanın böyük tanınmış filosof və təbibi, həmçinin böyük mütəfəkkir aliminin qədim Naxçıvan torpağında dünyaya göz açması haqqında Məhəmməd Baqir Xansari yazmışdır. O qeyd edərək deyir: "O, böyük şəxsiyyət Naxçıvan şəhərindən idi və ibn Sinanın əsərlərinə şərhlər yazırdı" (23, s. 36).

Azərbaycan Atabəylər Dövlətinin hakimiyyəti dövründə ölkədə bir çox görkəmli həkimlər işləyərək fəaliyyət göstərirdilər. Hətta bunların bəziləri barəsində mənbələr çox maraqlı məlumatlar mühafizə edib saxlamışdır. Onlardan biri, islam dinini qəbul etmiş Samuil ibn Yəhya ibn Abbas əl-Məqribi əl-

Əndəlusidir. Bağdadda həkimlik sənətinə yiyələnməklə təbiblik edir. Sonra isə o, Naxçıvana köçür və Atabəy Pəhləvanın sarayına və onun dövlətinin əmirlərinə xidmət göstərir.

O dövrün tanınmış görkəmli həkimlərindən biri də Cəlaləddin Təbib idi. O, dünyanın misilsiz həkimlərindən biri olmuşdur. Naxçıvan atabəyi Özbək ibn Məhəmməd ibn Eldənizin yanında layiqli xidmət edir və heç vaxt ondan ayrılmır.

Atabəy Özbək onun haqqında deyirdi: "Mənim həyatımı saxlayan bu adamdır. O, yalnız xəstələnənlərin möcüzəli şəfavericisi deyil. O, xəstəliyi əvvəlcədən təyin edir və o dərəcədə dava-dərman hazırlayır ki, onlar tam mənasında müalicə edir. Onun varlığı insanlara hədsiz xeyir verir və sonralar ona bənzər heç bir həkim yetişməmişdir" (22, s. 229).

Həmin dövrün görkəmli tanınmış həkimlərindən biri İbn Habal ləqəbi ilə məşhur olmuş Əli ibn Əhməd Əbdül-Hüseyn olmuşdur ki, o, da öz növbəsində Naxçıvana köçmüş və təbiblik etmişdir.

Orta əsr Azərbaycan Atabəylər Dövləti tarixində məşhur təbibliyi ilə tanınan Naxçıvan torpağının yetirməsi həkim Fəxrəddin Əbu Abdulla Əhməd ibn Ərəbşah ibn Əli ibn Cəbrail ən-Naxçıvani fəaliyyət göstərirdi.

Sözsüz ki, Xaqani Şirvanini də müalicə etmək üçün atabəy Qızıl Arslan Naxçıvandan ona görkəmli tanınmış həkim Fazil Rəşidəddin Məcd əl-Hükəma Şərəf əş-Şirvan Mahmud ət-Təbibi göndərmişdir.

Həmçinin Azərbaycan Atabəylər Dövləti tarixində mühüm nəaliyyətlər əldə etmiş, tibb elminin bilicisi, görkəmli həkimlərdən biri də Mövlana Cəlaləddin ər-Ruminin yaxın dostu və eyni zamanda müalicə həkimi Əkmələddin ən-Naxçıvani idi. Hətta həkim Əkmələddin ən-Naxçıvanini orta əsrlərdə yazılmış əsərlərdən birinin müəllifi onu "Müdriklərin ağası, dünya həkimlərinin rəisi" (22, s. 229) və bir çox başqa təmtəraqlı ləqəblərlə adlandırmışlar. Həqiqətən o, öz növbəsində təbabətin sirlərini öyrənmiş və layiqincə həyata keçirmişdir.

Ümumiyyətlə orta əsr tibb elmi intibahının yararlanması bir başa Azərbaycan Atabəylər Dövlətinin qayğısı və diqqəti nəticəsində həyata keçirilmişdir. Ona görə də orta əsr təbiblərinin əsərləri və xalq təbabətinə aid Azərbaycan, fars və ərəb dillərində təxminən 350-dən çox əlyazma mətnləri və çap kitabları mövcuddur ki, bunların əksəriyyətinin yazılış tarixi lap qədimlərə gedib çıxır. Bu da öz növbəsində Azərbaycan Atabəylər Dövləti tarixində orta əsr tibb elminə, təbabətin gerçəkliyinə, təbii müalicə üsullarının müxtəlifliyinə və təbiblərin gələcək inkişafı naminə yaratdığı mühüm əhəmiyyətin olması deməkdir.

## XII ƏSR NAXÇIVAN ƏDƏBİ MÜHİTİNİN ƏN QİYMƏTLİ ƏSƏRLƏRİNDƏN OLAN "MUNİSNAMƏ"

*Bu yarımbaşlıqda, ümummilli lider Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə göstərdiyi qayğının bariz nümunəsi kimi əldə edilmiş və eyni zamanda Naxçıvan üçün mühüm əhəmiyyət kəsb edilən XII əsrdə Azərbaycan Atabəylər Dövlətinin sarayında qələmə alınan "Munisnamə" əsəri haqqında məlumatın verilməsi, müəllifin əsərə giriş yazısı və öz dövrünün zəngin ədəbi mühitindən xəbər verməsi açıqlanmışdır. Əsərin müəyyən giriş hissələrinin tərcüməsi verilərək – "Böyük hökmdar, islam padşahı, əzəmətli atabəy sülhsevər Xosrov, xoşbəxt rəhbər, dünyanın mütləq Darası, islam və müsəlmanların dayağı Xaqan Əcəm Nüsrətəddin vəd-dövlənin Allah onların köməkçilərini xoşbəxt etsin, onun sultanlıq hakimiyyətini əbədi etsin, Məhşər günündə onu üzüağ etsin, onun şöhrətini, ağ günlərini artırsın, onun hökmranlığı və padşahlığını əbədi etsin" deyə mədh edilir. Sonra sözün şirinliyindən danışılaraq, sözləri qızıl qum, yaxud xam ipək adlandırmışdır.*

*Sonra müəllif Əbu Bəkr ibn Xosrov əl-Ustad "Bu kitabın yazılmasında iltifatına görə – mən Naxçıvan atabəyləri, Eldəniz tayfasının hökmdar və şahzadələrinə təşəkkür edirəm və mənim yüksək hakimlərimdən bəziləri çox zaman yüksək enerji sərf etdiklərindən və zehinləri yorulduğundan hesab edirəm ki, buna görə də nəsr onlar üçün məqbuldur, yəni nəsri tez mənimsəyirlər. Ona görə də mən, bu kitabın əsasını nəsrlə qoydum. Mən bu kitabı nəsrlə yazdım və ümüd edirəm ki, onun adı zamanın səhifələrində qalacaqdır" deyə öz minnətdarlığını bildirmişdir.*

Milli-mənəvi sərvətimiz olan əlyazma mətnləri təkcə elmi-tədqiqat sahəsini əhatə etməklə kifayətlənmir, həmçinin dini-əxlaqi dəyərlərin tarixi mənbəyi kimi əsas tutularaq istifadə olunur. Ərəb, fars və azərbaycan dillərində əski əlifbası ilə yazılmış əlyazmalarda ibrətamiz kəlamlar milli mentalitetimizin tarixi keçmişini özündə əks etdirir. Bu əlyazma mətnlər tərcümə olunduqca bir daha öz zənginliyini biruzə verir.

Naxçıvan Atabəylər mühitini Azərbaycan yazıçıları və şairləri arasında Nizaminin həmfikiri və həmyerlisi Əbu Bəkr Xosrov oğlu müstəsna maraq kəsb edir. Onun yaradıcılığı indiyədək öyrənilməmiş, tədqiqatçıların və oxucuların öhdəsinə çatmamışdır. Yalnız əsər 1990-cı ildə professor Rüstəm Əliyev tərəfindən araşdırılaraq, rus dilinə tərcümə edilmişdir. Məsələ burasındadır ki, deməcək olar son ana qədər Əbu Bəkr ibn Xosrov əl-Ustadın mövcud olması haqqında fakt elmə məlum deyildi. Çünki, onun əsərlərinin əksəriyyəti bizə gəlib çatmamışdır. Onun baş əsəri "Munisnamə"nin yeganə əlyazması Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi ərəfəsində 1920-ci ilin aprelində şairin yaşadığı doğma Naxçıvan diyarından çıxarılaraq Ingiltərəyə aparılmışdır və orada Britaniya muzeyinə "Min bir gecə" adı altında satılmış, burada 50 il toxunulmaz qalmışdır. Bu əlyazmanın təvsirində ingilis alimi Q.M.Meredit – Ouns müəyyən etmişdir ki, bunun "Min bir gecə"yə bilavasitə aidiyyatı olmayıb, "Munisnamə" ("Qadının kitabı") adlı orijinal naməlum əsərin siyahısıdır. Q.M.Meredit – Ouns "Munisnamə"nin qısa izahını (təvsirini) hazırladı və onu 1974-cü ildə Edinburqda "İran və İslam" məcmuəsində nəşr etdirdi.

Hal-hazırda M.Füzuli adına Əlyazmalar İnstitutunda yüksək səviyyədə saxlanılan "Munisnamə" əsərinin Naxçıvana aid olan bir hissəsi yenidən foto surət edilərək AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fonduna gətirilmişdir.

"Munisnamə" hələlik öz müəllifinin həyat və yaradıcılığı haqqında yeganə məlumatlar mənbəyidir. Bu məlumatlar qısaca olaraq aşağıdakılardır.

Əbu Bəkr Xosrov oğlu təxminən 1240-cı ildə Gəncədə anadan olmuşdur. Nizami kimi o da, təhsilini doğma şəhərində almış və elmdə böyük nailiyyətlərə çatmışdır.

O, qeyri-adi şair və yazıçı istedadına malik idi. Öz şeirləri ilə, öz zamanının fənnləri əhatəsində geniş biliklərə malik olması ilə həmçinin böyük pedoqoji talantına görə (O Gəncənin baş mədrəsəsində dərs deyirdi) Əbu Bəkr Naxçıvan Atabəylərin diqqətini tezliklə özünə cəlb etdi. Onlar da onu Naxçıvana dəvət

edib, gənc şahzadələrinə (uşaqlarına) müəllim və tərbiyəçi təyin etdilər. Əbu Bəkr tezliklə Naxçıvan Atabəylərin etimadını, hörmətini qazandı, 30 ildən artıq ona etibar edilmiş vəzifələri müvəffəqiyyətlə yerinə yetirdi və əl-Ustad (baş müəllim, bilici) titulunu qazandı. Bir sıra faktlar fikirləşməyə imkan verir ki, Əbu Bəkr Nizami ilə yaxşı tanış idi və onunla dostluq edirdi. Əbu Bəkr 6 poema yazmışdı və onların hamısını Naxçıvan Atabəyləri olan Məhəmməd Cahan Pəhləvana, Qızıl Arslana və Əbu Bəkr Nüsrətəddinə həsr etmişdir. Naxçıvan Atabəylərinə Nizami də öz "Xosrov və Şirin" və "İsgəndərnamə"sini həsr etmişdir.

"Munisnamə"ni yaradana qədər öz yaradıcılıq fəaliyyəti haqqında danışaraq Ustad Əbu Bəkr yazırdı: "Buna qədər dünyasını dəyişən və indi yaşayan hökmdarlara həsr olunmuş bir neçə mənzum əsər yazmışam.(2, s. 228) Sonra Ustad Əbu Bəkrin dediklərindən bilavasitə görünür ki, "Munisnamə"yə qədər o, aşağıdakıları yaratmışdır.

1) "Mənsur və Mərcan" poeması. Görünür ki, bu müəllifin Atabəy Məhəmməd Cahan Pəhləvana həsr etdiyi ən böyük mənzum əseridir.

2) Qızıl Arslana həsr olunan "Sənəm və Əcəm" poeması.

3) "Mehr və müştəri" poeması. Bu əsər qurtardıqdan sonra müəllif "Munisnamə"nin yaradılmasına başlamışdır (təxminən 1196-97-ci illərdə) və onu heç kəsə həsr edə bilmədi.

Bu poemaların adlarından görünür ki, onlardan birinci ikisində Nizaminin "Leyli və Məcnun", "Xosrov və Şirin" poemalarında olduğu kimi iki aşiqin məhəbbət tarixi və macərası təsvir olunurdu.

Görünür ki, əxlaqi hekayə olan "Mehr və müştəri" istisna idi. Bizə bu adda Azərbaycan şairi Əssar Təbrizinin XVI əsrdə yazdığı əsər gəlib çatmışdır. Özünün eyni adlı poemasında Əssar Təbrizi iki gəncin fədakar dostluğunu və onların payına düşən iztirabları təsvir edir.

4) Əbu Bəkrin "Nakizəye kitabi Əlfiyyə və Şəlfiyyə "adlanan dördüncü əsəri olduqca maraqlıdır." Nakizə" sözünü müxtəlif cür izah etmək olar. O, 1) əksilik, 2) ziddiyyət, etiraz,

tənqid və 3) antonim mənalarını verir. Qeyd edək ki, bu poema Qızıl Arslana həsr olunmuşdur, bu kitab çox lazımlı və xoşagələn bir kitab oldu. Bu kitab müsəlman cəmiyyətinin mənəviyyatını və yüksək əxlaqi prinsiplərini şöhrətləndirən didaktik poema ola bilən pilləyə yüksələ bildi.

5) Ustad Əbu Bəkrin beşinci poetik əsəri "Rahət əs-Sudur", başqa formada "Rahət ər-Ruh" ("Qəlbin rahatlığı üçün" və ya "Ruhun rahatlığı naminə" adlanırdı. O, bunu özünün sabiq şagirdinə, sonra isə hökmdar atabəy Əbu Bəkr Nüsrətəddinə həsr etdi. Ehtimal etmək olar ki, "Rahət ər-Ruh" didaktik nəsihət, öyüd və aforizmilərlə təchiz edilmiş əyləncəli poetik novella və nağıllardan ibarət məcmuəni təmsil edirdi.

6) Əbu Bəkr ibn Xosrov əl-Ustadın altıncı поeması «Nüzhət əl-Məcalis» (məclislərin ləzzəti) əsərin məzmunu qızla oğlan arasında olan mübahisədən ibarətdir. Əsər mükalimə (dialoq) janrında yazılmışdır. Bu janrın Şərq ədəbiyyatında Ən böyük ustadı Əsədi Tusi sayılır. Azərbaycan ədəbiyyatında isə həmin janrın banisi Əbu Bəkr sayılır. Şair bu əsərini də Nüsrətəddinə həsr etmişdir.

Ustad Əbu Bəkrin bütün göstərilən əsərləri ya bizə qədər gəlib çatmamış, ya da onların əlyazmaları, məzmunu hələ kataloqlaşdırılmamış kitab saxlanılan yerlərdən birindədir.

Xoşbəxtlikdən indi bizim əlimizdə Ustad Əbu Bəkrin başlıca yaradıcılıq məhsulu olan "Munisnamə" vardır. Bu əsər nəinki Azərbaycanın, həmçinin bütün Yaxın və Orta Şərqin farsdilli ədəbiyyatının qafiyəli bədii prozanın ilk məşhur nümunəsidir. "Munisnamə" əyləncəli, realistliyi və qəribə povest, novella, hekayə, aforizm və kəlamların məcmusudur ki, bunların da məzmununa müəllifin özünün və digər şairlərin əsərlərindən sitatlar və çoxlu şeir parçaları daxil edilmişdir. Əyləncəli incə yumor dolu hekayə və novellalarda Əbu Bəkr ibn Xosrov əl-Ustad öz müasirlərinin yüksək bədii obrazlarının bütöv qalereyasını yaratmış, orta əsr Azərbaycan, xüsusən Naxçıvan, Gəncə, Gürcüstan və onun paytaxtı Tiflis (Xaraşna) həmçinin o zamanın

müsəlman xilafətinin mərkəzi olan Bağdadın həyatını real mənzərəsini vermişdir.

"Munisnamə" fars dilinin o zaman ədəbi dil olduğu Azərbaycan, İran və digər həmsərhəd ölkələrdə sonrakı bədii nəsrin (qafiyələnmiş və yüksək üslublu) meydana çıxmasının əsasını qoymuşdur.

Sonra əl-Ustad, Nizami kimi poetik nitqi prozaik nitqilə müqayisə edərək və poeziyaya üstünlük vermiş onu "Munisnamə" ni nəsrlə şərh etməyə məcbur edən obyektiv səbəbləri izah edir.

"Mən istədim ki, - deyə o yazırdı – mənə yaxşılıq edən hökmdarların və şahzadələrin (Eldəniz Naxçıvan Atabəylər tayfasından) yaratdığı şəraitin əvəzini vermək istərdim və bu kitabın nəsrlə yazılmasını ona görə etdim ki, mənim hökmdarlarımdan bir qismi çox zaman qeyri müəyyən halda olur və buna görə də nəsr onların işinə daha çox yarayır, zira onlar əsəri "nəsr" ilə daha yaxşı mənimsəyirlər.

"Munisnamə" on yeddi fəsildən ibarətdir və bunlardan fikrimizcə ən çox bədii cəhətdən qiymətlisi V, VII, XVII fəsillərdir. V fəsil məşhur Məhəmməd Qəzzalinin qardaşı Əhməd Qəzzalinin bizə gəlib çatmayan "Məntiq ət-Teyr" (Quşların nitqi) traktatıdır. Bu əsər haqqında orta əsirlər xronikası və şairlərin antologiyasına aid xəbərlərdən məlumdur, lakin onun əlyazması heç bir kataloqda qeyd olunmamışdır. İndi əl-Ustadın sayəsində bu nadir əsərin tam mətninə malikik.

"Munisnamə" də klassik ədəbiyyatın məşhur abidəsi kimi başlıca bədii cəhətdən qiymətli fəsil XVII fəsildir, burada otuzdan artıq qissə, novella, hekayə və povest toplanmışdır. Bu povest və qissələrin yalnız təkcə adlarının sadalanması "Munisnamə" nin tematikasının nə qədər geniş diapozonlu və rəngarəng olduğunu göstərir.

"Munisnamə"nin hər bir povesti, hər bir qissəsi yüksək bədii qiymətə malikdir, lakin onların arasında elələri də vardır ki, öz bədii dəyərindən savayı XII əsr ədəbiyyatının tarixi haqqında çox maraqlı məlumatlar verir. Bu planda iyirminci (öz vəzirini adamyeyən itlərə atan şah haqqında nağıl) və iyirmi altıncı qissə

Əshabi-Kəhf və Dağ Yunus haqqında rəvayət daha diqqəti cəlb edən amillərdəndir. Çünki qədim tarixi keçmişə malik olan Əshabi-Kəhf doğma Naxçıvanımızda müqəddəs ziyarətəaha çevrilərək Milli-mənəvi, dini-əxlaqi dəyərlərimizi özündə əks etdirmişdir. Çünki ulu öndərimiz Heydər Əlirza oğlu Əliyev demişdir: ***"Hər bir xalqın adət-ənənələri, milli-mənəvi dəyərləri həmin xalqın mentalitetini, fəlsəfi-psixoloji xüsusiyyətlərini səciyyələndirir".*** Həmçinin 2001-ci il noyabrın 9-da tarixi bir gündə Dünya Azərbaycanlılarının 1-ci qurultayında azərbaycançılıq məfkurəsi haqqında demişdir. ***"Müstəqil Azərbaycan Dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı-Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaratmalıyıq".*** Qədim Naxçıvanın daş yaddaşı olan Əshabi-Kəhf (mağara sahibləri) kimi tarixə düşən, öz zamanının zülmkar padişahı olan Dağ Yunus haqqında rəvayətlərin əsaslı təsdiqi müqəddəs Qurani-Kərimin 18-ci surəsinin 9-cu ayəsindən başlayaraq 26-cı ayəsinə qədər izah və şərh edilməklə öz dolğunluğunu bir daha biruzə vermişdir. İyirmi doqquzuncu (Əbu Lüla Kirmani, onun oğlu, onların birgə Naxçıvana səfəri və onların başlarına gələn macaralar haqqında qissə) hekayələr diqqətəlayiqdir.

Həmçinin həzrəti Əlinin (ə) oğluna nəsihəti və bir neçə hikmətli kəlamları da əsərdə öz zəngin xüsusiyyətlərin biruzə vermişdir. Həzrəti Əli buyurur:

"Çoxlu qardaşlara sahib olun ki, onların sayəsində ucalasınız.

Həmişə öz adətinizə səxavət göstərin, çünki verən əl alan əldən daha yaxşıdır.

Qohum və yaxınlarınızı incitməyin, zira onları incidənlər sağ əli ilə öz sol əlini incidənlərə bənzərlər.

Sövdələşmə zamanı doğru-düzgün olun, çünki doğruçuluq var-dövlət, yalan isə kasıbçılıq gətirər.

Ana ağuşundan çıxan madyan əsl xəzinədir, çünki o, beli hər hansı bir atlı üçün nəzərdə tutulan dayçalar dünyaya gətirir.

Bu dünyada bəzi kəslər şirin-şirin yuxu yatır, digərləri isə onlar üçün çalışır və yatmırlar.

Xeyir əməllər və yaxşılıq insanın adını məhşər gününədək əbədiləşdirir.

Səni başqalarının asılılığından və ehtiyacdan xilas edən kiçicik yaşayış vəsaitləri səni Allahdan və qiyamət günü haqqında düşüncələrdən yayındıran var-dövləttədn yaxşıdır.

Sənin var-dövlətindən sənə yalnız yediyin və içdiyin, xərclədiyin, geyib istifadə etdiyin, yaxud insanlara sədəqə kimi payladıqların və bununla da qiyamət günü üçün özün haqqında yığdığın xeyirxah dəlillər məxsusdur.

Allah tərəfindən (seçilmiş) Allahdan ona salam və salavat olsun – tez-tez oxuduğu duada deyilir: "Allah sənə pənah gətirərək-məni heç kimə xeyir gətirməyən biliklərdən, Səndən qorxmayan ürəkdən, bu dünyanın nemətlərindən doymayan adamlardan və Sənə gəlib çatmayan dualardan xilas et".

Güclü və qüvvətli adam pəhləvanların kürəyini yerə vuran deyil, öz qəzəbini söndürən və ona üstün gələ biləndir.

İki xasiyyət insana bədbəxtlik gətirir, onların əsasını qəlbində həqq-təalaya ümidsizlik təşkil edir. Bu xasiyyətlərdən biri – xəsislikdir, çünki xəsis fikirləşir ki, əgər o, öz mülkündən, əmlakından bir qədərini sərf (xərc) etsə, Allah itirdiyinin əvəzini verməz, tamahkar isə hesab edir ki, o dünya nemətlərinin bu cür həsrətində olmasa, hərislik bu cür həsrətində olmasa, hərislik etməsə, onda Allah ona gündəlik ruzisini verməz.

Cahillərin sahib olduğu dünya nemətləri ayaqyolu üzərindən salınmaz təmtəraqlı qızılgül baxçasına bənzər.

İnsanlara həqiqətin yolunu göstərən əsl müdrik adam odur ki, onlara ümidsizliyə qapılmağa və Allahın mərhəmətinə ümidini itirməyə və onları günah yola düşməyə qoymasın.

Əli ibn Əbu Talib demişdir: Həyatda heç zaman heç kimə nə pislik, nə də yaxşılıq etməmişəm, çünki nə etmişəmsə özüm

üçün etmişəm, zira həm pis, həm də yaxşı əməllərin nəticəsi onların sahibinə qaytarılar.

Allah ağalıq etmək həsrətində olmayana firavanlıq və xoşbəxtlik verir".

Oğlu imam Hüseyn əleyhis-salama buyurduğu nəsihətdə isə deyir: "Ey qəlbimin sevinci, gözlərimin nuru!"

* * *

Öz dünyəvi işlərində sən axıracan,
Hər şeydə Allah tərəfində olacaqsan.

Həm sevinc nəşində, ixtilaflar odunda sakın,
Doğru danış, düzgünlük olsun dayağın.

Dolu xəzinəni xərcləyib çox dağıtma,
Dara düşəndə bardağı çox axıtma.

Doğrulara hörmət et, hamı üçün eynidir,
Həyat həm zahirdir, həm də batindir.

Hər hansı yanlışlıqda öz qədrini bil,
Həyatı dərk et, öz qəlbinin odu ilə nəfəs ala bil.

Sən hökmdarsan – nəsihətlər səndən gəlir,
Hər şeydən özün sən öncə səylə öyrən.

Başqalarını düz yola dəvət etməzdən əvvəl,
Təmizlik və doğruluq nümunəsi ol.

Ləyaqətini qoru, həm yadda saxla,
Ləyaqətsiz adamdan xeyir görməzsən əsla.

Öz günahlarını düzəltməyə hazır ol,
Başqaların günahından ğafil ol..

Özünə düşən paya qane olan kasıb olsa da,
Heç zaman qonşulara həsəd aparmaz ac olsada.

Quldurluq etmək üçün qılınc qaldıran adamı,
Talein göndərdiyi qılınc doğrar tez adamı.

Hər kəs öz yaxınına tələ qurarsa o zaman,
Qəflətən özü düşər tələni qurduğu zaman.

Öz işlərində kələkbaz, haramzadanı,
Tez toza döndərər dünyanın dəyirmanı.

Kim okeanın burluğanlı sularına atılarsa,
Suyun girdabında susuzluqdan ölmək istər.

Öz ağlına həddən artıq heyran olan kəs,
Düzgün yolda həmişə qala bilməz.

Özünü həmişə müdrik hesab edən adam,
Şübhəsiz sağalmaz xəstədi o adam.

Xalqa xor baxmağa cəsarət edən təkəbbürlü,
Iti qılınc başını bədənindən ayırar.

Xalqı haqsız yerə soyan və alçaldan adamlar,
Sərt hökmün taleindən qaça bilməzlər onlar.

Əyri yol keçmiş adam özünə yalnız zərər gətirər,
Çünki belə adamı heç bir rəy, fikir bağlamaz.

Kim cahillər cəmiyyətində sevinc, fərəh taparsa,
O adam yerdə kölə kimi sürünəcəkdir.

Kim özünə ağıllı və istedadlı dostlar seçsə əgər,
O, özü də belə əhatədə briliyyant kimi parıldar.

Kim ki, miskinlərlə oturub-durur, ünsiyyətdədir,
O, özü də bu dünyada avara-sərgərdan olacaq.

Fani dünyamız yalnız öz işini biləndir,
Yaxşı işlə məşğul olan adamları yad edər.

Dil boğaza qoymayıb həmişə naqqallıq edəni,
Gələcək nəsil axmaq adlandırar o gədəni.

Boşboğaz (naqqal) şərəfini və həyasını itirər,
Həyasız olan kəs isə artıq Allaha xidmət etməz.

Vicdansız, meyyit kimidir,
Onun qəlbi ölüdür, lakin o cəhənnəmə gedir.

Kim ki, adamların namusu, şərəfi narahat etmir,
O heç özünündə namusunu çəkə bilməz.

Öz günahlarını hamıdan gizlədən adam,
Qorxmur ki, ona başqalarının günahını yazarlar.

Başqalarının qusurlarını hesablayan sarsaq,
Özünü müqəddəs hesab edər axmaq.

Başqalarının bədbəxtlik dənizinə atılmaqdansa,
Yaxşı olar ki, özünü düzgün yola yönəldəsən.

Ehtiras həlqəsini sındırıb açsan,
Qəlbin tətikdən buraxılmış ox kimi azad olar.

Kim ki, insandan kin-küdrət bilmədən yaşayır,
O adam ehtiras, qorxu və qayğılardan uzaqdır.

Kim ki, qəlbində paxıllıq tikanın məhv edir,
O adam qızılgülün təmiz qoxusu ilə nəfəs alır.

Qəlbin möhtəşəm olmasının bircə yolun bilirəm,
Hər kəsdən azad və müstəqil olmaq bilirəm.

Hökm verəndə ikiqat ehtiyatlı ol ki,
Ondan pis, iyrənc nəticə törənməsin.

Kim əzablardan və cəhənnəmdən qorxursa,
Nalayiq işlər görməz əsla o aqilsa.

Həmişə sənin əsas xəzinən aza qane olmağındır,
Zirzəmilərə sığmayan mal-mülkün əriyib gedər.

Özünü inandır, səma altında heç nə əbədi deyil,
İnsanın cismi asanlıqla aləmi tərk edəcəkdir.

Hər kim cənnətdə huri-mələklərə can atırsa,
Gecə və gündüz yorulmadan ibadət etsin varsa.

Allah haqqında düşün, nuru aleme o bəxş edir,
Axmaq isə zülmətə kor qalıb fəryad edir.

Günahgardan da öyrənmək qəbahət deyil,
Illa ki, onların səhvini təkrarlamayasan.

Bütün mirasdan da qiymətli müdriklik elmdir,
Xoş xasiyyət, inan ki, sənə dostur eynidir.

Nə vaxtsa, bilmədən kimin qəlbini yaralasan,
Özün də bilmədən bədbəxtliklərə səbəb olarsan.

O, sarsaq varlı adamlar ki, yamanlıq edirlər,
Onlar buradan birbaşa cəhənnəmə gedirlər.

Həmişə təlxək kimi qəh-qəhəylə gülənləri,
Yaradan istədiyi zaman alçaldacaq gülənləri.

Kim ürəyində elm tumunu meyvə kimi bəslərsə,
Ahıl yaşlarında iti əqllə, görən gözə sahib olar.

Daim mülayim xasiyyət müdrikliyin əsasıdır,
Axmaqlardan müdam əxlaqsızlıq olmuşdur.

Inam nədir? Bu ən ləyaqətli son nailiyyətimizdir,
Bunun içərisində səbr ən qiymətli nailiyyətdir.

Kasıbın evin möminlik, təmizlik, düzlük bəzəyər,
Zəngin özünü ibadətlə zərərsiz, qorxusuz edər.

Məclisində dostunun darıxmamasın istəyirsənsə,
Onu sorğu-suala çəkib bezdirmə əsla.

Inamın bərkimədiyi adama xoş bənd olma ki,
Sonradan başına kül tökməyəsən çünki.

Özündən həmişə çox razı olan şöhrətpərəstə,
Bələd olsan görərsən ağılca bərk deyildi xəstə.

Alicənablığa hörmət et, çünki xeyirlidir,
O, zinət kimi müsəlmançılığın məbədin bəzəyir.

Bununla mömin adam işlərində həmişə qorunur,
Namus, düzlük, təmizlik onun başı üstə parlar.

Düz yola sən öz vaxtında qayıtsan,
Bununla sən məhşər günü xilas olarsan.

Əgər tale gəlinə sağlamlıq bəxş etmişsə,
Onun üzünə hər cür bər-bəzək yaraşar.

Yoxsulluq zəhəri daxma və zirzəmiləri hədələyər,
Onun dərmanı-aza qane olmaq istəyər.

Zənginliyə, var-dövlətə çox meyl etmə zərərlidir,
Qane olmaq, rahatlıq bundan yüzqat yararlıdır.

Tamahkarlıq bir çoxlarının bəd qapısın açarıdır,
Bizə iztirablar gətirən, iti gedən atlıdır.

Tamahkarlıq yalan, qüsur, nöqsan doğurar,
Cinayət izlərinin başlanğıcı, mənşəyini yoğurar.

Əgər nəyi bilmirsənsə, soruş ehtiyat etmə,
Lakin bu zaman onları çaşdırıb məzəmmət etmə.

Bilik öyrənmək istəyənin özü alimə bərabərdir,
Heç nə bilməyən "müdrik" azdırmağa qabildir.

Ölüm dilənçiliyə oxşar yalnız bir dəfə gəlir,
Zalım dilənçilik isə bizi hər gün tapır.

Əgər dilənçilik öz oxunu sənə də tərəf tuşlarsa,
Sən döyüşdə səbr qalxanı ilə özünü qoru.

Əgər adam işlərini yerbəyer etməyi bacarırsa,
Tikanlar edə bilməz ziyafətdə sərxoş olmazsa.

Ağıl-kamal dəryasına sən diqqətlə baxsan,
Həqqin işığını, yalanın yuva saldığını anlayarsan.

Kasıb gündəlik ruzisi ilə doyurub tox olur,
Varlının tamahı isə mənəvi kasıblıqdan tox olur.

Kasıb dostun səni hər cür bəlada atmaz,
Lovğa varlı isə səndən qaçar hali olmaz.

Dünyada yaşayanların hamısının ruzisi vardır,
Özümüz isə ölüm üçün əsrlərdən bəri təlabatıq.

Tabelikdə olan adamın ümidini üzmə bəlalıdır,
Çünki ümid onlara zülmətdə nur kimi saçmalıdı.

Gör nə qədər cahil və dəyərsiz müftəxor var,
Zənginləşib dəbdəbəli həyat keçirmiş olarlar.

Gör nə qədər aqil, müdrik dilənçidir, zülm çəkir,
Ona görə ki, onların sözükeçən ataları yoxdur.

Göy qübbəsi altına nə qədər şər yerləşdirib,
O, layiqsizləri yüksəldir, ləyaqətliləri məhv edir.

Kim ki, xeyirxah zəmisində toxum səpmişdir,
O, hər iki dünyanın sirli həqiqətini görmüşdür.

Orta yol seç bu zaman əsla zərər çəkməzsən ,
Nə çox qabağa keç, nə də arxada vellənmə sən.

Çox,qorxulu işə girişmə adamı öldürər,
Əyri qılıncın varsa, əyri qın axtar.

Əgər taleyin sənə hər hansı xoşbəxtliyi olmasa,
Sənə azacıq da olsa xoşbəxtlik göndərməz.

Qaranlıq işıq doğurar, zəhmət rahatlıq gətirər,
Onlar bir-biri ilə həm əlaqədardır.

Qoy sənin həyatın yüngül və rahat keçsin,
Yaddan çıxarma ki, arxanızca ölüm yaxınlaşır.

Xoşbəxt o adamdır ki, özünə xoş yol seçmişdir,
Öz mömün həyatı üçün tale onu əzizləmişdir.

Heç bir şey bilməyəndən heç nə soruşma,
Zira, onun bir şey bilməməsi sənə zinət verməz.

Taleyin muflis etdiyi insanların püşkü talsiz olar,
Çünkü dilənçilik insanları quldurluğa sövq edər.

Təkəbbür və dikbaşlıqla lovğalanma,
Bil ki,Yaradan,təkəbbürlüləri bağışlamır.

Istedadlı insanlara əbəs yerə qara yaxma,
Mömünə pislik,yamanlıq etməkdən həya saxla.

Kim adamlarla mehriban yola gedə bilirsə,
O, daş qayanı da yumşaltmaga məcbur edə bilər.

Kim ki,əliaçıq olmaga cəhd etmirsə,
Əbəs yerə yaşamaga çalışır ölüm ondan yaxşıdır.

O, (adam) hələ ki, zərif libaslarla ehtiraslardadır,
Dəbdəbəli yaşamaq zəncirinin əsarətindədir.

Əbu Bəkr ibn Xosrov əl-Ustadın yaradıcılığı hələlik öyrənilməmişdir, onun bizə gəlib çatan yeganə əsəri "Munisnamə" əlyazmasıdır. İlk dəfə olaraq bu əsər tərəfimizdən araşdırılaraq müəyyən hissəsi doğma Azərbaycan dilinə tərcümə edilmişdir.

Bu tərcümə olunan əsər XII əsrdə Naxçıvan Atabəylər Dövlətinin sarayında qələmə alınan "Munisnamə"dir ki, öz dövrünün zəngin ədəbi mühitindən xəbər verir. Əsərin müəyyən giriş hissələrini aşağıdakı kimi qiymətləndirmək mümkündür.

"Böyük hökmdar, islam padşahı, əzəmətli atabəy sülhsevər Xosrov, xoşbəxt rəhbər, dünyanın mütləq Darası, islam və müsəlmanların dayağı Xaqan Əcəm Nüsrətəddin vəd-dövlənin Allah onların köməkçilərini xoşbəxt etsin, onun sultanlıq hakimiyyətini əbədi etsin, Məhşər günündə onu üzüağ etsin, onun şöhrətini, ağ günlərini artırsın, onun hökmranlığı və padşahlığını əbədi etsin. Dünyanı bəzəyən mübarək əqlindən gizli deyil ki, inandırıcı sübutlar və mötəbər dəlillər üzvü və qeyri-üzvü dünyanın mövcudluğunun mənası heyvanlar olduğunu, heyvənların zirvəsi və tacının isə insan olduğunu sübut edir, insan isə danışabilən bir canlıdır. İnsan öz nitqi ilə (bilinir) seçilir, çünki

insanı-başlanğıc nitqə görədir. Necə deyərlər; " Kişi dilinin altında gizlənmişdir, yəni o, danışmayınca onu heç kəs tanıya bilməz. Bütün dəyanətli (kişilər) və ləyaqətli müdrüklərin heç birinə sirr deyil ki, ağıl, idrak aləmində elə bir substansiya (mahiyyət) yoxdur ki, nitqdən şərəfli və xoşagələn olsun, zira əgər sözdən yaxşı nəsə olsaydı, onda Böyük Allah ən yaxşını öz peyğəmbərlərinə göndərərdi.

Əgər bu dünyada sözdən yaxşı bir şey olsaydı,
Onda bunu Allah öz peyğəmbərlərinə bəxş edərdi.

Nitqin mükəmməlliyi isə ondan ibarətdir ki, o məzmunlu və zərif olsun, istər nəsr, istərsə poeziya olsun dərin mətləbləri və incə mənaları açıb göstərsin. Bütün Allah elçilərinin seyyidi, ağası Məhəmməd peyğəmbər (Allahın salamı ona olsun) buyurmuşdur: " Həqiqətən Allah Təalanın taxt-tacı altında böyük xəzinələr gizlədilmişdir, onların açarı isə şairlərin dili altındadır". Başqa bir yerdə o söyləmişdir; " Şairlər insan cinsinin daimi şərəfidir" və daha sonra " Dil təkcə yalnız sözünköməyi ilə möcüzə yarada bilər". Şair Əscadi (Allah ondan razı olsun) demişdir;

Alim şəxslərə rabitəsiz nitq yaraşmaz,
Sözlər isə qızıl qum, yaxud xam ipək kimidir,

Şairlərin incə mənalarda işlətdikləri sözlər isə saf qızıl və ipək parçaya bənzər .

Və əgər dərzi zərgərlə söz bir etsələr,
Öz səyləri ilə qiymətli əsər yarada bilərlər.

Poetik nitq daha mükəmməl olduğundan və nəsr nitqini üstələdiyindən, o zaman ki, müdrik, poetik istedad verilmiş layiqli xadimlər meydana çıxdılar və mövcud oldular, onlar nəsr dilindən poetik dil yaratdılar və yaradırlar, şeriyyat istedadına malik adamlar və müdriklər heç zaman poeziyanı nəsrə çevirməmişlər. O, zaman ki, bütün mövcudatı yaradan böyük, qüdrətli Allah ipək, atlas, kiş və kətanı yaratdı, heç bir ağıllı insan ipəyi atlas və kətanı kişə çevirmədi, əksinə onlar kətan və kişdən atlas və ipək yaratmağa çalışdılar. Şer dili, nəsr dilindən asan yadda qalır və o, insanın canına daha tez hopur. Ölçülü nitqi müxtəlif ritm və hallara bölmək və xoş musiqi sədaları altında ondan ləzzət almaq

olar. Nəsr dilinə gəlincə, heç bir ağıllı və istedadlı adam onu musiqiyə salmaz. Bundan başqa, çox zaman öz ictimai vəziyyətinə görə sultanlar, əmirlər və əyanların yanına buraxılmaq, onlarla danışmaq imkanından məhrum olan adamlar, öz ehtiyaclarını qəsidə və qitələrdə izhar edərək onları saraya göndərir və qiraətçilər onları padşahın hüzurunda və əyanların toplantısında, padşah da, əyanlar da onu dinləyirdilər.

Poetik dil çoxlu üstünlüklərə malikdir, əgər biz burada onun üstünlüklərini saymaq və şərh etməklə məşğul osaq, onda əsas məqsəd və vəzifəmizdən uzaqlaşa və yayına bilərik. Burada mən deyilənlərlə məhdudlaşıb, oxucuların diqqətini mənim hökmdar Əbu Bəkr Nüsrətəddin vəd-Dövlə ibn Məhəmmədə həsr etdiyim "Toplantıların sevinci" ndə olan şeirlərdə qısaca şərh olunanlara yönəldirəm.

İncə zövqə və həssas zəkaya malik şair və yazıçılar bu əsərə baxsalar və onu diqqətlə oxusalar, qoy onlar məni; Nə üçün müəllif poetik qəlbə, gözəl danışığa və incə zövqə malik ola-ola bu əsəri şeirlə yazmamışdır? deyə qınamasınlar. Mən bu münasibətlə öz subut və üzrxahlığımı bildirirəm. Buradaca öz zamanında mən deyəcəyəm: hamıya məlum olsun ki, tamaha xidmət edənlər çoxdan bəri poeziya ( fani) müvəqqəti dünya malına və sərvət mənbəyinə çevirirlər, xüsusilə var-dövlətin incəsənətdən yüksəkdə tutulduğu, qızıl və gümüşün yüzlərlə hikmət xəzinəsindən çox sevildiyi bizim günlərdə də bu ən böyük yolunu azma və qüsurdur. Şeri qızıl və yığım xatirinə şer yazanlar böyük günah və səfehlik edirlər, çünki, əsl poeziyanın qiyməti sədəqə və mükafatdan artmaz və onların dəyəri bunlarsız artmaz. Öz şerləri ilə alver edən şair ona oxşayır ki, bahalı mirvarisi olan kəs onu ucuz satır, halbuki, ucuz satılan mirvari bundan pisləşməz.

Axı Yusif peyğəmbəri ( Allah ondan razı olsun) qardaşları onu lazımsız on dirhəmə satmışlar, amma bu ona görə oldu ki, Yusif yox, onun qardaşları qüsurlu idilər. Əgər həqiqəti bilmək istəyirsənsə və gerçəkliyə cəhd edirsənsə, onda bil ki, qiymətli daş-qaşların biliciləri və qədrini bilənlər, eyni adamlara öz

incilərini satmaz. Şair də belə etməlidir. Şair hər kəs üçün şeir yazmaz. Bu səbəbdən öz qəsidələrimin birində mən deyirəm:

Sən müsəlman deyil, nifrətli bir qulsan,
Çünki öz şeirlərini, arpa çörəyinə satırsan.

Beləliklə, sözün şahlığından uzunömürlü şahlıq yoxdur və nə qədər ki, kağızın səthində mürəkkəbin qarası qurtarmayıb, sözün şöhrəti həmişə təzə olacaq və seçilmiş sadə adamlar arasında sönməz. Rəşid Vatvat demişdir:

Bilirsənmi, Mahmudun qəsrində,
Çox-çox şöhrətli xadimlər,
Hökmlü əmirlər və şahlar,
İgid comərdlər, pəhləvanlar toplaşmışlar,
Və yalnız Unsuri onun əməllərini,
Sönməz nağıllarda bizə çatdırılmışdır.

Böyük xadimlər poeziyaya meyl etmişlər və öz adlarını əbədiləşdirmək üçün şairlərə şeirlər sifariş vermişlər, belə demişlər:

"Uzunömürlülük poeziya daxilində mövcuddur".

Bu səbəbdən "Toplantıların nəşəsi" əsərində mən deyirəm :

İndiki və qədim padşahların adlarını,
Yalnız söz daş kitabələrdə saxlayır.
Əməlləri və şöhrəti yalnız söz yaşadır,
Və əsərlərdə adları ədalətlə ucalır.
Mahmud bu yeri çoxdan bəri tərk etsə də
Onsuz da onun adı " Şahnamə" də yaşayır.

Bu kitabın yazılmasında iltifatına görə mən Naxçıvan atabəyləri, Eldəniz tayfasının hökmdar və şahzadələrinə təşəkkür edirəm və mənim yüksək hakimlərimdən bəziləri çox zaman yüksək enerji sərf etdiklərindən və zehinləri yorulduğundan hesab edirəm ki, buna görə də nəsr onlar üçün məqbuldur, yəni nəsri tez mənimsəyirlər. Ona görə də mən, bu kitabın əsasını nəsrlə qoydum. Mən bu kitabı nəsrlə yazdım və ümüd edirəm ki, onun adı zamanın səhifələrində qalacaqdır. Əvvəlcə də mən artıq dünyadan köçmüş və indi yaşayan hökmdarlar üçün nəsr və şeirlə

bir neçə kitab yazmışam. Bunlardan öldürülmüş hökmdar Qızıl Arslana həsr etdiyim şeirlə yazdığım "Sənəm və Əcəm" yenə ona həsr etdiyim "Əlfiyyə və Şəlfiyyə" yə qarşı etiraz "Mehr və Müştəri" şeirlə yazılmış "Rahət ər-Ruh" mərhum hökmdar atabəy Məhəmmədə həsr olunmuş " Mənur və Mərcan" haqqında dastanı göstərmək olar. İndi isə mən yeni kitab yaratmaq istəyirəm, orada Naxçıvan atabəyləri Eldəniz tayfasından olan bütün hökmdar və şahzadələrin adını incə ifadələr və işarələrlə çəkmək istəyirəm ki, bu kitab bütün dünyada onlar haqqında xatirə qalsın, yəni kitabın sonuncu vərəqi qalıncaya qədər oxunsun və onlar haqqında xeyirxah dualar ağızdan-ağıza keçərək səslənsin. Onlar mənim xidmətlərimi əvəzini layiqincə verdiyinə və mənə xidmətlərim üçün minnətdarlıq etdiklərinə görə onların yaxşılığının və xeyirxahlığının əvəzi olaraq mən bu kitabı yazmağı özümə borc bildim, mən bunu etdim ki, oxucular bütün zamanlar onları xeyirxah dualarla xatırlasınlar, onu oxucular hökmdarların "Süleyman qəsrlərində" oxuyarkən qoy məni də bir hop-hop quşu kimi xatırlasınlar. Mənim dövlətə xidmətimdə əvvəlki və indiki ciddi cəhdlərim hamıya məlumdur, mənim şahzadələr tərbiyəsində və onlara savad və hüsnxətt, ədəbiyyat və elmlər, Quran və rəvayətlər öyrətməkdəki əməyim və həmçinin niyyətlərimin təmizliyi, bu evə səmimi məhəbbətimin, həm indi, həm də gələcəkdə təsvirə, şərhə, izahata və aydınlaşdırmaya ehtiyacı yoxdur, çünki onların isbatı və əlamətləri gün kimi aydındır. Bizə xidmətçilərə can başla zəhmət çəkmək və öz işinin ən yaxşı yerinə yetirmək üçün bütün qüvvələri sərf etmək qalır. Bu məqsədlə Sanai yaxşı demişdir:

Nemətlər yarat, səxavətli ol, hamıya kömək et,
Əgər ölüm bu işlərini dayandırarsa, günah səndən getmişdir.

Bu mülahizələrə görə mən bu kitabı şeirlər boyunbağısı kimi təqdim etmək, gücüm yetdiyi qədər öz məramımı onun yaradılmasına həsr etmək və onun ilhamının imkanı daxilində bitirməkdir, çünki, incə zövqlü adamlar və müdrik elm xadimləri daha çox şerə meyillidirlər, lakin mən artıq yuxarıda bundan imtina etməyimin səbəblərini və öz üzürxahlığımı göstərmişəm.

Bu kitabı mən "Munisnamə" adlandırdım və onu bitirərək dünyanın hökmdarının adı ilə Adəmin bütün nəsillərinin padşahı Nüsrətəddin vəd-Dövlə Əbu Bəkrə-Atabəy Məhəmmədin oğluna, Atabəy Eldənizin oğluna (Allah onun tərəfdarlarına arxa olsun) həsr etdim. Bu kitab bir neçə çox gözəl fəsillərdən, əyləncəli nağıllardan ibarətdir. O, elə zərif və gözəl tərtib olunmuşdur ki, əgər onu başdan ayağa kimi oxusalar bir dənə də zövqsüz işlənən söz tapmaq olmaz. Bu əsərdə ümid doğuran həqiqi və orjinal qissələr, dərinmənalı, hikmətli kəlamlardan , atalar sözü və əfsanələrdən, qəribə əhvalatlardan, nadir hadisələrdən bəhs edilir. Oxucu burada sevgililərin şerin söhbətlərini, ehtiyat, məzəmmət, qorxu, yüksəlmə və enmə, minnətdarlıq və fəlakətlər, xeyirxah niyyətlər və alicənablıq, səxavət və xeyriyəçilik, mərdlik və qoçaqlıq, zarafat və lətifələr, həyat gözəllikləri və sevincləri, müdriklik və rahatlıqdan, istirahətdən zövq almaq, vəzifəsinə sadiqlik və etibar, üzü yumşaqlıq və doğruluq, imtina və etiraf, ədalət və qanunsuzluq, əmək və istirahət, hicran ağrısı və vüsalın ləzzəti, mərəz və məlhəm, sülh və müharibə, hiyləgər sehr-cadu , cazibə və fərasət, sehr və ovsunu yayındırmaq bacarığı, cavanların igidliyi, qocaların təcrübəsi və müdrikliyi, sehrbazların möcüzələri, qəzəbli divlərin ədaları, pərilərin sadiqlik və başqa xasiyyətləri, döyüş və kef məclisi, qətiyyət və məqsədyönlülük, kasıbların dilənçiliyi və varlıların xəzinələri, əyləncə və qadağalar, bayram və yas mərasimləri, xoşbəxt insanların müvəffəqiyyəti və bədbəxlərin müsibəti, müxtəlif təbəqələrin nümayəndələrinin yüksəyə qaldırılması və alçaldılması və onlar haqqında nağıllar, ev adamlarına qarşı rəhmidillik və qayğı, zirəklik və köməksizlik, başısoyuqluq və ayıqlıq, qulluq və hegomonluq, keçmişin əyanlarının adətləri və hökmranlığının əsasları, ulu babaların rəhmidilliyi və alicənablığı, onların adətləri və davranış qaydaları, "Qızıl gül bağları" haqqında rəvayət, digər qeyri-adi və nadir hadisələrlə rastlaşa bilər. Bütün bunları mən bu kitabda topladım ki, əyanlar və ağalar, ləyaqətli kişilər və müdrik bilicilər bunları layiq bilib məni xeyirxah dualarla yad etsinlər və özləri üçün xeyir götürsünlər.

Bir sözlə bu əsər insanların arzu etdikləri bütün şeyləri tapa biləcəyi bir məcmuədir. Bu məcmuə rəngsaz dukanına kimi rəngarəngdir, burada kim nə istəsə tapar. Bu bahalı hikmətlərin gizlədildiyi bu xəzinə və bol mirvari və yaqutu olan dəniz, yetişmiş xurma bağı, əsər qədri bilənləri heyran edəcək bir məcmuədir.

Bura bir bol meyvəli bağdır,
Nadir incilərin olduğu məkandır.
Dahilər vətəni o Naxçıvandır,
Əzəli əbədi Nəqşi – Cahandır" (44).

## “ƏSHABİ KƏHF” ƏHVALATI NAXÇIVAN ƏLYAZMASINDA

Naxçıvan əlyazma mətnlərinin gerçəkliyi ondan ibarətdir ki, hər bir sahənin məzmunlu anlamını özündə dərin mənalarla əks etdirir. Bu baxımdan yuxarıda adı çəkilən orta əsr qiymətli əlyazması olan “Munisnamə” də Əshabi Kəhf əhvalatı geniş izah edilmişdir. Baxmayaq ki, bir çox qələm sahibləri bu əhvalat barədə öz bilik və bacırıqlarını nümayiş etdirmişlər. Bunlardan biri akademik Mustafa Salahov və Əliəşrəf Cəfərov olmuşlar ki, Kəhf surəsinin anlamını vermişlər (72, s. 15). Sonra Əli Göydağlı özünün mən elə bu sözlü kitab kimiyəm “Seçilmiş əsərləri” adlı kitabında mənzum tamaşa haqqında Dağyanus dövrünün insanları barədə geniş və hərtərəfli araşdırmalar aparmışdır (73, s. 213). Digər bir qələm sahibi, el arasında Hacı Əli Dərviş Naxçıvani kimi tanınan istedadlı bir insandır ki, müəllif onlara həsr etdiyi Əshabi Kəhf kitabında deyilən əhvalat barədə yazır:

Müxtəsər Əshabi Kəhf ğarə girib gizləndilər,
Bir neçə sayılmış il onlar yatıb dincəldilər.

Müəllif onların sığınacaq yerlərin qeyd edərək: “Elə ki, mağaraya daxil oldular yuxuya getdilər. 309 (üç yüz doqquz ) il yatdılar” (74, s. 15) şərh edərək bildirmişdir.

Ancaq bunlardan daha fərqli və daha geniş elmi potensial imkanlara malik olan XII əsr mütəfəkkiri, Atabəylər sarayında ustadlıq edən Əbu Bəkr ibn Xosrov əl-Ustad olmuşdur. Onun “Munisnamə” əsərində qələmə aldığı əhvəlatı tərcümə edərək aşağıda olduğu kimi qiymətləndirmək olar.

Əshabi – Kəhf əhvalatı qədim Naxçıvan torpağında mövcud olduğu üçün əlyazmanın tərcüməsinbə müəyyən əlavə və qeydlərə ehtiyac duyulmuşdur.

“Yeddi yeniyetmə (kimsənə) mağaranın sakinləri, Dağ Yunus və onların başına gələnlər haqqında rəvayət söyləyənlər

nəql edirlər ki, keçmiş zamanlarda, çox qədimlərdə Kəab ibn əl-Əxbar, Vəhhab ibn Münəbbəx, Həsən əl-Bəşəri və Abdullah ibn Məsud – mağaranın sakinləri haqqında bu rəvayəti onların hər biri öz bildiyi kimi şərh edirdi. Lakin bizə görə bu rəvayət ən mötəbər və dürüst şəkildə Kəab ibn əl-Əxbar tərəfindən şərh olunmuşdur və onun etibarlı olması haqqında Hikmətli kitabın – Quranın müqəddəs mətnində də danışılır.

Beləliklə, rəvayətdə olduğu kimi Turan ölkəsinin torpağında çox təmiz, cürətli, güclü və mərd bir cavan yaşayırdı. Onu Dağ Yunus çağırırdılar. O, Allahsevən, təmkinli, vaxtını Allaha ibadət və itaətə sərf edirdi.

O, Aran ölkəsinə qonşu ölkədə yaşayırdı. O, çoban idi: səhərlər ətraf sakinlərin qoç və qoyunlarını toplayaraq dağlara aparır və axşam düşənədək otarırdı. Evə qayıdanda o, yenə də özünün Allaha xidmətə və ibadətə həsr edirdi. Onun qeyri-adi dərəcədə gözəl xarici görkəmi var idi və onu görən hər kəs ona vurulurdu. Bundan başqa o, həddən artıq bəlağətli adam idi. Belə ki, bütün məşhur natiqlər ona həsəd aparırdı. On illər ərzində Arran ölkəsinin dağlarında qoyun otarır və Turan ölkəsinin torpağında öz təmkinliliyi, vicdanlılığı, Allahsevərliyi və zahidliyi ilə məşhur idi. Otuz il beləcə davam etdi.

Bir dəfə o, öz qoyunlarını dağın təpəsində otarırdı. Birdən qoyunlardan biri büdrədi və onun dal ayaqları hansısa bir yarrığana keçdi. O biri qoyunlar çox qorxdular və ətrafa dağılışdılar. Sürüdə çaxnaşmanı görüncə Dağ Yunus getdi ki, görsün nə olub. Yaxına gəlincə o gördü ki, qoyunun dal ayaqları quyruğuna qədər bir yarığa keçmişdir. O, qoyunu hər iki əli ilə tutub öz pəhləvan gücündən istifadə edərək çəkib çıxardı. Yarığa baxdıqda o, üzərində bir neçə sətir söz yazılmış lövhəcik gördü. Dağ Yunus nə qədər çalışdısa yazılanı oxuya bilmədi. Axşam şəhərə qayıdanda o, lövhəni şəhərin ən savadlı adamlarına göstərdi, lakin heç kim o yazıları oxuya bilmədi bu yazıların hansı dildə olduğunu da bilmədilər. Uzun müddət Dağ Yunus lövhəni oxtudurmaq ümidilə bir çox adamlara təqdim edir və bu haqda hər yerdə danışırdı.

Nəhayət, bir dəfə ona söylədilər ki. Kayseri şəhərində müəmmalı sirrləri aça bilən qoca bir kişi yaşayır.

Bunu eşidən Dağ Yunus lövhəni götürdü və və Kayseriyə yollandı. Oraya gələrək o, qocanı axtarıb tapdı və onu hörmətlə salamladı.

Qoca, Dağ Yunusun salamına hörmətlə cavab verdi və soruşurdu: "Sənin ehtiyacın nədir? Hansı iş səni mənim yanıma gətirmişdir?" DağYunus lövhəni çıxardı və ona qocanın qarşısına qoydu. Qoca lövhənin üzərindəki yazını oxudu, dərin fikirlərə daldı və təəccüblə Dağ Yunusa baxaraq başını buladı. Cavan oğlan baxırdı, qorxu onu bürüdü və o düşündü: "Deyəsən, mən nə isə axmaq bir əngələ düşmüşəm. Qocaya müraciət edərək o soruşdu: "Xoş nəfəsli və xoş qədəmli qoca, bilmirəm ki, sənin mənə təəccüblə baxmağın xeyirədirmi?"

- "Cavan oğlana – qoca dilləndi – sən çobanlıq edən Dağ Yunussan?"

- "Bəli, bu mənəm – Dağ Yunus cavab verdi". Üzündən örtüyü götürərək qoca diqqətlə Dağ Yunusa baxdı və dedi: "Sən dünyada ən bədbəxt adamsan".

Bu sözdən sonra Dağ Yunusun qorxudan bütün bədəni əsdi və dedi: "Ey qoca, sən nə üçün mənə qarğış edib, bəd fal açırsan? Bütün Turan ölkəsində məndən vicdanlı, təmkinli və Allahsevər bir insan yoxdur və mənim şöhrətim dillərdə dastandır, sən isə məni ən bədbəxt adam adlandırırsan – and olsun Yaradanın böyüklüyünə mən öz uzun ömrümdə - mənim isə artıq üç yüz yaşım tamam oldu - sənin kimi talesiz və yazıq bir adam görməmişəm. Ey Dağ Yunus, mənim sənə çox yazığım gəlir. Elə bir elm yoxdur ki, mənim başım çıxmasın. Bu lövhədə mən sənin bütün taleyini oxudum. Sən əsilzadə görkəmli gözəl cavansan, lakin öz həyatını çox kədərli bitircəksən. Çünki sonda Allaha qarşı üsyan edəcək və ölümdən sonra cəhənnəmə gedəcəksən".

Bu sözləri eşidərək, Dağ Yunus titrədi. Onun bütün varlığını qorxu bürüdü. O, acı-acı hönkürdü və qocanı danladı: "Allah xatirinə cəfəng sözlər danışma, kəmağıllıq üzündən səfeh mövhumata qapılmısan və nə danışdığını bilmirsən. Artıq otuz

ildir ki, mən ömrümü dualarda keçirirəm və inanırm ki, Allah birdir və ondan başqa Allah yoxdur. Bütün bunlardan sonra mən necə ola bilər ki, Allahın qəzəbinə gəlim və cəhənnəmə düşüm?" – "Əgər sən hətta səhradakı qumların sayı, yağış damlalarının və ağaclardakı yarpaqların sayı qədər səcdə və dualar etsən belə, sənin yerin cəhənnəm odunun üstündə olacaq".

- "Kaş ki, mən bu lövhəni heç tapmayaydım və sənin üzünü görməyəydim! – deyə Dağ Yunus səsləndi. – Kaş ki, heç mən sənin bu nəhs falını eşitməmək və qanımı qaraltmamaq üçün bura gəlməyəydim". – "Əgər istəyirsənsə - qoca dedi: mən sənin bütün sonrakı taleyini söyləyim, səni gələcəkdə nələr gözlədiyini biləsən".

Hər iki dünyanı yaradan böyük Allah xatirinə - Dağ Yunus yalvardı: "Əgər mümkünsə söylə, yoxsa mən bu saat canımı tapşıracağam".

"Bil və agah ol ki, - qoca başladı: sən bu lövhəni tapdığın quyuda tükənməz var-dövlət, saysız hesabsız miqdarda xəzinə gizlədilmişdir.

Əgər dünyanın bütün xəzinadarları və mühasibləri bir yere yığışsalar, ömürlərinin sonuna qədər bu qalada nə qədər xəzinənin gizləndiyini hesablaya bilməzlər. Ey Dağ Yunus, bütün bu tükənməz var-dövlət və xəzinə sənə çatacaqdır. Evinə qayıt və bütün xəzinəyə sahib ol". Bu sözləri eşidərək Dağ Yunus dərin fikrə daldı və çox fikirləşdikdən sonra dedi: "Ey qoca, tutaq ki, sənin dediyin xəzinə mənə çatacaq. Onda de görüm mən nə üçün Allaha qarşı çıxmalıyam?" – "Bu çox uzun məsələdir – qoca dedi – öz vaxtında sənə hər şey aydın olar". – "Ey qoca, Dağ Yunus səsləndi - əgər belədirsə, əylənmək və istirahət etmək üçün sənin də mənimlə getməyin pis olmazdı. Əgər sən mənimlə getsən, sənin iştirakınla xəzinəni çıxarıb sənin payını da verərəm". – "Ey Dağ Yunus, qoca dedi – mən qorxuram ki, əgər mən səninlə sənin vətəninə getsəm, sən məni xaincəsinə aldadasan və mənə heç nə verməyəsən". – "Allah bizi xainlikdən qorusun – Dağ Yunus səsləndi – mən heç zaman belə xainlik etmərəm. Əgər istəsən, mən sənə söz verirəm ki, bütün xəzinəni səninlə böləcəyəm". –

"Xeyr – qoca dedi – mən yəqin bilirəm ki, xəzinəni görcək sən başını itirəcək, əhdimizi pozacaq və mənə bir mis quruş da vermeyecəksən. Lakin xudavəndi aləmin iradəsi ilə taleyə qarşı çıxmaq faydasızdır, mən isə səninlə getməliyəm. Əziz olan Allah xatirinə, əlini mənə ver".

Dağ Yunus əlini ona uzatdı və qoca onunla təntənəli saziş bağladı, onu xəzinənin yarısını ona verəcəyi barədə, xəsislik və tamahkarlığının ona hakim ola bilməyəcəyi barədə ən qorxunc andlar içməyə, vədlər verməyə məcbur etdi. Belə bir saziş bağlandıqdan və vəd verildiyindən sonra qoca qalxdı və Dağ Yunusla birlikdə yola düşdü.

Onlar Dağ Yunusun qoyun otardığı dağın ətəyinə gəlib çıxdıqdan sonra o, qocanı lövhənin tapıldığı xəndəyə apardı. "Qazmanı götür – qoca buyurdu – dərinliyə qaz". Qazmanı götürərək Dağ Yunus xəndəyi dərinləşdirməyə başladı və bir azdan üzərində nəhəng qıfılın asıldığı möhkəm qapı göründü. Qoca qıfılı sındırmağı buyurdu. Onlar qapını açdılar və aşağıya aparan pilləkən gördülər. Pilləkənlə aşağı enərək qoca və Dağ Yunus birincidən də möhkəm olan daha bir qapı gördülər. Onun üzərində birincidəkindən daha böyük bir qıfıl asılmışdı. Qorxu Dağ Yunusun bütün varlığını bürüdü. "Qorxma – onu qoca sakitləşdirdi – qıfılı sındır". Dağ Yunus qıfılı sındırdı. Qapını açdı və onların qarşısında bir-birilə əlaqəli yeddi zaldan ibarət möhtəşəm bir aramgah göründü. Qoca bütün zalların qapılarını açmağı buyurdu. Sonra hər ikisi içəri daxil oldu. Zallardan biri döşəmədən tavana qədər qiymətli daş-qaş düzülmüş qızıl kəmərlərlə dolu idi. Zalın tavanı qızıl külçələrindən düzəldilmişdi. Ikinci zal qızıl dinarlarla, üçüncü zal dirhəmlə ağzına qədər doldurulmuş, dördüncü zal qızıl saxsılarla, beşinci zal ağzına qədər at üzəngiləri, qoşqu ləvazimatı və yəhərlərlə doldurulmuşdu, altıncı zal qiymətli daş-qaşla – qırmızı və mavi yaqut, kəhrəba və zümrüdlərlə dolu xəzinə idi. Yeddinci zal ən qiymətli ləl-cavahirat və almazların anbarı idi.

Dağ Yunus bu tükənməz var-dövlət və onun gözləri qarşısında canlanan sonsuz sayda dəfinələrdən mat-məəttəl

qalmışdı. "Ulu Tanrı dəfinələri mənə göndərmişdir – deyə o ürəyində düşündü - əgər bu belədirsə, onda mən nə üçün bunun yarısını ağıldankəm qocaya verməliyəm? Ağıllısı odur ki, mən indi onu öldürüm və basdırım, sonra isə bütün bu var-dövlətə tək sahib olum. Əgər mən bunu etməsəm, bu gicbəsər qoca ağzıboşluq edib bu lağımın yerini başqalarına bildirəcək". "Ey qoca – Dağ Yunus dilləndi – düşünürəm ki, mən səni öldürməli, bütün var-dövlətə sahib olmalıyam". "Ey nankor alçaq – qoca hiddətləndi – məgər sən mənimlə müqəddəs müqavilə bağlamadınmı, hanı sənin andların və vədlərin? Sən mənə payımı verməmək və bütün xəzinəni mənimsəmək istəyirsən? Qoy olsun, mən heç nə istəmirəm. Onda imkan ver mən gəldiyim yolla qayıdıb evimə gedim: Ey dostum, hesab et ki, heç nə olmamış, eşşək yıxılmamış və tuluq cırılmamışdır".

"Sən yanılırsan – Dağ Yunus dedi. Əgər mən səni salamat buraxsam, onda mən rahat və təhlükəsiz yaşaya bilmərəm. Mən səni öz rahatlığım naminə öldürməliyəm". – "Ey Dağ Yunus – qoca yalvardı – Allahdan qorx və ağır günahı boynuna götürmə, öz verdiyin sözə etibarlı ol və andları yadına sal. Sən başa düş, mənim ölümüm sənə müvəffəqiyyət gətirməyəcək – sən Allahın qəzəbinə düçar olacaqsan".

Lakin qocanın bu yalvarışlarını Dağ Yunus eşitmədi. Qılıncını çıxararaq o köməksiz qocanı doğradı və ordaca yerə basdırdı.

Apara biləcəyi qədər qızıl və qiymətli daş-qaş götürərək Dağ Yunus qapıları bərk bağladı, yeraltı qazıntıdan çıxdı, lağımı bayırdan elə düzəltdi ki, o, gözə dəyməsin və şəhərə yollandı. Bundan sonra o, xəlvətcə bütün dəfinəni şəhərə daşıdı.

Tezliklə o, vətənini tərk edərək Arranın Naxçıvan vilayətinə köçdü. Orada özünə möhtəşəm eyvanları və qüllələri olan şah sarayları tikdirdi. Qul və qarabaşlar aldı. Öz var-dövləti və təm-təmtəraqlı həyat tərzi ilə şöhrətləndi. Belə ki, bütün Arran ölkəsi yalnız ondan danışırdı. Adamlar hər tərəfdən oraya axışırdılar və elə hesab edirdilər ki, o, məhşur sülalədəndir və buraya xeyirxah məqsədlərlə gəlmişdir. Dağ Yunusun şöhrəti

bütün Arran ölkəsinə yayılandan sonra, görkəmli dövlət xadimləri şahın şəxsi qvardiyaçıları onunla tanışlıq yaratdılar. Sonra onunla dostluq etməyə başladılar. Öz sovqat və bəxşişlərilə Dağ Yunus bütün məmurları və əyanları ələ alırdı. Onlar bir ağızdan onu şaha tərifləyirdilər.

Dağ Yunus haqqında çoxlu məlumatlar aldıqdan və eşitdikdən sonra Aran şahı onu yanına çağırdı. Dağ Yunus özü ilə şaha layiq qiymətli ləl-cəvahirat götürərək onun yanına yollandı. Tezliklə o, şah ilə dil tapdı və onunla dost oldu. Hər gün o, saraya gəlir şaha çoxlu hədiyələr gətirirdi. Nəhayət, o, şahın ən etibarlı və yaxın dostu oldu və hətta şahın ev ailəsini də idarə edilməsi ona keçdi.

Bir neçə müddət beləcə keçdi. Lakin bir dəfə düşmən Rum hökmdarı Arran ölkəsinə qarşı yürüşə çıxdı. Arran ölkəsini tutmaq və məhv etmək niyyətilə o, nəhəng bir qoşunla ölkəyə soxuldu. Arranın hökmdarı özünü itirdi və düşmən təzyiqini necə dəf etməyi bacarmadı. Hökmdarı narahat və köməksiz görərək qeyri-adi igidliyə və sonsuz dərəcədə qorxmazlığa sahib olan Dağ Yunus öz dostundan soruşdu: "Nə olmuşdur? Mən görürəm ki, mənim hökmdarım nəyə görə isə məyus və rahatsız olmuşdur?" Hökmdar onun başına gələn bu bəla haqqında Dağ Yunusa danışdı. "Allah sənə uzun ömür versin! Bundan ötrü məyus olmaq və kədərlənməyə dəyməz. Zira əgər sən icazə versən mən sənin düşməninə elə bir dərs verərəm ki, o heç Rumun özündə belə sakit yata bilməz". Bu sözlər Arran hökmdarına çox xoş gəldi və Dağ Yunusu bunun əvəzində tərifədi və ona icazə verdi. Hökmdar bütün xəzinəni və qoşunu onun sərəncamına verdi. Dağ Yunus tezliklə qoşuna baxış keçirdi və aşkar etdi ki, onun sərəncamında yüz min qoşun vardır.

O, onların hamısına maaş verdi və vuruşmaya hazırlaşmağa başladı. On iki min yaxşı silahlanmış döyüşçü seçərək öz komandanlığı altında avanqard dəstə təşkil etdi. Bundan başqa öz vəsaiti hesabına daha min nəfər gənc silahlı döyüşçü təşkil etdi. Bütün bu hazırlığı bitirdikdən sonra Dağ Yunus Arran hökmdarı ilə xudafizləşib yürüşə hazırlaşdı. Tam

döyüş qaydası ilə düzülən qoşunların nizami cərgələrini görən Arran hökmdarı səsləndi və onun qəlbində ümid yarandı. Çünki o, yeni sərkərdənin igid, mərd və qorxmaz olduğuna inanırdı. Dağ Yunus hökmdar xəzinəsindən başqa öz xəzinəsindən də min neçə xalvar qızıl və gümüş götürdü. Hər bir düşərgə zamanı o, döyüşçüləri bir-bir yanına çağırır onlara qızıldan dağlar vəd edir və hədiyələr paylayırdı. Bir sözlə o, qoşunun onu sevməsi üçün hər şeyi edirdi. Döyüşçülər tezliklə həqiqətən ona inanır və ürəkdən bağlanırdılar. Dağ Yunus qoşunla birlikdə düşmən düşərgəsinə yaxınlaşanda Rum hökmdarı öz elçisini qarşıya göndərərək Arran hökmdarından baş vergisi ödəməyi və qeyri-şərtsiz itaət etməyi tələb etdi. Buna cavab olaraq Dağ Yunus öz elçisini göndərdi ki, Rum hökmdarına desin: "Baş vergisi və ibadət əvəzinə özüm gəlmişəm. Əgər sənin cəsarətin çatarsa işə başlayaq".

Bu kobud məktubu alaraq Rum hökmdarı bərk qəzəbləndi. O, qoşuna baxış keçirdi və gördü ki, onun tabeliyində yüz min qoşun vardır. Dağ Yunus düşmənə birinci hücum etdi. Qoşunlar bir-birinə qarışdıqdan sonra, bir neçə sutka davam edən qanlı döyüşlər başlandı. Nəhayət, Dağ Yunus düşməni əldən saldı və qalib gəldi. Rum hökmdarını əsir tutdu və onu dərhal öldürdü. Bundan sonra öz yenilməz qoşununu Rum sərhəddinə apardı və bütün Rum dövlətini fəth etdi.

Rumda möhkəmlənərək Dağ Yunus Arran hökmdarına məktub göndərib ona vəziyyət haqqında məlumat verdi. Sonra o, məktubda yazdı: "Ulu Tanrı mənə Rum üzərində qələbə çalmağı bəxş etdi, bütün Rum dövləti mənə tabe oldu və mənim idarəçiliyim altına keçdi. Mən Rum hökmdarını məhv etdim, indi bu sənə dərs olsun. Bu məktubu alan kimi mənə üç ay öncənin baş vergisini göndər. Bizim sağlığımıza xütbələr oxut, üzərində mənim şəklim olan sikkələr basdır və mənə sözsüz xidmət etmək üçün qul kəmərini belinə bağla. Əgər sən bunu etməsən mən səninlə Rum hökmdarı ilə etdiyim kimi rəftar edəcəyəm".

Bu sözlərlə Dağ Yunus məktubu qurtardı onu çapara verib Arran hökmdarına göndərdi. Məktubu oxuyaraq Arran hökmdarı

çox qəzəbləndi. Dərhal öz məmurlarını və əyanlarını çağırdı və baş vermiş hadisəni onlara danışdı. Sonra o, Dağ Yunusa təhqiredici cavab məktubu yazdı. Məktubda deyilirdi: "Ey qeyri-qanuni doğulmuş əxlaqsız oğlu, xain, dinsiz və nankor. Sənin qaranlıq, köksüz mənşəin sübut edir ki, sənin bütün dünyada vətənin və daimi yaşayış yerin olmamışdır. Öz müəmmalı keçmişinə görə sən təqib olunaraq, yerini tez-tez dəyişmisən. Biz sənə himayə göstərib şöhrətə yüksəltdik. Sən isə bizi satdın. Mən sənin sözlərinin əvəzini vermək və səni layiq olduğun qədər cəzalandırmaq üçün təcili yürüşə çıxıram".

Məktubu göndərərək o, dərhal qoşunu döyüşə hazırladı. Dağ Yunusa qarşı yürüşə çıxdı. Bunu eşidərək Dağ Yunus öz qoşununu topladı və onun qarşısına çıxdı. Hər iki qoşun üz-üzə gəldikdə kəskin döyüş başlandı. Elə oldu ki, Ulu Tanrı bu dəfə də Dağ Yunusa qələbə müyəssər etdi. Arran hökmdarını əsir tutaraq Dağ Yunus onu öldürdü. Onun arabasını və xəzinəsini qarət etdi. Öz adamlarından birini Rumda vali təyin etdi və özü Arrana qayıtdı. Burada o özünə yeni möhtəşəm saraylar və qalalar ucaltdı. Onun baş sarayının eni və uzunu bir fərsəng idi. Saray biri qızıl, digəri gümüş olmaqla kərpiclərdən tikilmişdi. Sarayın içində Dağ Yunus qiymətli daş-qaşa tutulmuş dörd yüz qızıl taxt quraşdırmışdı. Sarayda min pəncərə vardı. Hər pəncərə yanında on nəfər gözəl yeniyetmədən ibarət keşikçi dəstəsi qoyulmuşdu və o, pəncərələrdən birinin yanında oturanda gözləri gözəl yeniyetmələrə sataşırdı. O, özünə yetmiş vəzir və yetmiş xaçə-xidmətçisi seçmişdir. Sonra o, iki yüz min döyüşçüdən ibarət daimi qoşun yaratmışdı.

Dinc vaxtı Dağ Yunus belə yaşayırdı. Hər gün onun qəbul zalında yetmiş vəzir, yetmiş münəccim, yetmiş məsləhətçi, minlərlə filosof-mütəfəkkir və başqa mötəbər adamlar toplaşırdı. Xidmətçilər onun qarşısına daş-qaşlarla bəzədilmiş yeddi yüz qızıl qoltuqlu kürsü qoyurdular. Qızıl kəmərli dörd yüz xidmətçi onun taxtı qarşısında duraraq onun istənilən arzusunu yerinə yetirməyə müntəzir idilər. Dörd yüz ay üzlü yeniyetmə, ən gözəl libaslarda sıralarla zalın divarları yanında duraraq öz görkəmli ilə hökmdarın

baxışlarını nəşələndirirdilər. Dağ Yunus belə yaşayır və idarə edirdi və tədricən bütün dünyaya sahib olurdu. Bütün şahlıqları fəth edərək və görünməmiş və hüdudsuz hakimiyyətə nail olaraq, o həddən ziyadə lovğalanırdı.

Bir dəfə qəbul zalında oturaraq, minlərlə ayüzlü gənc yeniyetməyə tamaşa edirdi. Onların arasında altı gənc ona daha çox xoş gəldi. Onları yanına çağıraraq buyurdu ki, onlar heç zaman gündüz və gecə, şadlıqda və kədərli günlərdə ondan ayrılmasınlar. Daim onun yanında olsunlar. Tədricən o, bu yeniyetmələrə qalan saray qulluqçularından daha çox hakimiyyət verdi. Yeniyetmələr isə hökmdarın iradəsini cani-dildən yerinə yetirir, ona sədaqətlə xidmət edirdilər. Bütün bu yeniyetmələr zahidlik və doğruluqda, ağıl və qabiliyyətdə, savadlılıq və səmimiyyətdə bənzərsiz idilər.

Öz xidməti kəmərlərini bağlayaraq onlar gecə və gündüz, ürəkdən və səylə, borclarını sadiq qullar kimi yerinə yetirərək hökmdarlarına xidmət edirdilər. Onların sədaqət və çalışqanlığını görərək Dağ Yunus onlara daha çox inanmağa, onları özünə daha da çox yaxınlaşdırmağa başladı. Axırda iş o yerə çatmışdı ki, bu yeniyetmələr bütün hakimiyyət, dövlət, xidmətçilər, qoşun və saray əyanları üzərində tamhüquqlu sahibkarlar oldular. Dağ Yunusun özü isə onların söylədikləri isə sözsüz razılaşır və onlara tabe olurdu. Onlara hədsiz dərəcədə paxıllıq edən bütün vəzir-vəkil, Dağ Yunusun yaxınları yeniyetmələrə nifrət edirdilər və onlara qarşı fitnə-fəsad törədirdilər. Lakin Dağ Yunusun həmin yeniyetmələrə olan məhəbbəti və inamı saatba-saat artırdı. Iş o yerə çatmışdı ki, o, özünün bütün vəzifələrini və hakimiyyətini bu altı yeniyetməyə verdi.

O bir-birilərindən böyük, ağıllı və fəsahətli olan yeniyetməni Təmleyxa çağırırdılar. Beş nəfər gəncin hamısı sözsüz ona tabe olurdular. Ikinci gəncin adı Təmleysa, üçüncünü Satlina, dördüncünü Zunuş, beşincinin Aznuş, altıncını Sadirnus çağırırdılar.

Dağ Yunusun bütün yaxınları bu beş gəncin hakimiyyəti altında idi. Bu beş nəfər isə Təmleyxanın rəhbərliyi altında idi.

Dağ Yunus yalnız onların əlindən yemək yeyir, içgi alır, onların köməyi ilə geyinir, yuxudan oyananda onları qarşısında görürdü. Öz sirlərini və gizli düşüncələrini onlara etibar edir, onlarla birlikdə xəlvətə çəkilir, istirahətə gedirdi. Bütün vəzirlər, xaciblər və hökmdarın yaxınları gənclərlə razılaşmağa məcbur idilər. Onlara hörmət edir və sözsüz itaət edirdilər. Dağ Yunus köhnə adətlərlə yaşayırdı. Gündüz dövlət işləri ilə məşğul olur, gecələr isə Allaha xidmət və ibadət edirdi.

On il beləcə keçdi. Bir dəfə o, öz səltənətini gözdən keçirmək, qüdrətinə inanmaq, qullarına və azad vətəndaşlarına, xəzinəyə baş çəkməyi qərara aldı bütün bunlara baxaraq o lovğalandı. Xudpəsəndlik onun qəlbini bürüdü və o təkəbbürlə səsləndi: "Bütün dünyada mənim kimi qüdrətli zəngin və hər şeyə qadir olan birisi yoxdur!" dərhal şeytan Iblis onun yanına gəldi. Onu salamladı və onunla görüşdü. "Sən kimsən?" – Dağ Yunus soruşdu. "Mən tanrının mələklərindən biriyəm – Iblis təntənəli surətdə söylədi. – O məni göndərmişdir ki, onun salamlarını sənə çatdırım və deyim: "Mən bütün göylərin hakimi səni bütün yerin sakinlərinə hakim təyin etdim və onları sənin sərəncamına verirəm. Mən səma işləri ilə çox məşğul olduğum üçün yerdəki işlərlə məşğul olmağa vaxtım yoxdur. Dağ Yunus mən bütün yer işlərini sənə tapşırıram və səni yerdə mənim canişinim təyin edirəm". Bu sözləri eşidərək Dağ Yunus əsdi və Iblisə dedi: "Allah bizi bu boşboğazın sərsəm sözlərindən qoru! Allah xatirinə bir də belə ağılsız sözlər söyləmə. Bütün sənin dediklərin şeytanın yoldan çıxartmasıdır. Zira heç bir ağıllı adam məni səcdəgah kimi qəbul etməz. Yalnız dəli adam buna razı olar sən yəqin ki, məni ağılasığmaz tamahla şirnikdirib məhv etmək istəyirsən. Axı sadə camaat bilsə ki, sən mənə nə təklif edirsən məni parça-parça edər".

Bu sözləri eşidərək Iblis gözdən itdi. Dağ Yunus isə huşunu itirdi. Özünə gələrək o, anladı ki, nə isə qorxulu bir iş baş vermişdir. Lakin bu sirr haqqında heç kəsə o bir söz demədi. O, bu sirri öz ürəyində saxlayır və bəzən qorxudan titrəyirdi. Bir neçə müddət belə davam etdi.

Bir gün Dağ Yunus öz qoşunu ilə ova çıxmışdı. Ov və gəzinti bitdikdən sonra Dağ Yunus öz çadırına getdi və qızıldan olan yatağına yatmaq üçün uzandı. Oyandıqdan sonra o, gözlərini açdı və qarşısında nursaçan qoca simasında Iblisi gördü. Bütün çadır parlaq işığa qərq olmuş və ənbər qoxurdu.

Qoca Dağ Yunusla salamlaşdı. O, cavab verdi və soruşdu: "Ey müdrik qoca sən kimsən və buraya necə girmisən?" Iblis cavab verdi: "Mən Ulu Tanrı tərəfindən göndərilmişəm. O sənə salam göndərir və buyurur: Bu vaxta qədər filan gün, filan tarixdə, filan vaxt öz mələklərindən birini sənin yanına göndərmişəm ki, sənə desin, Mənim yer işləri ilə məşğul olmağa vaxtım yoxdur. Mənim onsuz da göylərdə işim çoxdur. Mən yer üzərində allahlığı sənə həvalə edirəm. Sən yerdə işləri qaydaya salmalı, bütün yer üzərində Allahın vəzifələrini və ixtiyarını öz boynuna götürməlisən. Budur, indi mən öz yaxınlarımdan birini daha sənin yanına göndərirəm və sənə müraciət edərək deyirəm: Ey yerin allahı, yer işlərini sən idarə et, zira mən göy işləri ilə çox məşğul olduğumdan yer işləri ilə məşğul olmağı çatdıra bilmirəm. Mənim bu etibarlı elçimin sözlərinə inan". Eşitdiklərindən özünü itirmiş və heyrətlənmiş Dağ Yunus birdən ürəyində düşündü:

Bu qədər uzun söhbət-aydındır ki,
Təsadüfi və əbəs ola bilməz.

Bu qocanın bütün söylədikləri, onun dediyi bütün əlamətlər, həqiqətə uyğundur. Əgər onun sözlərində həqiqət olmasaydı, onda o haradan biləydi ki, bu xoş xəbər artıq bir dəfə mənə göndərilmişdir? Qocanın sözləri öz işini görmüşdü – o dərin fikrə getdi.

Bu zaman Iblis qeyb oldu və Dağ Yunus "Allah elçisinin" qeyb olduğunu görərək çadırdan çıxdı və çölə yollanaraq yenidən ovu davam etdirdi. O, ertəsi gün boyu da ovu davam etdirdi. Fikirdən əldən düşümüş, ikigünlük ovdan yorulmuş Dağ Yunus axşam çadıra gəldi və yatağa uzandı. Lakin birdən lənətə gəlmiş Iblis əvvəlki simasında yenə Dağ Yunusun qarşısında peyda oldu, onu salamladı və görüşdü. Dağ Yunus onun salamını aldı, ona böyük lütfkarlıq göstərdi və onu birinci dəfə olduğundan daha

mehriban qəbul etdi. "Ey möhtərəm insan, sən kimsən?" – Dağ Yunus hörmətlə soruşdu. Mən Tanrının filan vaxt, filan yerdə sənin yanına göndərdiyi elçisiyəm – Iblis cavab verdi. Indi məni yenə O, göndərmişdir ki, sənə Onun sözlərini çatdıram: "Sən, Dağ Yunus – yerin allahısan və bütün yerin sakinlərinin idarəçiliyini sənə həvalə edirəm. Sən onların işilə vicdanla və ədalətlə məşğul olmalısan. Mənim göylərdə o, qədər işim olur ki, yer işlərini çatdıra bilmirəm". Nəhayət, Dağ Yunus Iblisin Allah elçisi olduğuna inandı və ona dedi: "Ey allahın elçisi, mən daha özümün allah olduğum haqda fikri qətiyyən yaxına belə buraxmıram. Mən kiməm ki, allahlıq iddiasında olam? Sənin dediklərin mümkün deyil". "Ey yerin uca tanrısı – Iblis ucadan dedi, mən allahın mələyi olaraq şahidəm ki, sən yerin allahısan və heç şübhə yoxdur ki, sən yerin sahibi, hakimisən. Əgər sən istəyirsən ki, mən yeni tutarlı dəlillər gətirim, onda mən bunu edərəm. Sənin xeyrinə olan ən tutarlı dəlil budur ki, mən mələyəm və sənin qarşında dayanmışam. Axı sən bilirsən ki, insan cinsindən olan heç zaman mələk görməmişdir. mələkləri yalnız peyğəmbərlər görə bilərlər. Sən isə məni ikinci dəfə görürsən. Ikinci dəlil məndən başqa sənin yanına ayrı bir mələk də gəlmişdir. Xatırlayırsanmı, sənin yanına ov zamanı nursaçan qoca gəlmiş və sənə mənim verdiyim xəbəri vermişdi. Üçüncü tutarlı dəlil odur ki, sənin yerdə yaşadığın vaxtdan bəri heç kim sənə qalib gələ bilməmiş, əksinə sən yerin bütün hakimlərini məhv etmisən və bütün dünyanın var-dövləti sənə çatmışdır. Daha bir dəlil: mələklər heç bir zaman insanlara görünmürlər. Biz isə sənə gör neçənci dəfə görünürük: iki dəfə mən, bir dəfə isə qardaşım sənin yanına enib gəlmişik. Bilmirəm, bunlardan daha tutarlı və inandırıcı dəlillər gətirmək olarmı?"

Bu əvvəlcədən qərarlaşmış gözəgörünməyə görə Dağ Yunus lənətə gəlmiş Iblisi təsiri altına düşərək aldandı və ona inandı: "Ey allahın elçisi – Dağ Yunus Iblisə dedi, indi ki, mən Allahın məni yerə təyin etdiyinə inandım, bəs insanların mənə itaət etməsi üçün mən nə etməliyəm?" Iblis cavab verdi: "Əgər sən qəti olaraq yerin allahı olduğuna inanmaq istəyirsənsə, onda ayağa qalx və dalımca gəl. Biz dəniz sahilinə yollanacağıq və

orada mən sənə elə tutarlı sübut gətirəcəyəm ki, bundan sonra sənin allah olduğuna olan şübhələr bir yolluq dağılacaq və insanlar səni qəbul edərək sənə itaət edəcəklər. Dağ Yunus qalxdı, özü ilə etibar etdiyi hərbi rəhbərləri, özünün altı sevimli yeniyetmələrini götürdü və Iblislə birlikdə dənizin sahilinə yollandı".

Vəhhab ibn Münəbbəx söyləyir ki, Uca Tanrı o, dənizdə nəhəng bir balıq yaratmışdı. O, elə nəhəng idi ki, suyun üzünə çıxanda bütün dəniz dalğalanırdı. Bu balığın qəribə adəti vardı: hər gün səhərlər o dənizin sahilinə üzüb gəlir və günorta ibadəti zamanı başını sudan çıxararaq sanki Allaha dua eedirdi. Ibadət vaxtı bitdikdən və günəş yüksəyə qalxdıqdan sonra balıq yenə ertəsi günə qədər dənizin dərinliklərində qeyb olurdu. Ertəsi gün səhər çağı nəhəng balıq yenə də günorta ibadəti zamanına qədər üzüb sahilə yan alır. Sanki allaha dua edərək başını sudan çıxarır, ibadətini qurtarandan sonra üzüb gedirdi.

Iblis Dağ Yunusu öz adamları ilə birlikdə dənizin sahlinə gətirdi və orada günorta ibadətinin vaxtı çatana qədər tövlamaqda davam etdi. Iblis bilirdi ki, balıq ibadət vaxtı gələcək və ibadət müddəti balıq dəniz sularının dərinliklərinə baş vuraraq qeyb olacaqdır. Bunu bilərək o, Dağ Yunusu, yeniyetmələri və əyanları balığın olduğu yerə gətirdi. Nəhəng balıq səthə qalxan zaman o, ətrafındakılara xitab edərək uca səslə dedi: "Ey Dağ Yunus, ey insanlar, siz bayaqdan bu balığın Allaha ibadət etdiyini görürsünüzmü?" – "Bəli, çoxdan görürük – hamı cavab verdi. Bu balıq hamıya məlumdur ki, xeyirxah və savab işləri ilə məşhurdur. Biz və ulu babalarımız burada yaşayandan bəri həmişə bu balığı burada bu məşğuliyyətlə görürük". Onda Iblis, Dağ Yunusa müraciət edərək peyğəmbər səsi ilə ucadan dedi: "Əgər bu balıq bu saat şahidlik etsə ki, sən Dağ Yunus yerin allahısan, buna sənin adamların inanacaqmı ya yox?" – "bəli, inanarıq!" – hamı birdən qışqırdı və o, balığa müraciət edərək ucadan dedi: "Ey balıq, bizə bildir görək, burada iştirak edən Dağ Yunus yerin allahıdırmı?" Iblisin vahiməli təhqir bildirən gur səsini eşidən balıq qorxu və təlaşdan öz nəhəng bədəni elə titrətdi ki, dəniz coşdu və təlatümə

gəldi. Sonra balıq elə bir fəryad qopardı ki, sanki az qala göy yerə töküləcəkdi və bütün dünya alt-üst olacaqdı. Bundan sonra nəhəng balıq suya baş vurdu və gözdən itdi.

Bu anda Iblis gözdən itdi, dənizin dibinə batdı. Oradan əsrarəngiz və mənalı-mənalı qeybdən gələn səslə "Inanın! Inanın!" dedi. Dağ Yunus elə bildi ki, danışan nəhəng balıqdır: "Inanın!". Dənizin dərinliklərindən gələn səsi eşidərək və təlatümlü dənizi görərək Dağ Yunus qətiyyətlə özünü artıq allah hesab etdi. Onu xudpərəstlik və təkəbbür çulğadı, əvvəlcədən müəyyən edildiyi kimi o təntənəli səslə elan etdi: "Mən allaham!" Onu müşayət edən əyanlar və məmurlar, dövlət işçiləri və yaxınları yekdinliklə ona inandılar və onun allah olduğunu etiraf etdilər.

Bundan sonra Dağ Yunus iftixarla və təbəssümlə öz çadırına getdi, taxtına oturdu və altı yeniyetməni çağırdı. Onların böyüyü Təmleyxaya müraciət edərək buyurdu: "Mən allah imişəm və bu vaxtadək bunu bilməmişəm". Buradaca Iblis əvvəlkindən fərqli ayrı bir sifətdə peyda oldu. O, salamlaşdı, Dağ Yunus onun salamına həvəslə cavab verdi. Ona hörmət göstərdi və ondan soruşdu: "Sən kimsən və nə məqsədlə buraya gəlmisən?" – "Mən allahın mələyiyəm – Iblis cavab verdi – o, məni buraya göndərmişdir ki, sənə deyəm: dənizlərin bütün sakinləri etiraf etdilər ki, sən yerin allahısan. Sən xəzinənin qapılarını açmalı, qızıl və gümüşü paylamalı, yerin sakinlərini mehribanlıqla öz allahlıq himayənin altına almalısan ki, onlar sənin allahlıq mənsəbini etiraf etsinlər. Səni allah kimi tanıyan hər kəsə qızıl və gümüş hədiyyə ver, səni yerin allahı kimi tanımayanlara isə əzablı işgəncələr ver. Bunu deyərək lənətə gəlmiş Iblis qeyb oldu, sanki havada əridi. Dağ Yunus düşərgəni qaldırmağı əmr etdi və şəhərə yollandı. O, açıq surətdə özünü allah elan etdi və insanlara onu tanımağa və ona itaət etməyə çağırdı. O, insanlara qızıl, gümüş, mirvari və daş-qaş səpirdi. Hər yerə carçılar göndərərək öz təbəələrini yanına dəvət edirdi. Onu allah kimi tanıyanlara o, zəngin hədiyyələr və qızıl verir, onları yüksəldirdi, onun allahlığını tanımayanları isə işgəncə ilə öldürür və bu zaman

deyirdi: Bizim allahlıq mənsəbimizi tanımayanlar belə qəddarcasına ölümə layiqdirlər".

Özünün allah olduğuna əmin olduqdan sonra Dağ Yunus rəssam və inşaatçıları dəvət etdi və onlara cənnət adlandırıla biləcək bir yerin-sarayın himini qoymağı buyurdu. O, əmr etdi ki, bu sarayda özünün danışıqlardan eşitdiyi cənnətin bütün möcüzələri və gözəllikləri canlandırılsın. O, sarayı əlvan ipəklər, parça və atlaslarla bəzətdirdi, oraya zərif, nəfis müxəlləfet düzdürdü, yanaqları Zöhrənin yanaqlarından da gözəl çoxlu aysifət gözəllər gətirtdi və bu sarayı "Cənnət" adlandırdı. Saray qızıl və gümüş kərpiclərdən tikilmişdi: kərpicin biri qızıldan, digəri gümüşdən idi, bütün qapılar və divarlar bahalı daş-qaş və mirvarilərlə, bütün otaqlar əlvan daşlar, dinar və dirhəmlərlə bəzədilmişdi. Çoxlu sayda qızlara və oğlanlara şahanə libaslar geyindirərək və onların başına qızıl tac qoyduraraq, qiymətli daş-qaşlar düzdürərək Dağ Yunus onlarla öz cənnət sarayını bəzəyirdi. Öz təbəələrini qəbul edərək və onları onu allah kimi tanımağa çağıraraq Dağ Yunus cənnət-sarayında eşidilməmiş, bənzərsiz gözəllik və möhtəşəmlik içərisində otururdu. Onu yetmiş vəzir, əlli ayüzlü cavan, əlli gözəl qız əhatə edirdi. Qızıl manqallarda və məcməilərdə müşk, ənbər və digər ətirsaçan maddələr yandırılırdı. Bunların zərif qoxusu göylərə, aya qədər yüksəlirdi. Əlahəzrətin şəxsi xidmətçiləri olan altı yeniyetmə ən gözəl libaslara bürünərək Dağ Yunusun taxtı qarşısında durur, öz baxışları və qabliyyətləri ilə onun istənilən arzusunu öyrənir və bir göz qırpımında yerinə yetirirdilər.

Bir neçə il beləcə davam etdi. Bu müddət ərzində bir neçə yüz min təbəə Dağ Yunusa tərəfdar çıxdılar və onun allahlıq mənsəbi bütün yer üzünə yayıldı. Bu müddət ərzində Dağ Yunus onun allahlığını tanımayan minlərlə adamı tonqalda yandırdı. Altı yeniyetməyə gəlincə, onlar səmimiyyətlə və düzgünlüklə ona xidmət edirdilər və rahatlığını qoruyaraq daim ona diqqət edirdilər. Onlar öz sahibinin hərəkətlərinə bəzən haqq qazandırır, bəzən isə onu məzəmmət edirdilər. Onlardan ən böyüyü və ən ağıllısı Dağ Yunusun hərəkətlərini müşahidə edərək tez-tez öz

ürəyində deyirdi: Bu adam özünü allah mənsəbində hesab edənə qədər daim ibadətlə məşğul olur, itaətkarcasına bütün iman qaydalarını yerinə yetirir və istənilən işə başladıqda Allahdan kömək diləyir, ona dua edirdi. Bu gün isə o deyir: "Mən allaham və indiyə qədər bunu bilmirdim, indi isə çox aydın bilirəm ki, yeri və onun bütün sakinlərini mən yaratmışam. Əgər o dediyi doğrudursa, onda o, əvvəllər kimə itaət və ibadət edirdi? Məgər allah olaraq buna şübhə etməyən adam allahlığa layiqdirmi? Bundan başqa mən görürəm ki, o da hamı kimi yeməyə, içməyə, istirahətə və yuxuya möhtacdır. Məgər belə zəif məxluq Allah ola bilərmi?"

Bu fikirlər tez-tez Təmleyxanın ağlına gəlirdi amma o, bunu səylə gizlədirdi və ətrafdakıların heç biri ilə bölüşmürdü. Bu şübhələri ürəyinin dərinliklərində saxlayaraq o, Dağ Yunusun bütün gizli və aşkar işlərinə diqqət yetirməkdə davam edir, onları müqayisə edir və nəticələr çıxarırdı. Allahın iradəsilə bu cür fikirləri Təmleyxanın ürək dostları-beş qardaş da gizlədirdilər. Onların özü də öz sahiblərində allahlığı etiraf etmirdilər. Lakin bu fikirləri onlar bir-birindən gizlədirdilər və bir-birinin ürəyində nələr olduğundan xəbərdar deyildirlər. Onlar gecə və gündüz səbrlə Dağ Yunusa xidmət edir, o isə saatbasaat onların sədaqət və səylərinə daha çox sevinirdi.

Bu haqda başqa bir rəvayətdə belə deyilir: Bu altı yeniyetmə qədim peyğəmbərlərdən birinin nəslindən idilər. Bir dəfə Dağ Yunus hansısa bir bayramı qeyd etmək istəyir və bu təntənələri şəhərdən kənarda, çöldə keçirməyi əmr edir. Döyüşçülər və qulluqçular bütün lazımi avadanlığı – mətbəxi, qab-qacağı, su ehtiyatını və s. aparırlar. Hökmdar saray çadırını qurmağı və şadlıq üçün hər şeyi hazırlamağı əmr edir. Yeniyetmələr özləri hökmdara xidmət edirdilər. Onun qarşısında süfrə açaraq ona yemək və içmək verirdilər. Dağ Yunus yeməyə hazırlaşdı və birinci tikəni götürüb ağzına yaxınlaşdıranda birdən bu tikənin üstünə bir milçək qondu. Dağ Yunus bu tikəni kənara ataraq başqasını götürdü. Həmin milçək bu tikənin də üstünə qondu. Dağ Yunus bu tikəni də kənara atıb yeni bir tikə götürdü.

Amma milçək yenə bu tikənin üstünə qondu. Bu yeddi dəfə təkrar olundu. Digər bir rəvayətə görə bu yetmiş dəfə təkrar olunmuşdu. Nəhayət, kefi pozulmuş və köməksiz hökmdar acığından və pərtlikdən qızararaq süfrənin arxasından durub öz qəzəbini Təmleyxa və onun yoldaşlarının üstünə tökdü və onlara qışqırdı: "Nəyə hamınız durub baxırsınız və bir milçəyi də kənara qova bilmirsiniz ki, mən yemək tikəmi udum".

Nəhayət, Təmleyxa milçəyi qovdu və Dağ Yunus öz tikəsini birtəhər uddu. "Sən necə allahsan ki – Təmleyxa öz ürəyində dedi, zəif və kiçik bir milçəkdən gələn zərəri özündən kənar edə bilmirsən? Mən belə allaha bu dünyada nifrət edirəm və o dünyada da nifrət edəcəyəm".

Dağ Yunus gününü birtəhər təbiətin qoynunda keçirib səhəri şəhərə qayıtdı. Təmleyxa isə baş verən hadisə haqqında düşünür, gecə və gündüz bu fikirlərdən əl çəkə bilmirdi. Ertəsi gün Dağ Yunus öz yatağında uzanıb uzun müddət yatdı. Təmleyxa əlində yelpik onun yatağının yanında durub onu yelləyirdi. Qalan gənclər də orada idilər. Onlardan biri sərin su bardağını, digəri sərinləşdirici içki ilə dolu bardağı hazır tutmuş, üçüncü ətir çiləyir, dördüncü isə müşk və ənbər yandırırdı. Bir sözlə, bütün altı yeniyetmənin hamısı adəti üzrə hər hansı bir işlə məşğul olur və səylə öz ağasına qulluq edirdi.

Birdən allahın iradəsilə dünənki milçək peyda oldu və birbaşa yatmış hökmdarın sifətinə qondu. Dağ Yunus bundan dəhşətə gələrək öz yatağından göyə tullandı və döşəməyə düşdü. Bu zaman onun başı və üzü əzildi və sifətindən qan fışqırdı.

Öz sahibini belə vəziyyətdə görərək Təmleyxa bərk qorxdu və qışqırdı: "Bu allahın başına nə iş gəldi ki, belə balaca və zəif bir milçəyin qarşısında köməksiz qaldı"? Ulu Tanrı öz müdrikliyinə görə milçək kimi elə zəif və zərərsiz bir məxluq yaratmışdır. Lakin görünür ki, bəzən onun qarşısında mənim sahibim kimi qüdrətli hökmdarlar və yeni yaranmış allahlar əsim-əsim əsirlər. Axı Quranda deyilmişdir ki, "Ey insanlar! – İbrətli hekayə deyilir, ona qulaq asın. Həqiqətdə allah kimi hesab etdiyimizin hamısı bir yerə yığışsa da heç zaman milçəyi belə

yarada bilməzlər. Əgər milçək onlardan nə isə oğurlasa, onlar onu ondan ala bilməzlər. Zəif və iltimas edəndir və bağışlanandır. Bəli, sanki, Ulu Yaradan milçəyi bu dünyanın qüdrətli və güclülərini alçaltmaq üçün yaratmışdır ki, onlar öz zəifliyini, gücsüzlüyünü və acizliyini bilsinlər. Onlar özlərini dərk etsinlər və bilsinlər ki, hətta milçəyi belə qova bilməzlər. Onlar hər şeyə qadir olmağa iddia etməsin və özündən zəiflərə zor göstərməsinlər".

Alçaldılmış, didilib yaralanmış və pərt olmuş Dağ Yunus qalxdı, başındakı və üzündəki yaraları yudu və yuxudan məhrum oldu. Dağ Yunusun köməksizliyini və acizliyini görərək Təmleyxa öz ağasının allahlığını tanımağı qəti olaraq rədd etdi və öz ürəyində dedi: "Mən qorxudan kiçicik milçək qarşısında yuxudan məhrum olmuş, qorxudan döşəməyə yıxılan, başını və üzünü yaralayan belə allaha nifrət edirəm. Mən ona nifrət edirəm və nə yeməyə, nə də yuxuya ehtiyacı olmayan Allah qarşısında baş əyirəm".

Bütün günü Təmleyxa fikrə daldı. Şübhələr və quşqular onun qəlbini doldurmuşdu. Gecə düşəndə o, Dağ Yunusun yatmağını gözləyib yoldaşları ilə birlikdə dama qalxdı. Qaranlıq göyə və ulduzlara baxaraq Təmleyxa düşünür və öz-özünə deyirdi "Təəccüblü işdir! Bu nəhəng göylərin və parlaq ulduzların öz yaradıcısı vardır ki, müqayisə olunmaz dərəcədə aciz və yalançı Dağ Yunusdan qüdrətlidir. Mənim Allahım bu göyləri, ulduzları və kainatı yaradandır". Bütün gecəni Təmleyxa fikirlə keçirdi. Səhər açılanda isə öz adəti üzrə Dağ Yunusa xidmət etməyə getdi. Daxilən ona nifrətlə, amma zahirən bütün qayda-qanuna riayət edərək o, öz vəzifəsini yerinə yetirirdi. Lakin ürəyi və fikirləri ilə o, daim yer və göyün Allahı ilə zaman və fəzanın yaradıcısı ilə birlikdə idi və öz-özünə deyirdi: "Mənim Allahım bütün bizləri yaradandır və acizlik, zəiflik və həqarətin nə olduğunu bilməyəndir".

Təmleyxa hələ bir müddət də beləcə yaşadı. Qəlbində o, Dağ Yunusu allah kimi tanımırdı. Amma öz sirrini heç kəsə açmırdı. Səhərdən axşama o, Dağ Yunusa xidmət edir, gecələr

səhərə qədər isə o, öz Yaradanına ibadət edirdi. O, gecələr yatağında fikirdən gözlərini yuma bilmirdi. Yuxusuzluq, ağır düşüncələr və fasiləsiz fikrə dalmış o yerə göstərdi ki, o çox arıqladı. Üzünün zərifliyini və özünün mütəhərrikliyini itirdi. Solğun və xəstəhal oldu, onun ürəyini yeyən kədər və şübhələr sifətində əks olunurdu, onun bədəni zəiflədi yanaqları saraldı, mənəvi əzabların daxili didişmələrin ağırlığı altında o, elə bir vəziyyətə gəlib çatdı ki, onu içəridən gəmirirdi. Dağ Yunusun vəzir xacibləri onun xəstə halını görür və bir-birinə deyirdi: "Bu gəncin daha əvvəlki təravəti yoxdur. Onun gözəlliyindən və zahiri görkəmindən heç nə qalmamışdır. Ona nə isə bir bədbəxtlik üz vermişdir. Zira onun zahiri görkəmi onun daxili xəstəliyindən xəbər verir və onun qəlbində nə isə uğursuzluq yaranmışdır.

Sifətin kədərli olanda dostunun,
Ağır xəstəlik ürəyini yeyib-tökür yəqin.
Solmuş yanaqların saralmış rəngi,
Mənəvi əzabdan xəbər verəndi".

Biz bu rəngin taleyi haqqında yaxşıca düşünüb nə baş verdiyini aydınlaşdırmalıyıq. Bundan sonra hər kəs öz mülahizələrini, fərziyyə və gümanını deməyə başladı. Onlardan biri dedi: "Mənə elə gəlir ki, bu gənc kiməsə vurulmuşdur". Digəri ehtimal etdi ki, nəsə gizli bir bədən xəstəliyi vardır və bu xəstəlikdən getdikcə əriyir. Üçüncü fərz etdi: "Yəqin ki, o. Hansısa ağır günah işlətmiş qorxudan xəstələnmişdir. Vəzirlər bu ruhda müxtəlif fikirlər söylədilər, amma müəyyən bir fikrə gələ bilmədilər. Nəhayət onlardan ən ağıllısı dedi: "Mən hesab edirəm ki, o, gizlincə başqa Allaha itaət edir və biz gərək bu haqda öz allahımız Dağ Yunusa məlumat verib, onu inandıraq. Biz təcili məlumat verməliyik bu başqa birisinin məlumat verməsindən daha yaxşı olar, yoxsa Dağ Yunus bizi lənglikdə və fərasətsizlikdə günahlandırar".

Hamı müdrik vəzirin bu sözləri ilə razılaşdı, dərhal Dağ Yunusun yanına getdilər və öz şübhələri barədə ona məlumat verdilər. "Bəli – Dağ Yunus ucadan dedi-artıq çoxdandır ki, mənim ağlıma eyni fikirlər gəlirdi. Indi mən onun qəlbində hansı

fikirlərin olduğunu, nə üçün bu hala düşdüyünü öyrənməyə çalışaram. Vəziyyətdən ən yaxşı çıxış yolu –onun dostlarından, beş gəncdən birini seçib Təmleyxanı izləməyi və onun hamıdan xəlvəti nə ilə məşğul olduğunu öyrənməyi tapşırmaqdır. Bunu aydınlaşdıraraq o bizə məlumat verər".

Hamı Dağ Yunusun təklifi ilə razılaşdı və qərarlaşdıqdan sonra Təmleysanı dəvət edib ona dedilər: "Bizə elə gəlir ki, Təmleyxa xəlvəti olaraq başqa Allaha itaət edir. Onu izləməyi sənə tapşırırıq, sən onu xəlvəti fikirlərini öyrənib bizə xəbər verməlisən ki, biz onun işinin təhqiqi ilə məşğul olaq". "Dinləyirəm və itaət edirəm" – Təmleysa cavab verdi və dərhal onları tərk edib öz mənzilinə getdi.

"Təmleyxaya nə olmuşdur –Təmleysa öz-özündən soruşdu- görəsən onun ətrafında nə üçün belə çaxnaşma baş vermişdir". O, özünə bu sualı verən zaman və dostunun taleyi haqqında fikirləşəndə Ulu Yaradan onun qəlbini durultdu və o, öz-özünə dedi: "Bizim sahibimiz Dağ Yunus necə allahdır?! Əgər o, Təmleyxanın sirrini bilmirsə və onun qəlbindən nə keçdiyini bilmək üçün onu kimsənin güdməsini tələb edirsə onun allah olmağa nə layiqi vardır?" Bundan sonra Dağ Yunus haqqında şübhələr Təmleysanın qəlbinə bir daha hopdu və o dedi: "Dağ Yunus necə allahdır ki, soyuq və istidən qorxur və bütün insani zəifliklərə məruz qalır?!" Buradaca onun qəlbi əvvəlki şübhə və quşqu ilə doldu. O, axşama qədər gözlədi və qaranlıq düşəndə Təmleyxanın evinə yollandı.Gözə dəymədən evə girdi və xəlvəti bir yerdə gizləndi. O, gördü ki, Təmleyxa əlini əli üstünə, ayağını isə o biri ayağının üstünə qoyaraq pıçıldayır: "Mən zəif, kiçik bir milçəklə bacarmayan allaha nifrət edirəm".

Təmleyxanın necə həyacanlı vəziyyətdə olduğunu görmək və onun nitqini eşidərək Təmleysa söyüd yarpağı kimi əsdi və bilmədən dostuna müraciət edərək dedi: "Qardaşım mənim, bu nə deyə təhqir sözlərdir danışırsan?" Təmleysanı görərək Təmleyxa dedi: "Qardaşım mənim, mənə aman ver, mənim qanıma sən cavabdehsən. Mənim sirrimi faş etmə və burada mənim yanımda otur ki, mən sənə öz ürəyimin dərdini izhar edə bilim". Qorxudan

əsərək və gələcəkdə olacaqlardan ehtiyat edərək Təmleysa oturdu və öz baxışlarını, diqqətini, ağlını və qulağını Təmleyxaya yönəltdi. "Ey mənim qardaşım Təmleysa dilləndi – bil və agah ol ki, mən də sənin kimi artıq çoxdandır ki, Dağ Yunusa xidmət edirəm . O, allahlıq iddiasında olmazdan qabaq gecə və gündüz Allaha ibadətdə keçirirdi, indi isə israredir ki, o özü allahdır, bütün canlı məxluqları və insanları o yaratmışdır. Əgər doğru deyirsə, onda o kimə ibadət və itaət edirdi? Məgər məxluqun gah allah, gah da insan olması yaraşan işdirmi? - "Onda bəs Allah kimdir? - Təmleysa soruşdu". Allah göyləri və yerləri, ulduzları və planetləri, günəş və ayı yaradan və onları müəyyən bir cərgə ilə düzəndir, mənim kimi zəif və gücsüz olan Dağ Yunus isə bu ada layiq deyil və allah ola bilməz. Bundan başqa, biz ona xidmət edəndən və bir yerdə yaşadığımız vaxtdan etibarən, bir dəfə də olsun onun fövqəltəbii gücünü və ya allah gücünü aşkar etməklərini görməmişik. Həmişə də onun etdiyi yemək, içmək, yatmaq, istirahət etmək, qəzəblənmək, alçaq ehtiras və şəhvətə aludə olmaqdır, bütün bu xasiyyətlər isə Allaha xas deyil. Daha bir şey xatırlayırsanmı, bayram günündə o yemək istəyəndə milçək onun tikəsinə qondu və ona yeməyə imkan vermədi. Onda mən gördüm və hiss etdim ki, o, kiçicik milçək qarşısında belə zəif və acizdir. Milçək onun üzərində qələbə çaldı və ona yeməyə imkan vermədi. O, yeməkdən imtina etməli oldu. Daha bir hadisə. O, saraylarından birində öz yatağında yatırdı. Milçək orada da ona üstün gəldi, o yataqdan yerə yıxıldı, başını yaraladı və qorxudan daha yatmadı. Yadına düşürmü, onda o milçəkdən qorunmaq üçün bizi köməyə çağırırdı? Mənim qardaşım, indi özün fikirləş və vicdanla de, belə zəifliklərə malik olan insan allah ola bilərmi?"

Təmleyxanı diqqətlə dinləyən Təmleysa şübhələndi və düşüncələrə daldı.

Öz fikirlərini dostunun dedikləri ilə müqayisə edərək, o inandı ki, dostu düzgün nəticə çıxarmışdır. "Ey əziz qardaşım,- Təmleysa dilləndi- sənin canına and olsun, artıq çoxdan mən köməksiz vəziyyətdə bu cür fikirlərlə uğraşırdım. Dağ Yunusun necə yaşadığına diqqət verərək mən də sənin gəldiyin nəticələrə

gəlirəm. Hər şeyi görərək, hər şeyi bilərək mən nəfəsimi içəri çəkir heç kimə heç nəyi açmıram və öz gizli düşüncələrimi özümdə saxlayıram. Bilirsənmi mən nə üçün belə gec və hiss olunmadan sənin yanına gəldim? Ona görə ki, kimsə Dağ Yunusa sənin özünü aparmağı və fikirlərin barədə məlumat vermişdir. O, məni yanına çağırdı, səni izləməyi, sənin xəlvətdə nə ilə məşğul olmağını öyrənmək və ona xəbər verməyimi tapşırdı. O, bu işi mənə tapşıran kimi mənim ağlıma dərhal belə bir fikir gəldi: O necə allahdır ki, öz qulunun ürəyindən keçənlərdən xəbəri olmur və bunu öyrənmək üçün xəfiyyə xidmətindən istifadə edir.

Qoy mən ölüm, amma qardaşımı incitməsinlər,
Zülmükar və qaniçənlərə nifrət etsinlər.

Bu sözləri Təmleysadan eşidərək Təmleyxa çox sevindi və onu qucaqlayaraq, ürəkdən və məhəbbətlə ona dedi:

Qəlbim düşüncəsi səni dost etdi
Ağır xəstəliklər məni tərk etdi.

İndi mənə de görüm dostum Təmleyxa - Təmleysa xahiş etdi- sən hansı Allaha itaət edirsən, mən də ona itaət edim?

"Mən O Allaha itaət edirəm ki, - Təmleyxa cavab verdi- səni və məni, göyü və yeri, ayı və günəşi, ulduzları və planetləri bir sözlə kainatı yaradıb. Göylərdə və yerdə bizim Allahımız birdir. Mən allahcıqlara nifrət edirəm, bizim rəbbimiz yalnız Odur".

Təmleysa qışqırdı: "Mən də yalnız Onu etiraf edirəm və Dağ Yunusa nifrət edirəm". Bundan sonra dostlar bu sirri qorumaq, yaxşı və yaman günlərdə bir yerdə olmaq naminə söz verdilər və əhd bağladılar. Ertəsi gün tezdən Təmleysa Təmleyxaya dedi: "Mənim qardaşım, biz qalan dörd dostumuzu da din yoluna gətirmək üçün onları saxta, fırıldaqçı allah Dağ Yunusun şərindən və bəlasından xilas etmək haqqında düşünməliyik". Bu təklif Təmleyxanın xoşuna gəldi. Öz dostlarının qayğısına qalmaq haqqında razılığa gələrək Təmleyxa və Təmleysa Dağ Yunusun sarayına yollandılar. Dağ Yunus dərhal Təmleysanı tək guşəyə çağırdı işlər haqqında və Təmleyxanın vəziyyəti barədə xəbər aldı. Təmleysa çox möhkəm sədaqət andı verdi və dedi: " Mən dünən

bütün gecəni gizli və açıq sürətdə Təmleyxanı izlədim və bütün gecəni o, bizim əsl Allaha xidmətdə və ibadətdə keçirdi". Dağ Yunus zənn etdi ki, "əsl Allah" dedikdə onu nəzərdə tutur. O, Təmleysanın sözlərinə çox sevindi və Təmleyxanın sadiqliyinə ümidi artdı. "Mən əmin idim ki, - Dağ Yunus dilləndi - o heç zaman layiqsiz hərəkət etməz. İndi get mənim vəzir, vəkillərimə de ki, onların hamısı səhv etmişlər". Buradaca, öz vəzir vəkillərini xatırlayaraq Dağ Yunus hirsləndi və onları söydü.

Bu hadisədən sonra daha bir qədər zaman keçdi. Təmleyxa və Təmleysa səhərdən axşama kimi Dağ Yunusa xidmət edir, gecələri isə ibadətə sərf edir, Böyük Yaradana dua edir və zahidliklə məşğul olurdular. Çox zaman onlar bütün gecəni höccətləşir, Allahı dərk etməyin əsas dəlillərini və etibarlı yollarını axtarırdılar, bu haqda ucadan zikr edirdilər və çox zaman Böyük Tanrı onlara ruh verirdi, çünki Həqq-təala haqqında düşüncələr ali dərəcədə möminlik işidir. Peyğəmbərimiz həzrəti Məhəmməd əleyhis-səlamın – Allahdan ona salamlar olsun-dediyi kimi "Allah haqqında bir saatlıq düşünmə, bir illik ibadətə bərabərdi". Uzun- uzadı düşüncələrdən, zahidlik etməkdən və ibadətdə göstərilən səylərdən hər iki gəncin rəngi ağarmış, onlar arıqlamış və gənclik təravəti onları tərk etmişdi:

Sifətin rəngi mənim məxfi sirrilərimi aşikar etdi.

Vəzirlər, vəkillər və Dağ Yunusun digər yaxınları yenidən dediqoduya başladılar, hər kəs öz bildiyi kimi Təmleyxa və Təmleysaya qara yaxmağa çalışırdı. Bunu eşidərək Təmleyxa Təmleysanı yanına çağırdı və dedi: Mənim qardaşım, artıq məndə güc və səbr qalmamışdır. Dağ Yunusun bu intriqabaz qulluqçuları yenə də haqqımızda dediqoduya başlamışlar. Biz artıq onların arasında qala bilmərik. Biz elə bir yer axtarmalıyıq ki, buradan həmin yerə gedib öz Allahımızı tapaq və ona xidmət edək. Təmleysa cavab verdi: " Hər şeydən əvvəl biz öz vəziyyətimiz haqqında qalan dörd nəfərə xəbər verməliyik ki, onlar bizə birləşsinlər, yalnız bundan sonra biz bu allahsızlardan necə yaxa qutarmağı fikirləşə bilərik". Sən haqlısan – Təmleyxa razılaşdı, dediyin kimi də edərik. Bundan sonra Təmleysa Təmleyxa ilə

birlikdə Dağ Yunusun yanına getdilər, ondan onun şərəfinə ziyafət düzəltməyə icazə verməsini və bu zaman qalan yeniyetmələri də dəvət etməyi xahiş etdilər. Dağ Yunus icazə verdi, Təmleyxa ilə Təmleysa qonaqlığı hazırlamq üçün evə gəldilər.

Hər şeyi hazırlayıb, süfrə açaraq Təmleyxa və Təmleysa qalan dörd nəfəri də dəvət etdilər və birlikdə qonaqlığa başladılar. Hamı yeyib içdikdən sonra Təmleyxa və Təmleysa öz dostlarına müraciət edib dedilər: "Ey qardaşlar, bilin və agah olun ki, Dağ Yunus allahlığa layiq deyil və ola da bilməz,- baxmayaraq ki, o bunda israr edir. O da bizim hamımız kimi bütün insani zəiflikdən zərər çəkir, gücsüzdür və milçəyini qovmağa və mığmığın dişləməsinə qarşı müqavimət göstərməyə qadir deyil. O, deyir ki, güya yeri, göyü, ulduzları və günəşi o yaratmışdır. Bütün bunlar yalandır. Biz sizdən soruşuruq, deyin görək Dağ Yunusun neçə yaşı vardır? Otuz, qırx – gənclər cavab verdilər. "Bəs yerin və göyün neçə yaşı vardır?" Təmleyxa soruşdu. "Bizə qədər yüz minlərlə insan yaşamışdır – gənclər cavab verdilər – onlar yaşamış və ölmüşlər, günəş və ay isə həmişə mövcud olmuşdur". Əgər bu belədirsə - Təmleyxa dilləndi - əgər onun cəmisi otuz yaxud qırx yaşı vardırsa, onda o yüz min illər bundan qabaq mövcud olan yerləri və göyləri necə yarada bilər? Bəli sizin dedikləriniz doğrudur – gənclər dilləndilər – Biz də bu haqda çox düşünmüşük, Dağ Yunusun allahlığına qarşı şübhələr bizim də ürəyimizdə yaranmışdır. Biz onun iddialarını etiraf etmirik, onun həyat tərzini mühakimə edirik, lakin qorxudan heç kimə heç nə deyə bilmədik. Indi bizə deyin görək bəs bizim Yaradanımız kimdir? Təmleyxa və Təmleysa cavab verdilər: Bizim Yaradanımız, göyü və onun üzərindəki göy qübbəsini, ayağımızın altındakı sərhədsiz yerləri Yaradandır. Bizim Allahımız yüz minlərlə ulduzu yaradan və onu məşəl tək yandırandır. Dağ Yunus isə ağlasığmaz yalanlar danışır. O, artıq çoxdan bizi bezdirmişdir və biz qəlbimizdə ondan üz döndərmişik. Əgər o allah olsaydı bilməliydi ki, biz ona nifrət edirik. Bütün bu dörd gənc öz böyük yoldaşlarının dəlilləri ilə razılaşdılar və dedilər: Biz də Dağ Yunusa nifrət edirik və sizin itaət etdiyiniz Allaha itaət edirik. Öz dostlarından bu sözləri

eşidərək Təmleyxa və Təmleysa çox sevindilər və onları qucaqlayaraq bağrılarına basdılar. "Biz bu adamlardan qaçıb qutarmaq üçün üsul tapmalıyıq – onlar öz dostlarına dedilər. Öz uca Yaradanımızı axtarmalıyıq". "Siz ayağınızı qoyduğunuz yerə biz başımızı qoyarıq, siz hara getsəniz, biz də sizin arxanızcayıq" – gənclər cavab verdilər. Bu qərara gələrək onlar qalxdılar və buradaca Böyük Yaradan onların ürəyinə və ağızlarına bu sözləri gətirdi. "Hamımız şahidik ki, bizim Yaradanımız, yeri və göyləri, günəşi və ayı, ulduzları və planetləri, dağları və dənizləri yaradandır. Biz Dağ Yunusa nifrət edir və onun allah mənsəbinə saxta iddialarını tanımırıq".

Bunları deyərək gənclər qonaqlıq süfrələrindən götürüb Dağ Yunusun yanına yollandılar. Yenə bir qədər vaxt belə keçdi. Gündən günə Dağ Yunusun inamı artırdı, onlar isə xəlvətdə qaçmaq üçün münasib fürsət axtararaq, xidmətdə özlərini daha səyli və çalışqan göstərirdilər. Dağ Yunusun adamları gənclər ətrafında, daha çox dediqodu yaradır, onları hər şeydə günahlandırır, şərləyir və satırdılar. Vəzir vəkillərin dediqoduları nəhayət, Dağ Yunusa çatdı, və onları qəzəblə yanına çağırdı. "Siz bu gənclərdən nə istəyirsiniz, - o soruşdu- ümumiyyətlə siz onlar haqqında nə fikirləşirsiniz?" – "allahımız – vəzir vəkillər cavab verdi – biz görürük ki, onlar əvvəlki dindar yollarından sapmışlar. Bizdə elə dəqiq məlumat var ki, onlar ayrı Allaha itaət edir və sizi etiraf etmirlər". Bu sözləri eşidərək Dağ Yunus daha da qəzəbləndi və gəncləri onun yanına gətirməyi əmr etdi. "Nə üçün insanlar sizi belə mühakimə edib günahlandırırlar? – Dağ Yunus yeniyetmələrdən soruşdu – nə üçün onlar sizin ətrafınızda belə hay-küy qaldırmışlar? Onların sizin haqqınızda dediklərinin zərrə qədəri belə doğru çıxarsa, onda sizə ən əzablı cəza verməyi əmr edəcəyəm ki, başqalarına da dərs olsun". Təmleyxa və qalan gənclər ağızlarını açmadılar, Allah onların ürəyinə cəsarət verdi. Onlar cəsarətlə dedilər: "Bizim günahımız nədir?" – "Sizin allahınız kimdir – Dağ Yunus soruşdu – siz kimə itaət edirsiniz?" Bütün altı nəfərin hamısı cavab verdi. " Biz əsil Allaha itaət edirik, Allah yeri, göyləri yaradandır və bizim ondan başqa

Allahımız yoxdur". Quranda deyildiyi kimi: "Onlar durdular və dedilər: Bizim Allahımız göylərin və yerin Allahıdır, biz ondan başqa heç kimi tanımaycayıq".

Ulu Tanrı Dağ Yunusa təsir etdi və o elə bildi ki, gənclər onu nəzərdə tuturlar. Gənclərin cavabı ona çox xoş gəldi, o, gənclərə nəvaziş və hörmət göstərdi, onlara xalat verdi, vəzir vəkilləri isə möhkəm cəzalandırdı və dedi: "Siz yalnız paxıllıqdan onların haqqında belə boşboğazlıq edirsiniz". Sonra o, gəncləri nəvazişlə və mehribanlıqla evə yola saldı. " Özünüzü bərk saxlayın və heç nədən qorxmayın – yolda Təmleyxa öz dostlarına dedi – bilin ki, bizim Allahımız qüdrətli və güclüdür, O, bizi Dağ Yunusun qəzəbindən qurtardı". Bundan sonra onlardan hər biri ucadan Uca Allaha dua etməyə başladılar. Dağ Yunusun qəzəbinə baxmayaraq vəzirlər onların cavabından bildilər ki, gənclər qəti olaraq Dağ Yunusdan üz döndərmişlər və başqa Allaha xidmət edirlər. Lakin Dağ Yunusun onların yeniyetmələr haqqında dediklərini şər hesab etdiyini bildiklərindən onlar daha gənclərin arxasınca danışmağa cəsarət etmədilər. Onlar yalnız öz aralarında bu barədə danışırdılar.

Bir il də keçdi. Bir dəfə vəzirlər fürsət taparaq, axır ki, yenə də gənclər haqqında bildiklərini ona danışdılar. Dağ Yunus son dərəcə özündən çıxdı və qəzəbdən tutuldu. Onun bir dənə içi boş dəmir inəyi var idi. O, elə böyük idi ki, ölçüləri heç də fildən kiçik deyildi. Onu allah kimi etiraf etməyənlərin hamısını Dağ Yunus bu dəmir inəyin qarnına qatır, od qalayır və yandırırdı – bu hər bir cəzadan ən ağırı idi. Öz vəzirlərini dinləyərək və bu dəfə onlara inanaraq, Dağ Yunus dərhal dəmir inəyi dartıb gətirməyi, onun qarnında dəmiri qızdırmaq üçün odun qalamağı əmr etdi. Bundan sonra carçılar şəhər adamlarını cəza yerinə çağırdı. Sadə adamlar, əyanlar və hərbi rəislər toplandılar. Dağ Yunus altı gəncin hamısını gətirməyi əmr etdi. Cəllədlar dərhal onları əli-qolu bağlı gətirdilər. Toplaşanların gözü qarşısında Dağ Yunus onları dindirməyə başladı: "Mənim vəzirlərim deyirlər ki, sizin məndən savayı başqa allahınız da var və sizi düz yoldan çıxartmışlar. Əgər bu belədirsə, onda mən sizi ən sərt üsulla

cəzalandıracağam". "Allah özün qoru – gənclər qışqırdılar – biz həqiqi dinin arxasındayıq və düzgün yolla gedirik, biz doğru olmayan hər hansı bir dinə etiqad etmirik, biz doğru olmayan hər hansı bir dinə nifrət edirik. Bizim cənabımız, sənin bizi imtahana çəkməyinə, bizi hədələməyinə, və işgəncə verməyinə ehtiyac yoxdur. Əgər sən bizim allahımızsansa, onda sən bizim ürəyimizdə olan hər şeyi bilməlisən, sənin hökmüdarlığının ilk günlərindən biz sənə xidmət edirik və heç zaman dediklərindən kənara çıxmamışıq, sənin iradəni sözsüz yerinə yetirmişik. Bu işi sən öz allah ağlının mühakiməsinə tapşır, əgər sənin ürəyin vəzir vəkillərin dedikləri ilə razılaşsa onda bizi cəzalandır, zira, bütün işlərdə səndən müdriki yoxdur, əgər sənin ürəyin desə ki, onlar yalan danışırlar, onda bil ki, onlar bunu paxıllıqlarından edirlər, onda üzərimizdən bu qəzəbi götür ki, biz sakit ürəklə öz Allahımıza xidmət və itaət edək".

Dağ Yunus və altı yeniyetmə yaşadığı zaman hələ peyğəmbər yox idi və Allahın kitabı mövcud deyildi, onlar nə edirdilərsə, öz ağılları ilə və göydən ilhamlandırılmaqla edirdilər. Bu cavanlar Uca Tanrının köməyi ilə düzgün yol tapmışdılar. Bütün bu hadisələr Zəkəriyya və Isa peyğəmbərdən – Allahın onlara salamı olsun – qabaq baş vermişdir. Deyirlər ki, bu altı gənc əvvəlki peyğəmbərlər nəslindən idi.

Xalqın qarşısında gənclərin dediklərini dinləyərək Dağ Yunusun ürəyi yumşaldı. Yeniyetmələrin: "Əgər sən bizim allahımızsansa, onda bilməlisən ki, biz əsil Allahın dininin arxasınca gedirik və heç bir satqınlıq etməmişik" – sözləri Dağ Yunusun könlündə xüsusi təsürat yaratmışdı. Onlar doğru deyirlər – o öz ürəyində dedi – bu gənclər neçə vaxtdır ki, mənim yanımda xidmət edirlər və mənim əleyhimə bir addım da atmamışlar, heç zaman səylə mənə xidmət etməkdən qaçmamışlar, məndən başqa heç kimi tanımamışlar, onlar haqqında danışılanın hamısı yalan və şərdir". Səsini ucaldaraq dedi: "Bizə məlumdur ki, siz haqlısınız. Sizin dediklərinizi biz öz allahlıq mühakiməmizə verərək qərara aldıq ki, bütün sizin fəaliyyətiniz bizim xeyrimizə, bizim qüdrətimizin, şöhrətimizin və möhtəşəmliyimizin naminədir. Əgər

bundan sonra kim olursa olsun, canlı məxluqlardan biri bizim qarşımızda sizin haqqınızda bircə dənə belə pis söz deməyə cəsarət etsə, mən onu dəmir inəyin qarnında işgəncə ilə edam etməyi əmr edəcəyəm. Bunu deyərək Dağ Yunus dərhal onlara böyük hörmət göstərməsini əmr etdi, onlara nəvaziş göstətdi və hədiyyələr verdi. Dostlarına müraciət edərək Təmleyxa dedi: "Məgər mən sizə demədimmi ki, bizim itaət etdiyimiz Allah bizə bədbəxtliyə düçar olmağa imkan verməz, O qüdrətlidir bizi düşmənlərimizin fitnə və şərindən qorumağa qadirdir.

Bundan sonra bir qədər zaman keçdi. Dağ Yunusun gənclərə münasibəti gündən – günə yaxşılaşır onlar isə saatbasaat Ulu Tanrını daha çox dərk etməyi anlayırdılar.

Bir dəfə Təmleyxa dostlarına dedi: Bizim çoxlu düşmənlərimiz var, onlar daim ayağımızın altını qazaraq bizi məhv etmək üçün münasib fürsət axtarırlar. Allah etməsin ki, bir gün onlar qələbə qazanıb bizi əzablar girdabına sürükləsinlər. Bu vəziyyətdən yeganə çıxış yolu qaçmaqdır, biz bu yolunu azmış insanlardan uzaqlaşıb öz Yaradanımızı axtarmalıyıq. Biz artıq düşmənçilik intiriqaları əhatəsində yaşamaq iqtidarında deyilik. Biz özümüzə elə təhlükəsiz bir yer axtarıb tapmalıyıq ki, açıq və azad şəkildə öz Allahımıza ibadət edə bilək. Bütün həyatımız boyu biz heç bir başqa yerdə olmamışıq- dostlar etiraz etdilər- biz təhlükəsiz yerlərə aparan heç bir yol tanımırıq. Bəs biz hara gedə bilərik? – Uzaq görən olan - Təmleyxa dilləndi – kimin xatirinə biz burdan getmək istəyirik, O bizə yol göstərər və bizi darda qoymaz. "Biz razıyıq, biz inanırıq!" – gənclər səsləndilər və dərhal qaçmağa hazırlaşmağı zəruri şeylərin tədarükünə və münasib fürsət gözləməyə başladılar. Bir dəfə Ulu Tanrı Dağ Yunusun ürəyinə on günlük ova çıxmaq arzusu saldı. Bu arzu onu tamamilə bürüdükdən sonra o, buna lazımı hazırlıq görülməsini əmr etdi. Yollanmaq vaxtı çatdıqdan sonra gənclər Dağ Yunusdan xahiş etdilər ki, evdə qalsınlar. Allahın istəyi ilə Dağ Yunus onlara evdə qalmağa icazə verdi. Getməzdən qabaq o, öz etibarlı əyanlarından birinə altı yeniyetməyə göz yetirməyi tapşırdı.

Dağ Yunus getdikdən sonra gənclər öz vaxtlarını həmin əyanın yanında keçirir, onunla söhbət edir, birlikdə gəzir, onu tərifləyir, ona mədhnamə oxuyurdular. Bir dəfə hər şey qaçmaq üçün hazır olduqdan sonra, gənclər əyana dedi: " Sənin icazənlə biz meydançaya gedib çovqan oynamaq istəyirik". "Olar" - əyan onlara icazə verdi və atları yəhərləməyi tapşırdı. Gənclər bəzəklə ipək libaslar geyindilər, hazır atlara mindilər, özləri ilə lazımı ləvazimat götürdülər və çovqan oynamaq üçün meydançaya yollandılar. Bir qədər çovqan oynamaqdan sonra birdən onlar atların səhraya tərəf sürdülər. Bunu görərək əyan da onların arxasınca çapdı. Onlara çaparaq o, onlara qışqırdı: "Hara gedirsiniz, niyə özünüzü belə aparırsınız?" Onda onların hamısı dedilər: "Biz Dağ Yunusu tanımırıq, o bizi cana gətirmişdir, biz şahidik ki, Allah təkdir, onun şəriki yoxdur və ondan başqa Allah yoxdur məgər o bir olan Allah. Onun üçün yuxu, yemək–içmək və istirahət kimi yer anlayışları mövcud deyil və indi biz onu tapmaq və ona qovuşmaq üçün gedirik".

Bu sözləri eşidərək, əyan qışqırdı və onları tutmaq üşün tullandı, lakin onların altısı da birdən nərə çəkərək onun üstünə atıldılar və onu elə döydülər ki, o huşunu itirdi və atdan yıxıldı. Bunu görərək gənclər Allahı köməyə çağırdılar və atlarını səhraya tərəf döndərdilər. Onlar iki–üç fərsəx ( bir fərsəx 5 km-dir) getmişdilər ki, Təmleyxa dedi: "Gəlin təkəbbürü buraxıb axtardığımızı axtaraq. Gəlin atlarımızı ötürək çünki, onlarsız çox gözə dəymərik, bəzəkli paltarlarımızı da əynimizdən çıxaraq, çünki, Dağ Yunusun döyüşçüləri arxamızca düşsələr bizim bəzəkli paltarlarımızda da nişanə kimi tez tanınar. Atları buraxaq, paltarları çıxaraq, səhraya gedək, baxaq görək Tanrı bizi hara aparacaqdır. Əgər biz bunları etməsək, onda atlar bizi həmişə Allaha dua və ibadət etməkdən yayındırar".

Hamı razılaşdı, gənclərin altısı da atdan yendi, onları buraxdı, əyinlərindən öz bəzəkli paltarlarını çıxardıb atdılar, sonra piyada, yüngül geyimdə səhraya yollandılar. Onlar bir neçə sutka, yorulub əldən düşənədək yol getdilər. Onların zərif ayaqları qabarcıqlarla örtülmüşdü, onlar dayandılar, yol yorğunluğu və

əziyyətlər onları üstələmiş, sonra aclıq və susuzluq tamam əldən salmışdı. Onların hamısı səhradan çıxmaq ümüdini itirərək yolun kənarında yerə sərilmişdilər. Üzü üstə yerə yıxılan Təmleyxa yalvarırdı: "Sən ey sirriləri bilən, bütün səsləri eşidən, hər şeyi görən, bizim nə vəziyyətdə olduğumuzu bilirsən, öz gücsüz və zəif qullarına mərhəmətlə və lütfkarlıqla nəzər sal. Biz evlərimizi və din ocaqlarımızı tərk etmişik, hakimiyyət, sarayda tutduğumuz mövqedən əl çəkmişik, öz hakimiyyət payımızdan imtina etmişik və yer – yurdumuzdan dərbədər olmuşuq ki, sənə yetək, sənə ibadət edək, ey bizim böyük Allahımız, bizə öz köməyini göstər və bizi darda qoyma.

Çoban öz sürüsün yırtıcıdan qoruduğu kimi,
Ulu Tanrı sən də bizi qəvi düşməndən qoru.

Rəvayətdə deyilir ki, Təmleyxanın hıçqırıqları və yalvarışları Allah tərəfindən eşidildi, və dərhal mələklər göydə həyacanlandılar və göy səltənətində vəlvələ, hay-küy düşdü. Uca Tanrı öz mələklərinə dedi: Əgər qullarımız bizdən kömək istəyirlərsə, siz onlara bu köməyi etməlisiniz. Əgər o məndən kömək istəyirsə, onda dayanın, çünki. mən bildiyimi siz bilmirsiniz. Mələklər sakitləşdilər və susdular.

Bu əsnada Təmleyxa öz dostlarını orada qoyaraq, ətrafa baxmaq və hər hansı bir nişanə görmək ümüdi ilə ağlaya-ağlaya yaxınlıqdakı dağın təpəsinə qalxdı. Narahat ürəklə dağa dırmaşıb ağlayaraq ətrafa baxdı və dağın ətəyində cənnətə oxşar çəmənlik gördü. Bu cənnətlikdə çoban qoyun otarırdı. Çobanı görərək, Təmleyxa çox sevindi. O, öz dostlarına səsləndi: "Tez bura gəlin, mən qoyun sürüsü ilə çoban görürəm, ümüd etmək olar ki, bu yaxınlıqda nəsə yaşayış yeri vardır". Bunu eşidərək dostlar sevindilər və Təmleyxanın yanına getdilər. Çobana yaxınlaşaraq salam verdilər. Çoban onların salamını alaraq cavab verdi və onlara öz ehtiramını göstərdi. "Siz kimsiniz çoban soruşdu – haradan gəlib hara gedirsiniz?"

Biz yad ölkələrdənik – Təmleyxa cavab verdi- yolda azmışıq və artıq bir neçə sutka piyada gələrək ac və susuz bu yerlərdə dolanırıq, indi bir tikə çörəyə və bir içim suya möhtacıq.

Allah rzasına,Yaradanımız namina biza bir az yemak versan bu dünyada çox savab iş görərsən və bu sənin o dünyan hesabına yazılar.

Çoban dərhal öz çörəyinin hamısını onların qabağına qoydu, onları qonaq etdi və nəvazişlə onlara hörmət göstərdi.

Yemək yeyildikdən sonra onlar söhbət etməyə oturdular. Çoban diqqətlə onlara baxdı və soruşdu: "Qardaşlar, deyin görək haradan gəlirsiniz, hara gedirsiniz, hansı millətdənsiniz? "Eyxeyirxah insan – Təmleyxa cavab verdi bil ki, biz hamımız Dağ Yunusun əsirləriyik və ondan qaçmışıq". Çoban güldü və zaraftca dedi: "Bəs siz allahdan qaçmağı necə bacardınız, axı o, bundan ötrü sizi cəhənnəmə saldırar" Təmleyxa cavab verdi: Biz neçə sutkadır ki, qaçdığımız o allaha nifrət edirik, o isə bizim harada olduğumuzu bilmir". Çoban Təmleyxa və onun dostlarına baxdı, onların cəsarət ilə fəxr etdiyini bildirdi, onlara gülümsündü. Gənclər bir səslə cavab verdilər: "Biz Dağ Yunusa və onun allahlıq iddiasına nifrət edirik, biz öz Allahımızı və bütün məxluqatın Yaradıcısını axtarırıq. Biz qəlbimiz və ürəyimizlə bəyan edirik ki, "Allahdan başqa allah yoxdur". Bu sözlərdən çobanın bütün bədəni titrədi və Ulu Tanrı adının əzəməti onun qəlbində təsvirolumaz mərhəmət doğurdu. "ey xeyirxah gənclər - çoban dilləndi – sizə bunu kim öyrədib, həqiqəti kim bəyan edib?" Bu sualları verərək çoban hiss etdi ki, onun ürəyində hansısa təsvirəgəlməz Allah mərhəməti (xofu) yaranır, çünki Ulu Tanrı onu düzgün yola yönəldirdi. Onların sözlərinin çobana necə təəssürat bağışladığını görən Təmleyxa və onun dostları dedilər: "Bunları bizim ağlımız düşünməmişdir, onu Uca Tanrı bizim qəlbimizə və ağzımıza hopturmuşdur".

Mənim qardaşlarım, - çoban dedi- bilin ki, mən artıq qırx ildir çoban kimi xidmət edirəm, tez-tez göyə, günəş və aya baxıram, onlar haqqında fkirləşir və bu qənaətə gəlirəm ki, bütün bunlar bir Yaradıcı tərəfindən yaradılmışdır. Mən də o qənaətə gəldim ki, Dağ Yunus yalançıdır, o heç də allah deyil, mən də ona nifrət edirəm. Son zamanlar öz həmsöhbətlərimi anlayan ürək dostları axtarırdım və nəhayət mən sizi tapdım. Allaha çox

şükürlər olsun ki, mənə sizin xeyirxah üzünüzü görmək və sizinlə rastlaşmaq qismət oldu. Indi mən sizdən xahiş edirəm ki, öz haqqınızda əvvəldən axıra kimi danışasınız ki, sizin kim olduğunuzu mən bilim. Gənclər ona özləri haqqında geniş məlumat verdilər və çoban çox sevindi. "Arxayın olun! – o, səsləndi nə qədər ki, canım sağdır, mən sizə ürəkdən kömək və xidmət edəcəyəm. Əgər istəyirsinizsə, əmr edin indicə gedib qoyunları öz sahibinə təhvil verib, bütün qayğılardan qurtarıb sizinlə gedim. Mən sizi elə bir mağaraya aparacağam ki, orada biz arxayınlıqla Uca Tanrıya xidmət edə bilərik və beləliklə ürəyimizdə istədiyimiz məqsədə çata bilərik".

Təmleyxa və onun dostları çobanın sözlərinə çox sevindilər və onun təklif etdiyi kimi hərəkət etdilər. Çoban dərhal şəhərə yollandı, qoyunları sahibinə təhvil verdi və arxayın halda öz dostlarının yanına qayıtdı. Onların yanına gələrək o, onları mağaraya apardı. Yolun bir qədərini getdikdən sonra Təmleyxa gördü ki, hansısa bir it onların dalınca gəlir. "Mənim qardaşım – çobana müraciət edərək o dedi – hansısa bir it bizi təqib edir". Çoban itə qışqırdı, amma o, qışqırığa məhəl qoymadan onların arxasınca getməkdə davam etdi. "Mənim qardaşım – Təmleyxa yenidən dilləndi – bu it yalnız ona görə arxamızca gəlir ki, səni çox istəyir. Əgər biz onunla qaçsaq, adamlar bunu görər və biz biyabır olluq. Yaxşı olar ki, onun arxamızca gəlməməsi üçün bir tədbir fikirləşək". – "Bu it artıq on iki ildir ki, mənimlədir- çoban dedi – bütün bu müddət ərzində o, bir anda olsa məndən və qoyunlardan ayrı olmamışdır. Lakin indiki vaxtımızda o, gərək bizim yanımızda olmasın". Bunu deyərək o itə bərk acıqlandı, o bir müddət onlardan aralandı. Lakin bir müddətdən sonra o yenə də yolçulara çatdı. Gənclər və çoban nə edəcəklərini bilmədilər. Onlar daş götürərək itə atmağa başladılar. It yenə də dayandı, lakin bir qədərdən sonra yenə onların arxasınca qaçdı. Gənclər yenidən onu daşladılar, it yenə bir müddət onlardan aralandı, sonra yenə onların arxasınca qaçdı. Bu bir neçə dəfə təkrar oldu. Nəhayət "yeddi kimsə" iti dəyənəklə döyməyə başladılar, bu da faydasız oldu. Gənclər hirsli-hirsli itin üstünə atıldılar və daşla

vurub ayağının birini sındırdılar. Ağrıdan zəngildəyərək it Allahın izni ilə dil açaraq xalis insan dilində yalvardı: "Ey xeyirxah insanlar siz nə üçün məni döyür və ələ salırsınız? Axı məndə siz axtardığınızı axtarıram. Baxmayaraq ki, biz müxtəlif sifətlərdə yaradılmış məxluquq, lakin arzu və istəklərimizdə fərq yoxdur: Allahdan başqa Allah yoxdur və onun şəriki də yoxdur. Nə üçün düşünülmədən məni döyürsünüz, nə üçün mənə divan tutmaqla hədələyirsiniz?

Mən xeyirxah insanların məskəninə can atıram,
Haqq sümük yemək üçün xidmət etmək axtarmıram.

Rəvayətdə deyilir: Itdən dahiyanə sözləri : "Allahdan başqa Allah yoxdur və onun şəriki yoxdur!" eşidərək Təmleyxa və onun dostları heyrətdən donub qaldılar, çünki, indiyə qədər bu həqiqəti heç kəsdən eşitməmişdilər.

Bu hadisə bütün yeddi nəfərin ürəyini arxayınlıqla doldurdu və yeni ruh yüksəkliyi yaratdı – onlar bir daha inandılar ki, doğru yoldadırlar. Onların hamısı dərhal itin yanına qaçdılar, onu yerdən qaldırdılar. ağzını toz və torpaqdan təmizlədilər, öpdülər, yaralanmış pəncəsini sarıdılar, sonra Uca Tanrının qüdrəti haqqında düşüncələrə daldılar. Ona inam daha da artdı, onlar inandılar ki, yeganə həqiqi - gerçək Yaradan –onların axtardığıdır. Bundan sonra fərəhlə, ruh yüksəkliyi ilə, daim Allahı mədh edərək, yollarını davam etdirdilər. It indi sakitcə onlarla birlikdə gedirdi. Böyük olan Allah öz şanlı və əzəmətli kitabında həmin xeyirxah gəncləri, onların itini sevimli peyğəmbərinə xatırladır. Itin pəncəsi qırıldığından yoruldu və daha gedə bilmədi. O zaman gənclər onu çiyinlərinə aldılar və növbə ilə aparmağa başladılar. Nəhayət, yolçular mağaranın girişinə gəlib çatdılar. Onların hamısı əldən düşmüş və üzülmüşdülər, onların ayaqlarının altı qabar atmışdı. Yorğunluqdan onlar girişin önündə yerə yıxıldılar və yerdən qalxa bilmədilər. "Bizə mağaraya girmək lazımdır – çoban dedi – yoxsa biz Dağ Yunusun adamlarından və dinsizlərdən yaxa qurtara bilmərik". Bunu deyərək çoban içəri daxil oldu və onların arxasınca əsilzadə cavanlar daxil oldular. Içəri girərək onlar nəhəng, geniş, təmiz və münasib bir mağara

gördülər. Mağaranın girəcəyində qurumuş bulaq və yenə də uzun illər əvvəl qurumuş ağaclar var idi. " Yeddi kimsə"lərin hamısı suyu çəkilmiş bulağın yanında oturdu, iti isə girişin qarşısında yatmağa ayaqların uzadaraq oturdu. Aclıq və susuzluq onlara əzab verirdi, onlar qeyri – ixtiyari olaraq öz evlərini, bol yeməklərini, dadlı təamları, rahatlıq və naznemətlərini xatırlayırdılar. Təmleyxanın şəhərdə arvadı və oğlu qalmışdı, o birdən onları təsəvvüründə elə aydın canlanırdı ki, öz hissilərin cilovlaya bilməyib hönkürərək yerə sərildi. Onun dostları da öz yazıq vəziyyətlərini, köməksizlik, bədbəxtlik və kədərlərinə ağlayırdılar. Birdən Təmleyxa göz yaşarı arasından dedi: "Mənim qardaşlarım, Allah qadir və rəhmidildir bizi unutmamışdır, O, hər şeyi görür və bilir. O, qüdrətli və güclüdür, illa ki, bizi qəzəbli və kinli Dağ Yunusdan xilas etdi və buraya gətirdi. O, bizə gündəlik çörəyimizi də göndərər, bizi darda qoymaz, çünki O, çox mehriban və mərhəmətlidir. O, nemət verəndir. Ruhdan düşməyin və səbr edin". Bu sözlərdən o biri cavanlar sakitləşdilər və mağaranın qapısı qarşısında bir qədər dincəlmək istədilər. Bu zaman Allah Cəbrayıl əleyhis-səlama buyurdu: "Məni ciddi cəhdlə axtaran, sadiq və səmimi dostlarım köməyə möhtacdır, onlara kömək et. Cəbrayıl əleyhis-salam dərhal yendi və öz qanadları ilə qurumuş bulağa və quru ağaca toxundu. Bir göz qırpımında ağac yaşıllaşdı, çiçəklədi və meyvə gətirdi, bulaq isə içməli su ilə dolub şırıldadı. Təmleyxa Dağ Yunusun adamlarının onları axtarıb – axtarmadığını bilmək üçün mağaradan çıxdı və birdən onun gözləri meyvəli ağaca və şırıldayan bulağa sataşdı. Allah mərhəmətini və köməyini görərək o, sevincdən qışqırdı və dedi:

Rəbbimizə kim inanıb üz tutarsa gər,
Ona həm yurd yuva, həm çörək verər.

Ey mənim dostlarım, əziz Allah axtaranlar, mağaradan çıxın, bura gəlin və bizim Allahımızın qüdrətinə baxın! Gənclər dərhal mağaradan çıxdılar, təzə və şirəli meyvələrlə ağırlaşıb sallanan budaqları və şırıldayan bulağı görərək sevinclə gülümsəyib dedilər: "Bütün bunlar Allahımızın mərhəmətidir!" Öz ətrafında əsl cənnəti görərək onlar çox sevindilər, sonra

bulağın kənarında duraraq doyunca meyvələrdən yedilər və içməli sudan doyunca içdilər, sonra dua etdilər, əl üzlərini yudular, Uca Tanrıya şükr edərək ibadətə başladılar.

"Mənim dostlarım – Təmleyxa dostlarına müraciət etdi- Uca Tanrı öz mərhəmətindən alicənablıqla bizə yemək göndərdi və ətrafımızı bolluq, bərəkətlə doldurdu. Gəlin mağaraya gedək bir az yataq və istirahət edək, axı görün neçə gündür ki, istirahət etmirik. Indi biz bir qədər dincələk ki, yol yorğunluğu bədənimizdən çıxsın, sonra isə qalxıb dua və ibadətlə məşğul olarıq". "Sənin dediklərin ağılabatandır" – dostları ona dedi və bundan sonra hamı qalxıb, mağaraya girdilər və "Allahdan başqa Allah yoxdur və onin şəriki yoxdur" müqəddəs sözləri təkrar etdilər. It də onlarla birlikdə eyni sözləri təkrar edirdi. Hər tərəfə dağılaraq hamı yatmağa uzandı, it isə mağaranın girəcəyinin qarşısında, başını pəncələr arasına qoyaraq yuxladı. Uca Tanrı Cəbrayıl əleyhis-salama onlara yuxu göndərməyi əmr etdi. Allahın müqəddəs səmavi kitabında yazıldığı kimi: "Və biz onların qulaqlarını uzun illər eşitməz etdik".

Onlar yatmaqda olsun, Dağ Yunus haqqında rəvayətə qayıdaq. Rəvayətçilər nəql edirlər ki, Dağ Yunus ovdan qayıtdıqdan sonra öz gənc qulluqçularını görmədi. Bu arada gənclərə göz qoyan ağa onların izi ilə səhraya dalaraq onların atlarını, paltarlarını və silahlarını tapdı, bütün bunları görüb şəhərə qayıtdı.

Dağ Yunusa o şeyləri göstərdi və hadisə barəsində danışdı. Dağ Yunusun kefi pozuldu, qəmləndi, çünki uşaqlıqdan tərbiyə etdiyi bu gənclərə çox bağlı idi. Dağ Yunusun adamları arasında səs-küy qalxdı, vəzir, vəkillər, sadə camaat, bir sözlə hər kəs buna bildiyi kimi don geydirirdi, əyanlar gəncləri söyür, arxasınca danışır və hətta öz allahları Dağ Yunusu günahlandırırdılar ki, vaxtında xəbərdarlıq etmələrinə baxmayaraq, onlara inanmamışdır. Dağ Yunus kefsiz üç gün iqamətgahından çıxmadı və heç kimi qəbul etmədi. Üç gündən sonra o, qəzəbli və kinli, kefsiz və məyus halda, vəzir və vəkilləri yanına çağırıb onlardan bir neçəsini amansızlıqla cəzalandırdı. "Hər şeydə gühahkar

sizsiniz deyərək onların üstünə qışqırdı – sizin onlara bəslədiyiniz kin küdrət və paxıllıq üzündən, sizin onlara atdığınız iftira, şər üzündən onlar sizin təqiblərinizdən və böhtanlarınızdan qaçmağa məcbur oldular".

Vəzir və vəkilləri cəzalandıraraq Dağ Yunus inandığı saray xidmətçilərini yanına çağırıb dedi: "Mən qorxuram ki, acığımdan, dilxorluğumdan öləm, çünki mən bu gənclərə həmişə yaxşı olmuşam, ümid bəsləyirdim və heç zaman düşünmürdüm ki, onlar mənə qarşı belə münasibət göstərsinlər". Xidmətçilər onu sakitləşdirərək və təskinlik verərək deyirdilər.

Gözlənilməz bədbəxtlik tutarsa gər ətəyindən,
Müsübət və yamanlığın qapları açılar birdən.

Darıxma, sakit ol, biz onları yerin deşiyindən də olsa tapıb sənə gətirərik. " Mən çox gözəl bilirəm ki, - Dağ Yunus dedi- onlar hara gedir getsin, heç bir yerdə mənim yanımda gördükləri xoşbəxtlik və səadətin yüzdə birini belə görməyəcəklər. Lakin müdiriklər çoxdan demişlər ki:

İbadətə meyl etməyənin başı kötüyə gələr,
Şirin xurma sevməyənin tikan qisminə gələr.

Mən bilirəm ki, onlar mənim səltənətimi tərk edib gedə bilməzlər. Mənim ürəyim indi narahatdır ki, onlar paylarına düşən məşəqqət və əziyyətə necə dözürlər. Axı onlar bütün ömrü boyu bir addım belə piyada getməmişlər, öz günlərini bolluqla, nazınemət içində, rahatlıq və kefdə keçirmişlər. Onların piyada gedərək, yeməksiz və susuz necə əziyyət çəkdiklərini mən təsəvvür edə bilmirəm. Düşünürəm ki, onlar uzağa gedə bilməzlər və yaxın dağlarda gizlənirlər". İştirakçılardan hər biri bu haqda öz fərziyyələrini söylədilər, lakin heç bir yekun fikrə gələ bilmədilər.

Onda Dağ Yunus gəncləri tapşırdığı adamı çağırdı və soruşdu: "Onlar hansı darvazalardan çıxmışdılar, atları və paltarları harada tapmısan?" Əyan bütün onları Dağ Yunusa danışdı. "Mən sevinirəm ki, - Dağ Yunus səsləndi – tezliklə onları tutacağam . Əgər onlar yerdədirsə, mənim torpağımdadırlar, mən yerin allahı olduğum üçün harada gizlənsələr onları tapacağam. Onlar göyə belə qalxsalar, mənim göy allahı ilə dostluq və

münasibətlərim vardır və göy allahı onları mənə verəcəkdir. Hər tərəfə atlılar göndərməyi əmr edirəm, qoy onları harada olsalar tapıb tutsunlar. Mən onları ən əzablı ölümlə cəzalandıracağam ki, onların taleyi bütün mənim rəiyyətim üçün dərs olsun.

Bunu deyərək o, dərhal adamlarını hər tərəfə göndərdi və carçıya əmr etdi ki, desin: "Qaçanlardan heç olmasa birini tutub mənim yanıma gətirənə o qaçanın ağırlığı qədər qızıl verəcəyəm. Bunu eşitcək həm adlı – sanlı, həm də sadə adamlar dağlara və səhralara gedərək hər yerdə itmiş yeniyetmələri axtarmağa başladılar. Bu arada Dağ Yunus adamlarını Təmleyxanın arvadı və oğlunun dalınca göndərdi, onları saraya gətirdilər. Dağ Yunus onların qayğısına qaldı və bir anda olsa onları nəzarətsiz qoymadı.

Tək qaldıqca o, Təmleyxanın ayrılığına tab gətirməyib hətta ağladı. Iyirmi gün qaçanların axtarışı davam etdi.

Bu müddət ərzində adamlar ölkənin hər yerini dolandılar, lakin heç yerdə yeniyetmələrin izini belə görə bilmədilər. Dağ Yunus tamamilə özünü itirib və ümidsizliyə qapıldı. "Şübhə yoxdur ki, - o ürəyində düşündü – yəqin ki, qaçanlara göz qoyan əyan onları izləyərək atlarını və qiymətli paltarlarını götürmək üçün səhrada onları öldürmüşdür. İndi isə qorxudan etdiyini boynuna almaq istəmir".

Dağ Yunus dedi ki, dərhal əyanı onun yanına gətirsinlər, o gəldikdən sonra mehribanlıqla soruşdu "Sən bəlkə təsədüfən onları qaçan zaman öldürmüsən"? Əyan çox möhkəm and içdi ki, danışdıqlarından başqa heç nə bilmir. " Onlar çovqan meydançasından çıxandan sonra mən onları arxasınca düşdüm, onlar altı nəfər idilər mən isə bir nəfər. Onlar məni əhatə etdilər, qamçı və dəyənəklə döydülər, başımı yaraladılar, onlardan canımı qurtarıb şəhərə qayıtdım. Adamları toplayıb mən yenidən onların arxasınca düşdüm. İki üç fərsəx (təxminən 15 km ) getdikdən sonra biz səhrada onların atlarını, silah və paltarlarını tapdıq, amma özlərinin heç bir izini tapa bilmədik. Mən onların bütün şeylərini buraya gətirmişəm və hər şeyi olduğu kimi nağıl etdim.

Bundan sonra Dağ Yunus özünü son dərəcə itirdi və nə düçünməyi də bilmədi. Fikir və şübhələr onu üzürdü, gecə və

gündüz o yuxu yatmır və istirahət etmirdi. Bir ay beləcə keçdi. Bir aydan sonra iblis qoca kişi surətində onun yanına gəldi və dedi: "Ey yerlərin yaradıcısı, sən axtardığın gəncləri mən Culus dağının təpəsində, mağarada tapmışam. Çoban və it də onlarladır". Bu xəbəri eşidərək Dağ Yunus çox sevindi və carçıya buyurdu ki, car çəksin. "Qaçanların necə əzabla cəzalandırıldıqlarını kim görmək istəyirsə, Culus dağına getsin, orada o, təəccüblü şeylər görəcəkdir". Şəhərdə səs küy qalxdı, qadınlar və kişilər, yaşlılar və uşaqlar, atlılar və piyadalılar dəstə ilə mağaraya yollandı. "Ey möhtərəm qoca – Dağ Yunus lənətə gəlmiş iblisə dedi – sən qaçanların olduğu yerə aparan yolu bizə göstər, bunun üçün mən sənə dua edərəm sən cənnətə düşərsən". İblis qabaqda, Dağ Yunus isə öz vəzirləri, vəkilləri, saray adamları və əyanlarla birlikdə onların arxasınca mağaraya tərəf gedirdilər. Bütün yol boyu Dağ Yunus onlara hansı işgəncə verəcəyini və onları necə əzabla edam edəcəyini fikirləşirdi.

Hamı dağdakı mağaraya çatdıqdan sonra Dağ Yunus öz vəzirlərini vəkillərini və müşavirlərini çağırdı və dedi: "Bir halda ki, bu qanunsuz doğulmuşlar (vələdi-zinalar) pozğun övladlar, xain yaramazlar mənim əleyhimə üsyan ediblər, mən onlara elə bir işgəncəli cəza verməliyəm ki, bütün dinsiz məlunlar üçün dərs olsun. Deyin görüm, siz hansı cəzanı təklif edirsiniz?"

İştirakçıların hərəsi bir cür cəza təklif etdi. Biri gəncləri suda batırmaq, boğmaq, digəri onları tonqalda yandırmaq və s. təklif edirdi. Növbə lənətə gəlmiş iblisə çatanda o dedi: "Ey yerlərin allahı əgər onlara elə cəza vermək istəyirsən ki, qiyamət gününədək yaddan çıxmasın, onda onları həmin mağaradaca saxla və əmr et qapısını hörüb bağlasınlar, qoy onları orada siçanlar və ilanlar yesin və işgəncə ilə məhv olsunlar".

İblisin təklifi Dağ Yunusun çox xoşuna gəldi. Dərhal əmr etdi ki. daş toplamaqla mağaranın qapısını daş və əhənglə hörsünlər. Əmri yerinə yetirərək qapını hörüb örtməklə ustalar Dağ Yunusun əmri ilə divarda yazdılar: "Burada yer allahı Dağ Yunusun əleyhinə üsyan etmiş yeddi kimsələr gizlənmişdir. Dağ Yunus onları bu məhbəsin məhbuslarına çevirmişdir ki, onlar

burada çürüyüb məhv olsunlar. Öz sahibinin əleyhinə üsyan etmişlərin aqibəti budur". Bundan sonra Dağ Yunus və onun əyanları şəhərə qayıtdılar. Şəhərdə iblis Dağ Yunusa dedi: "İndi hansı allahın onları qiyamət gününədək bu mağaradan azad edə biləcəyini düşün?" Bunu deyərək iblis qeyb oldu, sanki havada əriyib yox oldu. Uca Tanrı öz müqəddəs sonuncu səmavi kitabı olan Qurani-Kərimində bu əhvalatı belə şərh edir: "Bəlkə sən hesab edirsən ki, Mağara-sahibləri və Rəqim bizim yanımızda əcaba bir möcüzədir?" (Kəhf surəsi 9-cu ayə)

Beləliklə, Dağ Yunus öz hərəkətlərindən çox məmnun oldu və iftixarla dedi: "Bu mağaranın qabağından keçən hər kəs bu yazını oxuyaraq və bundan lazımı dərs götürər".

Dağ Yunus və onun adamları getdikdən sonra Uca Tanrı öz mələklərindən birini qapadılmış Allah axtaranların qoruyucusu təyin etdi. Bu mələk böyür-böyürə yatanları tez-tez çevirirdi ki, onların qanı damarlarında donmasın və torpaq onları çürütməsin. Qurani-Kərimdə deyildiyi kimi: " Sən elə bilirsən ki, onlar ayıqdırlar, amma onlar yatırlar və Biz onları sağa-sola çeviririk, onların iti isə öz pəncələrini astanaya uzatmışdır, əgər sən onları görsəydin onda onlardan vahimələnərək qorxub qaçardın". ( Kəhf surəsi 18-ci ayə)

Bundan sonra Dağ Yunus uzun müddət insanları onu allah hesab etməsi üçün israr və öz səltənətini beləcə idarə etdi. Bir neçə ildən sonra onun həyatı sona çatdı və ölümsüzlük ona yaxınlaşdı; o xəstələndi, tezliklə öldü. Bu dünyadan birbaşa cəhənnəmə vasil oldu. Onun yerinə taxta Qasım adında birisi oturdu. O, cəmi-cümlətanı iki il hökmranlıq etdi və öldü. Bundan sonra ölkə rumilərin əlinə düşdü, onlar da dörd il hökmranlıq etdilər.

Dağ Yunusun ölümündən 20 il sonra Zəkəriyyə peyğəmbər (Allahın salamı ona olsun) peyğəmbərliyə çatdı. Allah ona anadan gəlmə Yəhya peyğəmbəri bir övlad verdi. Ondan sonra isə İsa peyğəmbərin (Allahın ona salamı olsun ) bu dünyaya gəlişi hər bir şeyi tamamladı və onun peyğəmbərliyi illərində qəribə hadisələr oldu.

Mücahidlərin mağarada yuxlamasından 309 il (üç yüz doqquz) il keçdi. Müqəddəs Qurani-Kərimdə deyildiyi kimi: "Və onlar mağarada özlərinin üç yüz ilini keçirtdilər və daha doqquz il də əlavə". (Kəhf surəsi 25-ci ayə)

Bundan sonra onlar mağaradan çıxdılar. Onlar haqqında rəvayət Aran və Turan torpaqlarında geniş məlum idi, çünki ağızdan-ağıza keçirdi. İnsanlar Tövratda oxumuşdular və bilirdilər ki, mağara-sahibləri bir zaman mağaradan müəyən edilmiş vaxtda çıxacaqlar. Həmin vaxt gəlib çatdıqda Uca Tanrının iradəsi ilə onlar sağ və salamatlıqda idilər, qüdrətli Allaha və onun elçisinə inanırdılar. Bunu Yaradanın müdrik iradəsi belə etmişdi ki, qiyamət gününə və o dünya həyatına inanmayan insanlar Uca Tanrının hər şeyə qadir olduğunu bilsinlər. Allahın iradəsi ilə başını qabaq pəncələri üzərinə qoyub astanada yatmış it – onun adı Qitmir idi – gözlərini açdı və uca səslə insan dilində dedi: Allahdan başqa Allah yoxdur və onun şəriki də olmayacaq! Qitmirin müqəddəs dediyi sözlər yatanların qulağına çatanda Uca Tanrının iradəsi ilə hamı yuxudan oyandı və hamı bir yrdə bu sözləri təkrarladı. Sonra onlar gözlərini sildilər və sanki adi yuxudan ayılmış kimi bir-birinə baxdılar və soruşdular: "Bəs biz nə qədər vaxt yuxlamışıq?" Onlardan biri dedi: " Bir neçə dəqiqə bundan əvvəl "bir başqası dedi: " Yox biz günorta yuxlamışıq" və hər kəs bu tərzdə öz fikrini dedi. "Qardaşlar, - hamıdan sonra Təmleyxa dilləndi – bu boş danışıqlar kimə gərəkdir? Necə olsa biz burada bütün gecəni keçirmişik və indi qalxmaq vaxtıdır". Hamı dərhal sıçrayıb ayağa qalxdı və bulaq başında dua etmək, meyvə ilə nahar etmək üçün çıxmaq istədilər.

Çıxışa yaxınlaşaraq onlar gördülər ki, mağaraya giriş hörülüb və örtülmüşdür, daşların bəziləri divardan tökülərək mağaraya dağılmışdı. Onlar buna təəccübləndilər və bir-birindən soruşdular, görəsən nə baş vermişdir? Onlar necə bu vəziyyətə düşmüşlər? Onlar bulağa və meyvə ağacına baxdıqda gördülər ki, onlardan əsər-əlamət belə yoxdur. Təəccüblənərək və heç nə başa düşməyərək, onlar bir-birlərinə dedilər: "Qəribə işdir, biz dünən bu mağaranı və bulağı görmüşük, bu gün isə onlar tamamilə başqa

bir sifətdədir. Bu nə qarabàsmadır"? Onlardan heç biri nə baş vrdiyini anlamadı. Sonra hamı Təmleyxaya müraciət edib dedi: "Biz acından ölürük, bir şey fikirləş". Təmleyxa cibindən Dağ Yunus dirhəmlərini çıxarıb dedi: Bu pullarla şəhərə gedib yemək alıb gətirmək lazımdır.

Öz aralarında məsləhətləşərək, Təmleyxa və onun yoldaşları çobana müraciət edərək dedilər: "Sən bu dirhəmlərlə şəhərə get və oradan yemək al gətir. Biz səndən ona görə xahiş edirik ki, səni bu şəhərdə çox az tanıyırlar. Əgər şəhərə bizlərdən birimiz getsək, onda Dağ Yunusun adamları asanlıqla bizi tanıya bilər və onda biz bədbəxtliyə düçar olarıq. Dirhəmləri götürərək çoban dirhəmin yazısına baxdı və orada Dağ Yunusun adını oxudu. Sonra o çıxışa yönəldi, amma görəndə ki, çıxış daşlarla hörülmüş və ətrafda hər şey dəyişilmişdir, onun ürəyini vahiməli qorxu bürüdü. O, yoldaşlarının yanına qayıtdı və onlara dedi: "Ey mömin insanlar, görünür ki, biz yatdığımız zaman hansı adamlarsa mağaraya girişi qəsdən bağlamışlar ki, biz həmişəlik burada qalaq və məhv olaq". Mənim qardaşım – Təmleyxa dilləndi – sən yəqin ki, sadəcə qorxmusan gedə bilmirsən. Bu səfeh bəhanəni haradan fikirləşdin! Əgər getmək istəmirsənsə, dirhəmləri mənə ver, mən özüm şəhərə gedərəm və yemək alıb gətirərəm.

Çobandan dirhəmləri alaraq, Təmleyxa bir təhər mağaradan çıxdı. Ətrafa baxaraq o gördü ki, ətraf tamamilə dəyişmişdir. Təəccüblənərək xəyallara dalaraq o bir müddət sağına və soluna baxdı sonra öz ürəyində dedi: "Qəribə işdir!

Ya mən həminki deyiləm, ya da sən dəyişmisən.
Bir gecədə bu qədər dəyişiklik necə baş verə bilər?

Bu haqda düşünərək o şəhərə yollandı. O qorxudan titrəyərək və ətrafına baxaraq gedirdi. Hər an ciddi cəhdlə təhlükəsizliyə riayət edirdi, çünki çox qorxurdu ki, Dağ Yunusun adamları onu tanıya bilərlər. Şəhər darvazalarına yetişərək o, gördü ki, şəhərin divarları, darvazası və şəhərin özü də çox dəyişmişdir. Birdən onun gözləri şəhər darvazaları üzərində

ucaldılmış bayrağa düşdü. Bu bayraq üzərində ki, yazıda deyilirdi: "Allah təkdir və onun şəriki yoxdur, Isa isə onun ruhundandır".

Bunu oxuyaraq Təmleyxa təəccübdən donub qaldı, az qaldı ki, ağlı başından çıxsın.

"Qəribə işdir! – o dilləndi. – Biz bu yerləri cəmisi bir gecəliyə tərk etmişdik, bu müddət ərzində ətrafda hər şey dəyişmiş, dünya tamam başqalaşmışdır". Sonra öz ürəyində yoldaşları ilə birlikdə Dağ Yunusdan qaçdığı günləri hesablaşdı, bu gün də daxil olmaqla qırx gün keçirdi. Mağaraya daxil olub orada yatmaqdan isə onun hesablamalarına görə bir gecə keçirdi. Daha da təəccüblənərək o şəhərə girdi. Şəhərdə ilk qarşısına çıxan adamdan soruşdu: "Bu şəhərin adı nədir"? O qorxurdu ki, azıb başqa bir şəhərə düşmüş olsun. "Bu şəhər Naxçıvan adlanır – yoldan keçən cavab verdi. – "Bəs bu şəhərin hökmdarı kimdir? – Təmleyxa soruşdu. "Bu ölkənin hökmdarının adı Nikofusdur". Təmleyxa tamamilə özünü itirdi və dərin düşüncələrdən sonra yoldan keçənə yenə bir sual verdi: "Şəhər darvazalarının yanında ucaldılmış bayrağın üzərində yazılan sözlər nə deməkdir?" – Bu sözlər o deməkdir ki, "Allah təkdir və Isa onun ruhundandır" – yolçu cavab verdi. Təmleyxa başa düşəndə ki, heç də hər şey o fikirləşdiyi kimi deyil, yenə soruşdu: – "Mənim qardaşım, mən başqa ölkədən gəlmişəm və heç zaman burada olmamışam. Mənə de görüm adı bayrağın üzərində yazılmış bu Isa kimdir?" – "Isa Allahın elçisidir – yoldan keçən cavab verdi. – O göyün dördüncü qatına çəkilmişdir".

"Mən eşitmişəm ki, - Təmleyxa davam etdi, - bu ölkənin və bu şəhərin hökmdarı Dağ Yunusdur, o allahlıq iddiasında olmuş, - özünü yerin allahı adlandırmış və bütün qalan sakinlərin onun tərəfindən yaradıldığını iddia etmişdir. Bəs indi Dağ Yunus haradadır?" – "Mən heç zaman belə bir adam haqqında eşitməmişəm və ümumiyyətlə buna oxşar heç nə eşitməmişəm – yoldan keçən cavab verdi. Təmleyxa özünü itirdi və az qaldı ki, yenə bihuş olsun. Şübhələr, təəccüb, sevinc – hər şey bir – birinə qarışmışdır. Bir qədər özünə gələrək o irəli getdi, küçə və bazarlarda gəzərək o, hər şeyin nə qədər dəyişildiyini gördü.

Yolda o çörək dükanına rast gəldi, oraya daxil oldu və sahibkarla salamlaşdı, o İncili oxuyurdu. Sakitcə bir küncə çəkilərək Təmleyxa onun oxuduğunu bir müddət dinlədi. Bu sözlərin təsiri altında onun ürəyi bu adama məhəbbət, mərhəmət və şəfqətlə doldu. Çörəkçi oxumağını bitirdikdən sonra dirhəmi onun qarşısına qoyaraq dedi: "Lütfən, mənə bu dirhəmin dəyərində çörək verin". Qəribə pula baxaraq çörəkçi təəccübləndi və Təmleyxadan soruşdu: "Sən bu dirhəmi haradan almısan? Bunu deyərək çörəkçi pula diqqətlə baxdı, bir əli ilə onu havaya atıb o biri əli ilə tutdu və alıcıya çəpinə nəzər saldı. "Məgər sən bu şəhərdən deyilsən? – Təmleyxa çörəkçidən soruşdu. – Əgər sən buralısansa, onda səni bizim adi pulumuz niyə belə təəccübləndirir?" Sən nə deyirsən - çörəkçi dilləndi. – Yaxşı olar ki, düzünü deyəsən, bu pul səndə haradandır? Əgər deməzsən özündən küs. Bu dirhəm - qədim sikkədir və sənin heç də xəzinə tapdığına təəccüblənmərəm. Yaxşı olar ki, xəzinənin yarısını mənə verəsən, yoxsa mən səni hökmdara deyərəm, döyənək və işgəncə ilə bunu sənin boynuna qoyarlar.

Çörəkçinin bu sözləri Təmleyxanı gülümsətdi və o gülərək çörəkçiyə dedi: "Səfeh, mən bu şəhərdənəm və bu dirhəm də bu şəhərin puludur. Burada mənlik və xəzinəlik nə var ki? Niyə boş – boş danışırsan?" Bu yerdə çörəkçi Təmleyxanın üstünə atıldı, onun yaxasından yapışdı, səs – küy qaldırdı və dərhal onların ətrafında şəhərlilərdən ibarət dəstə yarandı. Sikkəyə baxan hər kəs təəccüblənirdi. Tezliklə xəbərçilər Təmleyxa və onun pulu haqqında hökmdara xəbər verdilər, onun əmri ilə keşikçilər gələrək onu tutub hökmdarın yanına apardılar. Təmleyxanın üzünə baxaraq hökmdar gördü ki, onun bütün siması Allah nuruna bürünmüşdür. Hökmdar Təmleyxaya dərin hörmət və ehtiramla yanaşıb anladı ki, onun qarşısında qeyri-adi bir insan durmuşdur. Təmleyxa hökmdarla ən hörmətli ifadələrlə salamlaşdı. Hökmdar onun salamını aldı, sonra isə yanında əyləşdirib, ondan sorğu-sual etməyə başladı: "Bu gümüş səndə haradandır? Sən onu haradan almısan? "- Bu dirhəmi mənə bu şəhərdə veriblər – Təmleyxa cavab verdi - axı o şəhərin ən işlək puludur. "Hökmdar çox dindar

adam idi. Təmleyxanın mərifətli və yumşaq danışığını dinləyərək güldü və dedi: "Oğlum, bu dirhəm köhnə sikkədir, yalnız Allah bilir ki, kimin hökmranlığı zamanında bu kəsilmişdir. Sən yəqin ki, bu sikkəni haradansa tapmısan, əgər səndə yenə bundan varsa gətir yarı bölək. Yarısı sənin, yarısı mənim. Əgər sən bunu öz xoşuna etsən, onda sənə heç bir zərər gəlməz".

Təmleyxa çox çıxılmaz vəziyyətdə qaldı. "Sevimli Allah xatirinə - Təmleyxa dilləndi – siz hansı xəzinə haqqında danışırsınız? Mən bədbəxt və zavallıdan nə istəyirsiniz? Cəmisi bir neçə gün əvvəl bu dirhəmi götürərək bu şəhəri tərk etmişəm. Bu şəhərdə məni tanımayan yox idi. Nə üçün bu gün mənə zor etmək istəyirsiniz? Mən heç bir xəzinə-filan tapmamışam! Bunu deyərək Təmleyxa acı-acı ağladı. Hökmdarın ona yazığı gəldi, lakin onun sözləri hökmdara çox həqiqətdənkənar gəldi. "Mənim oğlum- hökmdar Təmleyxaya dedi: - sən mənasız şeylər söyləyirsən, sənin sözlərin istər-istəməz hamıda şübhə doğurur. Əvvəl sən dedin ki, bu şəhərdənsən və onu bir neçə gün öncə tərk etmisən, burada səndən hörmətli adam olmayıb, bu dirhəmi sən buradan, bu şəhərdə almısan. Sənin sözlərin bir-biri ilə tutmur və həqiqətə uyğun deyil. Mən bu ölkənin hökmdarıyam və dinar kəsmə mənim sərəncamımdadır, mənim xəzinəmdə isə bu dirhəmə oxşar bircə sikkə belə yoxdur. Boş yerə mübahisə etmə, həqiqətdən başqa sənə heç nə xeyir gətirməz. Sən deyirsən ki, bu şəhərdənsən, sən hörmətli sayılan bir adam idin, deyilmi? Əgər sən ciddi deyirsənsə, bu şəhərdə sənin dediklərini təsdiq edəcək bircə nəfər belə tanışın varmı, göstər. Əgər sən xəzinə tapmısansa, mənə göstər, vicdanıma and içirəm ki, onu öz aramızda ədalətlə bölərəm. Əgər sən bunu etməsən, onda mən zorla səndən hamısını alaram". "Ey hökmdar – Təmleyxa yalvardı – məni tanıyanları və mən tanıdıqlarımı mən sənin ətrafında görmürəm. Başıma gələnlərdən heyrətlənərək və təəccüblənərək köməksiz vəziyyətdə qalmışam. Mən bu şəhəri cəmi-cümlətanı qırx gün bundan əvvəl tərk etmişəm, bu müddət ərzində o qədər dəyişiklik baş vermişdir ki, mən buna yalnız matı-məəttəl qalıram. Bu şəhərdə adamlarım, hökmdarın özünün, rəiyyətin zahiri görkəmi, qanunlar, adətlər və

ənənələr – hər şey tamamilə başqa cür olmuşdur. Əvvəlki şəhərdən, burada yaşayan adamlardan demək olar ki, heç nə qalmamışdır". Qonağın səmimi danışdığını görərək hökmdar fikrə getdi və öz-özünə dedi: "Burada nəsə bir sirr vardır, çünki o göründüyü kimi düzgün adamdır və boş-boşuna danışmaz".

Sonra o Təmleyxaya müraciət edərək dedi: " Əgər belədirsə, onda hesab et ki, mən sənin səmimiyyətinə inandım və əgər sən hətta yüz min belə dirhəm tapsan da onların hamısını sənə verirəm. Sən deyirsən ki, bu dirhəmi bu şəhərdən aparmısan və şəhəri qırx gün öncə tərk etmisən. Amma bu iddia məndə heyrət və təəccüb doğurur. Yaxşı olar ki, özün haqqında, öz macəraların haqqında əvvəldən axıra kimi danış ki, mən işin nə yerdə olduğunu bilim".

"Mən qorxuram ki, – Təmleyxa yalvardı – sən məni bu hökmdarlığı sənə tapşıranın əlinə verəsən". Hökmdar qəh-qəhə çəkdi və dedi: "Bu şəhər və hakimiyyət mənə ata – babamdan qalmışdır. Bəs sencə bu hakimiyyət mənə kimdən qalmışdır və bu şəhəri kimin əyaləti hesab edirsən?" – Şəhər və bu hakimiyyət - Təmleyxa cavab verdi – allahlıq iddiasında olan Dağ Yunusa məxsusdur. – "Qorxma – hökmdar mehribanlıqla dilləndi – bu yerlərin hökmdarı olan Dağ Yunusun dövründən çox illər keçmişdir, bu müddətdə dünyaya sənə və mənə oxşar yüz minlərlə adam gəlmiş və getmişdir. Bizim yaşadığımız bu əsrdə cənab Allah bizə öz peyğəmbərini göndərmişdir, onun adı Isadır və bizim hamımız ona inanırıq, sən isə bizə hökmdar Dağ Yunusun zamanından danışırsan, həm də deyirsən ki, şəhəri qırx günlüyə tərk etmisən. Sənin sözlərin bir-biri ilə və etdiyin şeylərin gerçək vəziyyəti ilə necə uyğunlaşdırmaq olar?" Təmleyxa təəccübdən dondu və uzun fikirdən sonra dedi: " Ey hökmdar, əgər vəziyyət sən dediyin kimidirsə, onda bil ki, mənim əhvalatım – heç bir zaman rast gəlinməyən qəribə möcüzədir. Əgər icazə versən mən sənə hər şeyi danışaram". – "Bəli, mən istəyirəm ki, sən mənə hər şey haqqında məlumat verəsən" – hökmdar dedi: "Yaxşı - Təmleyxa cavab verdi – yalnız sən əmr ver bura şəhərdə yaşayan ən yaşlı qocalar, dünya görmüş müdriklər toplansın. Bəlkə onların

arasında məni görən və mənim haqqımda eşidən olar. Axı bu şəhərdə mən öz evimi, arvadımı və oğlumu qoyub getmişəm. Hökmdar dərhal qonağın arzusunu yerinə yetirməyi əmr etdi. Hökmdarın xidmətçiləri bütün şəhər və kəndlərə carçılar göndərdi, onlar hər yerdə car çəkməyə başladılar: "Ey camaat, sizin aranızda allahlıq iddiasında olan Dağ Yunusu görən varmı?"

Onun hakimiyyəti dövründən, – adamlar cavab verirdilər üç yüz doqquz il keçmişdir. Bu haqda kitablarda və tarixi əsərlərdə yazılmışdır ki, o zamanlar Dağ Yunusdan altı yeniyetmə qaçmış və hansısa mağarada gizənmişlər. Orada yazılmışdır ki, onlar indiyə qədər sağdırlar, vaxtı gələndə Allah onları oradan çıxaracaq ki, insanlara yaxşı dərs olsun, onlar Allahın qadir və qüdrətli olduğu haqda gerçəkliyi dərk etsinlər. Biz bu əhvalatı Incildə oxumuşuq. Bu sözləri eşidərək Təmleyxa qışqırdı: "Ey hökmdar sən qocaların danışdığı bu əhvalatın doğruluğuna inanırsanmı?"

"Uca Tanrının kitablarındakı bütün yazılanlar hökmdar dedi - əsl həqiqətdir və mən bütün varlığımla onların doğruluğuna, düzgünlüyünə inanıram. Budur, artıq bir şox illərdir ki, biz bu ibrətli hekayəni Incildən oxumuşuq, və bu bizim səltənətdə çox məşhurdur".

"Əgər sən inanmağa qabilsənsə, onda bil ki, mən o, Incildə oxuduğunuz altı gəncdən biriyəm, qalan beş nəfər, bir də çoban və itləri daxil olmaqla indi mağarada məni gözləyirlər. Mən şəhərə enmişəm ki, o zamandan qalmış bu dirhəmə yemək alıb onlara aparım".

Təmleyxa öz hekayəsini bitirdikdən sonra, hökmdar və bütün camaat təəccübdən mat qalmışdılar və baş verən hadisənin təsirindən nitqləri tutulmuşdu. Özlərinə gələrək hamı Təmleyxanın hekayəsinin doğruluğuna inandılar və onun əl-ayağını öpməyə, ziyarət etməyə atıldılar. Camaatı sakitləşdirərək, Təmleyxa hökmdara dedi: " Bu şəhərdə mənim evim, əmlakım, arvadım və oğlum vardı. Bilmirəm, mənim nəslimdən kimsə sağdırmı?"

"O zamanlardan bizim dövrə qədər – hökmdar dedi – üç yüz doqquz il keçmişdir və sənin nəslindən kimsənin salamat olduğunu yalnız Allah bilir. Ey Təmleyxa sən bir təhər öz evinə yol tapa, yaxud məhəllənin və yaşadığın kuçənin hər hansı əlamətini göstərə bilərsənmi?" - Onu yalnız Allah bilir - Təmleyxa cavab verdi – Mən elə bilirdim mənim bu şəhərdən getməyimdən cəmisi qırx gün keçir, indi aydın olur ki. yüz illər keçmişdir".

"Bəlkə möcüzə baş vermişdir! – hökmdar səsləndi – gəlin gedək sənin evini axtaraq. Kim bilir, birdən olar ki, sənin nəslindən biri sağdır və biz onu tapdıq". Təmleyxa qalxdı və bütün şəhərlilər də onun ardınca qalxdılar. Hökmdar qoşun və əyanlarla birlikdə Təmleyxanın ardınca yola düşdülər. Şəhərdə və ətrafda bu hadisəyə görə görünməmiş səs-küy düşmüşdü. Bütün qadın və kişilər, uşaqlar və yaşlılar Təmleyxanın arxasınca gedirdilər. Təmleyxa isə diqqətlə küçələri və bazarları nəzərdən keçirərək gedirdi, amma öz evinin yolunu heç cür tapa bilmirdi. Nəhayət o, yorğun və əldən düşmüş vəziyyətdə, çaşmış halda dayandı. Ətrafda hər şey başqa idi, əvvəlki şəhərdən əsər-əlamət yox idi.

Təmleyxanın ümidsizliyini görən Ulu Tanrı cənabi Cəbrayıla (ə) ona kömək etməyi əmr etdi. Cənabi Cəbrayıl (ə) bir göz qırpımında onun qarşısında nursaçan qoca sifətində peyda oldu və ona dedi: "Mənim arxamca gəl, mən səni öz evinə apararam" – "Məgər sən mənim evimə gedən yolu tanıyırsan?" - Təmleyxa qocadan soruşdu. "Bəli, tanıyıram" – o cavab verdi. Bütün bunlar Təmleyxaya təəccüblü və qəribə gəlirdi. O, qocanın cənabi Cəbrayılın (ə) arxasınca, hökmdar və şəhərlilər isə onların arxasınca gedirdilər. Yolda Təmleyxa gözlərini qoca sifətində olan cənabi Cəbrayıldan (ə) çəkmir, ətrafdakılardan heç kimlə söhbətə girmir, yalnız hərdən bir qoca ilə bəzi sözlər danışırdı. Hökmdar və şəhərlilər onların danışığına təəccüblənirdilər; onlar görürdülər ki, Təmleyxa kiməsə suallar verir və kimsə ona cavab verir, lakin onlar cənabi Cəbrayılın (ə) özünü görməyib fəqət səsini eşidirdilər. Nəhayət, cənabi Cəbrayıl (ə) Təmleyxanın

əlindən tutdu və bir evə apardı. Evin qapları qarşısında dayanaraq Təmleyxa dedi: "Bu mənim evimdir".

Hökmdar evin sahibini çağırmağı əmr etdi və onun yanına qədim, taqətdən düşmüş bir qocanı gətirdilər. Onun beli iki qat elə əyilmişdi ki, başı dizlərinə dayanırdı və o demək olar ki, hərəkət edə bilmirdi. "Bu evin sahibi budur" – adamlar dedilər. Adamlar dəstəsini görərək və ətrafda hay-küyü eşidərək qoca az qaldı ki, huşunu itirsin.

Hökmdar dəstəyə kənar çəkilməyi əmr etdi və qocanın qarşısında oturub Təmleyxaya dedi: "Bu evin sahibi və yiyəsi indi sənsən. Bu evin onun əlinə necə düşdüyünü qocadan soruş". Təmleyxa diqqətlə qocaya baxdı, kədər və iztirab onun ürəyinə hopdu. O, qoca ilə ucadan salamlaşdı və qoca Təmleyxanın salamını eyni qayda ilə aldı.

"Möhtərəm qoca – Təmleyxa başladı – sən kimsən, adın nədir, sən hansı millət və qəbilədənsən?" "Mən İsanın millətindənəm – qoca cavab verdi – mənim yüz səksən yaşım vardır". "Bu ev sənə kimdən qalmışdır?" – Təmleyxa soruşdu. Ev haqqında eşidərək qoca ağladı və göz yaşları gözlərindən sel kimi axdı. Diqqətlə Təmleyxaya baxaraq qoca birdən gözlərini ona dikdi və öz baxışlarını onun üzündən ayıra bilmədi. "Bu ev – nəhayət o dedi – mənə atamdan, atama isə atasından qalmışdır. Mənim atam indi sağdır və onun üç yüzdən çox yaşı vardır. Sizə deməliyəm ki, bizim köhnə ailəmizin üzərinə kölgə salmaq və bizdən nəyə görə şübhələnmək yaxşı deyil". "Sən qoca kişisən, - Təmleyxa dedi – sənə yalan danışmaq yaraşmır. Bu ev qanuna görə mənə məxsusdur və mənim mülkümdür.

Bu şəhərin hökmdarı budur, hakim və əyanlar da buradadırlar. Mən onları bura gətirmişəm və onların qarşısında iddia qaldırıram, bu evin mənə məxsus olduğunu təsdiq edirəm".

"Yox, yox – qoca qışqırdı – bu evin mənim ulu babalarımın olması, mənim burada doğulmağım və tərbiyə olunmağım və böyüməyim haqqında tutarlı dəlillərim vardır. Yaxşı ki, mənim atam sağdır. Yeri gəlmişkən deyirlər ki, mənim babam da sağdır. İncildə mənim babam haqqında yazılmışdır,

orada deyilir ki. bir dəfə o, xalqın içinə gələcək və onda hamı onu görəcəkdir".

Adamlar qocanın hekayəsinə mat qaldılar, onun atasının sağ-salamat olması onları daha çox heyrətə saldı. "Dünyada bundan heyrətamiz nə ola bilər? – Onlar dedilər – Əgər onun yüz səksən yaşı vardırsa , onda onun atası təbii ki, daha yaşlı olacaq. Amma o, təsdiq edir ki, onun babası da sağdır. Bütün bunlar sağlam fikrə sığmır". Qocanın hekayəsini dinləyərək, hökmdar öz ürəyində dedi: " Burada nəsə bir sirr gizlənir" – Sən, - hökmdar Təmleyxaya dedi – "Çox tutarlı dəlillər gətirməlisən ki, ev sənə məxsusdur, yoxsa onu sənə vermək çətin olacaq".

"Bu evdə - Təmleyxa cavab verdi – maddi sübutlar və dəqiq nişanələr tapmaq olar. Mən onlar haqqında məlumat verəcəyəm və onlar mən deyən kimi olsa, onda siz mənim doğru söylədiyimi bilərsiniz, olmasa onda mənim bütün dediklərim yalan, uydurmadır".

"Sənin əlində nə kimi nişanələr və sübutlar vardır?- hökmdar dedi. Təmleyxa cavab verdi: Bu ev mənim öz əlimlə tikilib. Sağ qanadda sütunlarından biri mərmərdən olan örtülü eyvan tikmişəm. Bu mərmər sütunun altında nəhəng yəmən damarlı əqiqi (on iks) vardır, bunun altında ölçüləri (10x10) bərabər olan gizli yer düzəltmişəm. Bura hər biri adi dirhəmdən yüz dəfə böyük olan Dağ Yunusun dirhəmləri ilə doldurulmuşdur. Bu dirhəmlərin hər birində Dağ Yunusun adı basılmışdır. Əqiq daşını qaldırsanız mənim düzgün dediyimin şahidi olarsınız. Əgər hər şey mənim dediyim kimi olarsa, onda deməli ev doğrudan da mənimdir, deyilsə, onda hesab edin ki, mən yalan danışmışam".

Hökmdar dərhal Təmleyxa və hakim ilə evə girib qocaya dedi: "Biz nə etsək sən bizə etiraz etmə. Bu cavan oğlanın iddiasını yoxlamaq istəyirik, baxaq görək o doğrumu, yoxsa yalan danışır.

"Mənim iki oğlum vardır – qoca dedi – onlardan birinin yüz yaşı vardır, mən onu öz babamın adı ilə adlandırdım, o birisinin isə əlli yaşı var, o mənim atamın adını daşıyır". Lütfən onları çağırın məni evə aparsınlar. Dərhal adamlar qocanın

oğlanlarını çağırdılar və həmin dəqiqə iki kişi gəldi, biri yaşlı, digəri-nisbətən gənc idi.

Qocanı əllərinə götürərək onlar onu evə apardılar. Bu arada Təmleyxa düz həmin eyvana yaxınlaşdı, o, Təmleyxanın təsvir etdiyi kimi saxlanıb qalmışdı. Onun əmri ilə dərhal (on iksli) əqiqi qazıb çıxardılar, onun altında qapı var idi, qapının üstündə iri bir qızıl asılmışdı. Qızılı çıxararaq onlar qapını açdılar və qazmanı gördülər, burada Təmleyxanın dediyi kimi Dağ Yunusun dirhəmləri ilə dolu iyirmi böyük küpə var idi.

Hökmdar və onu müşayət edən şəxslər gördüklərinə heyran qaldılar, sonra Təmleyxanı qucaqladılar və qocaya dedilər: "Təsdiq olundu ki, ev bu cavan oğlanın qanuni mülküdir – onun bütün dedikləri əsl həqiqətdir. İndi sən nə deyə bilərsən? Bilin – qoca dedi – mənim əlimdə mənim xeyirimə elə bir tutarlı sübut vardır ki, buna heç kim etiraz edə bilməz. Bu mənim atamın əli ilə yazılan sənədli kağızdır və burada göstərilir ki, bu ev onun atası tərəfindən tikilmişdir, bu isə üç yüz neçə il bundan əvvəl olmuşdur. Atamdan mən həmçinin eşitmişəm ki, onun atası hökmdar Dağ Yunusun xidmətçisi olmuşdur, Dağ Yunus isə zalım və qaniçən hökmdar olmuşdur. Hüdudsuz hakimiyyət və özündən bədgümanlıq onu o yerə çatdırmışdır ki, özünü yerin allahı elan etmiş və özünü yerin bütün sakinlərinin yaradıcısı hesab etmişdir. Mənim babam – onun adı Təmleyxa idi – Dağ Yunusun əleyhinə üsyan etdi və Ulu Tanrı ona düzgün yol göstərmişdi. O, özünün beş yoldaşı ilə birlikdə Dağ Yunusun allahlıq iddiasına qarşı çıxmış, bu zalımdan qaçmış və Culus dağındakı mağarada gizlənmişdir. Dağ Yunus onları orada tapmış, mağaranın qapısını hördürüb bağlatmış və onlar orada qalmışlar. Atam mənə danışırdı ki, o, oraya getmiş babamın müqəddəs mağara qapısı qarşısında ibadət etmiş, sonra Ulu Tanrıdan ona və uşaqlarına o qədər ömür istəmişdir ki, mağaranın sakinləri oradan çıxanda onları görə bilsinlər. Mən İncildə oxumuşam ki, zaman gələcək onlar mağaradan çıxıb xalqın içərisinə gələcəklər. Mən Allaha dua edib yalvarmışam ki, mənə də babamı qarşılamaq və görmək qismət olsun. Mənim atam hələ sağdır və bunu mənə o danışmışdır, mən

də onun adından bunu sizə danışıram. Hər şeydən savayı məndə atamın xətti ilə yazılmış, yaşı üç yüz ildən artıq yazılı şəhadətnamə vardır. Bu haqda bəyan edərək o, Təmleyxanın oğlu tərəfindən yazılmış şəhadətnaməni göstərdi. Öz oğlunun xəttini görərək Təmleyxanın gözləri yaşardı və şəhadətnaməni öpdü. "Ey möhtərəm qoca – Təmleyxa soruşdu – de görüm sənin atanın və babanın adları nədir?" – " Mənim babamın adı – qoca cavab verdi – Təmleyxadır, atamı isə Əzxiya çağırardılar, mənim adım isə Təmleyxadır". Təmleyxa qocanı qucaqladı və ona yalvarıcı səslə dedi: "Haqqında danışdığın adam mənəm. Mən mağaradan az müddətdir çıxmışam".

Hökmdar və bütün iştirakçılar heyran qaldılar və onun əlini ayağını öpməyə başladılar. Xalq kütləsi arasından sevinc səsləri ucaldı, Təmleyxa isə hönkür-hönkür ağlayırdı. "Mən sənin baban Təmleyxayam – o qocaya dedi – sən isə mənim nəvəmsən. İndi mən istəyirəm ki, sən mənə oğlum Əzxiyanı göstərəsən". Bu sözləri eşidərək, qoca öz oğlanlarını çağırdı və onlara dedi: "Gedin və zənbili bura gətrin". Oğlanlar getdilər və bir müddətdən sonra pambığa örtülmüş zənbili gətirdilər.

Qoca zənbili açdı, pambığın içindən bir bədəncik çıxardı, onu toplananların qarşısına qoydu. Hamı bu bir parça bədən cisminə baxırdı, birdən onun tərpəndiyini gördülər. Hamı buna təəccüb etdi. Qoca buyurdu ki, bir az süd gətirsinlər və südü tərpənən bədənciyin ağzına tökdü, bədən cismi daha canlı hərəkətlər etdi. Bu qocanın bədənciyini götürərək Təmleyxa onu öpdü və onda yenə hərəkət etməyə başladı, sonra dondu tərpənmədi – öldü. Bu bədən cismi Təmleyxanın oğlu idi, həyatın əsas məqsədini yerinə yetirmək – atası ilə görüşənədək yaşadı və dünyasın dəyişərək əbədiyyətə qovuşdu. Bütün iştirakçılar gördüklərindən heyrətə gəldilər. Onlar qocadan soruşdular: "Mərhum atan nə vəsiyyət etmişdir?" – "Onun hələ danışa bildiyi dövrdə qoca dedi – özünün iki yüz əlli yaşı olduğunu bildirirdi. Ulu Tanrıdan ona atasını bir daha görmək və ona təzim etmək imkanı verməsini arzu edirdi". Qocanın hekayəsini dinləyərək

hökmdar, əyanlar və sadə adamlar Təmleyxanın əl-ayağına döşənib deyirdilər: "Sənin danışdıqlarının hamısı əsl doğru çıxdı".

Bütün bu həyəcanlardan sonra özünə gələrək Təmleyxa öz nəvə və nəticələrini qucaqlayaraq onlara buyurdu ki, xəzinənin açarını hökmdarın qarşısına qoysunlar. Hökmdar bir kisə dirhəm götürərək qalanını Təmleyxanın nəslinə verdi. Amma Təmleyxa iştirakçılara və möcüzəni görənlərə öz xəzinəsindən pay ayırmağı tövsiyə etdi. Sonra o, oğlunun cismini hörmət və ehtiramla dəfn etməyi, qəbrinin üzərində "türbə" tikib ucaltmağı tövsiyə etdi ki, onun məqbərəsi ziyarətgah yeri olsun. O, qoca nəvəni qayğı ilə əhatə etdi, nəvə sevincdən tez-tez öz yeni tapılmış babasının əl-ayağını öpürdü. Hökmdar və əyanlar Təmleyxadan təkidlə xahiş edirdilər ki, o heç yana getməsin, şəhərdə qalsın və onların hökmdarı olsun. Təmleyxa təbii ki, bu təklifi qəbul etmədi. "Ey Təmleyxa – hökmdar dedi – sənin əhvalatını biz İncildən oxumuşuq, Ulu Tanrının elçisi İsa (Allahdan ona salam olsun ) bizə sənin haqqında xəbər verirdi. Lakin bizim gizli arzumuz ondan ibarətdir ki, bütün bunları səndən eşidək. İndi Allaha şükür, biz səni şəxsən gördük, sənin əhvalatını eşitdik və səni ziyarət etmək şərəfinə nail olduq. İndi Ulu Tanrının xatirinə, bizim qəlbimizin xilası naminə bizim müti xahiş-minnətimizi dinləyərək, burada bizim aramızda qalmağa razı ol ki, biz də sənin sayəndə xoşbəxt-rahatlıq əldə edək və ömrümüzün qalanını sənin himayəndə yaşayaq".

"Mənim dostlarım – Təmleyxa cavab verdi – mağarada məni gözləyirlər, mən şəhərə ona görə gəlmişəm ki, yemək alıb bacardıqca tez onlara çatdırım. Biz üç yüz doqquz il ərzində ac qalmışıq, halbuki, mağarada bir gecə keçindiyimizi düşünürdük.

İcazə verin mən qayıdım və onlara yemək aparım, həmçinin onlara vəziyyətin necə olduğunu izah edim. Əgər bacarsam, onları inandırıb bura gətirim. – "Əgər etiraz etmirsənsə, - hökmdar təklif etdi – mən də səninlə gedim və onlardan xahiş edim. Ola bilər ki, onlar bizim təklifimizi qəbul edər, öz müqəddəs qədəmləri ilə şəhərimizə gələrlər".

Təmleyxa razılaşdı və getməyə hazırlaşdı. Qoca – nəvə onun əl-ayağını öpərək təkrar edirdi: "Mənə sənin müqəddəs sifətini görməyim qismət oldu, artıq indiki zamanda Ulu Tanrıdan arzum mənim uzun ömrümə son qoyar, çünki, mən artıq qocalıq və zəiflik yükünü daşımaq sorunda deyiləm".

Eybi yoxdur – Təmleyxa nəvəsini sakitləşdirdi – ruhdan düşmə sevin, çünki, sabah axşam mən və sənin atan göylərdə görüşəcəyik". Qoca babası ilə xudahafizləşərək Təmleyxa hökmdarla birlikdə dağ tərəfə yön aldılar. Hökmdar öz xidmətçilərinə öz mətbəxtlərindən bir neçə xəlvər təam və içməyə su götürməyi buyurdu və yeməklər qatırlara yükləndikdən sonra hamı atla, piyada şəhəri tərk etdi. Camaat Culus dağına tərəf yollandı. Təmleyxa və hökmdarın ardınca böyük insan dəstəsi gedirdi – qadınlar və kişilər, uşaqlar və yaşlılar, qocalar və cavanlar, yüz min ağır şahidi olduqları möcüzələr haqqında əhvalatı təkrar edir və baş verən hadisədən heyrətlənirdilər.

Dəstə dağa tərəf yaxınlaşanda Təmleyxa hökmdara dedi: "Ey hökmdar, agah ol ki, mənim dostlarım həqiqi vəziyyət haqqında heç bir şey bilmirlər, halbuki, Dağ Yunusun dövründən üç yüz il keçmişdir. Onlar elə bilirlər ki, Dağ Yunusdan qaçdıqları cəmisi bir aydır və indiyədək qorxu içərisindədirlər. Əgər bütün bu dəstə mağaraya getsə, onlar belə qərara gələrlər ki, bu onları məhv etmək üçün gələn Dağ Yunus və onun adamlarıdır, qorxudan canlarını tapşırarlar. Yaxşı olar ki, sizin hamınız burada dağın ətəyində dayanasınız, mən isə tək gedib onlara yemək verəm, sonra isə bizim neçə il mağarada keçindiyimizi onlara izah edim".

Təmleyxanın təklifi hökmdarın çox xoşuna gəldi və o dəstəyə dayanmağı əmr etdi. Bu arada Təmleyxanın dostları onu gözləyərək mağaradan çıxıb aşağı baxırdılar. Böyük dəstəni görüb onlar çox qorxdular və yenidən mağaraya qayıdıb gizləndilər. Təmleyxa onların arxasınca qaçdı və çox çəkmədən dostlarının qarşısında dayandı. Gənc dostlar öz yoldaşlarını qucaqladılar və onu sorğu-suala tutdular. Təmleyxa onlarla qabaq-qabağa əyləşərək yeməyi onların qarşısına qoydu. Hamı acgözlüklə

yeməyin üstünə cumdular, sonra itə yemək payı verməyi yaddan çıxardılar. Lakin sonra yemək verilsə də it o yeməyi yeməkdən imtina etdi.

"Mənim qardaşlarım – Təmleyxa dedi – necə düşünürsünüz, Dağ Yunusdan qaçdığımız vaxtdan biz mağarada neçə müddət yatmışıq"? Onlardan biri cavab verdi: "Bir gecə", digəri dedi: "Bir sutka" üçüncüsü fərz edərək dedi: "Cəmisi bir saat" – Şəhərə yola düşməzdən əvvəl – Təmleyxa qeyd etdi – mən də sizin kimi düşünürdüm. Lakin şəhərdə olduqdan sonra mən bizim əsl vəziyyətimizi bildim. Bilin ki, bizim burada, mağarada gizləndiyimiz vaxtdan üç yüz doqquz il keçmişdir. Bəli belə! Düz üç yüz doqquz il əvvəl biz öz evimizdən ayrılıb alçaq Dağ Yunusdan qaçmışıq. Bu müddət ərzində Dağ Yunus ölmüşdür, ondan sonra isə bizim şanlı Əfsus şəhərində daha dörd nəfər hökmdarlıq edib və vəfat etmişlər. Ulu Tanrı İsa adlı – (Allahın salamı ona olsun) peyğəmbər göndərmişdir – o dünyaya Incili gətirmiş, dünya xalqları peyğəmbər və onun kitabına inanmış, onun davamçıları olmuşlar. Bütün mövcudat İsanın gətirdiyi həmin İncildə Uca Tanrı tərəfindən təsvir edilmişdir. Bu kitabda o, bizim də haqqımızda xəbər vermişdir, zira bizim əhvalatımız dünyanın çox nadir möcüzələrindəndir və bütün nəsl insanlar üçün ibrətamiz bir dərsdir. Sonra Təmleyxa şəhərdə başına gələnləri ətraflı danışdı və axırda əlavə etdi: "Şəhərin hökmdarı bütün əyanlarla, dövlət məmurları ilə birlikdə şəhərin və ölkənin məşhur, savadlı adamları, atlı və piyadalar, dindar və sadə adamlar sizinlə görüşmək üçün bura gəlmişlər. Onlar bizdən xahiş etmək istəyirlər ki, biz şəhərə qayıdaq və onlar arasında yaşayaq. Budur indi hökmdar bir neçə hörmətli əyanları ilə birlikdə dağa qalxmış, mağaranın girişi qarşısında sizinlə görüşmək ümidi ilə dayanmışlar. İndi necə istəyirsinizsə elə də edin". Təmleyxa bunları yoldaşlarına deyənə qədər hökmdar, şəhərin hakimi və əyanları dağın təpəsinə qalxaraq mağaranın girişi yaxınlığında dayanaraq Təmleyxanın dostlarını müşahidə edir, onların nə haqda danışıqlarına qulaq asırdılar.

Təmleyxanın dediklərini dinləyərək Təmleysa və onun dostları, baş verənlərdən heyrətlənmiş, özlərini itirmiş və sonra dərin düşüncələrə dalaraq təəccüblə bir-birinə baxırdılar. Onlardan hər biri düşünərək öz qərarlarını verirdilər. Onlardan biri belə cavab verdi: "Əgər bizim işlər belə vəziyyətə gəldisə, onda hökmdara və onun adamlarına görüşməyin nə lüzumu vardır"? Ikinci dedi: "Biz dünya insanlarından uzaqlaşaraq Ulu Tanrıya yaxınlaşmışıq. Biz onları heç görməsək daha düzgün və yaxşı olar". Onlardan hər biri bu ruhda öz fikirlərini deyirdi və nəhayət Təmleyxa yekun vurdu: "Mənim qardaşlarım, biz doğma evimizi və şəhərimizi, dövlət və ölkəmizi tərk etmişik, icazəli və qadağanlardan məhkəmə və hakimiyyətdən, qızıl və gümüşdən, öz mülkümüz və əmlakımızdan ona görə imtina etmişik ki, ətrafın dedi-qodularını, boş danışıqlarını çəkmək gücündə deyildik. Səmimi qəlblə, yüksək fikirlərlə Ulu Tanrıya müraciət etməklə insanlardan həmişəlik üz çevirmişik. Sən deyirsən ki, biz üç yüz doqquz il bundan əvvəl insanları tərk etmişik, əgər bu belədirsə, onda təkrarən insanlara qayıtmaq həm dünya əhli üçün, həm də axirət dünyası üçün faydasız olar. Bizimlə görüşmək üçün bura gələn insanlara gəlincə isə, biz iki şeydən birini etməliyik; ya onları qarşılamaq, yaxud da onları mağaraya buraxmaq. Bu da o biri iş də başağrısı və narahatlıq gətirəcəkdir, bizim isə necə olsa üç yüz otuz ildən artıq yaşımız var və biz insanlarla bihudə ünsiyyət etməyə davam gətirə bilmərik, ona görə ki, bizim həyatımız sona yaxınlaşır və əgər biz, daha bir qədər yaşasaq belə onsuzda faydası yoxdur".

İstər yüz yaşa istərsə də daha çox,
Onsuz da tərk edənik dünyanın vəfası yox.

Əgər məni dinləyəcəksinizsə, Ulu Tanrının bizi üç yüz doqquz il qoruyub saxladığını yada salsaq ki, bununla da Tanrı özünün qüdrətini sübuta yetirmiş və bizim sirrimizi bütün dünya əhli üçün bəyan edibdir. Gəlin adamlar bizi əhatə edənə qədər və nə qədər ki, biz mühakimə olunmalı deyilik, nə qədər ki, şəhər sakinləri bizi barmaqla göstərməyib, səmimi qəlblə, yüksək məramla Allah qarşısında təzim edək, göz yaşları və yalvarışla

Ondan, qadir, qüdrətli Allahdan istəyək ki, buradaca bu mağarada O, bizi özü ilə qonşu son nöqtəyə - ideala çevirsin. – Qoy O, bizə ölüm göndərsin, və ya öz möcüzəsi ilə bizi qeybə çəksin zira əgər biz bir müddət yaşasaq da sonu birdir.

Yüz min il yaşasaq da əgər əcəl yetişibsə,
Axır ölüm bizi də öz yoluna qatacaqdır.

Təmleyxa öz nitqini bitirdikdən sonra dostlarının hamısı onun təklifini bəyəndilər və dərhal yeddi – kimsələr yerə döşənərək Ulu Tanrıdan müqəddəs ölüm istədilər. Böyük yaradan ölüm mələyinə (məlekil-mövt) cənabi Əzrailə (ə) əmr etdi ki, onların səcdəyə getdiyi zaman elə həmin andaca canını alsın. Cənabi Əzrail (ə) həmin dəqiqə öz işini yerinə yetirdi və iti də öldürərək hamısı bir anda daşa dönərək qeyb oldular.

Hökmdar və əyanlar özlərini göstərməyərək müşahidə aparır və mağaranın sakinlərinin Təmleyxa ilə söhbətinə qulaq asmaqda davam edirdilər. Lakin Təmleyxa və onun yoldaşlarının Allaha uzun müddət səcdə etdiyini, səs-səmir gəlmədiyini görərək hökmdar və məmurlar mağaraya yollandılar. Dağ Yunus dövründən qalmış, yaradılmış daş qalağına çatanda onlar dayandılar; irəli getməyə heç kimin cürəti çatmadı. Rəvayətdə deyilir ki, hökmdar Təmleyxanın böyük nəticəsinə mağaraya girməyi və nə baş verdiyini öyrənməyi əmr etdi. O, mağaraya girdi və yeddi nəfərin hamısı Allaha səcdə etdiyi zaman həyatla vidalaşıb qeybə çəkildiklərini həyacanla dərk etdi. Bu vahiməli möcüzəni görən Təmleyxanın nəticəsi ucadan qışqırdı və özü də canını Allaha tapşırdı. Qışqırığı eşidərək hökmdar və onun xidmətçiləri qorxaraq mağaradan geri çəkildilər. Hökmdar və onun adamları bir müddətdən sonra yenə də mağaraya girmək qərarına gəldilər, lakin giriş daşlarla səliqəli hörülmüş idi, belə ki, heç bir qüvvə ilə oradan bircə daş qoparmaq nümkün deyildi. Bunu görərək qulaqlarında Təmleyxanın nəticəsinin axırıncı qışqırığının hələ də səsləndiyi adamlar divarı yarmaq istədilər. Lakin onlar heç nə edə bilmədilər. Birdən əks-sədası ətrafa yayılan dəşətli bir səs gəldi. "Dost dosta qovuşdu". Yuxarıdan gələn səsi eşidərək hökmdar və onun adamları heyrətlənmiş halda

donub qaldılar. Sonra isə hər biri mağaraya gedən yolu bağlayan daşlara üzü üstə döşənərək Uca Allahdan öz arzularının yerinə yetirilməsini istədilər. Nəhayət istəklərinə nail olaraq mağaraya daxil oldular və o möcüzəni onlar da müşahidə etdilər.

Hökmdar və onun əyanları düz bir ay mağaranın ətrafında oldular. Şəhərdən bütün lazım olan materialları gətirib mağaranın qarşısında ziyarətçilər üçün böyük məbəd və sığınacaq tikdilər. Hökmdar məbədin divarında Əshabi-Kəhfin yeddi sakininin – mağarada üç yüz doqquz il yatmış Əfsus yeniyetmələrinin tarixini yazmağı əmr etdi. Məbədin açarları isə Təmleyxanın nəslindən olanlara verildi və onlar haqqındakı hekayət bütün dünyaya məlum oldu. Indi dindarlar hər zaman həmin mağaraya gedir, müqəddəs məkanı ziyarət edərək Ulu Tanrıdan öz hacətlərin istəyirlər.Yeddi kimsələr haqqında hekayət Allah Təalanın son səmavi kitabı olan müqəddəs Qurani-Kərimin Kəhf - surəsində ətraflı şərh olunmuşdur. Qurani-Kərimin əl-Kəhf surəsində Allah Təala onlar barəsində fəsahət və bəlağət baxımından daha hikməli şəkildə bəyan etmişdir.

Əl-Kəhf surəsi cəmi 110 ayədir. Məkkədə nazil olmuşdur. Ancaq, 28 ayəsi Mədinədə nazil olması rəvayət edilir. Surə bu adı, içəridə sözügedən "Mağara sahibləri" mənası demək olan "Əshabi-Kəhf"dən almışdır. Təfsirlərə görə, "Kəhf" qədim Naxçıvan torpağının müqəddəsliyini əks etdirən əzəmətli dağda yerləşən geniş mağara deməkdir. Surənin ayələrini olduğu kimi aşağıda vermək məntiqi yanaşmanın əsasını təşkil edir.

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيم

{ الْحَمْدُ لِلَّهِ الَّذِي أَنْزَلَ عَلَى عَبْدِهِ الْكِتَابَ وَلَمْ يَجْعَلْ لَهُ عِوَجًا * قَيِّمًا لِيُنْذِرَ بَأْسًا شَدِيدًا مِنْ لَدُنْهُ وَيُبَشِّرَ الْمُؤْمِنِينَ الَّذِينَ يَعْمَلُونَ الصَّالِحَاتِ أَنَّ لَهُمْ أَجْرًا حَسَنًا * مَاكِثِينَ فِيهِ أَبَدًا * وَيُنْذِرَ الَّذِينَ قَالُوا اتَّخَذَ اللَّهُ وَلَدًا } .

1 - Həmd olsun O Allaha ki, Kitabı (Quranı mənasında və sözlərində) heç bir əyriliyə (yanlışlığa və ziddiyyətə) yol vermədən Öz bəndəsinə (Muhəmmədə) nazil etdi!
2 - (Allah kafirləri) Öz dərgahından gələcək şiddətli bir əzabla qorxutmaq, yaxşı əməllər edən möminlərə isə gözəl mükafata (Cənnətə) nail olacaqları ilə müjdə vermək üçün onu doğru-düzgün (qiyamətə qədər bütün bəşəriyyətə haqq yolu göstərən bir nur) olaraq endirdi.
3 - Onlar orada (Cənnətdə) əbədi qalacaqlar!
4 - O, həm də (Quranı): "Allah Özünə övlad götürdü!" – deyənləri qorxutmaq üçün nazil etdi.

{ مَا لَهُمْ بِهِ مِنْ عِلْمٍ وَلَا لِآبَائِهِمْ كَبُرَتْ كَلِمَةً تَخْرُجُ مِنْ أَفْوَاهِهِمْ إِنْ يَقُولُونَ إِلَّا كَذِبًا * فَلَعَلَّكَ بَاخِعٌ نَفْسَكَ عَلَى آثَارِهِمْ إِنْ لَمْ يُؤْمِنُوا بِهَذَا الْحَدِيثِ أَسَفًا } .

5 - Bu barədə nə onların özlərinin, nə də (təqlid etdikləri) atalarının heç bir biliyi yoxdur. Onlar çox böyük-böyük danışırlar. (Ağızlarından çıxan söz necə də böyük küfrdür). Onlar ancaq yalan deyirlər!
6 - (Ya Rəsulum!) Yoxsa (kafirlər) bu Qurana inanmasalar, (səndən üz döndərib getdiklərinə görə) arxalarınca təəssüflənib özünü həlak edəcəksən?!

{ إِنَّا جَعَلْنَا مَا عَلَى الْأَرْضِ زِينَةً لَهَا لِنَبْلُوَهُمْ أَيُّهُمْ أَحْسَنُ عَمَلًا * وَإِنَّا لَجَاعِلُونَ مَا عَلَيْهَا صَعِيدًا جُرُزًا } .

7 - Biz yer üzündə olanları onun (sakinləri) üçün (və ya onun özünə məxsus) bir zinət yaratdıq ki, onlardan hansının daha gözəl əməl sahibi olduğunu yoxlayıb ayırd edək.
8 - (Bu da bir həqiqətdir ki) Biz yer üzündə olan hər şeyi (vaxtı gələndə) məhv edib qupquru bir torpağa döndərərik. (Fani dünyaya, onun cah-cəlalına etibar yoxdur. Yer üzündə olan heç bir

şey əbədi deyildir. Müəyyən dövrdən sonra orada mövcud olan hər şey məhv olacaqdır).

{ أَمْ حَسِبْتَ أَنَّ أَصْحَابَ الْكَهْفِ وَالرَّقِيمِ كَانُوا مِنْ آيَاتِنَا عَجَبًا * إِذْ أَوَى الْفِتْيَةُ إِلَى الْكَهْفِ فَقَالُوا رَبَّنَا آتِنَا مِنْ لَدُنْكَ رَحْمَةً وَهَيِّئْ لَنَا مِنْ أَمْرِنَا رَشَدًا * فَضَرَبْنَا عَلَى آذَانِهِمْ فِي الْكَهْفِ سِنِينَ عَدَدًا * ثُمَّ بَعَثْنَاهُمْ لِنَعْلَمَ أَيُّ الْحِزْبَيْنِ أَحْصَى لِمَا لَبِثُوا أَمَدًا } .

9 - (Ya Rəsulum!) Yoxsa əshabi-kəhfin və Rəqimin (mağara və Rəqim əhlinin) ayələrimizdən əcaib bir şey olduğunu güman edirsən? (Xeyr, bu Bizim qüdrətimiz qarşısında adi bir işdir).
10 - (Ya Rəsulum!) Xatırla ki, o zaman gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və işimizə fərəc ver! (Bizi kafirlərin bəlasından, düşmənlərin təhlükəsindən qoru, bizə ruzi verib doğru yola yönəlt!)" – demişdilər.
11 - Biz onları mağarada illərlə (üç yüz doqquz il) yuxuya verdik.
12 - Sonra iki tayfadan (möminlərdən və kafirlərdən) hansının onların (mağarada) qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq.

{ نَحْنُ نَقُصُّ عَلَيْكَ نَبَأَهُمْ بِالْحَقِّ إِنَّهُمْ فِتْيَةٌ آمَنُوا بِرَبِّهِمْ وَزِدْنَاهُمْ هُدًى * وَرَبَطْنَا عَلَى قُلُوبِهِمْ إِذْ قَامُوا فَقَالُوا رَبُّنَا رَبُّ السَّمَاوَاتِ وَالْأَرْضِ لَنْ نَدْعُوَ مِنْ دُونِهِ إِلَهًا لَقَدْ قُلْنَا إِذًا شَطَطًا } .

13 - (Ya Rəsulum!) Biz onların xəbərini sənə doğru söyləyirik. Onlar Rəbbinə iman gətirmiş bir neçə gənc idi. Biz də onların hidayətini (imanını, səbatını və bəsirətini) artırmışdıq.
14 - Onlar (rum qeysəri bütpərəst Diqyanusun hüzurunda) durub: "Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz Ondan başqa heç bir tanrıya ibadət etməyəcəyik. Əks təqdirdə, (Allahdan başqasına tapınacağıq, - söyləsək, küfr) danışmaqda həddi aşmış (ifrata varmış) olarıq!" – dedikləri zaman onların ürəklərinə qüvvət (mətanət) vermişdik.

{ هَؤُلاءِ قَوْمُنَا اتَّخَذُوا مِنْ دُونِهِ آلِهَةً لَوْلا يَأْتُونَ عَلَيْهِمْ بِسُلْطَانٍ بَيِّنٍ فَمَنْ أَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللَّهِ كَذِبًا } .

15 - Bizim bu camaat (qövmümüz) Allahdan başqa tanrılar qəbul etdi. Elə isə onlar öz tanrıları barəsində (bütlərə ibadət etməyin düzgün olması haqqında) bir dəlil gətirməli deyildilərmi? Allaha qarşı yalan uydurub düzəldəndən daha zalım (özünə zülm edən) kim ola bilər?!

{ وَإِذِ اعْتَزَلْتُمُوهُمْ وَمَا يَعْبُدُونَ إِلا اللَّهَ فَأْوُوا إِلَى الْكَهْفِ يَنْشُرْ لَكُمْ رَبُّكُمْ مِنْ رَحْمَتِهِ وَيُهَيِّئْ لَكُمْ مِنْ أَمْرِكُمْ مِرْفَقًا } .

16 - (Gənclərin başçısı, yaşca böyüyü Təmlixa yoldaşlarına belə demişdi: ) “Onları və Allahdan başqa tapındıqları tanrıları tərk edib getdiyiniz zaman mağaraya çəkilin ki, Rəbbiniz sizə Öz mərhəmətindən əta etsin və işinizdə sizin üçün fayda hazırlasın (sizə kafirlərdən nicat versin, düşmənlərdən qoruyub saxlasın)”.

{ وَتَرَى الشَّمْسَ إِذَا طَلَعَتْ تَزَاوَرُ عَنْ كَهْفِهِمْ ذَاتَ الْيَمِينِ وَإِذَا غَرَبَتْ تَقْرِضُهُمْ ذَاتَ الشِّمَالِ وَهُمْ فِي فَجْوَةٍ مِنْهُ ذَلِكَ مِنْ آيَاتِ اللَّهِ مَنْ يَهْدِ اللَّهُ فَهُوَ الْمُهْتَدِي وَمَنْ يُضْلِلْ فَلَنْ تَجِدَ لَهُ وَلِيًّا مُرْشِدًا * وَتَحْسَبُهُمْ أَيْقَاظًا وَهُمْ رُقُودٌ وَنُقَلِّبُهُمْ ذَاتَ الْيَمِينِ وَذَاتَ الشِّمَالِ وَكَلْبُهُمْ بَاسِطٌ ذِرَاعَيْهِ بِالْوَصِيدِ لَوِ اطَّلَعْتَ عَلَيْهِمْ لَوَلَّيْتَ مِنْهُمْ فِرَارًا وَلَمُلِئْتَ مِنْهُمْ رُعْبًا } .

17 - (Ya Rəsulum! Əgər o zaman onlara baxsaydın) günəşin doğduğu zaman onların mağarasının sağ tərəfinə meyl etdiyini, batdığı zaman isə onları tərk edib sol tərəfə yönəldiyini (mağaranın içinə düşüb onları yandırmadığını), onların da mağaranın ortasında geniş bir yerdə olduqlarını (küləyin onları oxşadığını və rahat nəfəs aldıqlarını) görərdin. Bu, Allahın möcüzələrindəndir. Allahın doğru yola saldığı kəs doğru yoldadır.

Allahın yoldan çıxartdığı (zəlalətə saldığı) kimsəyə isə əsla doğru yolu göstərən bir dost (rəhbər) tapa bilməzsən!
18 - (Gözləri açıq olduğu üçün) onlar yuxuda ikən sən onları oyaq sanardın. (Torpağın rütubəti bədənlərini çürütməsin deyə) Biz onları sağa-sola çevirirdik. Onlar iti də iki əlini (qabaq pəncələrini mağaranın) astanasına uzadıb yatmışdı. Əgər sən onları (bu vəziyyətdə) görsəydin, yəqin ki, (qorxudan) dönüb qaçar, dəhşət səni bürüyərdi.

{ وكذلك بعثناهم ليتساءلوا بينهم قال قائل منهم كم لبثتم قالوا لبثنا يوما أو بعض يوم قالوا ربكم أعلم بما لبثتم فابعثوا أحدكم بورقكم هذه إلى المدينة فلينظر أيها أزكى طعاما فليأتكم برزق منه وليتلطف ولا يشعرن بكم أحدا * إنهم إن يظهروا عليكم يرجموكم أو يعيدوكم في ملتهم ولن تفلحوا إذا أبدا } .

19 - (Gəncləri illərlə yatırtdığımız kimi) beləcə də onları bir-birindən hal-əhval tutsunlar deyə, oyatdıq. Onların biri dedi: “(Mağarada) nə qədər qaldınız?” Onlar: “Bir gün və ya bir gündən az!” – deyə cavab verdilər. Onlardan (bəziləri isə) belə dedi: “Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir. İndi içərinizdən birini bu gümüş pulunuzla şəhərə (Tərsusa və ya Əfsusa) göndərin ki, görsün ən təmiz təam hansıdırsa, ondan sizə ruzi (yemək alıb) gətirsin. O, çox ehtiyatlı olsun (ağıllı hərəkət etsin) və sizin barənizdə heç kəsə bir xəbər (nişan) verməsin!
20 - Doğrusu, onlar sizi ələ keçirsələr ya sizi daşqalaq edəcək, ya da öz dinlərinə döndərəcəklər. Belə olacağı təqdirdə, siz (nə dünyada, nə də axirətdə) nicat tapa bilməzsiniz!”

{ وكذلك أعثرنا عليهم ليعلموا أن وعد الله حق وأن الساعة لا ريب فيها إذ يتنازعون بينهم أمرهم فقالوا ابنوا عليهم بنيانا ربهم أعلم بهم قال الذين غلبوا على أمرهم لنتخذن عليهم مسجدا } .

21 - (İnsanları–Tərsusun əhalisini) onların halı ilə beləcə tanış etdik ki, Allahın (məxluqatın öləndən sonra diriləcəyi haqqındakı) vədinin doğru olduğunu və qiyamətin qopacağına əsla şübhə

olmadığını bilsinlər. O zaman (Tərsusdakı möminlər və kafirlər) öz aralarında onların (əshabi-kəhfin) işi (və ya insanın ölləndən sonra dirilib-dirilməyəcəyi, dirilmənin yalnız ruhla, yaxud ruh və bədənlə birlikdə olacağı kimi dini məsələlər) barəsində mübahisə edirlər. (Nəhayət, əshabi-kəhf öldükdən sonra kafirlər) dedilər: "Onların üstündə bir bina tikin. Rəbbi (onların öldüyünü, yaxud yenidən yuxuya getdiyini və nəyə etiqad etdiyini) daha yaxşı bilir!" Onların (əshabi-kəhfin) haqqındakı mübahisədə qalib gələnlər (möminlər) isə: "Onların (məzarı) üstündə (Allaha ibadət etmək məqsədilə) bir məscid tikəcəyik!" – dedilər.

{ سَيَقُولُونَ ثَلاثَةٌ رَابِعُهُمْ كَلْبُهُمْ وَيَقُولُونَ خَمْسَةٌ سَادِسُهُمْ كَلْبُهُمْ رَجْمًا بِالْغَيْبِ وَيَقُولُونَ سَبْعَةٌ وَثَامِنُهُمْ كَلْبُهُمْ قُلْ رَبِّي أَعْلَمُ بِعِدَّتِهِمْ مَا يَعْلَمُهُمْ إِلا قَلِيلٌ فَلا تُمَارِ فِيهِمْ إِلا مِرَاءً ظَاهِرًا وَلا تَسْتَفْتِ فِيهِمْ مِنْهُمْ أَحَدًا } .

22 - (Kitab əhlindən əshabi-kəhfin sayı barəsində mübahisə edənlər) sanki qaranlıq yerə daş ataraq: "Onlar üçdür, dördüncüsü köpəkləridir!" - deyəcəklər. Bəziləri: "Onlar beşdir, altıncısı köpəkləridir!" – deyəcəklər. Digərləri (möminlər) isə: "Onlar yeddidir, səkkizincisi köpəkləridir!" – söyləyəcəklər. (Ya Rəsulum!) De: "Onların sayını Rəbbim daha yaxşı bilir. (İnsanlardan isə) bunu bilən çox azdır!" (Ya Rəsulum! Əshabi-kəhf) barəsində yalnız sənə açıq-aşkar nazil olan ayələrə əsaslanıb onlarla mübahisə et (Quranda olanlarla kifayətlənib çox dərinə getmə) və (kitab əhlinin) heç birindən onlar haqqında bir şey soruşma!

{ وَلا تَقُولَنَّ لِشَيْءٍ إِنِّي فَاعِلٌ ذَلِكَ غَدًا * إِلا أَنْ يَشَاءَ اللَّهُ وَاذْكُرْ رَبَّكَ إِذَا نَسِيتَ وَقُلْ عَسَى أَنْ يَهْدِيَنِي رَبِّي لأَقْرَبَ مِنْ هَذَا رَشَدًا } .

23 - Və heç bir şey barəsində: "Mən onu sabah edəcəyəm!" – demə!

24 - Ancaq: "İnşallah (əgər Allah istəsə; Allah qoysa) deyəcəyəm!" – de. (İnşallah deməyi) unutduğun zaman Rəbbinin

yada salıb: "Ola bilsin ki, Rəbbim məni bundan (əshabi-kəhfin əhvalatına dair xəbərlərdən) haqqa daha yaxın olan bir yola yönəltsin (peyğəmbərliyimə daha çox dəlalət edən bir möcüzə vesin!)" – de.

{ وَلَبِثُوا فِي كَهْفِهِمْ ثَلَاثَ مِائَةٍ سِنِينَ وَازْدَادُوا تِسْعًا * قُلِ اللَّهُ أَعْلَمُ بِمَا لَبِثُوا لَهُ غَيْبُ السَّمَاوَاتِ وَالْأَرْضِ أَبْصِرْ بِهِ وَأَسْمِعْ مَا لَهُمْ مِنْ دُونِهِ مِنْ وَلِيٍّ وَلَا يُشْرِكُ فِي حُكْمِهِ أَحَدًا } .

25 - Onlar mağarada üç yüz doqquz il qaldılar. (Üç yüz il qaldılar, üstünə bir doqquz il də artırdılar).
26 - (Ya Rəsulum!) De: "Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybini bilmək ancaq Ona məxsusdur. O, hər şeyi necə gözəl görür, necə də yaxşı eşidir! Onların (yer və göy əhlinin) Allahdan başqa heç bir hamisi yoxdur. O, heç kəsi öz hökmünə (səltənətinə) şərik etməz!" (Çünki Allahın heç bir şərikə ehtiyacı yoxdur!)

{ وَاتْلُ مَا أُوحِيَ إِلَيْكَ مِنْ كِتَابِ رَبِّكَ لَا مُبَدِّلَ لِكَلِمَاتِهِ وَلَنْ تَجِدَ مِنْ دُونِهِ مُلْتَحَدًا * وَاصْبِرْ نَفْسَكَ مَعَ الَّذِينَ يَدْعُونَ رَبَّهُمْ بِالْغَدَاةِ وَالْعَشِيِّ يُرِيدُونَ وَجْهَهُ وَلَا تَعْدُ عَيْنَاكَ عَنْهُمْ تُرِيدُ زِينَةَ الْحَيَاةِ الدُّنْيَا وَلَا تُطِعْ مَنْ أَغْفَلْنَا قَلْبَهُ عَنْ ذِكْرِنَا وَاتَّبَعَ هَوَاهُ وَكَانَ أَمْرُهُ فُرُطًا } .

27 - Rəbbinin kitabından sənə vəhy olunanı oxu. Onun sözlərini heç kəs dəyişdirə bilməz. (Allahdan) başqa heç bir sığınacaq tapa bilməzsən! (Pənah yalnız Allahadır!)
28 - Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbirli apar (nəfsini qoru). Fani dünyanın bər-bəzəyini arzu edib nəzərlərini onlardan (yoxsul möminlərdən) çevirmə. Qəlbini Bizi (Quranı) xatırlamaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və (hər) işində ifrata varan bir kimsəyə itaət etmə!

**Onların ziyarətnaməsi isə aşağıdakı kimi oxunmuşdur.**

بسم الله الرحمن الرحيم

زِيَارَتِ اديرَمْ أصْحَابِ الْكَهْفِ وَ قَدَمْگاه حَضْرَتِ آدَم صفوة الله وشَيْثِ نَبِيِّ اللهِ وحَضْرَتِ إدْرِيس ونوح نَجي اللهِ وإبراهيم خَلِيل اللهِ وموسى كَلِيمِ اللهِ وعيسى رُوح اللهِ ومحمد رَسُول الله وعَلِيّ وَلِيِّ اللهِ وَجَمِيع بَيْغَمْبَرانِك.

السَّلام عَلَيْكُمْ أيَّتُها الفِتْيَةَ التِي عَرَفْتُمُ اللهُ تَعَالى وكَفَرْتُمْ بالجِبْتِ والطَّاغُوتِ وَفَرَرْتُمْ مِنَ الكُفَّار وعَمَلِهِمْ وَجَاوَزْتُمْ عَنِ الدُّنْيَا وَفِيهَا أقَمْتُمْ فِي هَذَا الجَبَلِ ونِمْتُمْ إلى يَوْم يَبْعَثُ اللهُ مَوْلِيكُمْ يَا صَاحِبَ الزَّمانِ اِعْلَمُوا أيَّتُهَا الفِتْيَةُ إنَّا أتَيْنَا زَائِرًا لكُمْ عَارِفًا بِحَقِّكُمْ فَاشْفَعْ لَنَا عِنْدَ مَوْلِيكُمْ فَإنَّ لَكُمْ عِنْدَهُ مَنْزِلَة حَتَّى يُخْرِجَنَا مِنْ قُبُورِنَا بِإذْنِ اللهِ تَعالى وجَعَلنَا مِنَ أنْصارِهِ بِمُحَمَّدٍ وآلِهِ أجْمَعِين.

السَّلامُ عَلَيْكُمْ يَا أصْحَابُ الكَهْفِ وَرَحْمَةِ اللهِ وَبَرَكَاتِهِ * اسْتَوْدَعَكُمْ اللهِ وَأقْرَرْتُنَا بِنَوْمِكُم إلى يَوْمِ يَبْعَثُ الله تعالى فاشْفَعْ لَنَا وإخْوَانِ الحَاضِرِينَ يَا تَمْلِيخَا ويَا مَكْثِينَا ويَا مَرْنُوش يَا بَرْيُوش يَا مَثْلِينَا يَا شَاذَنُوشُ يَا مَرْطُونُوس يَا قِطْمِرِ وكَلْبِهِمْ فَاشْفَعْ لِي لَنَا وبِجَمِيعِ المُؤْمِنِينَ والمُؤْمِنَاتِ ولِوَالِدِيْنَا بِحُرْمَةِ مُحَمَّدٍ وَآلِهِ الطَّاهِرِينَ بِرَحْمَتِكَ يَا أرْحَمَ الرَّاحِمِين

## NAXÇIVAN MƏDƏNİYYƏTİNİN TARİXİ ƏHƏMİYYƏTİ ORTA ƏSRLƏRDƏ

Mətnşünaslıq yalnız ədəbiyyat tarixi üçün deyil, eyni zamanda mədəniyyət tarixi üçün də böyük əhəmiyyət kəsb edən geniş bir elmi sahəni əhatə edir. Ədəbiyyat və mədəniyyət tarixinin doğru və düzgün, obyektiv şəkildə öyrənilməsi, klassik mətnlər üzərində aparılan tekstoloji tədqiqatların düzgün müəyyənliyindən də az asılı deyildir. Orta əsr yüzilliklərində qədim Naxçıvan diyarında yaradılmış abidə əsərləri ayrı-ayrı müəlliflərin, mütəfəkkirlərin, filosofların, şair və yazıçıların dünyagörüşlərini, istedadlarını, bədii sənətkarlıqlarını, elmə verdikləri yenilikləri, tibbi biliklərin mənimsənilməsini və s. əks etdirən yazılı abidələr olmaqla bərabər, həm də Naxçıvan mədəniyyət tarixini işıqlandıran əsaslı və başlıca məxəzlərdəndir. Buna görə də, klassiklərin ayrı-ayrı yüzilliklərdə yaratmış olduqları əsərlərin düzgün elmi mətnlərini araşdırıb tərtib etmək və onları öz müəlliflərinə mənsub etmək, hər şeydən əvvəl ədəbiyyat və mədəniyyət tarixinin doğru və düzgün mənimsənilməsi deməkdir. Bu da mətnşünaslıq elminin böyük əhəmiyyətini səciyyələndirən əsas başlıca məziyyətlərdir.

Mətnşünaslıq Azərbaycanda XIX əsrin II yarısından etibarən ayrıca bir elmi sahəsi kimi formalaşmağa başlasa da, onun qaynaqları keçmiş yüzilliklərin dərin qalın qatları ilə birbaşa bağlıdır.

Onu da qeyd etmək lazımdır ki, mətnşünaslıq əvvəlcə elmi-praktiki fəaliyyət sahəsi kimi mövcud olmuş və o da başqa elmlər kimi uzun əsrlər boyu müxtəlif inkişaf mərhələləri keçirərək, zəngin baza yaratdıqdan sonra, bir elmi sahəsi kimi formalaşmağa başlamış, onun nəzəri əsasları və metodologiyası yaradılmışdır. Azərbaycanın böyük mətnşünas alimi Mirəhmədov

Ə. bu haqda belə deyirdi: "Belə bir tarixi təkamül yolu Azərbaycan mətnşünaslığı üçün də səciyyəvidir" (66, s. 4).

Orta əsr yüzilliklərində mətbəə üsulu ilə kitab çapı olmadığına görə, şair və yazıçılarımız, alim və mütəfəkkirlərimizin yaratdıqları elm və ədəbi abidələri katib nüsxələrində yayılıb, inkişaf tapmağa başlayırdı. Öz zənginliyi ilə bədii və elmi irsə yiyələnən Naxçıvan mədəniyyəti uzun yüzilliklər ərzində yaradılmış abidələrin mətnşünaslıq baxımından araşdırılması və onların elmi-tənqidi mətnlərinin tərtibi sahəsində Azərbaycan alimlərimizin xidmətləri olduqca böyükdür. Məhz onların gərgin və şərəfli əməyi sayəsində Hinduşah Naxçıvani, Məhəmməd ibn Hinduşah Naxçıvani, Nəcməddin Əhməd ibn Əbubəkr Naxçıvani, Əkmələddin Naxçıvani, Məsud Əmirəddin Naxçıvani, Əcəmi Əbubəkr Naxçıvani, Osman ibn Səlman Naxçıvani, Həsən ibn Ömər Naxçıvani və neçə-neçə başqa Naxçıvan və Azərbaycan klassikləri əsərlərinin dəyərli elmi-tənqidi mətnləri tərtib edilmiş, onların əsasında mükəmməl kütləvi nəşrlər həyata keçirilmişdir. Lakin uzun əsrlərdən bəri zəngin elmi ənənələr yaratmış orta əsr Naxçıvan əlyazma mətnləri haqqında yalnız Azərbaycanda deyil, eyni zamanda dünya şərqşünaslığında da indiyədək heç bir monoqrafik tədqiqat aparılmamış və bu elm sahəsi sistemli şəkildə işıqlandırılmamışdı.

Azərbaycan mətnşünaslığına böyük töhfələr vermiş Naxçıvanın məşhur alim və mütəfəkkir yetirmələri öz yaradıcılıqlarında elmi ədəbi mühitə və zəngin tarixi keçmişə malik olan doğma Naxçıvana aid elmi əsərlər ərməğan etmişlər.

Orta əsr Naxçıvan tibb elminin inkişafında əvəzsiz xidmətləri olan böyük şəxsiyyət Nəcməddin Əhməd ibn Əbubəkr Naxçıvani olmuşdur. Yaxın Şərq ölkələrində geniş tanınmış məşhur alim öz dövrünün böyük filosof və mütəfəkkiri olmaqla, həmdə tibb sahəsində zəngin biliyə malik olmuşdur. Nəsirəddin Tusinin tələbəsi məşhur alim İbn əl-İbri (1226-1286) Nəcməddin Naxçıvani barədə belə yazır: "O, böyük fəzilət sahibi, dəqiq elmlərin dərindən bilicisi idi. Öz vətənində fəlsəfə ilə məşğul olurdu. Ölkələri səyahətə çıxdı, xeyli gəzib dolaşdı, axırda kiçik

Asiyaya daxil oldu, böyük mənsəblər tutdu, sonra idarəçilik narahatçılığı ilə, əzab-əziyyətləri onu bezdirdi. Oradan Suriyaya yola düşdü" (23, s. 36).

Mənbələrin verdiyi məlumata görə böyük filosof-təbib ömrünün axırında guşəneşin olmuş, heç yerə çıxmamışdır. Yalnız dostları ona baş çəkmişdir.

Naxçıvanın filosof-təbibi, həmçinin böyük mütəfəkkir aliminin qədim Naxçıvanda dünyaya gəlməsi haqqında Məhəmməd Bağır Xansari (1811-1895) yazır: "O, böyük şəxsiyyət Naxçıvan şəhərindən idi və İbn Sinanın əsərlərinə şərhlər yazırdı" (23, s. 36).

Azərbaycan mədəniyyəti tarixində tənqidi fikrin inkişaf etdirilməsində görkəmli şərqşünas alim və filosof Zakir Məmmədovun xidmətləri olduqca böyükdür. O, elmin müxtəlif sahələrinə həsr edilmiş abidələr və mövzular üzərində apardığı rəngarəng araşdırmalar sayəsində zəngin və çox şaxəli elmi irs yaratmışdır. Zakir Məmmədov ədəbiyyat, tarix, fəlsəfi müdriklik abidələri mətnlərinin araşdırılmasında həmişə elmi-tənqidi metoda əsaslanmış və onların mümkün qədər həqiqətə uyğun şəkildə elmi mətnlərini tərtib etməyə çalışmış, bu metoda riayət etməyərək, mənbələrin öyrənilməsində müəyyən əyintilərə yol verən alimləri tənqid etmişdir. İstedadlı alim Zakir Məmmədov öz axtarışlarında Naxçıvana aid orta əsr fəlsəfi, ədəbi və mədəni irsinin nümayəndəsi olan filosof və həkim Nəcməddin Naxçıvani haqqında belə yazır: "Naxçıvani bir filosof kimi Şərq peripatetizminin mükəmməl bilicisi olmuş, ancaq ardıcıl aristotelçi olmamışdır. O İbn Sinanın kitablarını tənqidi planda araşdırmış, onun bəzi doktrinalarına qarşı öz etirazını bildirmişdir. Mübahisə doğuran fəlsəfi məsələlərdən biri nəfsə dair idi. İnsan cisminin məhvindən sonra nəfsin yaşamasına inanan Naxçıvani Şərq peripatetiklərinin əleyhinə olaraq, İbn əl-İbraninin qeyd etdiyi kimi, "tənəsux təliminə" güclü meyl etmişdir" (23, s. 37).

XIII əsrdə yəhudi filosofu İbn Kəmmunə İsraili də başqaları kimi Naxçıvaninin əsərlərinə şərh yazaraq peripatetik fəlsəfə ilə ona qarşı yönəldilmiş tənqidi fikirləri barışdırmağa səy

göstərmişdir. Xucəndi isə Naxçıvaninin İbn Sina təliminə dair dediyi tənqidi fikirləri qəbul etməmişdir.

Filosofun bir neçə tanınmış məşhur əsərləri olmuşdur ki, dünyanın diqqətini özünə cəlb etdirmişdir. "Məntiqin məğzi və fəlsəfənin xülasəsi (Lübab əl-məntiq və xülasət əl-hikmət), traktatının bir əlyazması Nəcəf şəhərində mühafizə edilir. Onun İbn Sinanın "Tibb qanunu" (əl-Qanun fi-tibb) kitabına yazdığı şərh Parisdə, "İşarələr və qeydlər" (əl-İşarət vət-təlbihat) kitabına yazdığı şərh İstanbulda saxlanılır" (8, s. 303).

Naxçıvan mədəniyyətinə dair tarixi mənbələr onu deməyə imkan verir ki, həqiqətən qədim Nuh diyarı canlı mətn abidələri ilə bəzədilmişdir. Orta əsr mənbələrinə aid yazılı abidə olan bir çox əlyazma mətnləri bu gün Naxçıvan mədəniyyəti tarixinin əsasından xəbər verir.

Naxçıvan mədəniyyətinə dair orta əsr əlyazma mətnlərinin tarixi köklərini nəzərdən keçirən böyük tədqiqatçı alim Məmmədov Z. öz tədqiqat əsərində belə yazır: "XI-XII əsrlərdə Azərbaycanda incəsənət xeyli inkişaf etmişdi. Musiqişünaslıq bir fənn kimi riyaziyyat üstündə gedirdi. XI əsrdə başqa müasirləri ilə yanaşı Əbülhəsən Bəhmənyar da musiqişünaslığa xüsusi maraq göstərmiş, bu barədə ayrıca traktat yazmışdır. O dövrdə memarlıq və xəttatlıq sahəsində isdedadlı sənətkarlar yetişmişdir. Naxçıvanda 1162-ci ildə Yusif ibn Quseyrin, 1186-cı ildə Atabəy Məhəmməd Cahan Pəhləvanın arvadı Möminə xatının sərdabələrini tikmiş Əcəmi Əbubəkr oğlu Naxçıvani XII əsrin böyük sənətkarlarındandır. Başdan-başa həndəsi nəqşlər və kitabələrlə bəzədilmiş bu abidələr təsviri sənətin müxtəlif növlərini özündə təcəssüm etdirir" (67, s. 57).

Naxçıvan mədəniyyətinə dair əlyazma mətnlərinə xüsusi bir şirinlik gətirən orta əsr nümayəndələri dövrünün tanınmış elm adamları ilə yanaşı, xilafət başçılarının da böyük rəğbətini qazanmışlar. Xəlifə Nasir li-Dinillah (1180-1225) tərəfindən yüksək qiymətləndirilən elm adamlarından biri də Hinduşah Naxçıvani olmuşdur. Naxçıvani də öz növbəsində ona qarşı elmi əsərlər yazmaqla münasibətini bildirir. Tədqiqatçı alim bu haqda

yazır: "Tarixi mənbələrdən Nasir li-Dinillahın 45 illik hakimiyyəti zamanı xilafətin möhkəmləndiyi göstərilir. Hinduşah Naxçıvani (XIV əsr) Nasir xəlifənin geniş məlumata malik olduğunu, fiqhi dərindən bildiyini, habelə hədislərə dair "Ariflərin ruhu" ("Ruh əl-Arifin") adlı kitab tərtib etdiyini yazır. Həmin dövrdə xilafətin ictimai-siyasi həyatında türklərin (azərbaycanlıların) geniş fəaliyyət göstərmələri faktı diqqəti cəlb edir: Əbunnəcib Sührəvərdi, Məhəmməd Hibbətullah oğlu Səlmasi və başqalarının Nizamiyyə mədrəsəsində dərs demələri, Xilafət divanına nəzarət etmək vəzifəsinin Yunis Müzəffər oğlu Urməviyə tapşırılması və i.a. Görünür, bu, xəlifənin özünün yarımtürk olması ilə bağlıdır; onun anası Zümrüd xanım türk qızı idi" (67, s. 63).

Orta əsr Naxçıvan əlyazma mətnlərinin tarixi kökləri istər elmi mətnin, istərsə də onunla bağlı verilən bilgilərin hansı məxəzlərə söykəndiyini göstərmək zəruri bir məsələ hesab etmək olar. Böyük şəxsiyyətlərin qələmə aldıqları əsərlər sırasında duran əlyazma mətnləri nəinki Naxçıvan ərazisində yaşamaqla yüksəlmiş, həmçinin Azərbaycanın digər bölgələrində də zəngin biliyə malik olan insanların əməyi yüksək qiymətləndirilmişdir. Yüksək fitri istedada, hərtərəfli elmi biliyə malik olan XI-XII əsr nümayəndələrindən biri Həddad ibn Bəkran Əbul-Fəzl ən-Naxçıvani olmuşdur ki, onun haqqında tanınmış tarixçi alim Yaqut əl-Həmavi xəbər vermişdir. "Yaqut əl-Həmavinin verdiyi məlumata görə həmin dövrlərdə Gəncədə "Dər əl-kutub" ("Kitablar evi") adlı böyük kitabxana olmuşdur. Bu kitabxananın xəzinədarı isə Həddad ibn Bəkran Əbul-Fəzl ən-Naxçıvani imiş" (68, s. 121).

Böyük dühalar yetişdirmiş Naxçıvan üçün bu heçdə yeganə kitabxana xəzinədarı olmamışdır. Bu dövrdə Marağada yaradılan ən böyük elm və mədəniyyət mərkəzlərindən biri də Marağa rəsədxanası olmuşdur. Nəsirəddin Tusinin rəhbərliyi altında Marağa şəhərinin qərb tərəfindəki bir təpənin üzərində, 1259-cu ildə rəsədxananın tikintisinə başlanmış və başa çatdırıldıqdan sonra, onun nəzdində zəngin bir kitabxana yaradılmışdır. Həmin kitabxana məhsi Nəsirəddin Tusi tərəfindən

yaradılmışdır. Bu kitabxananın zənginləşdirilməsi üçün Bağdad, Hələb, Dəməşq, Misir və başqa şəhərlərə, eləcə də Naxçıvana rəsədxana üçün kitab alıb gətirmək məqsədilə adamlar göndərilmişdir.

Sənətə və sənətkarlığa dərin hörmət bəsləyən və himayədarlıq göstərən orta əsr intibahının qurucusu Naxçıvan Atabəylər Dövlətinin nümayəndələri öz saraylarında kitab incəsənəti ustalarını,- xəttatları,-rəssamları, müzəhhibləri, cildçiləri və başqa sənəd adamlarını,- toplayaraq, böyük bir miniatur və elmi-bilik məktəbi yaratmışdı. Orta əsr Naxçıvan mədəniyyətinə dair əlyazma mətnləri zaman keçdikcə öz zəngin varlığına sahib olacaq və Naxçıvan həqiqətlərini bir daha aşkara çıxaracaqdır.

## ŞƏRQ ALƏMİNDƏ DƏRRAKƏ SƏVİYYƏSİ VƏ ƏXLAQİ KAMİLLİK

Bəhmənyar dərrakə barədə söyləmişdir: "Dərrakə bədəndə deyil ruhda yerləşir. O bədənlə ruh arasında əlaqə yaradır. Onun elə bir maddi əlaməti yoxdur, vəzifəsi ruh ilə maddi aləmi birləşdirməkdir".

Şərq mütəfəkkirlərinin dərrakə barədə bu düşüncələri sonrakı elmi kəşflərlə təsdiq edilmişdir. Söylənilən fikirlər dərrakənin vücuduna aiddir. Ancaq məsələnin mənəvi-əxlaqi aspektləri də var. Şərq mütəfəkkirləri filosoflarından fərqli olaraq sufi düşüncəli filosoflar dərrakənin mərhələlərini də göstərmişlər. Bu halların axırıncısı "fənalıq" – Allaha qovuşmaqdır.

Bu mərhələlər müxtəlif sufilərin konsepsiyasında fərqlidir. Bir sıra filosoflar onun sayını 17-18-ə çatdırır. Ancaq bütün bu fərqli bölgələrə baxmayaraq mahiyyət etibarilə sufilərin irəli sürdüyü mülahizələr fərziyə xarakteri daşıyır.

Aristotel insan dərrakəsi barədə yazır: "İnsanlar təbiət etibarilə həmişə biliyə can atırlar. Buna sübut hissi qavrayışdır. Onların xeyrinin olub-olmamasından asılı olmayaraq, insan onu özünə ehtiyac duyur. İnsan ən çox görmə duyğuları ilə məlumatı qəbul edir. İnformasiya bəzən fəaliyyət üçün yox, adi hal üçün də qəbul olunur".

Görmə duyğusu başqa duyğulardan fərqli olaraq idrakı daha çox təmin edir.

Göründüyü kimi, Aristotel insanın biliyə can atmasını, idrak prosesini təbii bir qanun kimi sayır və onun bir instint, vərdiş olduğunu iddia edir. Həqiqətən də Şərq mütəfəkkirləri filosoflarının bu fikirləri elmi sübutlara söykənir. Təcrübələrdə də bu faktı sübut etmək mümkündür.

Şərq peripatetik mütəfəkkirləri də Aristotel kimi idrakın bu funksiyasını nəzərə alıb onun incəsənət növü olduğunu sübut

etməyə çalışmışlar. Aristotel yazır: "Belə hesab edirik ki, bilik və idrak daha çox incəsənətə aiddir, nəinki təcrübəyə. Ona görə də incəsənətə nail olanları daha çox müdrik hesab edirik, nəinki təcrübəsi olanı. Müdriklik bilikdən asılıdır, ona görə ki, birincilər səbəbi bilir, ikincilər isə yox".

Aristotelin göstərdiyi bu fikirlər sufilərin fikirlərindən kəskin surətdə fərqlənir. Şərq peripatetik mütəfəkkirlərin idrak barəsindəki fikirləri daha çox elmi mülahizələrə əsaslanır. İdrakın "abstrak" və "əyani" olması barədə fikirlər bəzən ziddiyyətli olsa da mahiyyət etibarilə əsrlərin təcrübəsinə əsaslanır.

Böyük Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzuli mistikanı da idrak yollarından biri hesab edərək yazırdı: "Bu yol nəfsi çalışma və daxili təmizlənmə (yoludur). Belə ki, nəfs ruhidir və mahiyyətcə dərk ediləndir. Biliklər ondan yalnız cismani örtüklər və bədəndəki əngəllər üzündən gizli qalır. Əgər bu örtüklər çalışmalar yolu ilə aradan qaldırılarsa və müqəddəs varlığa tərəf üz tutma hasil olarsa, onda nəfs həmin zənginliyi ilkin mənbədən heç bir vasitə olmadan almağa hazır vəziyyətə gələr".

Orta əsr mütəfəkkirlərinə görə idrak yollarından başqa birisi öyrənmək və peyğəmbərlərdən nümunə götürmək yoludur. Bu yolu tutanlar şəriət əhlidir və öz müddəalarını nəql üzərində qurmuşlar. İlham və vəhy bu yola aiddir. "Bu, məqsədə qovuşmaqla əqli mühakimələrə, nəfsi çalışmalara və nəqli (biliklərdən) hökmlər çıxarmağa ehtiyacı olmayan ən uca dərəcələrə çatmış peyğəmbərlərə və övlyalara xasdır. Bu həqiqi yol adlanır".

Füzuli insanın mahiyyətini onun idrakı baxımından qiymətləndirmiş, kamilliyini onun idrakı ilə əlaqələndirmişdir: "Yaxşı olar ki, aqil insan öz xilqəti barəsində düşünsün, öz varlığının mahiyyətini araşdırsın, özünün başlanğıc və son halını dərk etsin, uğur fürsətini fövtə verməzdən və sual-cavab yerinə yönəlməzdən əvvəl özünün düzgünlük və fəsad yolunu seçib ayırsın, əmin olsun ki, insanlar növə görə eyni, zəruri növ əlamətlərinə görə müştərəkdirlər və onlar arasında yalnız idraka

görə fərq vardır. İdrak isə müxtəlif olur. Ən çətini ən əzəmətlisidir, ən şərəflisi ən faydalısıdır. Bu isə mənəvi nemət və insani kamillikdir".

Yaradıcılığında metafizika və fizika məsələlərinə geniş yer verən Füzuli Şərq peripatetizminin mühüm komponenti olan məntiqə də ayrı-ayrı müddəalar şəklində toxunmuşdur. Dahi söz ustası bir qəzəlində deyir:

Qəmdən öldüm, deməditm hali – dili – zar sana,
Ey gülü – təzə, rəva görmədim azar sana.

İnsanlarda əxlaqi kamillik barəsində fikirlər peripatetik filosofların fəlsəfəsində xüsusi yer təşkil edir. Əxlaqi məsələlər əsasən "ruh və nəfs onların mənşəyi və mahiyyəti" konteksində götürülür. Onlar "insanın dərk fəaliyyətini həmin psixik hadisələrə istinad izah etməyə çalışmışlar". Və bu konteksdə insanın əxlaqi keyfiyyətlərini göstərmək istəmişlər.

Şərq peripatetik mütəfəkkirlərindən Nəsirəddin Tusi daha çox insan əxlaqına əhəmiyyət vermişdir. Belə ki, Tusi özünün "Əxlaq-Nasiri" kitabında müsəlman dünyasında insanın konkret hansı əxlaqi keyfiyyətlərə malik olmalarından danışır. Tusiyə görə bütün əxlaqi keyfiyyətlər insana lazım olan keyfiyyətlərdir, fəqət onlar "mötədil"-orta həddə olmalıdır.

Belə ki, mənfi əxlaqi keyfiyyətlər sayılan paxıllıq, qibtə, yalançılıq və s. özü də insanın mənəvi təkamülünə səbəb olan hallardır. Hər bir keyfiyyətdə ifrata varma, onun mənəvi durumuna ciddi təsir göstərir. Hər varlığın özünə məxsus, başqa heç bir varlıqda olmayan, ya mənfi, ya müsbət, ya incə, ya kobud, ya təmiz, ya kəsif elə bir xüsusiyyəti var ki. Onun mahiyyəti yalnız bu xüsusiyyətlərə görə təyin və təsbit edilir. Kamilliyin öz dərəcələri var, bunlar gah sağlamlıq və xoşbəxtlik, gah asayiş və rahatlıq, gah dövlət və hörmət, gah da adlı sanlılıq və şöhrət şəklində təzahür edir. Kamillik və fəzilət aydınlaşdığı üçün onun əksi olan naqislik və rəzilət də aydınlaşmış olar.

Nitq nəfsində iki: elmi və əməli qüvvə olduğu üçün, insanın kamilliyi də iki cür olur: elmi və əməli.

"Elmi kamillik qüvvəti ona deyilir ki, o elm öyrənmək, maarifə yiyələnməyə yönəlsin; bu sövq və həvəsin nəticəsində varlıqların dərəcələrini müəyyənləşdirə bilmək, həqiqətlərin mahiyyətinə nüfuz etmək mümkün olsun; daha sonra əsl məqsəd olan və bütün varlıqlar orada sona çatan mütləq həqiqəti dərk etmək, bəlkə də ona qovuşmaq şərəfinə nail olsun. Beləliklə, onun qəlbi sakitləşsin, ürəyindəə arxayınlıq hasil olsun; heyrət tozu, şəkk-sübhə onun könül aynasından və xatirə güzgüsündən silinib getsin. Bütün bu məsələləri, belə kamillikləri "nəzəri-hikmət" tədqiq edib öyrənir".

Filosofun fikrincə əməli-qüvvət kamilliyi ona deyirlər ki, insan öz imkan və fəaliyyətini nizama salıb elə uyğunlaşdırsın ki, onlar bir-birinə mane olmayan, əksinə bir-birini tamamlasınlar; belə halda əxlaq münasib, xoşagələn şəkildə tərbiyələnər. Bundan sonra kamilliyin o biri dərəcələri: evqurma, şəhərsalma işlərinin növbəsi çatar. İradə, inam, imkan və əhvallar düzgün fəaliyyətə ahəngdar bir silsilə əmələ gətirə bilsələr, onların hamısına arzu etdikləri bir xoşbəxtlik nəsib olar.

Belə ki, elmi kamillik və əməli kamillik üsulunun tədqiqi və məqsədi insanın əxlaqi kamilliyin xüsusiyyətlərinin inkişafına aparır.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan fəlsəfi düşüncəsində A.A.Bakıxanovun da özünün "Nəsihətlər" traktatında fəlsəfi düşüncəsində onu əsas tutmuş və mötədililiyi bir meyar kimi qəbul etmişdir.

Tusinin və Bakıxanovun əxlaqi məsələlərdə görüşləri dini-mistik düşüncələrdən uzaq, sırf elmi xarakter daşıyır.

Şərq aləmində əxlaqi məsələlərdə həmişə şəriət qanunları əsas götürülmüşdür. Qurani-Kərimin tələbləri əsasında formalaşmış əxlaqi kodekstlər uzun əsrlər boyu Şərqdə hökm olmuş və hətta mötəsiblər onun icrasını ciddi şəkildə qorumuşlar.

Nəzəri hesab edilən ilk kamillik-xassə, əməli hesab edilən kamillik isə-maddə kimidir. Maddə xassəsiz, xassə maddəsiz yaşaya bilmədiyi kimi, elm də əməlsiz məhv olar, əməl isə elmsiz mümkün deyildir. Deməli, elm (bilik) başlanğıc, əməl son, elm

səbəb, əməl nəticədir. Hər ikisinin üzvü birləşməsindən ibarət olan kamillik insana aid olduğu üçün onu məqsəd adlandırırıq. "Kamillik" və məqsəd daxili mənaca bir-birinə çox yaxındır, onları yalnız müqayisə ilə fərqləndirmək olar. Nə qədər ki, qüvvədir, həyata keçməyibdir-məqsəddir, elə ki, fəaliyyətə çevrildi, yerinə yetirildi oldu kamillik. Məsələn, nə qədər ki, ev hələ tikilməyib, insanın təsəvvüründədir – "məqsəddir", elə ki, tikilib qurtardı, maddi şəklə düşdü –"kamilliyə" çevrildi.

## HACI MOLLA MƏHƏMMƏD NAXÇIVANİNİN "SƏHABƏD-DÜMU" ƏSƏRİNDƏ MÖVLUD HEKAYƏSİ

*Bu yarımbaşlıqda, AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun naxçıvanlı müəlliflərdən olan, Azərbaycan elminə məlum olmayan XIX əsr əlyazma mətnləri sırasında Naxçıvan elm və ictimai fikir nümayəndələrindən biri Hacı Molla Məhəmməd Naxçıvaninin "Səhabəd-Dümu" əsərində mövlud hekayəsi qısa da olsa müəyyən qədər izah edilmişdir. Əsərdə əsasən baş qəhrəman İmam Hüseyn aleyhis-salamın mübarək təvəllüdü, dünyaya gəlmə hadisələrinin fəlsəfi mahiyyəti, onun həyat fəaliyyəti ilə bağlı baş verən proseslər və ən nəhayət İslam tarixində analoqu olmayan Kərbəla vaqiəsinin baş vermə hallarının nişanələri, son nəticədə isə şəhadətə yetirilib müqəddəs şəhidlik dərəcəsinə yüksəlməsi əsas qiqqəti cəlb etmişdir.*

*Həmçinin əsərdə insanlığa, insan amilinə, ağıllı zəka sahibinə zidd olan mənfi xüsusiyyətlərdən olan digər qarşı tərəf də haqlı olaraq təqsirli bilinmiş, bu ədalətsiz, qeyri-insani hərəkətlərin və məkirli prinsipin İslam dininə ləkə gətirə bilən sonsuzluğu bir daha ciddi tənqid edilmişdir. Yezid kimi bir məlunun qeyri-insani hərəkətləri, davranışı, dinə qarşı mənfur siyasəti, Peyğəmbər əhli-beytinə hörmət bəsləmək əvəzinə ona qarşı göstərdiyi haqsızlıqlar çox kəskin süratdə tənqid atəşinə tutulmuşdur.*

*Məqalədə göstərilən nadir əlyazma əsasən dünya mətnşünaslıq elmi üçün əhəmiyyətli olmaqla yanaşı, ədəbi düşüncə məfkurəsinin ən qiymətli qaynağı sayıla bilər.*

Azərbaycan Xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin 2002-ci ilin mart ayında "Bibiheybət" ziyarətgahında Kərbəla hadisəsinin fəlsəfi məqamlarına toxunaraq demişdir: "***...Biz bundan sonra da Qurani-Şərifin, Həzrəti Məhəmməd (s) peyğəmbərin qoyduğu yol ilə gedəcək və haqq, ədalət Vətən yolunda şəhid olmuş Həzrəti İmam Hüseynin (ə) və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq.***

***Biz qətlə yetirilmiş İmam Hüseyn (ə) və onun silahdaşlarının xatirəsi önündə baş əyirik. Əmin olduğumu bildirirəm ki, xalqımız öz milli ənənələrinə, adətlərinə, dininə, məsləkinə həmişə sadiq qalacaqdır. Allah bu ağır günlərdə xalqımıza səbr versin. Allah doğma Azərbaycanımızı xoşbəxt etsin".***

Azərbaycan elmi-dünyagörüşündə özünə məxsus yeri olan XIX əsr nümayəndələrinin bir hissəsi demək olar Naxçıvan yetirmələrinin payına düşür. Elm, təfəkkür sahibi olan bu ədiblər dünya elmi ilə yanaşı İlahi elmləri də öyrənir və mənimsəyirdilər. Dini-fəlsəfi elmləri öyrənməklə öz yaradıcılığında tədbiq edən Hacı Molla Məhəmməd Naxçıvani "Səhabəd-Dümu" əsərini yazmaqla arada olan dini-boşluq çatışmamazlıqların bir növ qarşısın almışdır. "Səhabəd-Dümu" əsəri adından da göründüyü kimi "Göz yaşları buludu" mənasın verməklə çox dərin məna çalarların özündə daşıyan qiymətli bir tarixi, fəlsəfi həmçinin də dini baxımdan ən qiymətli kitabdır. Azərbaycan xalqının ümummilli lideri ölməz xatirəsi həmişə yad olunan Heydər Əliyev 1998-ci il dekabrın 9-da Bakıda "İslam siviliziyası Qafqazda" mövzusunda ilk Beynəlxalq simpozium keçirildiyi zaman öz füsunkar çıxışında dilimizi, dinimizi, milli-mənəvi dəyərlərimizi, əxlaqi, tarixi və mədəniyyətimizi yüksək qiymətləndirərək demişdir: ***"...Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra tarixi nöqteyi-nəzərdən qısa bir zamanda dinin, o cümlədən islam dininin nə qədər dərin kökləri olduğunu daha da çox dərk edə bilmişik"*** (5, s. 37).

Həmçinin müqəddəs İslam dininin bütün bəşəriyyətə bəxş etdiyi nemətlərdən danışarkən ilk olaq ulu öndər Heydər Əliyev demişdi: ***"İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən hər bir azərbaycanlı səmərəli istifadə etməli və xüsusən, cəmiyyətdə davranışda islam dininin tələblərinə uyğun olaraq özünü göstərməlidir"*** (45, s. 12).

Təbii ki, qədim Naxçıvan əlyazmalarının əksəriyyəti dini-əxlaqi, milli-mənəvi dəyərlərlə sıx bağlıdır. Bu da ondan irəli gəlir ki, Naxçıvan İslam dünyasının ayrılmaz tərkib hissəsidir. Bu

baxımdan əlyazma mətnlərinin əksəriyyəti müsəlman təhsili görmüş böyük mütəfəkkirlərin yaratdığı elm aləmi bu gün doğma Naxçıvanımızın keçmişini və gələcəyini yüksək səviyyədə təmsil edir. Onların isə tədqiq edilib öyrənilməsi günün ən aktual məsələlərindən biridir. Çünki bunu bizdən müstəqil Azərbaycanımız və onun ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımız tələb edir. Hər bir insanın özünə məxsus dini baxışları var ki, o insanı yaşadır, ruhlandırır və gələcəyə inamı artırır. Elə bu zəmindən də tədqiq etdiyimiz bu qiymətli əsər tarixiliyi özündə əks etdirməklə bir növ dini-əxlaqi dəyərlərin mənimsənilməsi üçün nə qədər zəruri olduğunu bəyan edir. Azərbaycanın əbədi sönməz çırağı olan, dünyada insan yaşayışının ikinci məskəni sayılan qədim Naxçıvan diyarı özünün dahi şəxsiyyətləri ilə öyünməyə mənəvi haqqı var. Çünki bu bir həqiqətdir ki, Azərbaycanı dünya səviyyəsində, xüsusən Şərq aləmində tanıdan naxçıvanlı böyük şəxsiyyətlər heç zaman tarix səhnəsindən silinmir və həmişəyaşar yaddaşlarda əbədi olaraq yaşayırlar. Bunlar ilə xalqımız həmişə qürur hissi keçirmiş və fəxr etmişdir. Qədim Nuh diyarı deyilən müqəddəs Naxçıvan torpağının yetirdikləri ziyalıların əksəriyyəti XX əsrə qədər "Naxçıvani" (Naxçıvanlı) təxəllüsü ilə adlarını dahiləşdirmişlər. Əcəmi Əbu Bəkr oğlu Naxçıvani (12 əsrin 20-ci illəri-12 əsrin sonu), Fəxrəddin Əbu Abdulla Əhməd ibn Ərəbşah ibn Əli ibn Cəbrail ən-Naxçıvani (?-?) həkim, təbib, Əkmələddin ən-Naxçıvani (XII əsr) həkim, Hinduşah ibn Səncər Naxçıvani (1245-1328), Məhəmməd ibn Hinduşah Naxçıvani (1293-1376), Hüsaməddin Naxçıvani (13-14 əsrlər), Nəcməddin ibn Əhməd Naxçıvani (?-1253), Abdulla Naxçıvani (?-?) filosof və ilahiyyatçı olmuş (təxminən 15 əsr), Əliqulu Mirzayi Naxçıvani (?-?) filosof (XIX əsr), Məhəmmədəli Naxçıvani (1848-1914) kimi böyük müctehid, filosof və mütəfəkkirlər bu qəbildəndir ki, sadalandıqca yazılan tarixin dərin səhifələrindən daha çox üzə çıxır. O cümlədən haqqında danışılacaq böyük elm sahibi olmuş, "Səhabəd-Dümu" əsərinin müəllifi mütəfəkkir-alim Hacı Molla Məhəmməd Naxçıvanidir.

Onun həmişə yaşar əsərlərindən biri olan "Səhabəd-Dümu" özünün füsünkarlığı ilə başqa əsərlərindən geniş mənada seçilir. Müəllifin yazdığına görə əsər beş babdan ibarətdir. Birinci babda sonuncu Xatəmil-Ənbiya peyğəmbərin rehlətindən, yəni dünyadan köçməsindən bəhs edilir. İkinci babda Həzrəti Əlinin şəhadətindən geniş danışılır. Üçüncü babda həzrəti peyğəmbərin sevimli qızı cənabi Fatimeyi-Zəhranın keçirdiyi məşəqqətli həyatı zikr olunur. Dördüncü babda imam Həsən əl-Müctəbanın həyatı və necə şəhadətə çatması haqqında ətraflı danışılır. Beşinci babda isə imam Hüseyn əleyhis-salamın dünyaya gəlmə kəraməti, həyatı və müqəddəs Kərbəla torpağında başına gələn müsibət, həmçinin onun əhli-beyti ilə birlikdə və sair insanların orada qəhrəmancasına şəhid olmaları, müqəddəs islam dininin saflığı uğrunda öz əziz canlarını Allah yolunda qurban verməkləri haqqında geniş və ətraflı şəkildə obyektiv məlumat verilir. Həmçinin müəllif peyğəmbər əleyhis-salamın müqəddəs kalamın əsas tutaraq "İnnəl Hüseyni misbahul hüda və səfinətən-nəcat"- "Hüseyn işıqlı bir çıraqdır və nicat gəmisidir" anlamına daha da geniş prizmadan yanaşaraq imam Hüseynin bəzi Məkkə və Mədinə hadisələri, öz doğma vətənlərini tərk edərək xaric olmaları haqqında deyilən ərəb sözlərini tərcümə edərək Azərbaycan dilində vermişdir.

Əlyazmanın əvvəlində hadisə haqqında və xüsusən baş verən müsibət barədə bir neçə hədis və rəvayətlər verilmişdir ki, bunlardan bir neçəsi də həzrəti Məhəmməd peyğəmbərin (s) buyurduğudur. Rəsulullah (s) buyurub:

"Qiyamət günü olar ziynət verərlər Pərvərdigari-Aləmin ərşinə cəmi zinətlər ilə. Sonra iki minbər gətirərlər nurdan ki, tuliləri (uzunluğu) yüz mil olar, sonra o minbərlərin birini qoyarlar ərşin sağ tərəfinə birisini sol tərəfindən. Bəs Həsən və Hüseyn əleyhuməs-sәlamları gətirərlər birində imam Həsən durar və birində imam Hüseyn. Zinət verər Pərvərdigari-Aləm onlar ilə öz ərşinə belə ki, zinətləndirir qadını onun quşvarələri (sırqaları)" (37, s. 4).

İkinci hədisi mərhum Fazil Dərbəndinin "Əsrar əş-Şəhadə" kitabından nəql edərək Rəsulullah (s) buyurub:

"Vaxtı ki, Rəsuli-Xuda (s) qızı Fatiməyə oğlu Hüseynin şəhadət xəbərini verdi, o müsibətlər ki, varid olacaydı məlum eylədi. Həzrəti Fatimə çox şiddətilən ağladı və ərz etdi ya Əbəta bu zülmülər nə vaxt və nə zaman olacaq? Rəsulullah (s) buyurdu; bir vaxt olar ki, nə mən olaram və nə sən olarsan, nə atası Əli və nə qardaşı Həsən. Sonra Xatun-qiyaməteyn ağlamağı şiddət eylədi. Ərz etdi ya Əbəta (ata) bəs kimlər mənim Hüseynimə ağlar və kimlər əzadar olarlar? Buyurdu, həqiqətən mənim ümmətimin övrətləri (qadınları) ağlar mənim əhli-beytimin övrətlərinə və kişiləri, kişilərinə və ilbəil təcdid (yeniləmə) əza edərlər. Bəs elə ki, qiyamət günü olur sən övrətlərə şəfaət edərsən və mən kişilərə, hər kəs ümmətimdən Hüseyn müsibətində ağlaya tutarıq əlindən behiştə daxil edərik. Ey Fatimə cəmi gözlər ağlar qiyamətdə məgər Hüseyn müsibətində ağlayan göz ağlamaz. Bəs həqiqətən elə həmin onlar xəndan (şad) və şadan (məmnun) olur və müjdələnir behişt nemətləri ilə"(37, s. 8).

Əsərin əsas baş qəhrəmanı demək olar ki, imam Hüseyn (ə) və onun başına cəm olan səmimi mömin insanlardı. Müəllif kitaba müəyyən din alimlərinin hər zaman qəbul edilən rəvayətlərini əlavə etməklə əsəri daha da zənginləşdirmişdir. Əsərdə mərhum Fazil Dərbəndinin "Əsrar əş-Şəhadə" kitabında rəvayət edilən, o da Şeyx Tərihinin "Müntəxəb" kitabından, o da İbn Abbasdan rəvayət edərək imam Hüseyn əleyhis-salamın təvəllüd gününü belə nəql etmişlər.

"Vaxtı ki, Əqdəsi-Sübhani cəlle-cəlalə əzəmətəhu iradə eylədi ki, imam Hüseyn əleyhis-salam Fatimeyi-Zəhra salamullahi əleyhadan mütəvəllid olsun. O, mövlud səidin (səadətini) viladət "Kəsiru əs-Səadətini" (çox səadətli mövludunu) şəban ayının üçüncü gecəsində vaqiə oldu. Eyləki Fatimeyi-Zəhra salamullahi əleyhada dərde-məxaz (doğum sancısı) zahir oldu Xudavənd-Aləm behiştdə Ləya adlı bir huriyyə (mələy adı) xəlq etmişdi ona bir hüsnü-cahət (gözəl yer) kəramət etmişdi ki, behişt əhli hər vaxt ki, arzu edələr bir göyçək zada baxalar Ləyanın camalına baxıb

xoşhal olarlar. BuLəyanın yetmiş min kənizi, yetmiş min qəsri, yetmiş min məqsurəsi, yetmiş min ğurfəsi (otağı) ki, ənvae mərcan və cəvahirat ilə bəzədiliblər Ləyanın qəsri behiştdə cəmi qəsirlərdən ucadır. Hər vaxt Ləya öz qəsrindən başın çıxardıb behiştə tamaşa edəndə behiştin cəmi yerlərin görür və onun camalının nuru ilə behişt münəvvər olardı. Eylə ki, Seyyid əş-Şühəda beşinci ali əbanın təvəllüd gecəsi oldu Xudavəndi-Aləm həmin Ləyayə vəhyi eylədi ki, nazil ol yerə mənim Həbibimin qızı Fatimeyi-Zəhraya munis ol təvəllüd halətində onun oğlu Hüseynə qabiləlik (mamalıq) elə və əmr-təvəllüdünə mübaşir (tapşırığı yerinə yetirən) ol. Ondan sonra vəhyi olundu Malik cəhənnəmin xazeyninə ki, o mövlud mübarəkin xatirinə cəhənnəmin odlarını xamuş eylə və vəhyi olundu behiştin xazine-rizvaninə ki, behiştə ziynət verginən bir mövludun kəramətindən ötrü ki, bu gecə mütəvəllid olacaq. Vəhyi olundu göylərin məlaikələrinə ki, səf-səf nizamla durub təsbih və təhlil edin. Sonra Cəbrayıl, Mikayıl, İsrafil üçün vəhyi olundu ki, min "qəbil" ya qəndil (çılçıraqlı, nurlu, işıq saçan) məlaikə götürüb nazil olun yerə bu mövlud mübarəkin mübarəkbadlığın Həbibimə eyləyin"(37, s. 478).

İbn Abbas öz rəvayətində bu haqda əsaslı dəlillərə əsaslanaraq bir "qəbil" dörd yüz min məlaikədən ibarətdir söyləyir.

"Sonra Cəbrail, Mikail, İsrafil o qədər məlaikələr ilə yerə tərəf nazil olub xülaseyi-kalam imam Hüseyn əleyhis-salamın Qabiləsi Ləyana qədər huriyyə ilə nazil olub xatun qiyamət Fatimə-Zəhra səlamullahi əleyha xidmətinə şərəfyab olub (şərəflənən) bəəd əz salam (salamdan sonra) ərz eylədi. "Mərhəbən bik, ya binti Rəsulillah keyfəl halik" yəni; Salam olsun sənə ey Allahın Rəsulunun qızı əhvalın necədir. Xanım buyurdu: Əlhəmdulillah yaxşıyam. Sonra Fatimə-Zəhra (ə) Ləyanın cəlalət və şanını mülahizə edib xəcalət çəkirdi. Çünki o, banu xəcileyi izzətin evində zahirən bir laiq fərş yoxuydu ki, Ləyanın altına salsın. Sonra Xudavəndi-Aləm o, Xatun-müəzzəmənin xəcalətinə razı olmuyub huriyyələrin birinə hökm eylədi; Ta Behişt fərşlərindən birin götürüb sürətilən yerə nazil

olub Ləyanın altına saldı. Ondan sonra o həbibe-yi nəcibəyə dərde-məxaz (doğum sancısı) ariz olub Ləya nəhayət əza-kəramilən onun viladət əməlinə mübaşirət və qabiləlik (mamaçılıq) edib tainki o, mövlud məsud-tahir və mütəhhər, münəvvər anasından sübh vaxtında mütəvəllid oldu"(37, s. 478).

O sübhdə mütəvəllid olundu bir mövlud,
Vücudu aləmi imkanə saldı nuri vücud.

"Qəd kutibə fi əzuduhil eyməni "və fədeynə bi zibhin əzimin" və fi əzudihil eysəri "qul la əs-əlükum ələyhi əcrən illəl-müvəddətə fil-qurba ". Yəni, qələm qüdrətilən sağ bazusuna (qolun çiyindən dirsəyə qədər hissəsi) bu ayə yazılıb. "Biz qurban eylədik onu böyük zibh olmaqilən" və sol bazunda bu ayə yazılıb: "De ey mənim Həbibim öz ümmətivə ki, mən təbliğ risalətimin əvəzində sizlərdən bunu istəyirəm ki, mənim övladıma və qurbalarıma (yaxınlarıma, qohumlarıma, övladlarıma) dostluq və məhəbbət edəsiniz"(37, s. 478).

Bir rəvayət "xülasətul-əxyar" kitabında sənədi mötəbər ilə imam Sadiq əleyhis-salamdandır ki, o, buyurur:

" Vaxtı ki, imam Hüseyn əleyhis-salam anadan mütəvəllid oldu Xudavənd-Aləm bir məlaikəyə əmr etdi ki, nazil olub bu ayeyi-şərifəni o, mövlud mübarəkin iki şəhla gözlərinin arasına yazsın. "Və təmmət kəlimətu rəbbikə sidqən və ədlən la mübəddiləl-kəlimatuhu və huvəs-səmiul-əlim". Yəni; "Tamam oldu sənin Allahının kəlmələri heysiyyate-sidq və ədalətdən ki, bir kimsə yoxdu Allahı təğyir və təbdil edə bilə və O, Allah ki, eşidən və biləndir". Sonra Ləya o mövlud mübarəki ədəb-təmamilən qucağına alıb və nafe-şərifin (şərafətli göbəyin) kəsib behişt məndillərinə (parçalarına) büküb gözlərindən öpüb və ağzının lüğabından onun mübarək damağını açıb bir dolu göz ilə mübarək camalına baxıb dedi: Ağa Allah bu viladəti sənə mübarək edib səni də anan Fatimeyi-Zəhraya (ə) mübarək etsin. Sonra cəmi nazil olan məlaikələr Cəbrail əleyhis-salama mübarəkbadlıq verərək ağan Hüseynin viladəti səbəbinə gözlərin rövşən (işıqlı) və əmr-dayəlik mübarək olsun və Cəbraildə (ə) Rəsulu-Xuda (s) xidmətinə müşərrəf olub mübarəkbadlıq verdi. Ondan sonra yeddi

gecə-günüz bu qərar ilə Cəbrail və mələikələr fövc-fövc (dəstə-dəstə) nazil olub Xatəmi-Ənbiyaya (s) imam Hüseyn əleyhis-salamın təvəllüdü səbəbinə mübarəkbadlıq verirdilər. Elə ki, yeddinci gün oldu Cəbrail ərz etdi:

Ya Rəsuləllah! Oğlunun qundaq-şərifini gətirin ziyarət edək.

Sonra Rəsulu-Xuda imam Hüseynin qundaqini ki, bir sarı şal parçaya büləmişdi gətirdi Cəbrailə. Cəbrail qundaqi aldı qucağına mübarək üzün açdı iki şəhla gözlərindən öpüb öz ağzının lüğabından onun ağzına yetirdi və dedi:

"Barəkəllah fikə min mövlud və barəkəllah fi validətikə ya səriə Kərbəla və nəzərə iləl-Hüseyn və bəki və bəkin-Nəbiyyi və yəktul-məlaikəti". Yəni; "Ya Hüseyn Allah bu viladəti sənə və anava mübarək etsin ey Kərbəla şəhidi ağa". Ondan sonra heyran-heyran ağanın üzünə baxıb ağladı. Cəbrail ağlayanda peyğəmbər də ağladı və cəmi orda olan məlaikələr də ağladılar. Sonra Cəbrail Rəsuli-Xudaya ərz etdi ya Rəsuləllah mənim salamımı qızın Fatiməyə yetir və ona xəbər ver ki, Allah-Təala özü bu mövluda Hüseyn adı qoyub, oda Hüseyn adı qoysun. Həzrət Rəsuli-Xuda səlləlahu əleyhi və alehi və səlləm buyurdu:

Ya Cəbrail bir tərəfdən mənə mübarəkbadlıq edirsən və bir tərəfdən ağlayırsan.

Cəbrail ərz etdi:

Bəli ya Rəsuləllah Xudavəndİ-Aləm sənə bu mövludun şəhadətində əcr və səbr əta etsin.

Allahın Həbibi buyurdu:

Ya Cəbrail mənim balamı kim şəhid edəcək.

Cəbrail cavab verdi:

Sənin ümmətinin şərir-raqı (günahkarları).

Sonra Rəsuli-Xuda daxil oldu evə Allahın salamını və Cəbrailin ərz etdiyini təmamən o xatun-müəzzəməyə xəbər verdi. Xatunu-qiyamət ərz etdi salam mənim Allahımdandır və Cəbrailə olsun mənim salamım. Sonra o xatunu-mükərrəməyə mübarəkbadlıq edib ağladı.

Xatunu-qiyamət ərz etdi:

Ya Əbəta (ey Ata) bu halda nə ağlamaqdır?

Buyurdu:

Qızım bu mövludun şəhadətində Allah sənə əcr-səbr versin.

Xanım elə ki, şəhadət xəbəri eşitcək bir şəhiqə (fəryad etmək) vurub bina etdi ağlamağa. Ləya kənizlər ilə belə ağlayıb, ağlamaq ilə o xatuna kömək edirdilər. Sonra Fatimə-Zəhra salamullahu-əleyha ərz etdi:

Ata kaş mən bu uşağı doğmayaydım, kim öldürəcək mənim balamı, gözümün işığını və qəlbimin meyvəsini?

Buyurdu:

Mənim ümmətimin şəriri (şər bəndələri).

Ərz etdi harada?

Buyurdu:

Kərbəlada - və nə qədər kömək istəyəcək bir nəfər ona kömək etməyib, köməksiz qalacaq. Allahın lənəti və məlaikələrin lənəti o kəslərə olsun ki, ona kömək etməzlər.

Sonra buyurdu:

Qızım bu şəhadət səbəbinə Hüseynin sülbündən (nəslindən) doqquz imam əmələ gələcək və doqquzuncusu axırəz-zamanda (dünyanın sonunda) zühur edər və Məryəmin oğlu həzrəti İsa (ə) ona iqtida edəcək ki, onlardı Allahın nurani çıraqları və İslamın tutacaqları. Onların dostları behiştə daxil olarlar və düşmənləri cəhənnəmə"(37, s. 479).

Həqiqətən bu sözlər zaman keçdikcə öz yerini tapır və nə qədər fəlsəfi düşüncələrə malik olan fikirlər reallaşır.

"Elə ki, xanım Rəsuli-Xudanın bu təsəlliamiz (təsəlliverici) sözləri eşitdi ağlamaqdan sakit oldu"(37, s. 479).

"Ondan sonra Cəbrail məlaikələr ilə belə göyə üruc (göyə qalxma) etdilər. Elə ki, dördüncü göyə yetişdilər, dördüncü göydə bir məlaikə var idi Səlsail adlı ki, yetmiş min qanadı var idi. Bu Səlsail bir gün xəyal etdi ki, aya Xudavəndi-Aləm gecə və günüzdə seyr edən məxluqatı və dəryalarda olan məxluqatı bilir ya bilməz? Xudavəndi-Aləm onun xəyalın bilib vəhy etdi ki, ey Səlsail dur öz yerində rüku və sücud eylə mənə bu sənin əzabındı

o xəyal səbəbinə ki, etdin. Bəs o vaxtdan bu Səlsail müəzzibiydi (əzab verilmiş). Elə ki, Cəbrail və o qədər məlaikələrin nüzul və ürucunu (yenib-qalxmasını) gördü dedi:

Ya Cəbrail aya qiyamət qiyam edib ki, bu qədər nüzul və üruc edirsiniz. Cəbrail dedi:

Yox, lakin Xudavəndi-Aləm öz Rəsulunun qızı Fatimeyi-Zəhrayə bir Hüseyn adlı oğul kəramət edib və bizə əmr edib ki, nazil olub peyğəmbərə və qızı Fatiməyə mübarəkbadlıq verək.

Səlsail dedi:

Bəs bu mövludun rütbə və şanı Allah yanında çox böyük və əzizdir. Ey Cəbrail nazil ol yerə və Rəsulu-Xudaya mənim əhvalımı ərz eylə ki, o mövludun xatirinə mənim şəfaətimi Allah dərgahına etsin ki, o sahibi-şəfaətdir.

Sonra Cəbrail (ə) nazil olub Səlsailin ərzhalını Rəsulu-Xudaya ərz etdi.

Rəsulu-Xuda buyurdu:

Balam Hüseynin qundaqin gətirin. Sonra Hüseyn ağanın qundaqi-şərifini gətirdilər. "Qalə Allahummə bihəqqi mövludi haza əleykə illa rəziytu ən Səlsail". Yəni; İmam Hüseynin balaca qundaqini iki əlləri üstə göy tərəfinə ucaldıb ərz etdi: "İlahi bu mövludun Sənin yanında şan və rütbəsi xatirinə Səlsaildən razı ol və onu əvvəlki məqamına yetir və təqsirin əfv buyur"(37, s. 479).

Xuda, gəlib bu Hüseyn aləmə şəhadət üçün,
Qəbul edibdi şəhid olmağı şəfaət üçün.
O vaxtı hörmətinə Kərbəlada qan içəcək,
Əliyyi Əkbərinin qəddinə kəfən biçəcək.
Düşüb Dəxil Hüseynə bu gündə Səlsail,
Hüseyn xatirinə Sən bağışla qoyma zəlil.
Bu tiflin izzətini bildir əhli afaqə,
Ki, Sən nişan veribsən bu tazə qundaqə.

"Fəiza ən-nidau min qibəli əl-ərşi, ya Muhəmməd (s) qəd fəəltə və qəddərəkə və qəddərə məvludəkə kəbirun əzim"(37, s. 480). Yəni; həmən halda ərş tərəfindən xitab olundu, "ya Məhəmməd (s) sənin bu mövluduvu mənim dərgahıma Səlsailin

nicatından ötrü şəfi gətirməgivi qəbul etdim ki, sənin qədrin və mövluduvun şanı mənim yanımda əzim və böyükdür"(37, s. 480).

İbn Abbas deyir: "And olsun O Allaha ki, cənabi Məhəmmədi (s) həqqilə nübuvətə məbus edib ki, Səlsail məlaikələrə fəxr edir bununan ki, o Hüseyn azadkərdə seyyidi və Ləyadə Hurəl-eynlərə fəxr edir ki, o Hüseyn əleyhis-salamın qabiləsiydi.

"Sonra o cənabın qundaqini götürüb anası xatunu-qiyamətə təslim etdilər. O tifli mübarək qah-qah şiddətilə ağlayardı"(37, s. 480).

Görəndə Fatiməni çox-çox ucaldır əfqanın,
Salardı ağzına rəhmət əliylə püstanın.
Südə baxanda dəxi artırdı naləsi,
Edərdi əşkiylə şərar göz piyaləsini.
Düşərdi xatirinə artırardı nalə səsini şiri-xar,
Əli Əsğər süd yerinə içər qan o tifli təşnə cigər.

"Bir gün Rəsuli-Xuda Hüseyn ağanın qundaqı-şərifini qucağına alıb öpürdü, artıq mərhəmət və nəvaziş edirdi. Cənabi Fatimeyi-Zəhra mütəvəccə oldu ki, görsün atası Hüseynin harasından artıq öpür. Gördü nə gül üzündən nə çeşmi nazindən (nazlı gözündən) ki, qovzayır çiyninə sinəsini öpür, boğazından öpür. Görüb Rəsuli-Xudanı o qədər ağladı ki, göz yaşı ilə Hüseynin boğazın islatdı. Rəsuli-Xuda gördü imam Hüseyn atası Əmirəl Mömininə tərəf niyaran-niyaran baxır. Buyurdu ya Əli al Hüseynin qundaqini ki, sənə gəlmək meyli görünür"(37, s. 481).

Tutub sənə üzünü oğlun iştiyaqından, (çox istəməyindən)
Mən öpmüşəm boğazın səndə öp dodağından.
Susuzların sənə çox ehtiyacları vardı,
Sən öp dodağını çun hovz kovsərin vardı.

"Sonra cənab Əmir alıb qucağına onun mübarək dodağından öpdü və ondan sonra verdi anasına.

Rəsuli-Xuda sanki buyurdu:
Qızım ya Fatimə!
Gözündən öp ki, o gözlərdən əşk-ali axacaq,
Sağ soluna öləndə ana deyib baxacaq.

Gözündən öp ki, bu gözlərtək ağlayan olmaz,
Verəndə can gözünü kimsə bağlayan olmaz.

Sonra Fizzə ərz etdi, xanım ağamın qundaqini bir iltifat et mənə bir qucağıma alım. Sanki o qundaqi aldı qucağına dedi:

Mən öpmərəm nə üzündən nə gül dodağından,
Kəniziyəm öpərəm mən iki ayaqından.
Ki, qətligahda əshabə çox köməklik edər,
Verəndə can bu niyyət ilə başı üstə gedər.

Ondan sonra Cəbrail ağanın qundaqini alıb qucağına 0 şəhla gözlərinə bir həsrətilə baxıb sanki o dedi:

Bu göz tək heç göz əşkilə dolmaz,
Ki, göz yaşı bu gözdən əskik olmaz.
Çəkir əhli qəbalim ah Dilsuz,
Rəvadır can verəm meydanda yalquz.
Dayan bir ləhzə qəm dəryası daşsın,
Səkinəm sinəm üstə başın açsın.
O qədri vergilən ey şimri möhlət,
Yaralı Zeynəbə eyləyim vəsiyyət.
Səkinə nazını çəksin ölüncə,
Xərabə Şamidə qəbrə qoyunca"(37, s. 481).

Əsərin demək olar ki, əsas prinsipi islam fəlsəfi düşüncəsi mövqeyində təşəkkül tapmış, səbr, dözüm, təmkinlik, igidlik, qəhrəmanlıq, bütün dünyəvi çətinliklərə, əzab-əziyyətlərə üstün gəlmək və dinin saf amalları uğrunda mübarizə bir daha özünü açıq aydın büruzə vermişdır. Hər il İmamilər tərəfindən yad olunan böyük Kərbəla hadisəsi o insanlarda İslam dininin nə qədər mənəvi saflıq prinsipləri üzərində bərqərar olduğunu bir daha düşünərək dərk etdirir. Fəlsəfi təhlillərə görə mənəvi saflıq rəmzi olan islam dini öz göstərici fəaliyyəti baxımından hər bir müsəlman bu dini göz bəbəyi kimi qoruyaraq yaşatmalıdır. Bu baxımdan da hicrətin 61-ci ilində daxili düşmənlər tərəfindən mənəvi saflıq prinsipini özündə yaşadan İslam fəlsəfi düşüncəsinə böyük mənfi zərbə vurula bilən bir vaxtda imam Hüseyn (ə) Kərbəla hadisəsində öz şücaətin cahad etməklə zülmə qarşı igidlik göstərdi və buna son qoyaraq öz şəhadəti ilə də insanların

kamilləşmə ideyasına bir daha köməklik etdi. Onun yüksək tərbiyə görmüş uşaqları, oğlan və qızları, qardaş və bacıları, qohum-əqrəbaları, sadiq səhabələri bu işdə daha da ona can-başla yardım etmiş və bunu, bu fəlsəfi düşüncəyə sadiq qaldıqlarını bir daha dünyaya nümayiş etdirmişlər. İmam Hüseyn (ə) özü də yüksək tərbiyə görmüş bir kamil insan dərəcəsinə çatmışdır. Həmişə doğru, saflıq, düzgünlük prinsipi uğrunda mübarizə aparan böyük bir şəxsiyyət olmuşdur. Onu buna tövsiyə edən atası və babası peyğəmbər olmuşdur. Çünki Şərqdə məşhur olan "Oğluma nəsihət" həzrəti Əlinin (ə) öz oğlu imam Hüseynə etdiyi nəsihətlərdə də göstərilir.

Öz dünyəvi işlərində sən axıracan,
Hər şeydə Allah tərəfində olacaqsan.
Həm sevinc nəşində, həm ixtilaflar olanda sakın,
Doğru danış, düzgünlük olsun dayağın (44, s. 35).

Həqiqətən milli mentalitetimizə uyğun olan doğru və düzgünlük prinsipi həmişə xalqımız tərəfindən bir mənalı qarşılanmışdır. Milli mentalitetimizin formalaşmasında xalqımızın tarixən mövcud olmuş ən zəngin ənənələrinə İslam dininin təsiri mühüm əhəmiyyət kəsb etmişdir. Milli mənlik şüurunun əxlaqi potensialının tənzimlənməsində, mentalitetimizə təsirində bir tarixi amil kimi İslam dininin ideoloji rolu danılmazdır. Bu prosesdə, hər halda, dinin yeni dəyərlərilə zənginləşmə və saflaşma getmişdir. Ulu Öndərimiz "Müstəqilliyimiz əbədidir" konsepsiyasının strukturunda tarixi ətalət və onun aradan qaldırılması problemləri özünəlayiq yer tutur. Xalqının tarixini dərindən bilən, onun ənənələrinə ehtiramla yanaşan və həmvətənlərinə daim "tariximizi, tarixi ənənələrimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə qura bilmərik" həqiqətini aşılayan Ümummilli Liderimizin əsərlərinin ruhuna nüfuz etdikcə bir daha aydın olur ki, tarixi ənənəyə, milli-mənəvi dəyərlərə xor baxmaq prinsipi ilə tarixi təcrübənin tənqidi fenomeni eyni şey deyildir. "İslamın müqəddəs abidələrini, həzrəti Məhəmməd (s) peyğəmbərin məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm"

deyən Dahi Rəhbərimiz bu sözləri səmimi əqidə sahibinin dinimizə misilsiz ehtiramın təzahürü kimi, heç şübhəsiz ki, azərbaycanlıların mənlik şüurunun, dini-əxlaqi dəyərlərinin və milli mentalitetinin dərin qatlarında humanist keyfiyyətlərin köklənməsinə psixoloji imkan yaratmışdır. Ümumiyyətlə Ümummilli Liderimiz dünyada yaşayan bütün azərbaycanlılara üzün tutaraq demişdir: "Dünyada yaşayan azərbaycanlılar öz ana dilini, dinini, milli ənənələrini heç zaman unutmamalıdırlar. Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun böyük tarixə, qədim zəngin mədəniyyətə malik olan Azərbaycan kimi Vətəni vardır".

Müstəqil Azərbaycanda siyasi elitanın idealı maarifçi xarakter daşımışdır. XX əsrin əvvəllərində türk dünyasının görkəmli simaları Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Əfqani kimilər türkçülük, islamçılıq və müasirlik fikirləri ilə milli ideyanın formalaşmasına mühüm ideoloji-fəlsəfi töhfə vermişlər.

Bu gün "Zəngin Azərbaycan mədəniyyətinin reallığı və Heydər Əliyev fəlsəfəsinin qaynağı olan fəlsəfi irsimiz həmişə milli ruhun, onun mənəvi dəyər kimi saxlanmasının təbii mənbəyi olmuşdur" (9, s. 236).

Ürəkaçan və sevindirici fakt ondan ibarətdir ki, ümummilli liderimizin "Əzəmət və qüdrətinə, namus və qeyrətinə arxalandığım və güvəndiyim Azərbaycan övladları" müqəddəs kalamı bu gün milli təfəkkürümüzün, dini-əxlaqi dünyagörüşümüzün, milli-mənəvi dəyərlərimizin şərəf və ləyaqətimizin siyasi-mənəvi qaynağına çevrilmişdir.

Bu baxımdan da əsərin hər hansı bir epizoduna müraciət etsək, mütləq orda ibrətamiz bir hadisənin şahidi olarıq, istər dini-əxlaqi, istərsə də sosial-əxlaqi hərəkət və davranışların nə qədər yüksək zirvədə olduğu hiss olunur. Yüksək tərbiyəvi xarakterə malik olan əsər, ümumdünya sivilizasiyasına böyük bir örnəkdir. Hər bir sivil xalq öz milli-mənəvi dəyərlərin yüksək tutmaqla ucala bilir və inkişaf edir. Əsərdə böyüklərə hörmət, qayğı-sayğı və kiçiklərə izzət, şəfqət, mərhəmət bir daha öz incəliyini göstərməkdədir. Əsərin baş qəhrəmanı İmam Hüseyn əleyhis-salamın Kərbəlada ən böyük yaş həddində olan Həbib ibn Məzahir

(83 yaş) haqqında ibrətamiz kəlamı insanda qeyri-adi mərifət düşüncələrinin yaranmasına gətirib çıxara bilir. Çünki İslamda ağsaqqala və ağbirçəyə hörmət bəsləməyin nə qədər müqəddəs olduğunu bəyan edən İmam Hüseyn əleyhis-salam, sevimli Peyğəmbərimizə Cəbrayil vastəsilə vəhyi olunmuş sözü buyurur: ***“Ya Rəsuləllah cahad vaxtında əgər düşmən içində ağsaqqal olsa onlara hörmət edib qılınc çəkməyin”*** ibrətamiz və olduqca müasir cəmiyyətimiz üçün gərəkli olan kəlamdır.

On dörd əsr keçməsinə baxmayaraq bu milli ruhu bizdə yaradan və yaşadan insanlar həmişə düşünərək bu amal uğrunda ağıllı addım atmışlar. Milli mentalitetimizə uyğun məqamların əsərdə öz əksini tapması bir daha söz söyləməyə əsas verir ki, yüksək intellektuallığa malik olan, bilik və bacarıq sahibi Hacı Molla Məhəmməd Naxçıvani milli-mənəvi dəyərlərimizin, milli mədəniyyətimizin, dini-əxlaqi dəyərləin qorunub saxlanılmasında əvəssiz xidmətlər göstərmişdir.

Həqiqətən milli ənənələrimizə, adətlərimizə, müqəddəs dinimizə, tutduğumuz ali məqam məsləkinə həmişə sadiq qalmaqla Azərbaycan xalqı və onun ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvan diyarının əhalisi bu gün qürur hissi keçirir. İslam tarixində özünəməxsus silinməyən yaddaş saxlayan “Kərbəla” hadisəsini yüksək potensiallıqla qələmə alan həmyerlimiz, yüksək ustalıqla tarixi mənbələrə istinad edərək əsaslı dəlillərlə “Səhabəd-Dümu” əsərini yazaraq özünə və həmçinin daşıdığı “Naxçıvani” ləqəbinə dünyada böyük şöhrət qazandırmışdır.

## ƏLİQULU MİRZAYİ NAXÇIVANİNİN "ƏQAİDE FƏLSƏFƏ" ƏSƏRİNDƏ ASKETİZM TƏLİMİ

*Bu fəlsəfi əsərdə, XIX əsrin tanınmış görkəmli filosof-mütəfəkkiri Əliqulu Mirzayi Naxçıvaninin "Əqaide Fəlsəfə" əsərində Asketzm təliminin əsas xüsusiyyətləri, İslam etiqadının gözəl qanun-qaydaları, bu dinin ehkamlarını sevməkdə olan müsəlman zəhmətkeşlərin onun göstərici ibarələri ilə Allaha dua etmək, Ondan xoşbəxtlik və səadət diləmək, arzu və niyyətlərinin həyata keçməsi, İslam dininin müsəlman üçün vəd etdiyi səadətə qovuşmaq üsulları, verilən nemətlərdən imkan dairəsində az istifadə olunması və israfçılığa yol verilməməsi, hər bir insan öləndən sonra onun ruhunun yaşaması – cənnət və ya cəhənnəm əhli olması, ruhun ölməzliyinə əsas dəlillərin göstərilməsi, bədəndən ayrılan ruhun ölməzliyi haqq olaraq Asketizm təliminin müddəaları ilə əsaslandırılaraq tədqiq edilmişdir. Nəticədə, insanın axirət yaşayışı əsil məntiqi idraka söykənərək başa düşülmüşdür. Eyni zamanda Asketizmin əsas xüsusiyyəti olan ölümsüzlük barədə dini və fəlsəfi təlimlər olduqca çox ciddi şəkildə araşdırılmış, ruhun İlahi ilə qovuşması və ruh İlahi mənşəyə malikdir və o, konkret insanın doğulmasından əvvəl və ölümündən sonra İlahi - Aləmdə daim mövcud olmuşdur ideyası öz fenomeni ilə izah edilmişdir.*

*Əsər Naxçıvana dair əlyazmaların filoloji – tekstoloji tədqiqi (XIX əsrin axırı – XX əsrin əvvəlləri) üçün çox böyük əhəmiyyətə malikdir.*

XIX əsr Naxçıvan elm nümayəndələrindən biri də, öz yaradıcılıq qabiliyyəti ilə Şərq Aləmində nüfuz sahibi olan tanınmış filosof-mütəfəkkir Əliqulu Mirzayi Naxçıvani olmuşdur. Elə bu baxımdan da Naxçıvan əlyazmaları üçün böyük əhəmiyyət kəsb edən Əliqulu Mirzayi Naxçıvaninin "Əqaide-Fəlsəfə" əsəri fəlsəfi funksiyaları və təlimləri özündə cəmləşdirməklə yanaşı, Asketizm təliminin də əsas xüsusiyyətlərini geniş izah etmişdir. Bu baxımdan da dini-asketizm təlimi verilən dünya nemətlərindən imkan daxilində qənaətlə istifadə olunması və israfçılığa yol verilməməsi, ruhun ölməzliyi müddəasına əsaslanan "axirət"

dünyası ilə əlaqədardır. Bu təlimə görə, insan öləndən sonra onun ruhu ölməyərək əbədi yaşayır və adamların əməllərindən əməli-saleh yaxud bədəməl olmasından – asılı olaraq cənnətə və ya cəhənnəmə düşməsi prinsipi irəli sürülür. Həqiqətdə ruh Allah əmrinə tabe olan bir fenomendir, onun mahiyyətinin hansı xüsusiyyətə və hansı keyfiyyətə malik olması yalnız Yaradan qarşısında acizdir. ***"Səndən (hər bir canlının həyat mənbəyi olan) ruh (un həqiqəti və sifətləri) barəsində soruşurlar, de: «Ruh mənim Rəbbimin əmrindən (meydana gəlmiş)dir (və onun hər hansı bir canlıda qalması və yox olması da Onun əmri ilədir) və sizə elmdən (xüsusilə ruhun həqiqəti barəsində olan elmdən) yalnız az (bir miqdar) verilmişdir»"*** (16, s. 290).

Əsərdə dini-fəlsəfi inanc insanların qəlbində bir daha inandırmışdır ki, həqiqətən Ulu Tanrının axirətdə cənnəti də var, cəhənnəmi də və hər bəndəsini Allah-Təala istəsə cəhənnəmə də vasil edər, istəsə behiştə də daxil edər. O baxır sənin əməlinə. Əməli salehlər cənnətə və bədəməllər cəhənnəmə daxil olması mümkündür. Əlyazmada əsas fəlsəfi xüsusiyyətlər ondan ibarətdir ki, insan özü-özünü dərk edib tanıyandan sonra Rəbbini tanımış ola. Müəllif Şərq fəlsəfi fikrində məşhur olan ***"Mən ərrəfə nəfsəhu, fəqəd ərrəfə Rəbbəhu"*** (61, s. 50) müqəddəs kəlamı ilə qeyd etmişdir. Yəni; «Hər kəs ki, Allahı tanımaq istəyir lazımdı birinci özün tanısın, əgər özün tanısa Rbbini də tanıyar».

Müəllif nəfsin ibarət olduğu ruh və cism ilə əlaqədar olan fəlsəfi mülahizələrin geniş və hərtərəfli izah etməyə çalışmışdır. Ruhun bədəndə olan varlığının isbatını təsdiqləyən 10 dəlillə izah etmişdir. "Birincisi, ruh cismə hərəkət verir, ruhsuz cism hərəkətsiz mümkün deyil. Bu elm və əql baxımdan müxtəlif misallar üzərində sübut edilmişdir. İkincisi, ruhun vəhdətidir ki, bədəni hərəkətə gətirməklə yanaşı o, həm də onu tədbir etməkdədir. Üçüncüsü, ruhun qüdrətə malik olması və bunun sayəsində İlahi qüdrət ilə cəsədə hərəkət və tədbirin verilməsi durur. Dördüncü, ruhun bədəndə olan hər şeydən məlumatlı olmasıdır, necə ki, Yaradanın elmi bütün Aləmi əhatə edir. Beşincisi, ruh cəsədin bütün üzvlərində bərabərdir. Altıncısı,

ruhun cismə müqəddəm olması; yəni yaradılış baxımından ruh cismdən əvvəl yaradılmış və ona tam əhatəsi vardır. Yeddincisi, insan ruhun keyfiyyətinə və xüsusiyyətinə aid heç bir elmi dəlilin olmaması və onu dərk etməkdə aciz qalmasıdır. Səkkizinci, insanda ruhun harada və necə yerləşməsi haqqında heç bir məlumatın olmaması, ruhun zaman və məkan baxımından heç bir şəkildə tanına bilməməsidir. Doqquzuncusu, maddəni isbat etmək üçün bütün təcrübə üsulları (yəni; beş hissiyat üzvləri, lamisə üzvləri) ruhun tanınması üçün yetərli olmasıdır. Onuncusu, ruhun göz ilə görünə bilməsinin mümkün olmaması, necə ki, Allah Təalanın həqiqətini görmək və dərk etmək mümkün deyildir" (61, s. 51-52).

Həmçinin müəllif orta əsr Şərq filosofları kimi aşağıda qeyd olunan prinsipləri nəzərdən keçirərək öz mülahizələrini belə qiymətləndirmişdir. İnsan probleminin əsasında təbii elmlər, ictimai elmlər və ruhanilik baxımından yanaşmalar: Təbii və sosial baxımdan insan müvəqqəti yaşayan maddi canlı və sosial varlıqdır. Ölümü ilə hər şey bitir. Ruhanilik baxımdan yanaşma isə insanı ölümsüz sayaraq onun ruhən daim yaşamasını qeyd edir.

Əlyazmada mütəfəkkir müqəddəs Qurani-Kərimin dini əxlaqın: "Allah səbr edən bəndələrini sevər", "bu dünyada nahaq yerə zülmə məruz qalanları Allah-Təala o dünyada zülmə məruz etməz" kimi ehkamları qeyd edərək insanları inandırmış və bu dünyada ağır həyat şəraitinə qatlaşaraq hər cür ədalətsizliyə qarşı olmuşlar axirətdə cənnət nemətlərinə sahib olacaq ideyasını irəli sürmüş və hər bir etiqadın dəlil vasitəsi ilə qəbul edilməsini qeyd etmişdir.

Dini əxlaqa görə, insan özünü "o biri dünya" üçün hazırlamalı, həmişə "dünyayi-fanidən" "dünyayi-baqiyə" getmək haqqında düşünməlidir, çünki, fani olan "bu dünya" əbədi olan "o biri dünya" üçün hazırlıqdan ibarətdir.

Beləliklə, dini-asketik əxlaq insanları fəal bir varlığa çevirərək, onları səmərəli həyat tərzi keçirməyə vadar edir, onların diqqətini fani dünyadan, əbədi dünyaya yönəldir. Necə deyərlər

bu dünya insan üçün əkib becərmək, o dünya isə becərdiyin nemətlərin mükafatını almaqla reallaşan bir aləm.

Əsərin mühüm xüsusiyyətlərindən biri İslamda mömin müsəlmanlar asketizm ideyalarının fəlsəfi mahiyyətilə öz sağlam və azad vəziyyətlərinə, mənəvi saflığa çatmaqla bunun müqabilində axirətdə böyük olan Allahın rəhmətinə qovuşmağı təzahür etdirir. Bütün ömrünü halal zəhmətlə işləyib keçirən və heç bir insana ehtiyacı olmayana din bu dünyada itaət etmək, səxavətli və səbrli olmağı öyrədərək, bunun əvəzində isə Allahdan mükafat alacağı ilə ona təlim edir. Xeyir əməl sahibləri axirətdə sirat körpüsündən keçərək Allahın izni ilə cənnətə daxil olmaq ümidi ilə yaşayıb yaratmaq, eləcədə həmin cənnətin bağlarının, ağaclarının altından nəhrlər (çaylar) cari olan və orada Allahın ləzzətli meyvələri bitən nemətlərdən istifadə edib bəhrələnmək məsələləri əsas xüsusiyyət kimi göstərilir.

Həmçinin din axirət dünyasının bir həqiqət olduğunu göstərərək adamları riyakar əməllərdən çəkindirmək, şeytani hisslərdən uzaq olmaqdan, yaşadığımız aləm haqqında, fani dünya və onun nemətlərindən istifadə və Allah yolunda necə paylamaq, gerçək dünyanın mövcud gözəlliklərini Vacibul-vücud tərəfindən yaradıldığını dərk etmək və ondan nəticə çıxarmaq zərurətini anladır.

Hər bir insan öləndən sonra onun ruhunun yaşaması – cənnət və ya cəhənnəm əhli olması, ruhun ölməzliyinə əsas dəlildir. Bədəndən ayrılan ölməz ruh həqqdir. Deməli, insanın axirət yaşayışı əsil məntiqi idraka söykənərək başa düşülür.

Əsərdə İslam dini və onun əxlaq qaydaları kamillik və həqiqətin şöləsində yaşayan möminlərin şüurunu işıqlandıraraq onlara təlqin edir ki, şəksiz olan axirətdə mizan-tərəzi qurulan vaxt “yaxşı imtahan” vermək, cəhənnəm əzablarından uzaqlaşaraq behişt nemətlərinə sahib olmaq üçün hər an Allahla olmaq, Onun əmrlərinə itaət etmək olduq qədər zəruridir.

Əsərin əsas xüsusiyyəti “Axirət” həqiqəti haqqındakı fikirlərdir ki, insanlar üçün sərfəlidir. Çünki onlar çirkin əməllərdən, əxlaqsız hərəkətlərdən çəkinməklə həm cəmiyyətin

ictimai-rifahı naminə, həm də özlərinin əbədi səadətə qovuşmasına nail olurlar. İnsan idrak etməklə bilir ki, dini əxlaqla yanaşı, sosial əxlaqın tələblərini yerinə yetirməklə birinci növbədə adamın özü üçün sonra isə xalq, millət, Vətən üçün çox böyük əhəmiyyəti var.

Şərq fəlsəfi fikrini özündə daha çox zənginləşdirən əsər İslam dininin saf amallar uğrunda apardığı mübarizə öz növbəsində dini ayin, mərasim, mövlud və bayramların geniş keçirilməsinə də böyük yer vermişdir. Həm dini bayramların keçirilməsi, həm də sevimli Peyğəmbərimizin və İmamların mövlud günlərinin bayram edilməsi təsadüf kimi qəbul edilməmişdir.

Bununla belə, əziz bayram günlərindən sayılan "mövlud" günləri bir qayda olaraq xalqımızın milli mentalitetinə uyğun olmaqla yanaşı sevimli anlarından birinə də çevrilmişdir. Bunun bariz nümunəsi 5 sentyabr 1993-cü il tarixdə Təzəpir məscidində sevimli peyğəmbərimiz həzrəti Məhəmməd əleyhis-salamın mövlud gününü bir yerdə bayram edən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: ***"Azərbaycan xalqı bu gün bayram edir, bizim bu müqəddəs dinimizin banisinə daimi hörmət və ehtiramını və Qurani-Kərimin qoyduğu yolla bundan sonra da gedəcəklərini bildirir.***

***Mən sizi, Allah evinə - Təzəpir məscidinə toplaşmış müsəlman qardaşlarımızı, sizin şəxsinizdə istər bütün Azərbaycan müsəlmanlarını, istərsə də bütün dünya müsəlmanlarını bu müqəddəs gün münasibətilə təbrik edirəm, sizin hamınıza, bütün İslam aləminə və bütün bəşəriyyətdə olan xeyirxah insanlara səadət, xoşbəxtlik və fəaliyyətinizdə uğurlar diləyirəm" (1, s. 3).***

Əsərdə geniş və hərtərəfli izah edilən mövlud anlamı Naxçıvan adət-ənənələrinin qorunub saxlanılmasından xəbər verir. Çünki Naxçıvan ictimai mühitində həmişə uca tutulan bu əziz günlər bu gün də xatırlanır və qeyd edilir. Hər il olduğu kimi bu il də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Talıbov 25 yanvar 2013-cü il tarixdə Naxçıvan şəhərindəki

Came məscidinə gələrək həzrəti Məhəmməd Peyğəmbərin mövludu gününü qeyd edərək öz hörmət və ehtiramını bildirmişdir.

İslam dininin yaradıcısı, onun təşəkkül tapmasında və bütün dünyaya yayılmasında böyük xidmətləri olan, daim insanları mənəvi saflığa və yüksək əxlaqi dəyərlərə səsləyən böyük bir insanın yad edilməsi buna bariz nümunədir.

Həmin tədbirdə qeyd edilmişdi ki, "xalqımızın dünyagörüşünün formalaşmasında, mənəvi dəyərlərinin inkişafında humanizm və bəşəri ideyaların daşıyıcısı olan İslam dini müstəsna rol oynamış, mütərəqqi islami dəyərlər və ənənələr Azərbaycanda həmişə uca tutulmuşdur. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən islami dəyərlərin qorunub yaşadılması istiqamətində həyata keçirilən tədbirlər bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. Naxçıvan Muxtar Respublikasında da islami dəyərlər qorunub yaşadılır, dini mərasimlər keçirilir, yeni məscid binaları tikilərək istifadəyə verilir, İslamın digər bayramları kimi, Məhəmməd Peyğəmbərin mövludu günü də hər il qeyd olunur" (Şərq qapısı, Sayı: 16 (20.670), 26 yanvar 2013-cü il, şənbə.)

Əlyazmanın əsas fəlsəfi xüsusiyyətlərindən biri də bütün bu dini bayramların insanların mənəvi aləmini işıqlandırması və gələcək üçün düşünməyi tövsiyə etməsidir. Çünki həm mənəvi aləm, həm də maddi aləm zəminində yaranan bərabərlik anlamı öz fəlsəfi mahiyyətini biruzə verir.

Ata-babadan qalan müqəddəs yol ilə getmək, ictimai cəmiyyətin xeyir və şər adət ənənələrinə yaramaq, bu adətləri layiqincə yerinə yetirməklə yanaşı kəsbikarlıq, elm, sənət, bilik və bacarıq əldə etmək zərurəti də əsərdə danılmaz bir mövqe tutmuşdır.

"Əqaide-Fəlsəfə" əsərində edilən tövsiyələr onu da qeyd edir ki, mütərəqqi və əsarətdən qurtulmaq dayağı olan İslam dini öz ehkamlarını xalqa mahiyyət etibarilə aşılamaq üçün bir sıra bayram və mərasimləri, adət və qaydaları yaratmaqla onların ən qüvvətli ünsiyyət vasitəsi kimi xalq içərisində intişar etdirmişdir.

Əxlaq və dini dünyagörüş bu qayda-qanunların vasitəsi ilə insanları cəhalət və nadanlığa son qoymaq onlara itaətkar və kamillik dünyaşörüşünü aşılamışdır. Ona görə də İslam dininin namaz, oruc, imam təziyəsi, qurban bayramı, oruc bayramı, "müqəddəs" yerləri ziyarət etmək kimi insan varlığını ucaldıb kamilləşdirən adət və gözəl qanun-qaydaları, Allahı tanıma üsulları, Peyğəmbərlərin hansı zərurətdən insanlar arasına bir elçi olaraq göndərilməsi və onlardan sonra İmamlara etiqad etmək, onları tanımağın nə kimi əhəmiyyəti olduğunu və imamətə qail olmaqla hidayət olunmanın səbəbləri Şərq fəlsəfi dünyagörüşündə əvəzedilməz yeri qeyd edilmişdir. Məhz bu baxımdan da müəllif əsərin ikinci adın "Hidayət ət-Talibin" adlandıraraq qeyd etmışdır.

İslam etiqadının gözəl qanun-qaydalarını, bu dinin ehkamlarını sevməkdə olan müsəlman zəhmətkeşlərin gecə və gündüz imkan daxilində namazlar qılıb dinin göstərici ibarələri ilə Allaha dua etmək, Ondan xoşbəxtlik və səadət diləmək arzu və niyyətlərinin həyata keçməsi məqsəd olaraq qiymətləndirilmişdir. İslam dininin müsəlman üçün vəd etdiyi səadət öləndən sonra cənnətə düşməkdir. Bunun üçün isə gərək xeyir-əməl sahibi olasan.

Müəllif əsərdə Asketizmin fəlsəfi mahiyyətini ondan ibarət olduğunu bildirmişdir ki, insan əsasən tələbatın ödənilməsində ifrat qənaətkarlıqla, nəfsin öldürülməsi ilə, əxlaqi və yaxud dini idela çatmaq məqsədi ilə Yer üzərində olan nemətlərdən son dərəcə israfçılığa yol verməmək məqsədilə az istifadə etməklə xarakterizə olunan davranış prinsipi və həyat tərzi keçirsin.

İlk dövrlərdə Qədim Yunanıstanda xeyirxahlıq, fəzilət məşqini asketizm adlandırırdılar. Çünki yunanca "askeo – məşq edirəm" mənasını verir. Asketizm Qədim Şərqin dini təlimində isə, xüsusən Hindistanda elmi-nəzəri cəhətdən qiymətləndirilmişdir. Bundan sonra isə Pifaqorda da nəzəri cəhətdən əsaslandırılmışdır. Erkən xristianlıqda həyatını tənhalıqda və halal-zəhmətlə keçirən, pəhriz və gözəl ibadətlə məşğul olan adamları asket adlandırmışlar. Erkən xristianlıq və orta əsr Asketizm idealı Reformasiya dövründə dəyişikliyə

uğramışdır. Xristianlıqda öz dəsti-xətti ilə seçilən Protestantizm "dünyəvi asketizm" tələbini irəli sürdü. Erkən kəndli və proletar hərəkatları insanları Asketizmə çağırırdı. Bu, hakim siniflərin cah-cəlalına və avara həyatına qarşı etiraz forması idi. Elə həmin söz də buradan meydana gəlmiş, (latınca: protestant – protest, etiraz edən, açıq şəkildə sübut edən) mənası daşımışdır. Protestantizm bir-birindən ehkamçı və qanun xüsusiyyətləri ilə fərqlənən müstəqil və müxtəlif dinlərin, kilsələrin məcmusudur. "Protestanların təsəvvürünə görə insana firavanlıq, nemət Allahın köməyi ilə nəsib olur, kilsədən yan keçməklə «nicat» yalnız insanın şəxsi etiqadı və Allahın iradəsi sayəsində əldə edilir"(8, s. 345).

Müasir Protestantizm əsasən dünyanın Skandinaviya ölkələrində, Almaniyada, İsveçrədə, Böyük Britaniyada və ABŞ-da, Kanadada, Avstraliyada və s. yayılmışdır.

Əliqulu Mirzayi Naxçıvani "Əqaide-Fəlsəfə" əsərində XIX əsrdə Asketizmin əsas prinsip və xüsusiyyətlərini fəlsəfi duyğularda daha geniş təzahür etdirməsi həmin dövr üçün mühüm bir fenomen tərzini izah etdirir. Ruhun ölməzliyi onu göstərir ki, onun özünə məxsus mühüm bir təbiəti var. Çünki ruh insanın xüsusilə mənəvi fəaliyyətidir. O, özünü insanın simasında ifadə edir. Reallıqda insan siması ruhun xarici görüntüsüdür. Ruh özlüyündə tam bütöv bir fenomendir. O, özündə sonsuz hiss, fikir, ifadə, məqsədyönlülük, arzu, istək, kin, nifrət, qəzəb, ehtiras və s. ifadə edir. Şübhəsiz ki, ruh həmdə duyğudur, təsəvvürdür, anlayışdır, mühakimədir və ənnəhayət əqli nəticədir. Bunlarda demək olar ki, ruh özlüyündə bütöv tam olaraq qalır. Məhz həyatın mənasını da bu xüsusiyyətlər təşkil edir. Həyatın mənasını, həyatın dəyərlərini başa düşmək, anlamaq tarixi xarakter daşıyır. Yəni tarixin hər bir dövründə insanın həyatın mənası təyinatını dəyişmişdir. Bu da təsadüfü deyildir ki, bəşəriyyətin qabaqcıl düşüncəli mütəfəkkirləri həyatın mənasını müxtəlif tərzdə şərh etmişlər. Bəziləri bu mənanı mübarizədə, fəaliyyətdə, bəziləri isə cəmiyyəti və özünü kamilləşdirməkdə,

cəmiyyətə xidmət etməkdə, bəşəriyyəti biliklərlə zənginləşdirməkdə görmüşlər.

Həyatın mənasına baxışlar əsərdə çox müxtəlif olaraq qalır; a) Həyatın mənası onun mənəvi-ruhi əsaslarında, həyatın özündədir; b) Həyatın mənası həyatın özünün hüdudlarından kənardadır; c) Həyatın mənasını insan özü öz həyatına gətirir; d) Ümumiyyətlə, həyatın mənası yoxdur.

Belə baxanda birinci nəzəriyyə dini ehtimalların mövcudluğu ilə xarakterizə olunur. Həyatın mənası insana Allah tərəfindən verilib. Allah insanı özünəbənzər yaradərkən ona iradə azadlığı vermişdir. Həyatın mənası İlahiyə qovuşmaqdır. Buna görə də insan dünyanı dəyişdirmir, onu yaratmır, İlahinin iradəsi ilə özünü kamilləşdirir və dünyanı da mükəmməlləşdirir. İnsanın həyatının mənası özünün ölməz ruhunun saxlanılması və saflaşdırılmasından ibarətdir ki, bu da Asketizmin əsas xüsusiyyətlərindən biridir.

İnsan həyatının mənası ikinci baxışla onun (həyatın mənasının) konkret həyatından kənara çıxarılmasını nəzərdə tutur.

İnsan həyatının mənası üçüncü baxışa görə, həyat öz-özlüyündə heç bir məna daşımır, bu mənanı həyatına insan özü gətirir. İnsan bir şüurlu varlıq və iradə sahibi olaraq bu mənanı özü yaradır.

İnsan həyatının mənasız olması fikri ta qədimdən indiyədək ayrı-ayrı təlimlərdə səslənmiş və səslənməkdədir.

Buradan da belə bir nəticəyə gəlmək olar ki, əsərdə zəruri olan insan həyatının mənası bu dünyada ölüm və ölməzlik xüsusiyyətləri ilə zəngindir. Belə ki, yaşamaq əbədilik üçün yaratmaqdır. İnsan bunu dərk edərək özünün qabiliyyətini və vaxtını tarixi töhfəyə sərf etməlidir. Bununla o gələcəyi zənginləşdirir. Deməli, ölüm də həyat kimi müəyyən məna kəsb edir. Bu məna amillərindən biri dünyada həyat ölüm olduğu üçün mənalıdır. Məna isə sonun olması ilə əlaqədardır. Əgər insan varlığının sonu olmasa idi, həyatın ağlasığmaz sonluğu da olsa idi, heç həyatın mənası da olmazdı. Deməli, ölməz və əbədi həyata ölüm vasitəsilə nail olunur. Əgər ölüm olmasaydı, insan əbədilik

haqqında düşünə də bilməzdi. Ölməzlik ölümün inkarıdır, ölüm isə həyatın inkarıdır. Deməli, ölməzlik inkarı inkardır, ikiqat inkardır. Bununla belə əbədilik ölümdən keçmək vasitəsilə mümkün olur, ölüm dünyada bütün insanların qismətidir. O, varadövlətə baxmır deyə qeyd edilir.

Asketizm təliminə görə cismən ölüm bizi daxili emosiyalarla birləşdirir və bizim son taleyimizin eyni olacağını dramatik qeyd edir. Ölümün hamı üçün haqq olması bütün münaqişələrə baxmayaraq insanların qardaşlığa ehtiyacını yada salır. Məhz əsərdə də Asketizmin əxlaqi-fəlsəfi xüsusiyyətlərinin mühüm göstəricisinin mahiyyəti bununla bağlıdır. Çünki insanın öz həyatının faniliyini başa düşməsi onu həyatına məna tapmağa və ya məna verməyə məcbur edir. Ölümə məhkumluq insanda xeyirxah işlərə, gələcək nəsillərin xatirəsində yaşamağa həvəs yaradır.

Həyatda hər bir insan ölüm faciəsindən keçməlidir. Məşhur Avstriya psixoloqu, psixoanalizmin banisi Freyd Ziqmund göstərirdi ki, həyatın hər bir cəhdinin son məqsədi ölümdür.

Eyni zamanda Asketizmin ölməzlik haqqında müxtəlif motivləri də mövcuddur: bioloji, gerontoloji, psixoloji, dini, fəlsəfi və s. Bir çoxları ölümsüzlüyü gerontoloji, yəni həyatın uzadılması kimi başa düşürlər. Lakin ölümsüzlük yaşanan illərin miqdarı ilə deyil, onun keyfiyyəti ilə, yaşanan ömrün insan və cəmiyyət üçün əhəmiyyəti ilə ölçülür.

Hər halda qeyd etdiyimiz bioloji, genetik ölümsüzlük, nəsillər tərəfindən genlərin daşınması kimi başa düşülür. İnsanlar anatomik-fizeoloji əlamətlərlə yanaşı öz nəsli ardıcıllığına bir əmanət kimi qabiliyyətlərini də ötürürlər.

Asketizmin əsas xüsusiyyəti olan ölümsüzlük barədə dini və fəlsəfi təlimlər olduqca çoxdur. Dini baxışlara görə ölməzlik ruhun İlahi ilə qovuşmasıdır. Lakin ruhun İlahi ilə qovuşması heç də şəxsin ölməzliyi deyildir. Bu ideya şəxsiz ideyalara və dəyərlərə məxsusdur. İdealist təlimlərdə də ölməzlik şəxsə deyil, şəxssiz ideyalara və dəyərlərə aiddir.

İslamın sevimli peyğəmbəri həzrəti Məhəmməd əleyhissalam ölüm haqqında insanlara bilgi verərək buyurmuşdur: "Zənn etməyin ölməklə yox olacaqsınız. Ölüm sizi bir evdən başqa bir evə götürər" (65, s. 9).

Məşhur yunan filosofu Platon belə hesab edirdi ki, ruh İlahi mənşəyə malikdir və o, konkret insanın doğulmasından əvvəl və ölümündən sonra İlahi - Aləmdə daim mövcud olmuşdur. Bu baxımdan həqiqətən də ölməzlik ideyası mümkündür.

İslam Aləminin böyük ilahiyyatçı-mütəfəkkiri, orta əsrlərdə yazıb yaratmış mütəkəllim, sufizmin görkəmli nümayəndəsi Əbu Həmid Məhəmməd ibn Məhəmməd Əl Qəzali ruh haqqında deyirdi: "Ruh bölünməz və əbədidir, o, Allahın əmrindədir. Düşünən nəfs insani ruhdur. Onun iki gücü vardır: 1. İdraki güc (dərketmə). 2. Əməli güc (tədbiqi güc). İnsan nəfsinin iki cəbhəsi vardır. Birincisi, bədənin tələbatını ödəməyə yönəlmiş nəfs; ikincisi, İlahi – Aləmdən sərəncam gözləyən nəfs" (20, s. 275).

Müsəlman ilahiyyatçı Əl Qəzaliyə görə ruh Allahın əmrindən yarandığı üçün insan bədəninə yabançıdır və İlahi – Aləmə qayıtmalıdır. Məkana ehtiyacı olmayan ruh, qəlb ilə bədən ruhun kiçik aləmidir. Bundan da belə nəticəyə gəlmək olar ki, bədən öz növbəsində ruhun zahir olduğu yer kimi əsas subyekt sayıla bilər.

Bütün bu göstərilən dəlillərə yekun olaraq onu qeyd etmək olar ki, haqqında danışdığımız XIX əsr Naxçıvan elmi-ictimai mühitinin görkəmli nümayəndəsi Əliqulu Mirzayi Naxçıvaninin "Əqaide-Fəlsəfə" əsərinin əlyazması olduq qədər filoloji-tekstoloji araşdırmalara layiqdir və onun müasir Naxçıvan ədəbi-elm salnaməsi üçün çox böyük əhəmiyyəti var. Əsər hicri-qəməri təqvimi ilə 1285-ci il (1863-cü il miladi) tarixdə fars dilində nəstəliq-şikəstə xətt ilə 517 səhifə həcmində yazılmışdır. Kitabın üz qabığı dəridən hazırlanmış cildlə üzlənmiş, içəri vərəqlərinə isə ağ kağızdan istifadə edilmişdir. Mövzuların yazılış xüsusiyyətinə görə vərəqlərin baş hissəsində hər hansı bir mövzunun adları qeyd edilmiş və insanı cəzb edən terminlərin adları isə xüsusi olaraq

səhfələrin kənarında qara iri xətlə yazılmışdır. Naxçıvana dair əlyazmaların əksəriyyətində olduğu kimi, müəllifin adı həm kitabın əvvəlində, həm də axırında yazıldığı tarixlə birlikdə verilmişdir. Təsüf ki, kitabda müəyyən çatışmamazlıqlar var ki, bu da əvvəlki saxlanılan hər hansısa yerin şəraitindən asılı olmuşdur. Hesab edirik ki, XIX əsr Naxçıvan fəlsəfi fikrinin öyrənilməsində əldə olunan hər hansı bir əsər kimi, Naxçıvana dair əlyazma mətnləri sırasında olan bu qiymətli kitab da öz xüsusiyyətlərinə görə ən zəngin mənbə hesab edilə bilər.

# III FƏSİL

## QƏDİM ŞƏRQ MƏDƏNİYYƏTİNİN SOSİAL-SİYASİ TƏLİMLƏR SİSTEMİ

*Bu tədqiqatda əsasən, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Qədim Şərq mədəniyyəti ilə sıx bağlı olduğumuzu tərənnüm etdirən və gerçək şəraitdən maksimum dərəcədə istifadə edilməsi sistemi təhlil edilərək Qədim Şərq mədəniyyətinin sosial-siyasi təlimlər sistemi geniş izah edilmiş və onun Qərb dünyasına təsiri baxımından xeyli qiymətləndirilmişdir. Təbii ki, yaşadığımız çağdaş dünyanın müxtəlif ölkələrində Qədim Şərq mədəniyyətinə maraq son dərəcə artıqdır. Bu da öz növbəsində təsadüfü olan bir şey deyildir.*

*Sosial-siyasi təlimlər sistemi hər bir xalqın ümumi tarixinin çox mühüm və ayrılmaz sahələrindən biridir. Bu elmin tarix, fəlsəfə, politologiya, sosiologiya, hüquq, dövlət və idarəçilik elmləri ilə sıx bağlıdı. Onun ümumiyyətlə elmin inkişafındakı yerini bir daha genişləndirir. Bu elmin yaranması, inkişafı, nəzəri elm sahələrinə göstərdiyi təsir əsrlər keçdikcə özünü daha çox büruzə verir.*

Yaşadığımız çağdaş dünyanın müxtəlif ölkələrində Qədim Şərq mədəniyyətinə maraq son dərəcə artıqdır. Bu da öz növbəsində təsadüfü olan bir şey deyildir. Belə ki, qədim dünya tarixi öz ibtidai başlanğıcını məhz Qədim Şərq mədəniyyətindən götürmüş və müxtəlif elmə aid sahələr, ədəbiyyat, fəlsəfi fikir, yazı, təsviri incəsənət, müxtəlif dövrlərdə şəklini dəyişmiş formada bu günə qədər zəruri olan əlifba yazısı ilk dəfə qədim Şərqdə mövcud olmuşdur. Qədim Şərq mədəniyyətinin sosial-siyasi təlimləri dünya mədəniyyətinə, ələlxüsus müasir Qərb mədəniyyətinin əsasını təşkil edən antik mədəniyyətə mühüm təsiri inkarolunmaz dəlildir.

Sosial-siyasi təlimlər sistemi hər bir xalqın ümumi tarixinin çox mühüm və ayrılmaz sahələrindən biridir. Bu elmin tarix, fəlsəfə, politologiya, sosiologiya, hüquq, dövlət və idarəçilik

elmləri ilə sıx bağlıdı. Onun ümumiyyətlə elmin inkişafındakı yerini bir daha genişləndirir. Bu elmin yaranması, inkişafı, nəzəri elm sahələrinə göstərdiyi təsir əsrlər keçdikcə özünü daha çox büruzə verir.

Tədqiqat prosesində onu da qeyd etmək lazımdır ki, sosial-siyasi təlimlər sisteminin tarixi müxtəlif elmlərin sintezindən əmələ gələrək sinkretik xarakter daşıyır. Sosial-siyasi təlimlər bu fənnin aparıcı istiqamətidir. Sosial-siyasi təlimlər sisteminin formalaşmasına ciddi təsir göstərən fəlsəfə, sosiologiya, etika, tarix, sosial-psixologiya və başqa bilik sahələri arasında yəqin ki, fəlsəfə və sosiologiya ön planda durur.

Həqiqətən göründüyü kimi, bu elmin əhatə dairəsi olduqca geniş olduğu üçün onun predmeti və istifadə etdiyi kateqoriyalar sistemi də çox mürəkkəbdir. Müəyyən elmi anlayışları, ideyaları və s. seçmək, qruplaşdırmaq və məntiqi ardıcıllıqla şərh etmək elə də asan məsələ deyildir. Lakin müasir cəmiyyət bilməlidir ki, qədim dövrdən başlayaraq indiyədək davam edən ümumdünya fikir tarixində sosial-siyasi təlimlər sisteminin əsas cərəyanları, böyük mütəfəkkirlərin fikirləri həm xronoloji, həm də məntiqi ardıcıllıqla şərh edilməlidir.

Təbiidir ki, bütün elmlər və onların tarixi kimi sosial-siyasi təlimlər sisteminin tarixi də ilk başlanğıcda ümumiyyətlə elmin sinonimi kimi qəbul edilən fəlsəfə daxilində meydana gəlmişdir. Belə olduqda bu elm sahəsinin 3000 ilədək tarixi mövcuddur. Lakin cəmiyyət, əxlaq, hakimiyyət, qanun, idarəçilik və s. haqqında ayrı-ayrı fikirlərin tarixi daha da qədimdir.

Onu da qeyd etmək lazımdır ki, Qədim Şərq mədəniyyəti xalqlarında sosial-siyasi təlimlər fikri öz başlanğıcını miflərdən alır və onun inkişafının ilk mərhələsində insanın dünyadakı yerini, xarici aləmə münasibətini mifoloji anlayışlarla izah edir. Qədim dövrdə sosial-siyasi görüşlər hələ ümumi mifoloji dünyagörüşün tərkib hissəsi kimi çıxış edirdi. Bununla belə miflər ilahi başlanğıcın yerdəki həyat ilə əlaqəsinin müxtəlif üsullarından və xarakterindən bəhs edirdi. "Yer üzündəki sosial-siyasi qaydaların, qanunların, insani münasibətlərinin əsasını təşkil edən ilahi ədalət

bir sıra qədim Misir mənbələrində, o cümlədən "Ptaxotepanın nəsihətləri" (b.e.ə. XXVIII əsr), "Ölülərin kitabı"nda (b.e.ə. XXV-XXI əsrlər) geniş tərənnüm edilir" (26, s. 25).

Qədim Şərq mədəniyyətinin sosial-siyasi təlimlər sisteminin əsas xüsusiyyətlərindən aləmi dərk etmək bacarığı, ali hakimiyyət, kütlələri xalq halında birləşdirmək, onları müdafiə etmək, yeri gələndə cəzalandırmaq hökmdarın vacib göstəricilərindən idi. Qədim Misir allahları insana çox oxşayırdılar, insana lazım olan zəif cəhətlər onlara da aid idi.

Eradan əvvəl Qədim Misir hökmdarı həm də Misir dövlətinin rifahı üçün çalışan allah hesab edilirdi. Ən böyük allah Pa ölkəni idarə etməyi öz oğlu olan hökmdara tapşırmışdı. Qədim misir xalqları inanırdılar ki, hökmdar günəş allahı Ranın öz bədənindən əmələ gələn cismani oğlu idi. Onu həm də yerdə yaşayan qadının oğlu hesab edirdilər.

Onu da qeyd etmək lazımdır ki, Qədim Misir hökmdarları-fironlar da milli allah hesab edilirdi, başqa sözlə, firon özü dövlət demək idi və dövlətin funksiyalarını özü həyata keçirirdi. Bu funksiyalar bu cür tərənnüm edilmişdi: sahib olmaq, nəzarət etmək, idarə etmək, cəzalandırmaq və mükafatlandırmaq, həmçinin qayğı göstərmək, qidalandırmaq, yaşamaq üçün yer vermək, nəhayət, əhalinin sayını artırmaq üçün şərait yaratmaq.

Qədim dövrdə fironların ölməsi və öləndən sonara onların qəbirlərinin üstündə möhtəşəm, piramida formasında abidə ucaldılırdı. "Bütün hallarda piramidalar onların müqəddəs cəsədlərini zədələnmədən qorumalı idi" (27, s. 55).

Firon hökmdarların ilahi keyfiyyətləri ona imkan verirdi ki, daha sərbəst şəkildə ədalətli hakimiyyəti həyata keçirsin. Çünki hesab edilirdi ki, "ölkənin əminamanlığı ədalətdədir" və "şəri düzəltməsən, o, ikiləşə bilər" (28, s. 5-10).

Ümumiyyətlə, nəzərə almaq lazımdır ki, Misir hökmdarlarının dəbdəyə olan marağı, onlar öləndən sonra da həyata keçirilirdi. "...qədim Misir fironlarının həyat dəbdəbəsi, yaşayış təmtərağı və yerinə yetirdikləri nəhəng işlər tarixdə çox böyük iz qoymuşdur. Buna misal olaraq dövrümüzədək gəlib

çatmış əllidən artıq ehramın – yüz minlərlə əsirin həyatı bahasına və yüz illərlə məşəqqətli əməyi sayəsində yaradılan abidələrin – adını çəkmək kifayətdir" (32, s. 274).

Qədim Şərq mədəniyyətinin sosial-siyasi təlimlərində əsasən ikiçayarasında formalaşan sivilizasiya antik mədəniyyətə, onun vasitəsilə həm də orta əsr Avropa və Şərq mədəniyyətlərinə, sonra isə Yeni və Ən Yeni dövr dünya sivilizasiyasına böyük təsir göstərmişdir. IX əsrdə yaşamış misirli ərəb alimi Əbdürrəhman ibn Əbdülhəkəm "Misirin, əl-Məqribin və əl-Ədəlusun işğalı" (29) adlı kitabının başlanğıc hissəsini Misirin islamaqədərki tarixinə həsr edib.

Həmçinin o dövrdə Qədim Şərq mədəniyyətinin tanınmasında məşhur olan əsərləri, müsəlman mədəniyyətinin görkəmli nümayəndəsi Xarəzmli Əbu Reyhan əl-Biruninin "Hindistan" ("Əl-Hind") əsəridir (30).

Ümumiyyətlə bilmək lazımdır ki, Qədim Şərq mədəniyyətinin sosial-siyasi təlimlər sistemi haqqında hansı məşhur alimlər məlumat verir. "Ellinizm dövrünün sonlarında yaşamış siciliyalı Diodorun (e.ə. I əsr) "Tarixi kitabxana", Roma dövrü yunan coğrafiyaşünası Strabonun (e.ə. I – b.e. I əsrləri) "Coğrafiya", Roma alimi Böyük Plininin (b.e. I əsri) "Tərbiyyat tarixi", Misirdə doğulan və fəaliyyət göstərən yunan alimi Klavdi Ptolomeyin "Coğrafi təlimnamə" əsərlərində Qədim Şərqin tarixi, coğrafiyası, təbiəti və əhalisi haqqında zəngin məlumatlar toplanıb və şərh edilib" (31, s. 8).

Qədim Şərq mədəniyyətinin yaratdığı sivilizasiya öz zəngin xüsusiyyətləri ilə orta əsrlərdə inkişaf etdirilmişdir. "Hindistan və Çində qədim ənənələr orta əsrlərdə mövcud şəraitə uyğun olaraq davam etməkdə idi" (31, s. 20). Maraqlıdır ki, o dövrdə Hindistanda dünyəvi elmlər tərəqqi etmiş olsa da rəsmi dairələrdə dünyagörüşü elmə yox, dinə əsaslanmışdır. Əbu Reyhan Biruninin xəbər verdiyi kimi, brahman inkivizisiyası hind mütəfəkkirlərini öz kəşflərinə dini boya verməyə məcbur edirdi.

Məlum olmuşdur ki, Qədim Çin sosial-siyasi təlimlərinin tarixi eradan çox-çox əvvəllərə gedib çıxan müxtəlif ideya

cərəyanlarının təsiri altında inkişaf etmişdir. Burada buddizm VII-IX əsrlərdə daha geniş yayılmış, konfutsiçiliyi və daosizmi sıxışdırmışdır. Budda monastırları torpaqlara və bir sıra imtiyazlara malik olub, konfutsiçi feodallara qarşı çıxırdı.

Qədim Hind ədəbiyyatının ən zəngin abidəsi olan Ved adlanır. Bu topluda (b.e.ə. I minilliyin ortası) dünya, insan, onun əxlaqı, dünyagörüşü haqqında ilk məlumatlar verilir. Vedlər min illər boyu hind mədəniyyətinin ürəyi, yüz milyonlarla hindli üçün müdriklik rəmzi olmuşdur.

Qeyd etmək lazımdır ki, Vedlər əsasən dörd topludan ibarətdir: 1) "Riqveda" (himnlər toplusu), 2) "Samaveda" (mahnılar toplusu), 3) "Yacurveda" (qurban vermək qaydaları), 4) "Axtarvaveda" (sehrləmə toplusu).

Qədim Hindistanın ən məşhur və məzmunlu siyasi traktatı "Artxaşastra və ya siyasət Elmi" (b.e.ə. IV-III əsrlər) hesab edilir. Həmin traktatın müəllifi Brahman Kautilyardır.

Tədqiqat zamanı əldə olunan Qədim Hind fəlsəfəsinin, sosial-siyasi təlimlər sisteminin Vedlərdən başqa, mənbələri kimi caynizm, buddizm və induizmi göstərmək mümkündür.

Qədim Çində isə siyasi şüurun inkişafının əsas nəticəsi odur ki, hökmdarın köməkçisi, saray əyanları müstəqil siyasi subyekt hesab edilirdi. Müşavir və yaxud nazirin dövlət işlərində xidməti birinci növbədə əxlaqi mövqedən qiymətləndirilirdi. Bununla əlaqədar müdriklik, düzlük, səmimilik, aşkarlıq, hökmdara real münasibət nümunəvi əyan üçün əsas keyfiyyət sayılırdı.

Əsasən Qədim Çində sosial-siyasi təlimlər sistemi böyük mütəfəkkir Konfutsinin (551-479) dediklərində, daosizmdə, leqizmdə və başqa cərəyanlarda öz əksini tapmışdır. Qədim Çin ənənəsinə uyğun olaraq Konfutsi dövləti böyük ailəyə bənzədirdi.

Ümumiyyətlə qeyd olunmalıdır ki, Qədim Çin mədəniyyətinin sosial-siyasi təlimlər sisteminin çıxış nöqtəsi "göy", "göyün əmri" (tale) konsepsiyası hesab edilir. Göy təbiətin bir hissəsidir, lakin o, təbiəti və insanı müəyyənləşdirən ali mənəvi qüvvədir.

Konfutsinin siyasi təliminin əsasını xeyirxahlıq təşkil edir və bu təlim idarə işində iştirak edən bütün insanlar üçün zəruri sayılır. İdarə edən yuxarı dairələr kamil insanlar olmalıdır. Onları insanpərvərlik, vəzifə və ədalət hissi, biliyə can atmaq, etibarlı olmaq, mülayimlik, böyüklərə hörmət etmək fərqləndirir.

Nəzərdən qaçırmaq olmaz ki, Konfutsinin sosial-siyasi təlimi sistemi Çin tarixində dinin spesifik ekvivalenti (eyni mənalı) rolunu oynamışdır. Onun yazdığı və öyrətdiyi nə varsa, hamısı müdrik Qədim Çin adətlərinə əsaslanırdı.

Müəllim onu da qeyd etməlidir ki, Qədim Çində sosial utopiyalar mövcud olmuşdur. Hələ qədim dövrdə Çin mütəfəkkirləri dünyanın qeyri-kamil olduğunu göstərir və ümumi bərabərlik və tərəqqiyə nail olmaq yollarını tapmağa can atırdılar. Onlar hesab edirdilər ki, dünya mükəmməllikdən çox uzaqdır, burada ahəngdarlıq yoxdur, insanlar xeyir və ədalət haqqında anlayışları yaddan çıxarıblar. Onlar cəmiyyəti sülh və əmin-amanlıq, ümumi razılıq əsasında yenidən qurmaq yolları axtarırdılar; belə hesab edirdilər ki, qarmaqarışıqlığı, ədavəti aradan götürmək, sonra tədricən, zəif də olsa, adamlar arasında müəyyən razılığa nail olmaq, sosial tarazlıq yaratmaq, yalnız bundan sonra elə vəziyyətə çatmaq lazımdır ki, yuxarılar aşağıların rifahı qayğısına qalsın, aşağılar isə yuxarıları yedizdirsin, geyindirsin; bir sözlə, cəmiyyətdə heç bir mübarizə, çəkişmə, vuruşma baş verməsin. Çin tarixinin ən qədim dövrlərində sosial-siyasi təlimlər, xüsusən utopik fikir tarixində "Datun" ("Böyük həmrəylik" və yaxud "Böyük ahəngdarlıq") və "Taypin" ("Böyük tarazlıq" və yaxud "Böyük rahatlıq") kimi anlayışlar işlənib hazırlanmışdır.

Çində və Hindistanda fəaliyyət göstərmiş sosial-siyasi təlimlər sistemi ətraf ölkələrə də nüfuz etmişdir.

Qədim Şərq mədəniyyətinin sosial-siyasi təlimi sisteminin fövqündə duran dualist təlim olan zərdüştlük b.e.ə. VII-VI əsrlərdə dini-fəlsəfi sistem kimi Qədim Azərbaycanda meydana gəlib, sonra daha geniş məkana yayılmışdır. Bu dinin yaradıcısı Zərdüşt olmuşdur. O, həm də bu dinin müqəddəs kitabı olan

“Avesta”nın (“Qanun”un) ən qədim hissələrinin müəllifidir. “Avesta” üç kitabdan – Vendidad, Yasna və Vispereddən ibarətdir.

Mövzunun konkret məzmununun şərhini verməklə Zərdüştün əsas ideyasını qısaca belə ifadə etmək olar: dünya qaydaları xeyir və şərin, işıq və zülmətin, həyat və ölümün mübarizəsindən asılıdır. Bütün Kainatda müsbət başlanğıcın təcəssümü Ahura Məzda (Hörmüz), mənfininki isə Ahura Maynu (Əhriman) hesab edilir. Onların hər ikisi “Sonsuz zamanın”, yəni allah sayılan Ervanın oğullarıdır. Şər daimi deyil,' ondan azad olmağın, ruhu ondan təmizləməyin yolu oda sitayiş etməkdir. Od insanı təmizləyir, saflaşdırır, şəri məhv edir. Zərdüşt Hörmüzü müdafiə edənlərə, onun yolu ilə gedənlərə ölümdən sonra o dünyada əbədi xoşbəxtlik vəd edir. Əhrimanın tərəfdarlarının isə əbədi olaraq cəhənnəm əzabına düçar olacaqlarını göstərir. Ölümdən sonrakı dünya, dünyanın axırı, sonuncu məhkəmə, ruhun yaşaması, bakirə qızın dünyanın xilaskarını doğması və sair ideyalar sonralar başqa dinlərə də (iudaizm, Mani dini, xristianlıq, islam) nüfuz etmişdir.

Deməli, Azərbaycanın ən qədim müqəddəs kitabı olan “Avesta”da dünyanın yaradılması haqqında da maraqlı fikirlər var. Burada göstərilir ki, dünya on iki min ildir ki, mövcuddur. Dünyanın inkişafı hər biri üç min il olan dörd dövrə bölünür. Birinci dövr şeylər haqqında ideyaların yaranması dövrüdür. Hörmüz ideal aləmin mücərrəd anlayışlarını yaradır. İkinci dövrdə dünya yaradılır. Hörmüz göyü, ulduzları, ayı və günəşi yaradır. Elə həmin vaxt Əhriman yaradılan Kainata daxil olur və göy cisimlərinin nizamlı hərəkətinə tabe olmayan kometaları və başqa cisimləri yaradır; o, ziyankar heyvanları dünyaya gətirir, suyu çirkləndirir, ilk insana ölüm gətirir. Lakin ilk insanın kişi və qadın cinsindən iki övladı qalır ki, bütün insan nəsli onlardan başlayır. İki zidd başlanğıcın toqquşması nəticəsində bütün dünya hərəkətə gəlir: çaylar axmağa başlayır, dağlar yaranır, göy cisimləri hərəkət edir. Üçüncü dövr Zərdüşt peyğəmbərin dünyaya gəlməsinə qədərki dövrdür. Bu dövrdə “Avesta”nın qəhrəmanları fəaliyyət

göstərir. Dördüncü dövr də (Zərdüştdən sonra) üç min ili əhatə edir; hər min ildə bir Xilaskar dünyaya gələcək. Deməli, bu dövrdə üç Xilaskar olacaq, onların hamısı Zərdüştün övladlarıdır. Üşüncü min ildə gələn üçüncü Xilaskar bütün dünyanın və insanlığın taleyini həll edəcək. O, ölüləri diriIdəcək, Əhrimana qalib gələcək, dünya saflaşacaq, orada ədalət bərqərar olacaq.

## ORTA ƏSRLƏRDƏ ŞƏRQ ƏXLAQININ YARANMASI VƏ TƏKMİLLƏŞMƏSİ

*"Bizim dövlətimiz dünyəvi dövlətdir.*
*Ancaq biz dindən ayrı deyilik"*
***Heydər Əliyev***
*Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu*

Dünyanın bütün dinləri arasında müqəddəs İslam dininin yaranması və inkişafı onu göstərir ki, bəşəriyyətin tərəqqisi naminə ucalan və yenilməz bu din insanlarda ümid dolu inam yaratmışdır. Çünki Allahın varlığı danılmaz və real mövcudatla sıx bağlıdır. Elə bu baxımdan da Allaha inam dini etiqadla bağlıdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz dini-fəlsəfi dünyagörüşündə formalaşdıran İlahi etiqadı bu cür tərənnüm etdirərək demişdir: "***Dini etiqad Allahın varlığı ilə əlaqədardır. Ona görə Allahın insanlar tərəfindən qəbul edilməsi ilə müxtəlif dini inanclar, o cümlədən tövhid məsələsi də qəbul edilir. Bunun belə Allahın varlığına inanmaq hər bir şeyin mövcudluğuna inanmaq deməkdir" (6, s. 2).***

Fəlsəfi baxımdan qiymətləndirilən din isə müqəddəs bir fövqəltəbii qüvvələrin reallığını tərənnüm etdirir. "Din – ictimai şüurun formalarından biri; bir və ya bir neçə Allahın, "Müqəddəslərin" – yəni fövqəltəbiiliyin bu və ya digər növünün reallığına inamı əsas götürən dünyagörüşü, davranış və spesifik fəaliyyətdir"(8, s. 109).

Sosial yanaşma baxımından tərif edilən din isə insanlarda səmimi duyğuların formalaşması kimi təzahür etdirilir. "Din – müqəddəslik duyğusunu yüksək tutan mənəviyyat hadisəsidir. O, dünya haqqında təsəvvürləri, konkret dəyərləri, onunla əlaqədar olan mexanizmləri və göstərişləri, reaksiyaları, həyat tərzini və s.-ni özünə daxil edir. Belə anlam daxilində din çox ehtimal ki, baş

verən hər şeyə təsir edərək və öz növbəsində baş verən hər şey də dinə təsir edəcəkdir" (10, c. 28).

Din cəmiyyətdə insanların mənəviyyatını kamilləşdirən, əxlaqının keşiyində duran bir amildir. Dinsizlik insanları mənəvi boşluğa salır. Onların həyat və ölüm haqqında təsəvvürlərini məhdudlaşdırır. Heçlik və varlıq qarşısında aciz qalan insan özünə mənəvi dayaq axtarır. O, dayağı isə dində tapır. Din bir tərəfdən insanları öz işlərində fədakar edir, ikinci tərəfdən də mutiləşdirir.

İnsan Allahın yaratdığı ən xoşbəxt məxluq olduğu kimi, həm də ən bədbəxt məxluqdur. Çünki o, bir gün öləcəyini bilir. Onun bədxətliyi də, xoşbəxtliyi də şüurla bağlı olduğu kimi, insan bunun gücü ilə həm bədbəxtliyinin açarını tapmaq istəyir, həm də xoşbəxtliyinin. İnsanın ən böyük faciəsi odur ki, o öz şüuru ilə bir gün öləcəyini bilir. Bu isə onda vahimə yaradır. Bu vahiməyə qalib gəlmək üçün o İlahi varlığa sığınır, o dünya həqiqətlərini deynində yaradır və sonra yaratdıqlarına inanmaq məcburiyyətində qalır.

Elə bir sıra dini mənbələr də qeyd edir ki, din cahilin əlində cahilliyə xidmət edir. Aqilin əlində aqilliyə. Dini mənbələr, müqəddəs kitablar elə bir elmdir ki, onunla yalnız müdrik insanlar məşğul olmalıdır ki, bəşəriyyəti mənəviyyatsızlığa, əxlaqi böhrana apara bilməsin. Dünya ictimaiyyətinin xoşbəxt gələcəyini düzgün istiqamətləndirə bilsin. İnsanların varlığına hakim real səbəbləri düzgün göstərə bilsin ki, bəşəriyyət anormal mənəvi durum fəlakətlərə düçar olub məhv olmasın.

Din həmişə insanları mənəvi paklığa səsləmişdir. Mənəvi paklığın meyarlarını hərə özü bildiyi kimi təyin etdiyindən dinlərdə də parçalanma başlamışdır. Əvvəl mövcud dinlər arasında, sonra isə məzhəblərin və təriqətlərin daxilində.

Dinlərdə və məzhəblərdəki mövcud iddialar sözün həqiqi mənasında mənəvi paklıq meyarlardır. Bu meyarlar bir sıra ümumi cəhətlərinə görə (məsələn, xeyirxahlığa çağırışları ilə) üst-üstə düşsə də, bəzi parametrlərinə görə bir-birindən kəskin surətdə fərqlənir. Ona görə də, hər bir dinin və məzhəbin özünəməxsus məziyyətləri var. Bu məziyyətlər özünü daha çox fəlsəfi

düşüncədə göstərir. İnsan əxlaqına və mənəviyyatına dair detallar demək olar ki, əksər dinlərdə və təriqətlərdə təqribən eynidir; xeyirxahlıq, qarşılıqlı hörmət, pak əxlaq və s.

Bu milli-mənəvi dəyərləri Azərbaycan xalqının ruhunda yaşadan ulu öndər Heydər Əliyev öz doğma millətinin namus və qeyrətinə inanaraq cəsarətlə demişdir: ***"Əzəmət və qüdrətinə, namus və qeyrətinə arxalandığım və güvəndiyim Azərbaycan övladları" (9, s. 74)*** kəlamı bu gün də milli düşüncəmizin, şərəf və ləyaqətimizin, inam və iymanımızın, dini-əxlaqi qaynağına çevrilmişdir.

VII əsrdə Məhəmməd peyğəmbərin vasitəsilə bəşər tarixinə daxil olmuş islam dini də xeyirxah məqsədlər naminə yaradılmışdır. Başqa dinlər kimi, bu din də asanlıqla insanların qəlbinə yol tapmadı. Bu dinin saf mahiyyəti çox böyük çətinliklərlə Yaxın Şərqdə insanların düşüncəsinə daxil oldu. Belə ki, qanlı müharibələr, illərdən bəri aparılan gərgin təbliğat, minlərlə islam fəqihin və mötəsiblərinin təbliği və təşviqi sayəsində islam Şərqin aparıcı dininə çevrildi.

İslamın meydana gəlməsi Məhəmməd peyğəmbərin həyatı ilə bağlı olduğundan yaxşı olardı ki, peyğəmbərin həyatından qısaca da olsa danışaq:

Məhəmməd peyğəmbər 570-ci il rəbiəl-əvvəl ayının 17-də Səudiyyə Ərəbistanın Məkkə şəhərində Qureyş tayfasından olan Abdullanın ailəsində anadan olmuşdur. Peyğəmbərin anası Aminə xatun Bəni Zöhrə şeyxinin qızıdır. Elə peyğəmbərin atası da nüfuzlu adamların nəslindən idi. Ulu babası Əbdül Mənaf və babası Əbdül Mütəllib Haşimi nəslinin mötəbər adamları olublar.

Peyğəmbər ana bətnində iki aylığında ikən atasını itirir. O, Şam şəhərinə gedərkən Mədinədə vəfat edir. Peyğəmbərin tərbiyəsi ilə babası Əbdül Mütəllib və anası Aminə xatun məşğul olmuşlar. Amma peyğəmbər altı yaşında olanda anası, səkkiz yaşında olanda isə babası vəfat edir. Onun tərbiyəsi ilə əmisi Əbu Talib məşğul olur. O həm Qyreyşi qəbiləsinin başçısı, həm də Kəbənin rəisi idi. Əmisi peyğəmbərin tərbiyəsi ilə ciddi məşğul

olur, ona dünya hadisələrindən geniş məlumat verir, hadisələr danışır.

Peyğəmbər təsərrüfat işlərində əmisinə kömək edirdi. Musa peyğəmbər kimi, o da sürüləri otarırdı. Təklikdə qalıb qaynar cəmiyyətdən uzaqda dərin düşüncələrə dalırdı. O vaxt müxtəlif qəbilələr Məkkəyə gəlib müxtəlif bütlərə sitayiş edirdilər. Müxtəlif olan adət-ənənələr ərəblərə qarşı ikrah hissi yaradırdı. Ərəb dünyasını bir əqidə ətrafında birləşdirmək günün vacib tələblərindən idi.

Peyğəmbər sonra Məkkədə ticarət işləri ilə məşğul olur. Bu işdə düzlüyünə görə ona "Məhəmmədəmin - əməli saleh" ləqəbi vermişlər. 12 yaşında olanda əmisi ilə Suriyaya ticarətə gedir və ilk xristian dünyasını, onların dini birliyini görür. Xristian ölkəsi olan Bizans o vaxt ərəb dünyası ilə həmsərhəd idi. Sonra peyğəmbər yenə də Suriyaya ticarət məqsədi ilə gəlmişdir. Peyğəmbər tez-tez rast gəldiyi allahaxtaran həniflərə də rəğbətlə yanaşırdı. Xüsusilə, onu təkallahlıq ideyası maraqlandırırdı.

Ticarət işləri ilə məşğul olan peyğəmbər maliyyə çətinliklərini hiss edirdi və yeni bir iş görmək üçün maliyyə imkanlarının vacibliyini dərk edirdi. Ticarətdə bir təmiz adam kimi, o varlı tacir olan Xədicənin diqqətini cəlb edirdi. 595-ci ildə Xədicə xahiş edir ki, Məhəmməd onun karvanını Suriyaya və geriyə müşayət etsin. Bu səfər vaxtı peyğəmbər bir ayadək Bizansın əsas bölgələrindən sayılan Suriyada qaldı. Apardıqları bütün malları satıb Məkkədə yaxşı satılan mallar aldılar. Peyğəmbər həm də bu çox millətli ölkənin dini ilə maraqlanırdı. Onların təkallahlığı onu cəlb edirdi. Avropa islamşünasları bu məqama xüsusi əhəmiyyət verirlər: "Xədicənin tapşırığı ilə səfərlərə çıxan Məhəmməd Suriyada bir xristian rahibinə rast gəlir. Məhəmməd rahiblərlə (Sergey, Bəhira, Nestor ilə) söhbətlər etdiyini göstərən müsəlman rəvayətləri az deyildir. Bu əfsanələrlə müsəlmanlar çalışıb göstərmək istəyirlər ki, xristianlar Məhəmmədin peyğəmbərlik mahiyyətini tez duyub başa düşmüşlər. Lakin Quranda şübhəsiz, xristian təsirindən çox yəhudi təsiri daha aydın görünür" (55, s. 34).

Avropa islamşünası Anre Torun da qeyd edir ki, "Quranın bir çox yerləri Qədim Suriya dini mətnlərini xatırladır. Bundan əlavə Quranda ən qədim dövrə aid olub, axirətdən bəhs edən ayələr şərqi xristian kilsəsinin məşhur xadimlərindən müqəddəs Yefremin dini xütbələrinin bəzi yerlərinə qəribə oxşayır" (55, s. 34).

Məhəmməd 595-ci ildə 25 yaşında ikən 40 yaşlı Xədicə ilə evləndi. Onların 3 oğlu və 4 qızı oldu. Ancaq oğlanları kiçik yaşlarında, 3 qızı isə böyük yaşında, peyğmbərin sağlığında dünyasını dəyişdi. Qızı Fatimə isə qohumu Əli ibn Əbu Talibə ərə getdi və yalnız ondan olan nəvələri peyğəmbərin nəslini davam etdirən "Əhli-beyt" oldu. "Nə qədər ki, Xədicə sağ idi, Məhəmməd başqa arvaq almamışdı: bu da onun nəzərində Xədicənin nə qədər nüfuzlu olduğunu sübut edir" (55, s. 35).

Ailə həyatı Məhəmmədi dini işlərlə məşğul olmağına mane olmurdu. Əksinə, ona hardasa kömək olurdu: "Məhəmməd bir neçə il İlahi həyacan keçirdikdən sonra bir səs eşidir və əvvəlcə belə güman edir ki, bu səs bir cin səsidir. Lakin bu səs .getdikcə aydınlaşır və Məhəmməd öz arvadı xədicənin köməyi ilə yavaş-yavaş təskinlik tapır" (55, s. 35). Elə peyğəmbərə ilk iman gətirən də arvadı Xədicə olur.

Əlbəttə Məhəmmədin yeni din yaratmasını fantastik sıçrayış kimi qəbul etmək də düzgün olmazdı. Həmin dövrdə Məkkənin ictimai-siyasi abu-həvası da göstərir ki, peyğəmbərin bu dini sosial-siyasi tələbatdan irəli gəlirdi və günün vacib məsələlərindən idi. "İlk vaxtlar yeni dinin təbliği Qüreyişlər arasnıda o qədər də qorxu doğurmurdu – Məkkədə din azadlığı həddən artıq geniş idi. Buna görə də təkallahlığa çağırış heç kəsə yasaq olunmurdu. Məhəmməd Məkkə camaatın içində açıq-aşkar qüdrətli və mərhəmmətli Allahı mədh edir və Qüreyşiləri bütpərəstlikdən əl çəkməyə çağırırdı. Məhəmməd moizə üçün materialları müxtəlif mənbələrdən-qədim ərəb rəvayətlərindən, xristian qanunlarından və apoqrafik mətnlərindən, qədim əfsanələrdən, zərdüştliyə yaxın hekayələrdən və s. götürürdü. Lakin Məhəmməd bu rəngarəng materialı əsaslı sürətdə

dəyişdirirdi. O, bunlardan yalnız özünün yaratdığı özünəməxsus dini sistemə uyğun gələn və onun tələblərinə cavab hadisə və faktları götürürdü. Moizələrin əsasında isə vəhy zamanı Məhəmməd Allahdan aldığı əmrləri təşkil edirdi. Bunlar əsasən poetik səpkidə idi. Camaat qarşısında ilk moizəsindən keçən bir neçə il ərzində Məhəmməd əlliyə yaxın surə yaratdı. Bu dini və bədii yenilik nə yəhudilərin, nə də nəsranilərin müqəddəs kitabında yox idi. Hər şey ancaq Allahın adından deyilir və bir dəfə də olsun Allahın kəlamı Quranın əsl yaradıcısı olan Məhəmmədin sözləri ilə bağlanmırdı" (56, s. 55-57). Etiraf edək ki, belə fəlsəfi düşüncə sonra sufilərin vəhdəti-vücud konsepsiyasının əsasını təşkil etdi və onlar panteist düşüncəyə əsaslanaraq "vücudi-külli" ideyasını irəli sürdülər. Yəni insanlar ilahi varlığın zərrələridir. Peyğəmbərin sözləri həm də "vücudi-külli"nin sözləridir – fikrini irəli sürdülər.

Peyğəmbər artıq 40 yaşına çatanda Quranın ilk surələri nazil olurdu. Xüsusilə, 96, 74, 73-cü surələr: "Həqiqətən də biz sənə ağır bir kəlam vəhy edəcəyik. Şübhəsiz ki, gecə qalxmaq daha əlverişli və daha münasibdir. Çünki gündüz sənin uzun-uzadı davam edən işlərin vardır" (57, s. 575).

Peyğəmbərin bu dövrlərdəki həyatından danışan mənbələr yazır: "Məlumdur ki, bu illər, yəni Quranın ilk surələri yarandığı vaxtlar, Məhəmmədin heç bir hakimiyyəti yox idi. O, heç bir kəsi özünə zorla, qanun gücünə inanmağa məcbur edə bilməzdi... Adamları öz varlığına inandırmaq üçün Məhəmməd Allaha ilhamlı və vəcdə gətirən andlar içir. Öz varlığını və yeni məzhəbin əsas müddəalarını bu andlarla təsdiq edirdi" (56, s. 57).

Məhəmmədin yaratdığı yeni dinə arvadı Xədicənin sonra ilk iman gətirən peyğəmbərin əmisi oğlu, İmamilərin birinci imamı 10 yaşlı Əbu Talib oğlu Əli olmuşdur. Onun dininə iman gətirənlərin sayı get-gedə artırdı. Xüsusilə, böyük nüfuz sahibi Əbubəkrin dönüb müsəlman olması bu dinin meydana gəlməsində xüsusi rol oynadı. Sonra peyğəmbərin oğulluğa götürdüyü Zeydin müsəlman olması "peyğəmbər üçün etibarlı dayaq oldu" (55, s. 37).

Məhəmməd iman gətirən kasıb adamlar Qureyşilərin düşmənçiliyi ilə qarşılaşdılar. Peyğəmbərin məsləhəti ilə onlar Efiopiyaya (Həbəşistan) getdilər ki, lazımi vaxtı gözləsinlər. Sonra böyük nüfuz sahibi ömərin də müsəlmanlığı qəbul etməsi Qüreyşilərlə düşmənçiliyə son qoymadı. Xüsusilə, Xədicənin və əmisi Əbu Talibin ölümündən sonra Məhəmmədin vəziyyəti ağırlaşdı. O, həm qəbiləsi tərəfindən tərk edilmiş, həm də yaxınlarını itirmişdi. Peyğəmbər istədi Taifdə öz mövqeyini bərkitsin ancaq buna da nail ola bilmədi. Bir nəfər qüreyşinin himayəsi ilə Məkkəyə gələ bildi.

Həmin vaxt Məhəmməd Mədinə şəhərindən gəlmiş bir neçə tacirlə rastlaşır. Peyğəmbərin dini Mədinədə geniş yayılmışdı. Mədinəlilər yəhudilərlə həmişə təmasda olduqlarına görə artıq təkallahlığı qəbul etmişlər. Həmin tacirlərlə Məhəmməd ətraflı söhbət edir və vəziyyəti öyrənir. 620-ci ildə məkkəyə qurban bayramına gəlmiş bir qrup mədinəli ilə tənha görüşür və onlar Məhəmmədə biyət edəcəklərinə and içirlər. 621-ci ildə yenə də 12 nəfər mədinəli ilə müqəddəs Ərəfat dağından Mina vadisinə aparan cığırda görüşürlər. "Bu bir neçə mədinəliyə sonralar ənsar (köməkçilər) adı verildi. Beləliklə, Məhəmməd eyni zamanda həm dini, həm də bir siyasi partiyanın başçısı oldu" (55, s. 38). Bu danışıqlardan sonra məsləhət oldu ki, Məhəmməd Məkkədən Mədinəyə köçsün. Bu tarix 622-ci il iyul ayının 26-sına təsadüf edir. Həmin tarix müsəlman erasının (hicri-qəməri tarixinin) başlanğıcı olur. Bu tarixdən etibarən "Məhəmməd üçün əziyyətli dövr bitmiş oldu" (55, s. 38) və islam dininin reallaşması üçün geniş imkanlar açıldı. Artıq Məhəmməd öz dininin yaşamasında müdafisə mövqeyi yox, hücum taktikası seçdi.

Məhəmməd istədi Mədinədə olan ərəbləri və yəhudiləri öz ətrafında birləşdirsin. Hətta, yəhudilərin xatirinə bəzi güzəştlərə getmişdi. Namaz qılarkən müsəlmanlar da yəhudilər kimi üzlərini Yerusəlimə (Beytülmüqəddəsə) tuturdular. Sonra yəhudilərin radikal mövqeyi üzündən Mədinədə yaranan "icma" dağıldı və peyğəmbər 623-cü ildə Məkkəni və oradakı müqəddəs daş olan Kəbəni qiblə elan etdi. "Məhəmməd yəhudilərlə əlaqə saxlamaq

nəticəsində Əhdi-ətiq ilə tanış ola bilmişdi. Həqiqətən, Quranın o zamanlara aid hissələrində bunun əks olunduğunu görürük. Biz Məhəmmədin ulu babası İbrahimi necə ustalıqla islam dininə qatıldığını görmüşdük" (55, s. 39). Bu barədə Qurani-Kərimdə də müfəssəl məlumat var: "Sən de: biz batindən haqqa tapınan İbrahim dinindəyik. Çünki, o, Allaha şərik qoşanlardan deyildi. Belə deyin: biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına göndərilənlərə, Musaya və İsaya verilənlərə, Rəbbi tərəfindən peyğəmbərlərə verilən şeylərə inanmışıq. Onların heç birini digərindən ayırmırıq. Biz ancaq Allaha boyun əyən müsəlmanlarıq" (57, s. 22).

Mədinədə olanda peyğəmbər tərəfindən dəstəmaz almaq, əzan vermək, namaz qılmaq, oruc tutmaq, xüms-zəkat adətləri təsbit olundu. İlk məscid də Mədinədə tikildi. Peyğəmbərin Mədinədəki fəaliyyəti çox faydalı oldu: "Qədimdən qalma siğəqardaşlıq adətinə əsaslanan və Məkkədən gəlmiş mühacirlər ilə mədinə şəhərinin müsəlman olan və olmayan əhalisini bölünməz bir tam halında birləşdirən bu hadisənin əhəmiyyətini ayrıca qeйd etmək lazımdır" (55, s. 39).

Məkkədəki fəaliyyətdən biri də döyüşkən ordunun yaranması idi. Məhəmməd sonra bu ordu ilə islam tarixində misli görünməyən qələbələr əldə edir. Onun cəmiyyətdə mövqeyini bərkidir.

İslam dinində artıq qiblə Yerusəlimdən Məkkəyə keçmişdi. Məkkədə isə bütlərə sitayiş olunurdu və Kəbə ətrafı bütlərlə əhatə olunmuşdur. Bu şəhəri din mərkəzinə çevirmək lazım idi. Ona görə də tədbirlər görülür və Məkkəni ələ keçirmək üçün onun karvan yolları nəzarət altına alınırdı. Bu olduqca dəqiq düşünülmüş hərbi-taktiki gediş idi. Məkkə karvanları ilə ilk döyüş 623-cü ildə, sonra isə 624-cü ildə yanvarın 13-də Bədr döyüşü oldu. Bu döyüşdə Məhəmməd islamın qəddar düşməni Əbu Süfyanla üz-üzə gəldi. Məhəmmədin igid sərkərdəsi Həmzə təkbətək döyüşdə qalib gəlmələri islamın hörmətini daha da artırdı. Bu məğlubiyyətin əvəzini çıxmaq üçün Əbu Süfyan 625-ci ildə Mədinəyə hücum etdi. Şəhər ətrafında Uhud döyüşündə

Həmzə həlak olur, peyğəmbərin özü də yaralanır. Məkkəlilər şəhərə girməyə cəsarət etmirlər. 627-ciilədək sakitlik olur və həmin ilin mart ayında Məkkəlilər yenidən Mədinə üzərinə hərəkətə başlayırlar. Şəhəri islamı qəbul etmiş Salman adlı bir ağıllı fars xilas edir. Onun təklifi ilə şəhər ətrafında 6 gündə dərin xəndək qazırlar və Əbu Süfyanın atları bu xəndəklərdən keçə bilmir. Buna islam tarixində "Xəndək davası" deyirlər. Məkkəlilər qayıdıb gedirlər.

628-ci ilin müqəddəs ayında Məhəmməd Məkkəyə getmək qərarına gəlir. Öz adamları ilə Məkkəyə gələn Məhəmməd şəhərin yaxınlığındakı Hüdeybiyyə adlı yerdə dayanır və hər iki tərəfdən buraya adamlar gəlir və onlar saziş bağlayırlar. Sazişə görə bir il sonra Qyreyşilər üç günlüyə şəhərdən çıxmalıydı və Məhəmməd öz dindarları ilə şəhərə girməli idi. Müqavilənin başqa bəndinə əsasən 10 il heç bir müharibə olmamalı idi. Islamı qəbul etmiş hər bir Məkkəli azad surətdə Məhəmmədin tərəfinə və əks tərəfə keçə bilərdi. Məkkəlilər Mədinə ətrafından keçərək Suriya, Bizans və başqa yerlərə ticarətə gedə bilərdilər. Bu müqavilədən sonra islam dininin nüfuzu artdı. Hətta Məkkənin tanınmış adamları Xalid ibn Vəlid və Əmr ibn əl-Ass və başqaları Məhəmmədin tərəfinə keçdi. 629-cu ildə Mədinə ətrafında yaşayan Xuzaylar, Bəkrlər, Süleymanilər, Qətəfanlar da islamı qəbul etdilər. Məhəmmədin dini demək olar ki, Ərəbistan yarımadasının çox hissəsinə yayılmışdı. Bu fakt Məkkəni narahat etməyə bilməzdi. Deyilənlərə görə, Əbu Süfyan peyğəmbərin əmisi Abbasla onun yanına gəlir. Belə şərtləşirlər ki, şəhər maneəsiz təslim olsun. Beləliklə, Məkkə təslim olur və Əli ilə Abbas Kəbədəki bütləri məhv edirlər. Yalnız qara daşa əl vurmurlar. Şəhər islam dinini qəbul edir.

Məkkədən sonra Taif şəhərinə hücum başlayır. Məlik ibn Atifin başçılığı ilə bu şəhər bir qədər müqavimət görtərib döyüşür. Ancaq bu müqavimət uzun çəkmir və şəhər ələ keçirilib müsəlmanlaşdırılır.

631-ci ildə Qurban bayramı ilə əlaqədar bütün Ərəbistandan tökülüb Mina vadisinə gəlmiş ərəblərə Əli və Əbu

Bəkr bildirir ki, bundan sonra Ərəbistanda çoxallahlılıq ləğv olunur. Yalnız bir Allah var və Məhəmməd onun rəsuludur. Elan olunur ki, bundan sonra islam dinini qəbul etməyən Qurban bayramında Mina vadisinə və Kəbəyə buraxılmayacaq.

631-ci ildə Məhəmməd güclü ordu ilə Mute müharibəsi zamanı öldürülən müsəlmanların intiqamını almaq üçün Suriya istiqamətində hərbi səfərə çıxdı. Lakin Bizans sərhəddinin yaxınlığında yerləşən Tabukdan o tərəfə getməyib bir neçə basqın edəndən sonra geri qayıtdı. Ümumiyyətlə, islam tarixçiləri islamın 631-ci ilini "elçilik ili" adlandırırlar. Bu ildə müsəlmançılığı qəbul etmiş qəbilələr Məhəmmədin yanına elçilər göndərirlər. Məhəmmədin qüdrəti günü-gündən artırdı.

Məhəmməd peyğəmbər əleyhis-salam islam dininin banisi müsəlmançılığın yayıcısı kimi 23 il (610-632 miladi) fəaliyyət göstərmişdir. Məhəmməd əleyhis-salam nə qədər ağıllı, nə qədər geniş dünyagörüşlü olması onu göstərir ki, həmin dövrdə cəmiyyətin bütün həyat sahələrini tənzim edəcək layiqli hüquq normaları yarada bilmişdi. Müsəlman hüquqşünas və kəlamçıları bütün biliklərin Quranda olmasını iddia edirlər, hətta Məhəmməd əleyhis-salamın özünün sağlığında da elə ictimai münasibətlər meydana çıxmışdır ki, həmin münasibətləri Quranda göstərilən normalar, peyğəmbərin hədisləri, göstəriş və məsləhətləri ilə həll etmək mümkün olmuşdu. Quranda "Biz kitabda (Quranda) heç bir şeyi nəzərdən qaçırmadıq (əskiltmədik)". ( Ənam surəsi, 38-ci ayə) deyilməsinə baxmayaraq islamın ilk dövrlərində belə onun bütün həyat hadisələrini əhatə etdiyinə inanılmamış, yeri gəldikdə mövcud məsələləri həll edənlər öz rəylərinə əsaslanmış, bu rəyin Qurana zidd olmaması əsas götürülmüşdür. Çox zaman adətlərdən də istifadə edilmişdir.

Məhəmməd əleyhis-salam peyğəmbərlik dövründə vahid islam dini uğrunda gedən mübarizə və Quran ehkamlarının tətbiqi məsələlərində qardaşlıq, mehribanlıq və bərabərlik birliyi yaratmışdır.

İslamın fəthlərindən sonra islam dininin yayılması, yeni-yeni ictimai münasibətlərin həlli zərurətinin meydana çıxması, hər

bir insanın hüquq məsələlərinin həllində ciddi inkişaf prosesinin yaranmasına gətirib çıxarmışdır.

632-ci il peyğəmbərin ömrünün axırıncı ili oldu. Həmin ildə o birinci və axırıncı dəfə Məkkəyə həcc ziyarətinə getdi. O əvvəllər də olmuşdu, ancaq təkmilləşmiş bir müsəlman qanunu çərçivəsində həcc vaxtı olmamışdı. Həmin il iyun ayının 8-də Peyğəmbər dünyasını dəyişir. Onu, özü vəsiyyət etdiyi kimi yatdığı yerdə dəfn edirlər.

Belə bir adam haqqında bir neçə sətirlik bir fikir irəli sürmək mümkün deyildir. Onun bütün həyat yoluna nəzər salsaq görərik ki, Məhəmməd səbrli və mülayim təbiətli və qəlbi həmişə əsrarəngiz həyəcan keçirən bir adam idi. Sonra onun əsas görüş və fikirləri vahid Allah və axirət həyatının reallığı ətrafında büllur kimi aydınlaşdı və Məhəmməd bu imanını, özünün səmimi qəlbdən gələn möminliyi, çox gözəl bəlağət qabiliyyəti və mətanəti sayəsində öz ətrafındakıların hamısına təlqin etdi. Sonralar onu peyğəmbərlik qabiliyyətinə həm diplomat, həm də döyüşçü olan bir dövlət xadiminin istedadı əlavə olundu. Məhəmməd inqilabçı deyildi. Əksinə, o danışıq aparmağı, bir işi yenidən təşkil etməyi, uyğunlaşdırmağı və işin axırında onu özünə qatmağı üstün tuturdu. "O, əlverişli fürsət gözləməyi bacarırdı: odur ki, "Zaman və mən" deyə bilərdi. Əlbəttə, Məhəmməd öldüyü zaman islam dini hələ bütün Ərəbistanı əhatə etməmişdi. Lakin Hicazda özünə möhkəm yer eləmişdi. Məhəmməd insanları birləşdirə bilən dini və siyasi dühası sayəsindədir ki, ərəblər öz varlıqlarını dərk edərək, cəhalət və hərci-mərcilik vəziyyətindən çıxdılar və mədəniyyət tarixində öz yerini qəti şəkildə tutmaq üçün hazır oldular" (55, s. 46).

Məhəmməd peyğəmbərin böyüklüyündən onun dostları da, düşmənləri də danışır. Hətta, onu tarixin birinci adamı elan edənlər də yanılmırlar. Təsadüfi deyil ki, onun yaratdığı dinə bu gün az qala bəşəriyyətin yarısı sitayiş edir. Bu dinin ayin və mərasimləri elə müdrikcəsinə düşünülüb ki, hər bir insan bu dinə meyl edərsə bu ayin və mərasimlər az bir vaxtda onda dərin dini duyğular yaradır. İslamın belə möhtəşəmliyinə səbəb olan

amillərdən biri də ərəb dilinin əsrarəngizliyidir. Bu dilin xüsusi avazı və ahəngi insanda ilahi duyğular yaradır və bu dildə avazla səslənən əzən sədaları, Quran ayələri, mərsiyə və qəsidələr asanlıqla insanların ruhunu cilalayır və onlarda qeyri-adi ilahi duyğular yaradır. Olsun ki, bu üstünlüklərinə görə peyğəmbər əshablarına buyurmuşdur ki, dini ayinlər ərəb dilində aparılsın. Ona görə də, bütün millətlər namazı ərəb dilində qılıb, Quranı bu dildə oxuyurlar.

Peyğəmbərin özünün də gözəl qiraət bacarığı olub. İslamın ilk vaxtlarında hətta onu şair adlandıranlar olub: "Məhəmməd fövqəlbəşəri aləmlə təmas hesab etdiyi qəribə və cismani hallar keçirərkən yaratdığı saf, məftunedici, poetik nəsr parçalarını yaradıcılığının məhsulu kimi qiymətləndirmirdi. Məhəmməd inanırdı ki, bunlar Allahın ilahi kəlamlarıdır" (56, s. 56-57). Təsadüfi deyil ki, Quranın özü "poetik nəsrlə" yazılmışdır. Quranın poetik dilini bizim qədim abidəmiz olan "Kitabi-Dədə Qorqud" eposunun dili ilə müqayisə etmək olar. Məsələn: **"Hanı indi ərənlər, dünya mənim deyənlər, əcəl gəldi, yer gizlədi, fani dünya yenə qaldı. Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya!"** Belə bir poetik düşüncə Quranda da var: **"Qul hüvəllahu əhəd, Allahus-səməd, ləm yəlid və ləm yuləd. Və ləm yəkulləhu küfüvən əhəd"**. Eposdan və Qurandan gətirələn nümunədə qara rənglə verilmiş sözlərin həmahəngliyi və həmqafiyə olması mətnin avazla oxunmasını, yadda saxlanılmasını asanlaşdırır və insana bədii zövq verir.

Dini mətnlərin poetik normalar çərçivəsində verilməsinin xüsusi tarixi var. Bir sıra alimlər bunu Zərdüşt peyğəmbərin "Avesta"sı ilə bağlayırlar və iddia edirlər ki, ilk dəfə Zərdüşt dini mətnlərin "muğamlar" üzərində oxunmasını, şeirlə və ya mənsur şerlə yazılmasını dünya praktikasına tətbiq edib. Təsadüfi deyil ki, Quranda "Avesta"dan gəlmə bəzi motivlər var.

Məhəmməd peyğəmbərin yaratdığı yeni din, həm də yeni fəlsəfi düşüncə idi. Bu mənada onun dərin fəlsəfi fikirlərinin açarı bəzən şəxsi həyatından keçən bir sıra faciələrlə bağlıdır. Başqa peyğəmbərlər kimi, O da xoşbəxt ailədə dünyaya göz açıb,

xoşbəxt yaşayan adamlardan olmayıb. Onun şəxsi faciələrinə: valideynlərini erkən itirib yetim qalmasına, başqalarına möhtac olma əzablarına, övlad faciələri də əlavə olmuşdur. Hələ sağlığında ikən övladlarının dünyasını dəyişməsi ona mənəvi sarsıntılar gətirmişdi. Valideyin qayğısının həsrəti ilə yaşayıb, övlad həyatının fərəhini duymaq ona nəsib olmamışdır. Olsun ki, bu həsrət duyğuları onu axirət haqqında dərin düşüncələrə vadar etmiş, nəticədə öz dinində axirətə inanmağı əsas şərt kimi irəli sürmüşdür. Təsadüfi beyil ki, son nəfəsində o demişdir: "Mənim bütün ali məsləkdaşlarım cənnətdədir" (56, s. 88). Görünür peyğəmbər son nəfəsində belə axirətə inanmış və real həyatda itirdiklərini orada tapacağına inanmışdır.

İkinci tərəfdən də, belə bir fəlsəfi fikir irəli sürə bilərik ki, peyğəmbər görürdü ki, bu dünyada insanların istəkləri tükənməzdir və onları həyata keçirib kam almaq qeyri-mümkündür. Hətta, elə insanlar var ki, kamillik zirvəsinə çatmadan, həddi-buluğa çatmadan ədalətsizliyin qurbanı olur və dünyaya gəlib, dünyadan kam almaq əvəzinə burada zillət görüb, bu aləmi tərk edirlər.

Onun düşüncəsində ali varlıq olan Allah bu dünyanın "memarı" kimi bu qədər qəddar ola bilməz. O yaratdığını xoşbəxt görmək istəyir. Fəqət o xoşbəxtlik nə vaxt olacaq?! Peyğəmbər onu bu dünyada görmədiyinə görə xəyallarını axirət dünyası ilə əlaqələndirib, ümidləri o dünyanın xoşbəxtliklərinə bağlayırdı. Bu fəlsəfi mühakimə bir Peyğəmbər kimi onun bir sıra suallara qarşı verdiyi cavab idi. Bir Peyğəmbər kimi o, öz əshablarına həmin sualların cavabını verməli və Allahın ədalətindən danışanda onu əsaslandırmalı idi. Bunu nəzərə alan Peyğəmbər insan arzularının tükənməzliyini və onların bu dünyada həyata keçib insanı kam almağa imkan verən fiziki və mənəvi imkanları görmürdü. Ona görə də həmin istəklərin məhz axirətdə həyata keçib insanı xoşbəxt edəcəyinə ümid verirdi.

Elə ateist düşüncəli filosoflar da bu fəlsəfi düçüncəni tənqid edərək qeyd edirlər ki, peyğəmbərlər cənnəti sizə o dünyada vəd edirlər, bizsə bu dünyada sizin üçün yaradırıq.

Əlbəttə, bu məsələdə cənnət düşüncəsinin özünə də aydınlıq gətirilməlidir. Bu məfhum altında nə nəzərdə tutulur? Ərəblərə görə cənnət necə olmalıdır? Başqa xalqların düşüncəsində cənnət necə olmalıdır? Məsələn, ərəblər bağlı-bağatlı, sulu-çeşməli bir məkana deyir. Başqası isə elə bir təbii iqlim şəraitində yaşayır və cənnətin belə təsəvvürünü qəbul edə bilmir. Onlar üçün cənnət artıq könül xoşluğunu təmin edə biləcək bir məkandır.

O deyirdi: Allah ədalətlidir, ancaq bu dünyada onu görmürdü. O deyirdi, Allah qadirdir, ancaq bu dünyada bəndənin nahaqdan zillət içində yaşamasını görəndə ümidi o dünyaya bağlayırdı. Bütün bu fəlsəfi düşüncələr olsun ki, Peyğəmbərin dini təliminə güclü reallaşdığı bir məkanı nəzərdə tuturdu.

Qeyd etmək lazımdır ki, Məhəmmədin yaratdığı dinin sonra geniş yayılmasında xəlifələrin də böyük xidmətləri oldu.

Məhəmməd peyğəmbərdən sonra xilafətin başına uzun məsləhətləşmələrdən sonra qaynatası, arvadı Aişənin atası Əbu Bəkr keçir. "Əbu Bəkr Məhəmmədin yaratdığı müsəlman ümmətinə iki ildən bir qədər çox başçılıq etdi. Onun dövründə vergi vermək istəməyən köçərilərin üsyanı yatırıldı, araya nifaq salan, araqızışdıran bütün yalançı peyğəmbərlər həm qadın, həm də kimi peyğəmbərlər məhv edildi. Fərat çayının mənsəbindən Ölü dənizinə qədər artıq xilafətə rəhbərlik etdi" (56, s. 94-95). Ondan sonra Ömər ikinci xəlifə seçildi. Ömər də Məhəmməd Peyğəmbərin qaynatası idi.

"Ömərin on illik xəlifəliyi islam tarixinin qabiliyyətli yayılma möhkəm təşkilat dövrü oldu. Ömər öləndə (644-cü ildə) İraq, Suriya, Misir və Benqazi istila edilərək ərəb sərdarları tərəfindən idarə olunurdu" (55, s. 49). Onun xəlifəliyi dövründə tarix hicri qəməri tarixinə çevrildi. Bununla belə, onun əmri ilə Isgəndəriyyə kitabxanasını Nil çayına atılıb məhv edilməsi bəşəriyyət qarşısında bağışlanılmaz səhv kimi qiymətləndirilir.

Ömərdən sonra üçüncü xəlifə Osman (644-656) oldu. O, Ömərin xüsusi himayəsi ilə hakimiyyətə gəldi. Hakimiyyətə gələndə 70 yaşı var idi. Osman Əməvilərdən idi. O, Məhəmməd peyğəmbərin kürəkəni idi. Əvvəl birinci qızı Ruqiyyə ilə, o

öləndən sonra Ümmü Gülsümlə evlənmişdi. İslam tarixçiləri islamiyyətin zəifləyib yeni məzhəblərin meydana gəlmə səbəblərini onun dövründəki hərci-mərcliklə əlaqələndirirlər.

Onun xəlifəliyini islamşünas Anri Masse belə səciyyələndirir: "Yeni-yeni istilalar davam edirdi. Kiçik Asiya və Egey dənizi adalarına basqınlar edilirdi, İranda son hərbi əməliyyat keçirilirdi və Şimali Afrikaya hücumlar edilirdi. Lakin bu uzaq hərbi səfərlər daha çətin olurdu. Ələ keçirilən qənimət isə əvvəlki qədər çox olmurdu. İtaət altına alınan xalqlar, İslam dinini, öz dini etiqadlarına görə deyil, daha az vergi məqsədilə qəbul edirdilər. Ərəblərin özlərində də istila edilmiş ölkələrdə rast gəldikləri zinət və cah-cəlal zövqü oyanmışdı. Bütün bunlar son dərəcə çətin maliyyə vəziyyəti əmələ gətirmişdi: odur ki, başlıca olaraq öz qohum-əqrabasına torpaq paylamaqla məşğul olan Osman bu çətin vəziyyəti düzəldə bilmirdi. Əyalətlərdə qarışıqlar olurdu, siyasi həyəcan və iğtişaşlar ilə dini çəkişmələr bir-birinə qarışırdı. Quranın qəti mətnlərin müəyyən etmək üçün Osmanın göstərdiyi bütün ciddi cəhdlər sərt xasiyyətli möminlərin ona qarşı duyduğu ədavəti azalda bilmədi. Peyğəmbərin ən etibarlı mübarizə yoldaşlarından biri əvvəlcə əxlaq düşkünlüyə qarşı, sonra isə hətta Osmana və Əməvilərin əleyhinə qarşı xütbələr oxumağa başladı və dedi ki, ancaq Əli və onun oğulları peyğəmbərin vərəsəsi olmaq hüququna malikdirlər. Misirdə dönüb müsəlman olan yəmənli bir yəhudi də bu hüququn yerinə yetirilməsini tələb edirdi. Eyni zamanda möminlərin irticası özünü göstərdi" (55, s. 52). Xəlifə həmin irticanın qurbanı oldu. Onu evində qılınclayıb öldürdülər. "Osmanın xəlifəliyi vaxtında bir tərəfdən daxili müharibə əmələ gəldi, digər tərəfdən də sülalənin qanuni bir şey olduğu fikri ortaya çıxıb, Əlinin ailəsində təcəssüm etdi" (55, s. 53).

Osmandan sonra Əli əleyhis-salam dördüncü xəlifə seçildi (656-661-ci illərdə xəlifə olmuş). Həzrət Əli daha çox Osmanın vaxtında pozulmuş islami birliyin bərpa olunmasına vaxt sərf etdi. Bu məqsədlə o İslamın tarixində məşhur olan "Cəməl" və "Suffin" döyüşünü etdi. Cəməl döyüşündə məşhur Təlhə və

Zübeyrə (Xədicənin qardaşı oğlu) həlak oldu və Aişə əsir düşdü. Syffin döyüşündə isə Həzrət Əli ilə Suriya hakimi Müaviyə arasında oldu. Çox təssüflər olsun ki, Əli islamiyyəti birləşdirib sərt islami qanunları bərpa edə bilmədi. Onu 661-ci ildə Pamazan ayının 19-da namaz qılarkən məcsiddə zəhərli qılıncla yaraladılar və ramazan ayının 21-də dünyasını dəyişdi.

Bu faciədən sonra islamiyyətdə parçalanma və təriqətlərin yaranma procsesi sürətləndi: "Münsiflər məhkəməsində Əlinin nümayəndəsi hörmətli, lakin aciz qoca bir adam idi. Əlinin yaxın adamları tərəfindən zorla onun boynuna qoyulan bu qoca nümayəndə, Müaviyənin nümayəndəsi tərəfindən işlədilən hiylənin qurbanı olanda, Əlidən ayrılaraq öz aralarından yeni bir xəlifə seçdilər. Tarix onlara xaricilər adını vermişdir. Əliyə sədaqətli olanlar isə Şiə adlanırlar" (55, s. 54-55).

Məhz həmin məqamdan islamda parçalanma başlamış və onun ilk tirələri Cunnilik, Xaricilik və Şiəlik olmuşdur. Bu dövrədək İslamda təkamül procsesi olmuşdur: "Ərəb xilafətinin ilk dörd nümayəndəsi zamanında, yəni "pak və təmiz" adlandırılan dörd xəlifə vaxtında xilafətin necə təkamül etdiyini gözdən keçirsək görərik ki, Əbu Bəkrin zamanında Ərəbistan sabitləşib xarici istilalar hazırlaнmışdır. Ömərin vaxtında ərəb xilafəti qalibiyyətli genişlənmiş şəkildə yayılmışdır. Osmanın vaxtında istilalar mökhəmləndirilmiş, zinət və cah-cəlalın genişlənməsi nəticəsində xəlifənin hakimiyyəti zəifləmişdir. Əlinin zamanında xilafətin hakimiyyəti daha da zəifləmiş, daxili müharibə başlayaraq dini təfriqə doğurmuş, xilafətin xaricdə genişlənib yayılması dayanmış və bəlkə də Bizans və İran padşahlarını təqlid etmək nəticəsində islam dinində sülalə vərəsəliyi fikri kök salıb bərqərar olmuşdur" (55, s. 56).

İslamın yayılma procsesi sonralar da davam etmişdir. Xüsusi ilə, qeyd etməliyik ki, türk fütuhatları zamanı da islamın yayılma və cəmiyyətdə mövqeyinin möhkəmlənməsi procsesi davam etdirilmişdir. Xüsusən дə, Avropada – Balkanlarda və İspaniyada islamı yayanlar türklər olmuşlar.

Bütün bunlarla bərabər islamda coğrafi genişlənmə ilə yanaşı, eyni zamanda təriqət parçalanmaları da müşaiət olunur. Bunun da obyektiv və subyektiv səbəbləri var idi.

Nə qədər ki, peyğəmbərimiz sağ idi bu dinin başqa dinlərlə rəqabətində elə bir problem yox idi. Bir sıra hüquqi, mənəvi və əxlaqi normaları peyğəmbərimiz vasitəsilə asanlıqla öz həllini tapırdı. Peyğəmbərimiz dünyasını dəyişəndən sonra onun silahdaşları bu vəzifəni şərəflə yerinə yetirirdilər. Ancaq onların da dünyadan getməsi ilə islamda bir böhran başladı.

Şəriətin bir sıra ayinləri fəqihlər tərəfindən müxtəlif cür şərh edildi və nəticədə, islamın təriqətlərə parçalanma prosesi baş verdi. Bu parçalanmanın ilk nümunəsi Sünni, Xaricilər və Şiə məzhəbləri oldu. Elə imamiliyin də əsasını Şiəlik təşkil edir.

Sünnilər islamın idarəçiliyində sünnə-qanunları əsas götürürdülər. Şiələr isə islamda imamiliyi – yəni islamın da başqa dinlər kimi, bir adamın liderliyini qəbul edirdilər. İmamilər iddia edirdilər ki, peyğəmbərimizdən sonra şəriətin qanunları yalnız imamlar tərəfindən tənzimlənə bilər. Yalnız həmin imamların-rəhbərlərin şərhi islamda qanun kimi qəbul edilməlidir.

İmamlıq isə hər adama verilmir və yalnız peyğəmbərimizin nəslindən olmalıdır. Eyni zamanda onun nəslindəki seçilmiş insanlar imam elan edilə bilər. Bu məsələdə imamın xələfi sağ ikən imamların özləri tərəfindən elan edilir.

Hətta, şiələr deyir ki, peyğəmbərimizin özü də sağlığında imam Əlini öz yerinə vəli təyin etmişdir və onu şiələr birinci kimi qəbul edirdilər. Onun imam təyin edilməsinə baxmayaraq Əbu Bəkrin, Ömərin, Osmanın, Müaviyənin xəlifə olmasını və İslama rəhbərlik etməsini səhv addım hesab edir, bunu islamda özbaşınalıq kimi şərh edərək həmin adamlara lənət yağdırırlar. Onlar iddia edirlər ki, həmin adamlar və onların davamçıları islamın qanuni rəhbərləri olan imamlara qarşı qəddar mövqe tutmuşlar.

Həqiqətən də islamda şiələrin imam saydıqları şəxslər müxtəlif formalarda əzab-əziyyətlə öldürülmüşlər. Hətta, onların faciəli ölümünü xristian tarixindəki İsa peyğəmbərin çarmıxa

çəkimləsi və əzabla öldürülməsi ilə müqayisə edirlər. Bu motivin özünü də haqqə aparan yolun ilk əlaməti kimi qəbul edirlər. Əsrlər keçdikcə islamda yeni dini icmalar, fəlsəfi cərəyanların meydana gəlməsi də çoxalmışdır. İstər şiəlikdə və istərsə də sünnilik məzhəbində çoxlu sayda icmalar meydana gəldi.

İndi isə ümumiyyətlə islamın meydana gəlməsinin zəruri səbəblərindən danışaq. İslamın meydana gəlməsinin tarixi zərurəti və sonradan onun məzhəblərə parçalanması bir sıra mövcud tarixi reallıqlardan irəli gəlirdi.

Bu barədə ətraflı bəhs açan fransız şərqşünası Anri Masse yazır: "İslam dinindən əvvəlki bədəvi ərəblərin şüurunun əsasını nəsil ruhu və ya daha dürüst desək, ailə dini təşkil edirdi. Ailə dini elə bir duyğu idi ki, helmə yəni ağıl və əxlaq əsasında hərəkət edən insanın halına əks olaraq "gobudluq" və hətta "vəhşilik" mənasına cahiliyyət halını əmələ gətirmiş bütün təmayüllər bu duyğudan doğurdu. Büdpərəst bədəvinin özünə görə əxlaq məfhumu vardı, lakin bu məfhum eyni zamanda həm cəsarətdən, həm də alicənablıqdan ibarət olan mürüvvət formasında idi. Cəsarət öz qəbiləsini müdafiə etmək üçün idi. Alicənablıq düşmən haqqında (qan intiqamı müstəsna olmaqla) göstərilirdi. Onlar çox qonaqpərəst idilər (insanı yemək və şəraba qonaq edirdilər) və qonaq qalmasını onlardan xahiş edənlərə toxunmurdular. Nəhayət, onlar verdikləri sözün üstündə sədaqətlə dururdular. Lakin burasını da demək lazımdır ki, bədəvilərin bəzi mənzumələrindən bizə məlumdur ki, onların bu xasiyyətləri öz borcunu ödəməz bir borclu olmalarına mane olmurdu. Lakin çox vaxt aclıq "kərtənkələ və çəyirtkə" yeyən bədəvi ərəbləri rəhmsizliyə vadar edirdi. Onlar "artıq ağız" hesab etdikləri qız uşaqlarını diri-diri torpağa basdırırdılar (lakin, təxminən yüz il bundan əvvəl Çində imperatorun verdiyi fərmana baxmayaraq, qız uşaqlarını yenə də aclıq üzündən suya atıb boğmurdularmı?!)... Quran bu cahiliyyət dövrünün əxlaq və ilahiyyat müəllimlərinin yerini tutmağa cəhd edəcəkdir" (55, s. 27-28).

İslamın yaranmasına dair rus alimi M.B.Piotrovski fikrini belə ifadə edir: "İslamın meydana gəlməsi tarixi bu dinin özü

üçün həm son vəhy anı, həm də ilahi vəsiyyətlərin öz gözəl təcəssümünü özündə ehtiva edən ideal cəmiyyət həyatının nümunəsi kimi birinci dərəcəli əhəmiyyətə malikdir. Məhəmməd peyğəmbərin dövrü XX əsrin əvvəllərindəki modernistlərdən tutmuş indiki "fundamentalistlər"ə qədər əsrin əksər islam ideya cərəyanları baxımından rəhbər tutulması ən mühüm yönüm, istinad ediləsi mütləq idealdır" (49, s. 6).

Məlum olduğu kimi islam dini ərəb dünyasında meydana gəlmiş və özündən əvvəlki ərəb inanclarını (Kəbə əvvəlki dinlərdə də müqəddəs hesab edilirdi), milli-dini qaynaqlarını özündə əks etdirmişdir. İslamın meydana gəlməsi və yaxın Şərqdə geniş yayılması faktiki olaraq yeni sivilizasiyanın əsasını qoydu. Bu sivilizasiya təkcə ərəb dünyasını deyil, həm də bütün Yaxın Şərq xalqlarını əhatə etdi. Sözün həqiqi mənasında böyük bir coğrafi ərazidə dini birlik yaratdı və dünyada yeni əxlaqi və dini dünyagörüşü formalaşdırdı.

Etiraf etməliyik ki, bu din özündən əvvəlki dinlərin səmərəli ideyalarını da qoruyub saxladı və inkişaf etdirdi. Tövratda və İncildə olan peyğəmbərlər sülaləsi Quranda da öz əksini tapdı. Hətta qədim Azərbaycanlıların dini kitabı olan Avestanın bir sıra müddəaları (Nuh əfsanəsi, qıl körpüsü, qiyamət və s.) bu dində öz yerini tapdı.

İslamdan əvvəl də elə ərəb dünyasında yəhudi və xristian dini var idi. "Xristian və yəhudi icmaları qədimdən Yəməndə və xristian Hicazda yerləşib kök salmışdılar. Xristian icmalarının ən böyüyü Nəcran icması idi: yəhudi tacirlər və xüsusilə yəhudi əkinçiləri Xeyber və Yəsribdə (sonrakı Mədinə şəhərində) firavanlıq içində yaşayırdılar. Bütün bu icmalar Məkkə şəhəri ilə əlaqə saxlayırdılar. Bu şəhərin böyük əhəmiyyəti var idi. Çünki, o, uzun sürən daimi quraqlıqlar ölkəsində həyatın əsas şərti olan su çeşməsinin ətrafında salınmışdı" (55, s. 29).

Baxmayaraq ki, ərəbistanda müxtəlif dinlər mövcud idi, bununla belə həmin dinlər bütün ərəb dünyasını vahid ideya ətrafında birləşdirmirdi. Əksinə onları daha da ayırırdı. Bu mənada islam sosial sifariş idi. Ərəb dünyasını mövcud dinlərin

müddəaları təmin etmirdi. Ərəblərin yaşadığı ərazilər elə bir təbii-iqlim şəraitinə malikdir ki, insanların mənəviyyatını formalaşdırıb onları möhkəm vərdişlərə çevirə biləcək ciddi dini mərasimlər, vərdişlər olmalı idi. Bu mənada islam həm də Məhəmməd peyğəmbər tərəfindən ərəblərin tələbatını ödəyə biləcək bir dini ideya idi. İslamın ideyaları və mərasimləri ərəblərə ictimai-siyasi fəalıq gətirdi. Nəticədə, bildiyimiz kimi ərəb xilafəti uzun illər Yaxın Şərqdə hökmran oldular.

Bu din təkcə ərəblərə deyil, bütün Yaxın Şərq xalqlarına ictimai-siyasi fəallıq gətirdi. Nəticədə, müsəlman Şərqi uzun əsrlər boyu dünyada qabaqcıl xalqları təmsil etdilər və bəşəriyyətin mənəvi təkamülündə xüsusi rol oynadılar. Bu gün də islam dininin mənəvi dəyərləri bəşər əxlaqının formalaşmasında xüsusi rol oynayır.

Qeyd etdiyimiz kimi, İslam dünyanın geniş coğrafi ərazilərində yayılmış və hər bir bölgə bu dinin mənəvi dəyərləri ilə bəhrələnməyə çalışmışdır. Bu məsələdə bəzən regionçuluq da özünü büruzə vermişdir. Buna görə də islamda məzhəblərin meydana gəlməsi təbii idi. Çünki dünyada hər şey inkişaf prosesi keçməlidir. Zamanın tələblərinə cavab verməlidir. Əgər zamanın tələblərinə cavab vermirsə həmin dini ideyalar da tarixin iti sürətli inkişafında öz əhəmiyyətini itirir və yaddan çıxır. Onun yerini zamanın tələblərinə cavab verə bilən yeni dinlər tutur.

## İCTİMAİ HƏYATDA OLAN ƏXLAQİ MÜNASİBƏTLƏR

*Bu yarımbaşlıqda, əxlaqi münasibətlər cəmiyyətin hər bir üzvü qarşısında müəyyən vəzifələr qoyur və onun yerinə yetirilməsini tələb edir. Əxlaq hər hansı müsbət tələblərin yerinə yetirilməsinə xidmət göstərir. Deməli, əxlaq öz-özlüyündə vəzifəni müəyyən edir, bu ictimai həyat şəraitinin bağlılığına şərait yaradır, bu şəraitdən irəli gələn vəzifəyə əməl olunmasına kömək edir.*

*Həmçinin şəffaf prinsiplər üzərində qurulan İslam dini insanları fəaliyyətli olmağa vadar edir, onlarda öz qüvvəsindən başqa İlahi qüvvənin də olmasını yaradır, onu fəallığa həvəsləndirir. İslam dininin iradə azadlığını qəbul etməsi, iradənin Allah tərəfindən insana verilməsi, əslində insanlara məxsus əxlaqın olduğunu qəbul etmək deməkdir. Bu da ictimai həyatda və dində olan müəyyən real münasibətlərin yaranmasına gətirib çıxarır.*

Müqəddəs səmavi kitabların sonuncusu olan Qurani-Kərimin "Nəhl" surəsinin 90-cı ayəsində buyrulur: **"Həqiqətən, Allah (Quranda insanlara) ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi (kasıb qohuməqrəbaya şəriətin vacib bildiyi tərzdə əl tutmağı) buyurar, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edir. (Allah) sizə düşünüb ibrət olasınız deyə, belə öyüdnəsihət verir!"**(16, s. 276).

Ümumiyyətlə yaxşılıq üç cəhətdən – etiqad, əməl və əxlaqdan ibarətdir. İnsan qeyri-varlıq aləminin ən şüurlu fəaliyyət mənbəyinin yeganə yaradıcısıdır ki, onda əxlaq normaları tənzimlənir və ictimai həyatda müəyyən real münasibətlərin yaranmasına təsir göstərir. Əxlaq ictimaiyyətdə insanların bir-birinə, cəmiyyətə, dinə, vətənə, dövlətə, başqa ölkələrə və onların xalqlarına, başqa-başqa etnik millətlərə, o cümlədən cinsə görə olan münasibətləri əhatə etməklə gerçəkləşə bilir. Əxlaq, insanlar arasındakı münasibətləri xeyir, şər, yaxşılıq, pislik, xoşbəxtlik, bədbəxtlik, ədalət, ədalətsizlik, dostluq, düşmənçilik, dünya istəkləri, axirət istəkləri, arzu edilən, arzu edilməyən və sair bu

kimi bir sıra kateqoriyalardan istifadə etməklə tənzimləyir, qaydaya salır.

**Əxlaq - ən qədim ictimai şüur formasıdır. Cəmiyyət yaşadıqca o da mövcud olacaqdır. Məhzi elə buna görə də bu cəhət əxlaqı başqa ictimai şüur formalarından geniş mənada fərqləndirir.**

Əxlaq cəmiyyətin hər bir üzvü qarşısında müəyyən vəzifələr qoyur və onun yerinə yetirilməsini tələb edərək çalışır. . **"Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən!"** (16, s. 563) deyilən müqəddəs kəlam "Qələm" surəsinin 4-cü ayəsi bütün bəşər cəmiyyəti üçün bir örnəkdir. Deməli, əxlaq hər hansı müsbət tələblərin yerinə yetirilməsinə xidmət göstərir. Əxlaq öz-özlüyündə vəzifəni müəyyən edir, bu ictimai həyat şəraitinin bağlılığına şərait yaradır, bu şəraitdən irəli gələn vəzifəyə əməl olunmasına kömək edir.

Cəmiyyət həyatının mühüm şəraiti, onun iqtisadi quruluşu necədirsə, zəruri vəziyyətlərin yaranması hansı formadadırsa, onun əxlaqı da, əsasən elə olur. Yuxarı təbəqənin tərkib hissəsi olmaq etibarı ilə bazis tərəfindən müəyyən edilən əxlaqın dəyişməsi və inkişafı istehsal münasibətlərinin dəyişməsindən və inkişafından asılıdır. Cəmiyyətdə ictimai şəraitin dəyişməsi nəticəsində təkcə əxlaq və onun normaları deyil, həmin normaları ifadə edən əxlaq kateqoriyalarının məzmunu da dəyişir. Əxlaq normalarının cəmiyyətdə ictimai həyat şəraitindən asılı olaraq dəyişməsinə dair daha da çox misallar göstərmək mümkündür.

Əxlaq və onun kateqoriyalarının məzmunu ictimai-iqtisadi formasiyaların bir-birini əvəz etməsi ilə əlaqədar olaraq dəyişir. Əxlaq sinfi xarekter daşıyır. Buna görə də əxlaq, onun kateqoriyaları antaqonist sinifli cəmiyyətlərdə müxtəlif siniflərin nəzərində müxtəlif mahiyyət kəsb edir. Antaqonist cəmiyyətlərdə müxtəlif siniflərə məxsus əxlaq normalarının mövcud olmaması cəmiyyətin iqtisadi quruluşundakı ziddiyyətdən irəli gəlir. Bundan əlavə, sinifli cəmiyyətdə eyni sinifə məxsus olan, lakin müxtəlif peşələrdə çalışan adamların əxlaqında da müxtəlifliyə rast gəlinir.

“Əxlaqda öz mənasına görə ümumbəşəri, sivil keyfiyyətləri özündə birləşdirən bir nüvə vardır ki, bu nüvə ictimai inkişafın hər bir mərhələsində yaranan əxlaqi dəyərləri özündə birləşdirir və onları nəsillərə əxlaqi ideyalar, xeyirxah əxlaqi prinsiplər kimi ötürür. Ümumbəşəri əxlaqi dəyərlər dedikdə, öncə sadə əxlaq və ədalətlilik normaları nəzərdə tutulur”(20, s. 376).

Dini ideoloji qanunlarda əxlaqın sinfi mahiyyətini inkar etməklə hakim sinfin əxlaqını bütün cəmiyyətin əxlaqı kimi göstərmişlər. Dini əxlaqın özünə məxsus prinsipləri olduğunu və bu prinsipləri bütün dövrlərə və siniflərə şamil etməyin mümkünlüyü bildirilmişdir.

Dinşünaslar, o cümlədən islam ilahiyyatçıları qeyd edirlər ki, Allah müxtəlif müqəddəs kitablar – Quran, İncil, Tövrat, Zəbur və s. vasitəsilə insanların əxlaq normalarını müəyyən etməyə köməklik etmiş, Allahın özü isə ən kamil və daimi bir **“Vacibul-vücud”** olduğundan Onun yaratdığı dini əxlaq normaları da daimi, dəyişməz və mükəmməl əxlaq normalarıdır. Bu yenilməz əxlaq normaları bütün dövr və siniflərə aid olduğundan ən qiymətli əxlaq normaları hesab edilir. Allah və dinə etiqad, iman olmadan heç zaman əxlaq yarana bilməz və gələcəkdə də onun mümkünlüyü qeyri reallıqdır. Dinşünasların əsaslı qeydinə görə insanların bütün hərəkət və davranış qaydaları yalnız dinin ehkam və prinsiplərinə müvafiq olaraq tənzim edilir. Din olmadan hər hansı bir əxlaq normaları mövcud ola bilməz və buna görə də dini inkar etmək, əxlaq normalarını inkar etmək deməkdir. Çünki din insanlara mənəvi saflıq uğrunda əxlaqi gözəlliyi, insani keyfiyyətləri, mədəni ünsiyyəti və təlim-tərbiyənin necə olduğunu çatdırır. Necə ki, müqəddəs Qurani-Kərimin “Əhzab” surəsinin 21-ci ayəsində buyurulur: **“Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir”** (16, s. 419).

Əxlaqı din olmadan təsəvvür edə bilməyin bir qədər çətin olduğunu və ya etmək istəməyən adamlar üçün dinşünaslar belə

bir tarixi faktı yada salırlar ki, insanların əxlaqı münasibətləri hər hansı bir dini təsəvvürlərdən irəli gəlmişdir. Hər hansı bir dinin meydana gəlməsi ilə əxlaq normaları mövcud olmuş və formalaşmışdır. Elm, həyat, təcrübə, dünyaya baxış çoxdan sübut etmişdir ki, əxlaqi normaları yaradan hər hansı bir dinə əsaslanmışdır. Çünki İslamın sevimli peyğəmbəri belə buyurmuşdur: **"İnsanları cənnətə daxil edən şeylərin ən mühümü Allah qarşısında təqvalı olub gözəl əxlaqa malik olmaqdır" (60, s. 27).**

Din ilk insan mövcudluğunun yaranması zəminində meydana gəlmişdir. Elmlərin müasir inkişaf səviyyəsi bir daha sübut etmişdir ki, insan cəmiyyətinin tarixi məlum deyil və həmçinin dini təsəvvürlər də həmin tarixin nə zaman yaranması, ilk bəşər övladı Adəm əleyhis-salamla Həvva əleyhas-salamın yer üzündə hansı tarixdən yaşamaları bəlli deyildir.

Bu da bir həqiqətdir ki, müasir dini baxış və anlayışlardan xeyli fərqli və həm də çox bəsit olan ilk dini təsəvvürlər elmi inkişafın son dərəcə aşağı səviyyəsində ibtidai insanların təbiətə qarşı apardığı mübarizədə onun mətnliyinin nəticəsi kimi meydana çıxdığı bildirilir.

Əsas məzmununu yer üzərindəki qüvvələrin səma qüvvələri şəklini almasından ibarət olan dini təsəvvürlərin obyektini ilk dövrdə yenilməz Allah qüvvələri təşkil etmişdir. İlk dini təsəvvürlərə görə insan müəyyən bütlərə sitayiş etməklə, dualar və müəyyən qurbanlar kəsmək yolu ilə onları rəhmə gətirə bilər, cəmiyyət üçün zərərli olan təbiət hadisələrinin qarşısını almaqda, öz yaşayış şəraitini yüngülləşdirmək və yaxşılaşdırmaq üçün onların köməyinə arxalanıb himayəsinə sığına bilər kimi ideya mövcud idi.

Cəmiyyətin inkişafı dini baxışlarda müəyyən dəyişikliklər əmələ gətirsə də, dini görüşlərin obyekti olan Allaha inam qüvvəsi səbəbinə xeyli genişləndi.

Müqəddəs İslam dini bütün dinlərin içərisində tarix etibarilə nisbətən yaxın zamanda, yəni VII əsrdə Ərəbistanda ictimai-sinfi ziddiyyətlərin son dərəcə kəskinləşməsi şəraitində,

cahiliyyət dövrünün qeyri-insani hərəkətlərinin baş verib tüğyan etdiyi bir zamanda əmələ gəlmiş və nəticədə ən kamil, mükəmməl din kimi hakim olmuşdur. Dünya dinlərinin bərabərliyi birliyə xidməti, eyni səviyyədə kütlələri azad vəziyyətdə saxlamaqda bir mühüm vasitə olmuşdur. Bunun nəticəsində də bütün dinlərin nümayəndələri ilə yanaşı cəmiyyətin ictimai şüurunun formalaşmasında əsas əhəmiyyətli olan – fəlsəfəni, elmi, əxlaqı, hüququ və s. cəmiyyət və insan münasibətlərinə aid bütün məsələlərdə humanist vəziyyətin yaranmasına imkan yaratmışdır. "Şüurun bu daxili strukturu ilə yanaşı onun çox müxtəlif halları da mövcuddur. Onlar özünü şübhə, əqidə, inam, qorxu, günah, sevinc, həyacan, arzu və digər hallarda biruzə verirlər" (20, s. 176).

Eyni zamanda əxlaqi şüurun formalaşması cəmiyyətin əsas prinsip və göstəriciləri kimi özünü biruzə verir. "Əxlaqi şüurun bütün bu formaları məntiqi cəhətdən nizamlanmış və əxlaqi hərəkətləri nəinki qabaqcadan müəyyənləşdirməyə, eyni zamanda müəyyən qaydada əsaslandırmağa və qiymətləndirməyə imkan verən sistemdə birləşdirilmişdir"(8, s. 152).

Bununla belə insanın bütün mənəvi dəyərlərlə ona azadlığın verilməsi prinsipi ilə qurulan müqəddəs İslam dini müsəlmanın hərəkət və davranışını geniş çərçivəsinə salan müəyyən əxlaq normaları hazırlanmışdır. Bu əxlaq normaları içərisində İslam dininin məğzini təşkil edən itaətkarlıq ilk plana çəkilir və əsas yer tutur. Qurani-Kərim təlqin edir ki, müsəlmanın əsas xüsusiyyəti itaətkar olmaqdır. İslam məfhumunun özü itaətkar deməkdir. İslam dinini qəbul edən adama isə müsəlman deyilir ki, bu da özünü Allahın itaətinə vermək deməkdir. Qurani-Kərim müsəlman əxlaqının meyarını itaətkarlıqda görür, itaətkarlığı isə müsəlman əxlaqının ən yüksək prinsipi kimi təlqin edir.

Müqəddəs İslam dininin müsəlman itaətkarlığına olan baxışı, onun insanın yaradılması haqqındakı elmi təsəvvürü ilə insanın mahiyyəti və ictimai həyatda oynayacağı rola düzgün münasibəti ilə xeyli dərəcədə bağlıdır. İnsanın əmələ gəlməsi

tarixini əsaslandıran islam dini izah edir ki, Allah insanı palçıqdan yaratmış və sonra ona ruh verərək canlı hala gətirmişdir. Qurani-Kərimdə göstərilir ki, insan çox zəif bir məxluqdur, çünki insanın ən mühüm və əsas vəzifəsi onu "Yaradan" (Allah, Vacibul-vücud) ağasına – yəni böyük olan Allaha sözsüz tabe olmaqdan, özünü onun qarşısında bir qul kimi aparmaqdan ibarətdir. Müqəddəs İslam dinində mövcud olan ağa-qul münasibətləri nəinki Allahla insan, eləcədə Allahla peyğəmbər arasındakı münasibətlərdə də dəyərləndirilir.

İslam əxlaqı müsəlmanın Allaha səcdə etməsini müvəqqəti bir hal deyil, onun həyatının məqsəd və mənasını hesab edir. Müqəddəs Qurani-Kərim insanlara təlim edərək bildirir ki, inam və səcdə həmişə və hər yerdə olmalıdır. Şəriətə görə ancaq əsil müsəlman o adamdır ki, gəzərkən, oturarkən, uzanarkən belə ancaq Allah haqqında düşünür.

İslam dini əxlaqına görə müsəlmanın itaətkarlığının mühüm şərti onun Allahın varlığına inanmasıdır. Qurani-Kərim insanlara təlim edir ki, Allahın mövcud olmasına inananlar Onun köməyini əldə edir. Həqiqətən də Allah ancaq Ona inananları qaranlıqdan işıqlığa çıxarır, xoşbəxt edir və onların o biri dünyada da yaxşı yaşamasını təmin edir.

Bütün dinlər kimi, İslam dini də Allaha inamı əsas məsələ olaraq irəli sürərkən həqiqətə uyğun gələn belə bir fikri təbliğ edir ki, həqiqətən Allaha inam insanları pis əməllərdən çəkindirir, onların əxlaqlı olmasını təmin edir.

İnsanı bədən və ürəkdə yerləşən ruhdan ibarət hesab edən İslam dininə görə Allaha inam o zaman həqiqi inam ola bilər ki, insan öz ürəyini Allaha vermiş olsun. Müsəlman ilahiyyatçılarının fikrincə həyatda baş verən bədbəxtliklərin, pis işlərin hamısı insan ürəyinin natəmizliyindən, yəni insanın ürəyində Allaha inamın olmamasından irəli gəlir.

İslam əxlaqı Allaha səcdə edənlərlə ona inanmayanlar arasında fərqin olduğunu qeyd edir. İslam dini Allahın varlığına inanmayanları, ona şübhə ilə yanaşanları lal, kar, gözü bağlı adamlara oxşadır, onları kamillik dərəcəsinə çatmayan kimi hesab

edərək göstərir ki, Allahın varlığına inanan qul, Ona inanmayan təkəbbürlü insandan qiymətlidir.

Qurani-Kərim təlim edərək bildirir ki, Allahın varlığına inanmayan adamlar günahkar olduğundan onlarla geniş münasibət saxlamaq məqbul deyildir. Müqəddəs Qurani-Kərimdə Allahın adından müsəlmana təkidlə deyilir ki, Allahın varlığına inanmayan adamlar atan, anan, bacın, qardaşın və s. yaxın qohumun olsa belə, onlarla zahiri müdarə elə. İslam dininin göstərişlərinə görə Allaha inanmayanlar bu və o biri dünyada şiddətli sürətdə cəzalandırılacaqlar. İnamından dönənlərin cəzası isə daha ağır olacaqdır. Həqiqətən, Allahın varlığına kor-koranə inam İslam dinindəki zəif boşluğun əsas cəhətlərindən biridir.

İslamda müqəddəs Qurani-Kərimin "Fussilət" surəsinin 33-36-cı ayələrində buyurduğuna görə **"(Xalqı) Allaha tərəf çağıran, yaxşı iş görən və: "Mən müsəlmanlardanam" – deyən kəsdən daha gözəl danışan kim ola bilər?! Yaxşılıqla pislik bir ola bilməz! (Ey mömin kimsə!) Sən (pisliyi) yaxşılıqla dəf et! (Qəzəbə səbirlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlanmaqla cavab ver!) Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən! Bu (xislət) yalnız (dünyada məşəqqətlərə) səbir edənlərə verilir və yalnız böyük qismət (savab, fəzilət) sahiblərinə əta olunur! Əgər sənə şeytandan (bu xislətə mane olan) bir vəsvəsə gəlsə (fəsad toxunsa), Allaha sığın. Şübhəsiz ki, Allah (hər şeyi) eşidəndir, biləndir"** (16, s. 479).

Ayələrə məntiqi baxımdan əsaslanaraq Allaha tərəf çağırışın dörd mərhələsini qeyd etmək və bu məzmunda izah vermək mümkündür.

1. Dəvət edənlər iman və əməl baxımından özlərini islah etməlidirlər;
2. Pisliklər yaxşılıqla aradan qaldırılmalıdır;
3. Əxlaq qaydalarına əməl olunmalıdır;
4. Maneələr aradan qaldırılmalı, şeytanın vəsvəsələri ilə mübarizə aparılmalıdır.

İslam dini əxlaqına görə Allaha itaətkarlığın digər mühüm cəhətini müsəlmanın Allahdan qorxması təşkil edir. Bütün dinlərdə olduğu kimi İslam dinində də Allahdan qorxu çox böyük və əsas yer tutur. Müqəddəs Qurani-Kərimin çox hissəsi Allahın qorxunc və əzablı cəzalarının təsvirinə həsr edilmişdir. Allah adından ən dəhşətli və ən amansız cəza tədbirlərinin sinonimi kimi təlqin edilməsi təsadüfü bir hal deyildir; Allaha "səcdənin" bir çox cəhətdən insanın qorxu hissinə əsaslanmasından, həmçinin də Ona ən yaxın olan sitayiş məqamının olması kimi bildirilir.

İslam dini insanlara bəyan edir ki, aləmdə mövcud olan bütün şeylər Allahın hökmünə tabe olmalı və ondan qorxmalıdır. Allahdan qorxmaq müsəlmanın əxlaqi sifətlərindən biri olmalıdır, çünki Allahdan qorxmadan yaşamaq belə mümkün deyildir. Adi müsəlmanlar və din xadimləri deyil, peyğəmbərin özü də Allahın verə biləcəyi son dərəcə ağır cəzadan qorxduğunu, buna görə də Ona səcdə etdiyini dəfələrlə Qurani-Kərimdə iqrar edir. Qurani-Kərimdə deyilir ki, Allah Ondan qorxanların tərəfini saxlayır, onları dost tutur, ancaq onlara xoşbəxt həyat verir, bu dünyanın, həmçinin o biri axirət dünyanın əzablarından onları azad edir. İslam dini əxlaqına görə **"Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə (Onun heybət və əzəmətindən) ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq Rəbbinə təvəkkül edər"**(16, s. 176 ) deyə "Ənfal" surəsinin 2-ci ayəsi mühüm sayılmışdır.

İslam dini əxlaqında Allahdan qorxmağa çox böyük yer verildiyini belə bir fakt da sübut edir ki, Qurani-Kərimin təkcə ikinci surəsində Allahın adından deyilən 40-dan çox "Allahdan qorxun" və ya "məndən qorxun" kəlmələrinə rast gəlmək olar.

Müqəddəs Qurani-Kərim müsəlmanın Allaha daimi inamını və Allahın qəzəbindən qorxmasını onun əxlaqına müsbət təsir edən vasitələr kimi tərifləyir, bunu müsəlmanların əxlaqlı olmasının yeganə əsası hesab edir. Həqiqətən də Allaha inam və onun verə biləcəyi cəzadan qorxu müsəlman ölkələrində ictimai ədalətsizliyi aradan qaldırmış, istismarçıları hər bir əxlaqsız

hərəkətlərdən və pis əməllərdən çəkindirmişdir. "Allah" adı müsəlman aləmində hər zaman böyük və ədalətli əməllərin bayrağı olmuş, İslam əxlaqının mövcud olduğu yerlərdə görülən hər cür ədalətli və əxlaqi cəhətdən müsbət işlər, istismarçılara qarşı, zülmə qarşı, əsarət buxovundan azad olmaq, başqa ölkələrin millətlərini maarifləndirməklə humanizmə nail olmaq, adam öldürməmək, hər hansı bir cinayət törədə bilən əməllərdən mümkün qədər uzaq olmaq, əksinə şərəf və ləyaqəti uca tutan işlərin yerinə yetirilməsi və sair şərafətli hərəkətlər həmişə Allahın adından və Onun "köməkliyi ilə" edilmişdir.

Allaha inam və ondan qorxu müsəlmanların əxlaqi tənəzzülünə deyil, əxlaqi təkamülünə səbəb olmuş, İslam dini sözün əsl mənasında əxlaqın inkişafı və təkmilləşməsinin böyük dayağı olmuşdur.

Bu fikri o hal sübut edir ki, Allahın Ona müti olan müsəlmanların cəmiyyətdə gördüyü günah iş və pis əməl hərəkətlərini bağışlamağa həmişə istəyi vardır. Qurani-Kərimdə göstərilir ki, əvvəllər pis əməllərlə məşğul olan, yersiz hərəkətlərə yol verən adam öz işində tövbə edərsə, onun günahı Allah tərəfindən bağışlanılır. Müsəlmanın keçmişdəki mənfi fəaliyyəti nəzərə alınmır!

Həqiqətən, İslam dininə görə, əxlaq insanların cəmiyyətdə gördüyü işin xarakteri ilə, onların hərəkətlərinin cəmiyyət üçün xeyirli olması ilə yanaşı, həmçinin həmin hərəkətləri edərkən Allaha itaətkarlıq etməsi müəyyən olunur. Belə bir ölçü sinifli cəmiyyətlərdəki əxlaqi hərəkətlərin inkişafına kömək edir, insanları bir daha əxlaqi cəhətdən zərərsiz hesab edilən işlər görməyə həvəsləndirir.

İtaətkarlığın İslam əxlaqının əsas prinsipi olduğunu, İslam dininin cəmiyyətə, ictimai quruluşa olan münasibəti də sübut edir. İslam dini cəmiyyətin, xüsusi mülkiyyətin, siniflərin və onların arasında olan ziddiyyətlərin Allah tərəfindən yaradıldığını etiraf edir. Qurani-Kərimdə göstərilir ki, Allah insanları bir-birindən fərqləndirmək üçün özünün var-dövlətini, sərvətini onların arasında müxtəlif şəkildə bölüşdürmüşdür. Müəyyən şəxslərə -

daha doğrusu, qullara, yoxsullara bir şey verməmiş, varlılara isə böyük yaşayış vasitələri yaratmışdır. Allahın iradəsindən asılı olan bu hal onun səxavətli olması ilə üzvü sürətdə bağlıdır. Cəmiyyətdə iki qrup adamların-varlıların və yoxsulların olması birincilərə imkan verir ki, ikincilərə öz zənginliyi ilə onlara yardım etsin. Cəmiyyətdə bir ictimai qrupun alçaldılması, başqa bir ictimai qrupun yüksəldilməsi həmin quruluşun xarakteri ilə deyil, əksinə, Allahın lap əzəldən insanlara olan münasibətilə müəyyən olunur. "Yalnız əxlaqı saflaşdırma sənəti ən alçağı, ən yüksəkliyə qaldırmağa, bacaranları, istedadları daxilində "səadətə" çatdırmağa qadirdir. Əlbətdə insanların hamısı eyni qabiliyyətdə olub, kamilliyin eyni dərəcəsinə yüksələ bilməz, lakin xeyli yaxşılaşarlar" (58. s. 114).

Qurani-Kərim xüsusi mülkiyyət kimi, dövlətin də ilahi mənşəyə malik olduğunu qeyd edir. Hakimiyyət və ona sahib olmaq hüququ yalnız Allaha məxsusdur. Qurani-Kərim öyrədir ki, şahlar şahı hesab edilən Allah istədiyi adama hakimiyyət verir, xoşu gəlmədiyi adamdan isə onu geri alır. Həqiqətən də sinfi ziddiyyətlərin barışmamazlığı məhsulu kimi təşəkkül tapmış dövlətin islam dini cəmiyyətdə olan qaydasızlığa son qoymaq vasitəsi kimi Allah tərəfindən yradıldığını və buna görə də ona tabe olmağın zəruri olduğunu təbliğ və təlqin edir.

İslam dininin təlqin etdiyi itaətkarlıq, müsəlmanın ancaq Allahın itaətində durmasını deyil, eyni zamanda mövcud əmr sahiblərinin də itaətində durmasını zəruri hesab edir.

İslam dini əxlaqi cəmiyyətdə mövcud olan barışmaz ziddiyyətlərin həllini tapmağa, sinfi mübarizəni təbii olaraq bildirir. O, sinfi mənsubiyyətindən asılı olmayaraq bütün müsəlmanları birliyə, bərabərliyə çağırır.

İslam dini istismarçı cəmiyyətdə mövcud olan ictimai ədalətsizliyi necə aradan qaldırmağın həqiqi yolunu göstərir və göstərməlidir. O, müsəlmanlarda belə bir həqiqi fikir yaradır ki, bu dünyada olan əzab, əziyyət o biri dünyada daimi xoşbəxt həyat əldə etməyin zəruri mərhələsidir. İslam dini əxlaqına görə Allaha pənah gətirmədən, səbirli və itaətkar olmadan bu dünyadakı

ədalətsizliyi aradan qaldırmaq olmaz və buna görə də yeganə vasitə səbirli və itaətkar olmaqdır.

Həqiqətən də İslam dini əxlaqı bu dünyada ictimai ədalətsizliyə qarşı, xoşbəxt həyat uğrunda mübarizə aparmağı Allahın iradəsi çərçivəsində həll etmək kimi qiymətləndirir. Qurani-Kərim müsəlmanlara tövsiyə edir ki, hər şeyin öz vaxtı var, səbirli olun, Allah özü məsləhət bildiyi zaman vəziyyəti düzəldəcək. Başqa dinlər kimi İslam dini də əsl xoşbətliyi bu dünyada deyil, öləndən sonra axirət dünyası, əbədi aləmdə görür.

İstismarçılara Allahın özünün cəza verəcəyini bildirərək bəyan edən islam dini əxlaqı sinfi düşmənə qarşı mübarizə aparmağı lüzumsuz hesab edir. Əslində müsəlman öz sinfi düşməninə qarşı mübarizədən əl çəksə, onun ədalətsiz işinə yaxşılıqla cavab versə, onda sinfi düşmən öz təbiətini dəyişib dosta çevrilər və beləliklə də ictimai ədalətsizlik aradan qalxa bilər.

İslam dini əxlaqı ictimai ədalətsizliyə, istismarçı siniflərin hakimiyyətinə qarşı xalq hərəkatlarını məqbul hal olaraq qəbul edir və müsbət adlandırır. "Şərqdə insan əxlaqının formalaşmasında şəriət qanunlarının çox böyük rolu da nəzərə alınmalıdır" (59, s. 23). Çünki bunu biz Şərq mütəfəkkirlərinin məşhur əsərlərində müşahidə edirik. Əbu Yusif Yəqub ibn İshaq əl-Kindinin "İlkin fəlsəfə", "Ağıla dair", "Əxlaqa dair" əsərlərindən, Əbu Nəsir əl-Fərabinin "Hikmət inciləri", "Səadətə yetişmə", "Fəzilətli şəhər əhlinin baxışları", əsərlərindən, Siracəddin Urməvinin "Etik fikirlərindən", Nəsirəddin Tusinin "Əxlaqi-nasiri" əsəri buna bariz nümunə ola bilər.

Şərq dini əxlaqında böyük yer tutan fatalizm islamın məğzini təşkil edən itaətkar olmaqla sıx əlaqədardır. Fatalizm də öz növbəsində, insanlara fəaliyyətli, və itaətkarlıq aşılayır, təbiətdə və cəmiyyətdə baş verən bütün hadisələrin Allahın iradəsindən tam asılı olduğunu iqrar edir. Qurani-Kərimin "Ənam" surəsinin 59-cu ayəsində bəyan edilir ki, **"Allahın bütün sirrlərdən xəbəri vardır. Onun arzusu olmadan heç bir şey**

**yaranmır və məhv edilmir, hətta Ondan xəbərsiz bir yarpaq belə yerə düşmür"** (16, s.134).

İslam dini insanın bütün hərəkətlərinin Allahdan asılı olduğunu söyləyir. Ancaq "faili-muxtar" yaradıldıqlarına görə edəcəkləri əməlləri yaxşı-pis öz ixtiyarlarındadır. Qurani-Kərimdə iqrar olunur ki, bu asılılıq eyni ilə Allahla peyğəmbər arasındakı münasibətlərə də aiddir. Allahın vasitəsilə idarə olunan bir adamın əxlaqlı, başqasının isə əxlaqsız hərəkətlər etməsi və həmin hərəkətlərin hansına cəza verilib-verilməməsi bütünlüklə Allahın istəyindən asılıdır. İslam dini əxlaqına görə cəmiyyətdə öz-özlüyündə əxlaqlı və əxlaqsız, yaxşı və pis hərəkət mövcuddur. Bir hərəkətin əxlaqlı və ya əxlaqsız olması Allahın onu qadağan edib-etməməsindən asılıdır. Allah adamlar üçün əxlaqsız görünən bir hərəkəti əxlaqlı, əxlaqlı görünən bir hərəkəti isə əxlaqsız hesab edə bilməz. Həm də bu əxlaqsızlıq hərəkətə qarşı etiraz etməmək çox böyük günah sayılır. Qurani-Kərimdə müsəlmana məsləhət görülür ki, özbaşına hərəkət etməsinlər, çünki əqillilik ancaq Allaha məxsus bir sifətdir. Əqilli olmağa, əsl əsasında hərəkət etməyə çalışan hər bir insan həmişə, xoşbəxtliyə rast gələcəkdir.

İnsanları iradəli edən fatalizm bəxt, tale, qismət kimi əsli olan fikirlərin yaranmasına səbəb olmuşdur. Bəxt, tale "nəzəriyyəsini" irəli sürən din xadimlərinin fikrincə, insan doğulmamışdan əvvəl onun həyatı, bu həyatın ən kiçik və lazımsız görünən cəhətləri də daxil olmaqla, Allah tərəfindən əvvəlcədən müəyyən edilmişdir. Odur ki, insan həyatında rast gəldiyi heç bir hadisədən yaxa qurtara bilmir, onun bu sahədə etdiyi hər bir cəhdi mənasız olur. İslam dini müsəlmanlara təlqin edir ki, insanlar Allahın əvvəlcədən müəyyən etdiyi hadisələrin qarşısını almağa qadir deyildir.

Daha sonra Qurani-Kərimdə buyurulur ki, Allah tərəfindən müəyyən edilmiş hadisələri dəyişdirməyə nəinki ayrı-ayrı insanların, hətta bütöv xalqların belə iqtidarı çatmaz, çünki onların özlərinin də müqəddəratı Allahın iradəsindən asılıdır. Necə ki, varlıqlar iki növdür: "birincisi – insanın şəxsi iradəsindən asılı

olmayanlar; ikincisi – insanların fəaliyyət və iradəsindən asılı olanlar" (58, s. 51).

Tamamilə demokratik əsaslar üzərində qurulan İslam dini insanları fəaliyyətli olmağa vadar edir, onlarda öz qüvvəsindən başqa İlahi qüvvənin də olmasını yaradır, onu fəallığa həvəsləndirir. İslam dininin iradə azadlığını qəbul etməsi, iradənin Allah tərəfindən insana verilməsi, əslində insanlara məxsus əxlaqın olduğunu qəbul etmək deməkdir ki, bu da axirətə iymanı daha da yüksəldir və ona olan inamı artırır.

***"(Sizə:) Allahın (ölüləri dirildəcəyi barədəki) vədi haqdır və o saata (qiyamətin qopmasına) heç bir şəkk – şübhə yoxdur deyildiyi zaman:"*** buyuran müqəddəs Qurani-Kərim axirətin (məad) haqq olmasını bəyan edir.

İslam dininin sevimli peyğəmbəri həzrəti Məhəmməd əleyhis-salam ölüm haqqında insanlara bilgi verərək buyurmuşdur: **"Zənn etməyin ölməklə yox olacaqsınız. Ölüm sizi bir evdən başqa bir evə götürər"** (65, s. 9).

XIX əsrin qiymətli əlyazması olan, məşhur mütəfəkkir – filosof Məhəmmədbaqir ibn Məhəmmədtəqi hicri-qəməri tarixi 1288-ci ildə yazdığı "Zadəl-Məad" ("Axirət-azuqəsi") əsərində cənnət və cəhənnəmin varlığına inam İslam dini əxlaqının mühüm tərkib hissəsi kimi qiymətləndirmişdir. İnsanın ruh və candan ibarət olması və ruhun ölməməzliyi haqqında təlim, o biri dünyanın – axirət dünyasının varlığına inam əsərdə geniş şəkildə verilmişdir. İslam dininə görə Allahla axirət dünyasının varlığına inanan hər kəs Allah tərəfindən mükafatlandırılacaq, inanmayanlar isə cəzalandırılacaqdır buyrulmuşdur.

Əsərdə müqəddəs İslam dininin əxlaqına görə insanların yaşadığı bu həyat müvəqqəti və fanidir, insanların bu həyatdan aldığı ləzzət isə çox cüzidir, bu həyatdan həzz almaq isə aldadıcıdır. Müəllifin izah etdiyi mənbələrin ideya və fikrincə bu dünyadakı həyat Allahın istədiyi kimi yaşamaqla axirət işləri ilə əlləşməkdən və zəhmət çəkməkdən ibarət olduğuna görə o həqiqi həyatda – axirət həyatında onun səmərəsin görəcəkdir.

Digər bir əlyazma olan "Mənazil əl-Axirə" ("Axirət mənzilləri") adlı kitab İslam aləminin görkəmli mütəfəkkiri Şeyx Abbas Quminindir ki, böyük fəlsəfi dərinlikləri özündə cəmləşdirmişdir. Müəllif əsərdə İmam Həsən əleyhis-salamdan nəql edərək buyurur: "Axirət yolçuluğuna hazırlıqlı ol və bu yolçuluğun azuqəsini əcəl yetişmədən əvvəl hazırla" (65, s. 13). Əsər olduqca mühüm hesab edilən axirət vastəçisi hesab edilən ölüm məfhumu barədə izah verərək "Ölüm sərxoşluğu gerçəkdən gəldi. Ey insan indi bu, sənin əvvəldən bəri qorxub qaçdığın bir şeydir" (65, s. 15) yazaraq dünya faniliyinin sonu axirətdir deyə buyurmuşdur.

İslam dininə görə həqiqi müsəlman bu dünyanın maddi nemətlərindən çox dinin mənəvi paklığını daha əziz tutmalıdır. İlk öncə müsəlmanın əsas vəzifələrindən biri, bu dünyanın zövqlərinə uyımamaqdan və öz nəfsini öldürməkdən ibarətdir. Bunlara nail olmaq üçün İslam-fəlsəfi dünyagörüşünü öyrənməyə başlamazdan əvvəl insan cismani tələbatını (genodik tələbatı) cilovlamalıdır, əsl həqiqəti öyrənməyi özünə məqsəd seçməlidir.

Məhsuldar əməyə nəinki əski dinlər, o cümlədən İslam dininin müsbət münasibəti təbiətdə olan bütün şeylərin Allah tərəfindən gözəl sürətdə yaradıldığını sübut etməsindən irəli gəlir. İnsanların istehlak etdiyi bütün şeylər onların ictimai-faydalı əməyinin nəticəsi olmaqla Allahın insana olan böyük bir bəxşişidir. İnsan həyatının və xoşbəxtliyinin ilk və əsas şərti olan əməyə İslam dini əxlaqının düzgün olan bu münasibəti ictimai həyatda və əməkdə insanların fəal iştirakı naminə yönəldilmişdir. İslam dini haqq olan cənnətdəki xoşbəxt həyatı əldə etmək üçün insanları mübarizəyə, ictimai-faydalı əməyə çağırır, həmçinin onları xeyirli dua etməyə, namaz qılmağa, oruc tutmağa, bol məhsul əldə etməklə ondan pay ayıraraq xums və zəkat verməklə faydalı və hər zaman əhəmiyyətli olan işlərlə məşğul olmağa dəvət edir.

İslam dini əxlaqı başqa dinlərə müsbət münasibət bəsləməyi, əsl tolerantlığı bütün müsəlmanların mühüm vəzifələrindən biri hesab edir. Digər dinlərə müsbət münasibət

bəsləmək bu və ya digər şəkildə bütün dinlərə məxsus bir haldır. Müqəddəs İslam dinini qəbul etmiş adam müsəlman olmayandan müxtəlif cəhətlərlə fərqlənir. Müsəlman "ümməti" yer üzərində yaşayan ən kamil ideya mənbəyidir.

Müqəddəs İslam dininin əlahiddə bir din olması haqqındakı həqiqətlər tarixdə son dərəcə humanizm prinsipi rolu oynayan "əsl tolerantlıq" adlanan bir "nəzəriyyənin" yaranmasına səbəb olmuşdur. "Əsl tolerantlıq" qədim Şərqdə dini bərabərlik əsasında insanları, xalqları bir-birinə daha da mehriban yaşamaq vəziyyətini möhkəmləndirir, müsəlmanla müsəlman olmayanlar arasında qardaşlıq rəmzi yaradır.

İslam dini müsəlmanları, müsəlman ölkələrini açıq bir halda saxlamaqla, onların əsrlərlə dünya xalqları ilə birgə olmuş bir vəziyyətə düşməsinə və buna görə də iqtisadi-siyasi, mədəni cəhətdən xeyli dərəcədə irəli qalxmasına səbəb olmuşdur. Məhz insanın insanla bu cür yaxın münasibət saxlaması qədim Şərqin inkişafının əsas səbəblərindən biri idi.

"Əsl tolerantlıq" müsəlmanları başqa ölkələrdə yaşayan xalqlarla birgə yaşamağı əmr edir, həm vahid dövləti, həm də ölkənin əhalisini dini bərabərlik əsasında birləşdirməyə gətirib çıxarır və subyektiv olaraq müqəddəs İslam dininin bərabərlik və humanizmi siyasətinə kömək edir.

Cəmiyyətin inkişaf qanunlarını öyrənmək, dərk etmək və bunun əsasında da ağıllı yolla ictimai həyatı dəyişdirmək olar. Dərk edilmiş zəruri, obyektiv qanunlardan insanlar ictimaiyyət nümayəndələrinin məqsədləri üçün istifadə edirlər. Azadlıq zərurətin dərk edilməsidir, - mühakiməsi də bu mənada işlənilir. Zərurətin dərk edilməsi və obyektiv qanunlardan istifadə edilməsi insanların şüurluluğu, onların iradə azadlığı ilə sıx əlaqədardır. Nisbi iradə azadlığını qəbul etmək, bir işi bilmək əsasında müəyyən qərara gəlmək qabiliyyətindən ibarətdir. Buna görə də əxlaqın iqtisadi münasibətlər zəminində meydana gəldiyini və iradənin nisbi müstəqilliyinin qəbul edən İslam dini insanlara məxsus əxlaq normalarının olduğunu mahiyyətcə qəbul edir.

İnsanların hərəkət və davranışının əxlaqlı olub olmaması kamillik və cahillikdən əmələ gəlir.

Nəsirəddin Tusi ləqəbi ilə şöhrət tapmış Məhəmməd ibn Həsən Əttusi "Əxlaqi-Nasiri" adlanan əsərində əxlaqın saflaşması və fəzilətin qaydaları haqqında deyir: "Varlıqları dərk etməkdə **«Hikmət»**; "qəzəb nəfsinin" "nitq nəfsinə" tabe olması üçün **«Şücaət»**; "şəhvət" qüvvəsi "nitq nəfsinin" ixtiyarında olması üçün **«İffət»** və bu qüvvələrin hamısı birləşib ittifaq bağlaması ilə idrakın yaxşını pisdən ayırmaq üçün **«Ədalət»** qüvvəsini özlərinə böyük seçmələri əsas yer tutur" (58, s. 118).

Həmçinin Nəsirəddin Tusi elmi biliklərin fəzilətini qeyd etməklə yanaşı onların hər bir cinsinə daxil olan növlərin göstərmişdir. " **«Hikmət»** cinsinə daxil olan növlər: zəka, dərk sürəti, zehn aydınlığı, öyrənmə asanlığı (diqqət), ağıl gözəlliyi, hafizə, hazırcavablıq. **«Şücaət»** cinsinə daxil olan növlər: nəfsin ağayanaqlığı, qoçaqlıq, alicənablıq, mətanət, helm, nəfsin sakitliyi (təmkin), şəhamət, dözümlülük, təvaz, həmiyyət, diqqət. **«İffət»** cinsinə daxil olan növlər: həya, həlimlik, səmimiyyət, dinclik, pəhriz, səbr, qənaət, vüqar, ehtiyat, nizam, hürriyyət və səxavət. **«Ədalət»** cinsinə daxil olan növlər: sədaqət, ülfət, vəfa, şəfəqqət, rəhimdillik, mükafat, ortalığın hüsnü, hökmün hüsnü, hörmət, təslim, təfəkkür və ibadət hesab olunmuşdur" (58, s. 119-123).

Nəsirəddin Tusi bu növləri çatdırmaqla Allahın iradə azdlılığının çərçivəsində iradə azadlığını qəbul edən İslam dini ciddi bir tərəqqiyə nail olduğunu qeyd etmişdir. Belə ki, bütün hərəkət və davranış, əxlaqlı hərəkətləri yalnız Allahdan asılı olduğu qəbul edilir. Əxlaqi cəhətdən pis olan bütün hərəkətlərin səbəbkarı şeytandır. Ədalətliliyin rəmzi olan Allah insan yaradıldığı gündən Ona tabe olmayan və Ondan daim ayrılan hər hansı bir varlıq əxlaqsız işlər görməyə zövq ediləcəkdir. Elə həmin cəhətdən Qurani-Kərimin "Bəqərə" surəsinin 255-ci ayəsində buyurulur: **"Allahın buyuruğu olmadan insana heç bir zəfər toxuna bilməz"** (16, s. 41).

Ədalətliliyi həyata keçirmək üçün həqiqət məfhumu olduqca əhəmiyyətlidir. Çünki ədaləti yaradan hər hansı bir

obyekt öz subyektini həqiqət prinsipinə əsaslandırır, həqiqət isə bir fenomen baxımından zaman keçdikcə itmir, aradan getmir və mütləq idraki sərvət olaraq həmişə həqiqiliyi təşkil edir. Cordano Bruno biliklərin əsasını təşkil edən həqiqət anlamını belə qiymətləndirirdi: "Həqiqət güclə əzilən deyil, o, köhnəliyinə görə paslanmır, illər keçdikcə azalmır, yayıldıqda itmir, belə ki, onun düşüncələri dolaşmır, zaman itiləmir, yeri onu gizlətmir, gecənin zülməti onu udmur, qaranlıqlar ona kölgə salmır" (20, s. 213).

Böyük Qərb mütəfəkkiri Arestu (Aristotel) Antik dövrdə həqiqəti reallıqla eyniləşdirmişdi. Onun elmi dünyagörüşünə görə, həqiqət odur ki, dəyişmir, həqiqət varlığın yüksək formasıdır. "Hər hansı bir əşya varlığa nə qədər aiddirsə, o qədər də həqiqətə aiddir" (20, s. 213).

Deməli, ədalətin üstünlüyü məhz həqiqət anlamında özünü biruzə verir və onun əsasını təşkil etməklə iradəliliyi təlqin edir.

"Teoloji fatalizm tarixin və insan həyatının hadisələrinin Allahın iradəsilə qabaqcadan müəyyən edilməsinə əsaslanır"(8, s. 439). İslam dini əxlaqı tərəfindən fatalizmin təbliği insanları, bütöv xalqları iradəli edir, maarifləndirir. Fatalizm insanlarda bir sıra müsbət xasiyyətlər – ədalətlilik, iradəlilik, qəhrəmanlıq, mübarizlik və s. yaranmasına səbəb olur və insanları köləlik etmək, yaltaqlıq etmək, ikiüzlülük etmək, qiybət etmək, və s. kimi mənfi sifətlərdən məhrum edir. Fatalizm insanın öz qüvvəsinə inamını daha da gücləndirməklə onu bu dünyada xoşbəxt yaşayış qurmaq uğrunda mübarizə aparmağa meyl etdirir.

## QADIN ƏXLAQININ HÜQÜQİ NORMALARI

***"Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir! (Qadınlar) açıq – aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin (mehri) bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl ( Allahın buyurduğu kimi) rəftar edin" (16, Nisa – 19).***

Naxçıvan əlyazma mətnlərində rast gəldiyimiz məqamlardan bir əsası da ondan irəli gəlir ki, nüsxələrin əksər hissəsi qadına verilən hüquq qaydalarının tənzimlənməsidir. Şeyx Bəhaəddin Amili "Came-Abbas" əsərində qadın əxlaqının mühüm xüsusiyyətlərin xatırladaraq öz mülahizələrin irəli sürür. Bundan əlavə müqəddəs İslam dinində qadına verilən ən önəmli hüququn verilməsi məhs Qurani-Kərimin yüz yetmiş altı ayəli (176) olan "Nisa" ("Qadınlar") surəsidir ki, bu surədə daha çox qadından, cəmiyyət içində qadınların hüququ və ictimai yer və dəyərlərindən bəhs edilir. Hicrətdən sonra Mədinədə nazil olmuş surə əsasən yeniliklərlə və hadisələrlə bir başa bağlı olmaqla hüququ hökmləri zəruri olduğu üçün Nisa surəsində ailədən, qadından və qadın haqlarından, müşriklərin və əhli-kitabın əvvəlki inanclarından, savaş səbəbiylə atalarını itirən yetimlər ilə dulların hüququndan, miras hökmlərindən geniş bəhs edilmişdir. İslam qaydalarında ailə hüququna görə evlənərkən mehr verəcək, toy xərcləri edəcək olan kişi tərəfidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev analara, qadınlara xüsusilə ağbirçəklərə hörmətin və ehtiramın daim olduğunu qeyd edərək el məsəlimizin köksündə duran "qanı qan ilə yox, su ilə yuyarlar" prinsipi ilə yanaşaraq deyirdi: ***"Analar, bacılar cəmiyyətdə sülh yaranması üçün həmişə böyük vasitəçi olmuşlar. Ağbirçək analar həmişə öz övladlarına öyüd-nəsihət verməklə onları düz yola dəvət etmiş, bu yolla getmələrinə çalışmışlar" (9, s. 68).***

Bu baxımdan da dini əxlaqi dəyərlər də öz növbəsində qadına müsbət münasibət bəsləyir, onun şəxsiyyətini və ləyaqətini daha da yüksək məqama çatdırır.

Qurani-Kərimdə göstərilir ki, qadın və kişi - Adəm və Həvvadan ilk olaraq yaradılmışlar, onlar əqli və fiziki cəhətdən kişilərdən çoxda geri qalmırlar. Bütün yaxşı əməllərin baş verməsinin əsas səbəbkarı kimi təsvir olunan qadınlar həqiqətdə hər cəhətlə kişilərlə eyni səviyyədə dururlar.

Qadına belə bir düzgün münasibət ictimai həyatın bütün sahələrində - mülki, hüquqi, dini və s. münasibətlərdə özünü göstərir.

Şeyx Bəhaəddin Amilinin adı çəkilən əsərlərində vərəsəlik üzrə keçirilən bölgüdə qadın kişiyə düşən hissənin yarısını alır və bunun da müəyyən səbəbləri var. O cümlədən məhkəmədə bir kişi şahidini ancaq iki qadın əvəz edə bilər. Öldürülmüş qadına kişiyə nisbətən daha az "əvəz" verilir. Dini ayinləri icra edərkən qadınların kişilərlə bir sırada durması olmasa da, arxa sırada durmasının heç bir eybi yoxdur.

Müqəddəs İslam dini həqiqi insan dedikdə əslində hər iki cinsə məxsus olan adamları nəzərdə tutur. Qadına azad seçim kimi baxan İslam dini onun həyat qurması üçün bütün təminatları ödəyir və əsl hüquq sahibi olduğunu bildirərək, onun başlıca mənasının ərə getməkdə görür, ictimai bir varlıq kimi qadını son dərəcə yüksəldərək qiymətləndirir.

İslam dininin həmişəyaşar sevimli peyğəmbəri həzrəti Məhəmməd əleyhis-salam buyurmuşdur: ***"Subay oğlan və qızlarınızı evləndirin. Həqiqətən, mütəal Allah onların əxlaqlarını yaxşı, ruzilərini bol, abır-şərəflərini artıq edər".***

Evlənməyi insan həyatında ən yaxşı hal hesab edən İslam dini əxlaqı eyni zamanda qız uşaqlarının və oğlan uşaqlarının həddi buluğa çatmaqla evləndirilməsini lazım bilir.

Adı çəkilən əsərdə müəllif maddə-maddə dini qanunları izah etməklə yanaşı müsəlmanın kəbin hüquqinin də bir əsas forması olmaqla xüsusi əhəmiyyət kəsb etdiyini bildirir. Evlənmək istəyən oğlan qızın valideyinləri ilə məsləhətləşdikdən

sonra qızla həyat qurur. Beləliklə, qız kişiyə ömürgün yoldaşı olur. Hətta kəbində yazılan "mehriyyə" (qadına çatan halal məbləğ) maddi mülahizəyə əsaslanan müsəlman qanununun əsas prinsiplərindəndir.

Sevgiyə, qarşılıqlı hissə əsaslanan kəbində tərəflərin, xüsusilə qadının fəal iştirakı mümkün olur. Bir qayda olaraq valideynlər öz övladlarının xoşbəxt olmalarına razılıq verməklə məsələni həll edirlər. Doğrudur, İslam dini kəbin zamanı hər iki tərəfin razılığını lazım bilir. Ciddi məsuliyyət xarakteri daşıyan bu tələb hər bir əsassız səbəbdən pozula bilməz. Kəbin prosesində qızın aydın cavabı, öz rəyini bildirməsi razılıq əlaməti kimi qəbul edilir. Valideynlərin iradəsinə tabe olan qızlara mehribanlıq, hörmət edilir, onlar arxeyin olur, həvəs və könüllü olaraq ərə gedilir.

İslam dini bir-birini yaxından tanımaqla, üzün görməklə, səsin eşitməklə iki gəncin evləndirilməsini qanuni və əxlaqi bir iş saymaqla insanın təbii hissləri ilə bağlı olan məhəbbət hissini yüksəyə qaldırır. Bu din nəcib sevgi duyğularına, mənafe birliyinə əsaslanan məhəbbəti həmişə yaşadır.

Evlənməyin iqtisadi çətinlikləri ilə bərabər, ailə qurmaqda qarşılıqlı meylin nəzərə alınması qızları hüquqi bir şəxs kimi qiymətləndirmək, onları könüllü həyat qurmasına səbəb olmuşdur.

İslam dini əxlaqının məhəbbət məsələlərinə, azad sevgiyə, qadın hüququna müsbət münasibəti özünü həyatda yaşayacaq həyatyoldaşına olan sadiqliyi daha aydın göstərir. Baxmayaraq müqəddəs Qurani-Kərim hər bir müsəlmanın 4 arvad almağa hüquqi olduğu halda qadınların öz istəklərilə kişi birinci arvadın razılığı ilə ikinci, ikinci arvadın razılığı ilə üçüncü, üçüncü arvadın razılığı ilə dördüncü arvadı ala bilər. Bu heç də ailədə soyuq münasibətlərin yaranmasına səbəb olmur, əksinə kiçik ailə cəmiyyətinin mehribanlaşmasına gətirib çıxarır. Bu münasibət qadınlar arasında, onların valideyinləri və qohumları arasında isti münasibət yaradır, düşmənçiliyi aradan aparır. Kişi bütün arvadlarına eyni dərəcədə xidmət göstərməklə ailənin möhkəm əsaslar üzərində qurulmasını təmin edir, hər bir sahədə

mehribanlığın yaranması mümkün olur və heç zaman ailə münaqişəsi yaranmır. Məhz bu münasibət nəslin artırılmasına və uşaqların tərbiyəvi böyüməsinə təsir edirdi.

Qadına hər zaman müstəqillik verən İslam dini onun hər bir hərəkəti üçün ciddi və yüksəldici tələblər irəli sürür, qadının evdə və ictimaiyyətdə azad vəziyyətinə bəraət qazandırır. Hər zaman Azərbaycan qadınları da cəmiyyətin bərabər hüquqi üzvülərinə və fədakar qurucularına çevrilmişlər.

Qadınların böyük əksəriyyəti dinə bağlı olmuş, dini əxlaqın normalarına riayət etməklə məşğul olmuş, öz hərəkət və davranışında İslam əxlaqının prinsiplərini – mehribanlıq, ismət, namus, qarşılıqlı yardım, müqəddəs ana torpaq vətənpərvərliyi, humanizm, əməyə şüurlu münasibət və s. prinsipləri əldə rəhbər tuturlar. İndi din bir dünyagörüşü halında olmaqla, ağıllı və düşüncəli qadınların şüurunda tarixi keçmişin yiyələnməsi üçün mövcud irəliləyişdir.

Hazırda müxtəlif səbəblərə görə çox az qism adamların şüurunda dinin, eləcə də hərəkət və davranışında dini əxlaqın zəifləməsinə rast gəlirik. Hər halda dindarlar dini əxlaqın bu və ya digər tələbinə - normasına, dini əxlaqın hər hansı tələbindən irəli gələn hərəkət və davranış qaydalarına əməl etməklə hələ də bu dini yaşatmışlar. Həmişə olduğu kimi dindar adamlar namaz qılır, oruc tutur, məscid və pirlərə gedirlər. Dini əxlaqın qanunları özünü xüsusilə qadına münasibətdə daha açıq şəkildə büruzə verir. Bütün yerlərdə olduğu kimi Azərbaycanda da dini nigaha – kəbinə, qadınların çadra örtməsi, yaylıq bağlaması, yaşmaq vurma halları davam edir və onlar tərəfindən qorunur.

Geniş milli mədəniyyət quruculuğu dövründə dini əxlaqın qorunmasına yardım etmək, onların milli mənliyimizə müsbət təsir göstərməsinə nail olmaq üçün müntəzəm, ardıcıl, elmi biliklərə əsaslanan mədəni təbliğ yolu təşkil etmək bütün ictimayyətin, o cümlədən bütün ziyalıların mühüm vəzifəsidir.

## İNSAN ÜÇÜN ƏN GÖZƏL ƏMƏL NAMAZ VƏ ORUCDUR

Naxçıvan əlyama mətnlərinin mühüm xüsusiyyətlərindən biri də "Risalə" adı ilə bağlıdır. Risalə şəriət qanunları ilə yanaşı, həmçinin İslamda olan vacib əməllərin yerinə yetirilməsində zəruri olan namaz və oruc barədə də ehkamlar qeyd edilir. Azərbaycan xalqının əksər insanları dini etiqadla yaşayıb yaratmış və öz adət-ənənələrin Risalə hökmləri ilə qoruyaraq saxlamışlar. Xalqımızın əksər insanları uşaqlıqdan göz açıb ata və analarımızın din və şəriət içində görmüşük, din və şəriətə qulluq edən görmüşük, dinə və şəriətə sözsüz əməl edən görmüşük. Ona görə namaz ibadətin elə vacib ayinidir ki, onu icra edən vaxt hətta danışmaq belə günah sayılır və namazı batil edir. Müdriklərin etdiyi ibrətamiz nəsihətlər bütün insanların ləyaqətini və nicatını din və şəriətin müəyyən etdiyi qayda-qanuna əməl etməkdə görürdülər. Bu insanlarda Allaha olan məhəbbətdən və axirət qorxusundan əmələ gələn bir hal idi. Məsəl var deyərlər müsəlmanlar vacib namazları qılmaqla yetmiş peyğəmbərin qətlə yetirilməsindən, min dənə Quranın yandırılmasından və yetmiş dəfə zina eyləyənin günahından qorunması deməkdir. İslam dinində söz sahibi olan üləma, fazil və müctəhidlər qeyd edirlər ki, Allah tərəfindən müəyyən edilmiş vacib namazların icra edilməsi vacibdir. İnsan xəstələnib yataqda yatsa belə bu fəzilətə çatmaq üçün vacib namazları yatdıq yerdə qılması məsləhət görülür. Əgər hər hansı bir şəxs yatdığı yerdə namaz qılmağa taqəti olmasa, başı ilə işarə eyləyə-eyləyə namazını qılmalıdır. Əgər o, başı ilə də işarə eləməyə aciz olsa, o vaxt gözləri ilə işarə eyləyə-eyləyə namazını qılmalıdır. Əgər gözü ilə işarə eyləməyə imkanı olmasa, o vaxt namazın ibarələrini xatirinə gətirmək və beləliklə, namazı öz könlündə qılmaq kifayət edər buyurmuşlar.

Bunları hökm kimi bildirən Qurani-Kərim öz ayə və surələrində bu barədə söyləmişdir: "Mənəm Allah! Məndən başqa

Tanrı yoxdur. Mənə ibadət et və Məni anmaq üçün namaz qıl!" (Taha surəsi-14). "Günəş doğmamışdan və batmamışdan əvvəl Rəbbinə şükr edib şəninə təriflər de (sübh və əsr namazlarını qıl), gecənin bir vədəsində (axşam və gecə saatlarında) və günorta radələrində də Rəbbini təqdis et (şam, gecə və günorta namazlarını qıl) ki, (bunun müqabilində Allahın səni böyük savaba, yüksək dərəcələrə, yaxud ümmətin üçün şəfaətə nail etməsindən) razı olasan!" (Taha surəsi-130). Müsəlman üçün hər gün yerinə yetirəcək vacibi namaz 17 rəkətdir: 2 rəkət sübh, 4 rəkət günorta, 4 rəkət ikindi, 3 rəkət şam və 4 rəkət xiftən namazlarından ibarətdir. "İslamın ən mühüm ibadətlərindən biri namazdır" (77, 102).

Azərbaycanın görkəmli dramaturq və satirik yazıçısı Cəlil Məmmədquluzadə də öz əsərlərində namazın qılınmasına tənqidi yanaşsada onun nə qədər cazibəli xarakter daşıdığını fərz olaraq hansı halda olursa olsun yerinə yetirilməsini qeyd edərək yazırdı: "Onunçun da hər növ ilə olmuş olsaydı, mənim haman vətəndaşlarım və dindaşlarım labüd gərək namazlarını əda edə idilər. Əgər sihhət halında idilər – ayaq üstə gərək əda edə idilər; Əgər bimar idilər gərək oturduqları yerdə namaz qıla idilər..." (62, s. 389). Həmçinin ədib öz ailə mühitinin əxlaqi dəyərlərlə tərbiyə olunmasını, ata və anasının hansı inanclara etiqat etməsini də xatırladaraq yazırdı: "...uşaqlıqdan gözümü açıb ata və anamı din və şəriət içində görmüşəm, din və şəriətə qulluq edən görmüşəm, dinə və şəriətə qul görmüşəm" (62, s. 402-403).

Namazın əlamətlərindən biri də azan və dəstəmazdır. Namazın özü kimi onun hazırlıq mərhələləri olan azan və dəstəmaz da şəriət tərəfindən savab iş və xeyir əməl cərgəsinə yazılır. Şəriətin göstəricisi belədir ki, azan demək, azan çağırmaq, namaz qılmağa bərabər savab bir ibadətdir. Namaz kimi azan da zəhmətkeşləri işin səmərəli keçməsinə yardım edir. Azanın sübh tezdən verilməsi və zəhmətkeş insanları yuxudan oyatması böyük əhəmiyyət tələb edirdi. Təbii ki, azanın verilməsi namazın vaxtının yetişməsindən xəbər verir. Həm zəhmətkeş insanlar üçün, həm də ticarət edən şəxslərin vaxtın bilinməsi üçün olduqca zəruri

idi. Azana hər bir insanın hörmətlə yanaşmasını yenə C.Məmmədquluzadənin əsərlərində seyr edirik: "Bir gün mən Şiraz şəhərinin bazarında nəyəsə məşğul idim... Bazarda olduğum zaman birdən bir mənzərəyə düşdüm və hətta xeyli qorxdum da: burada əvvəl uzaqdan əzan səsi eşitdim və haman bazar əhli hər bir kəs fərdən-fərd dükanda oturduğu yerdə qalxdı ayağa və başladı əzan deməyə... burada belə camaat əzana adət etmiş və mən görürdüm ki, məndən savayı bir kəs yoxdur ki, bu işə təəccüb edə; yəni doğrusu təəccüb etməyə vaxtları ola bilməzdi; səbəb bu ki, hamı əzan deyirdi. ... azanı deyib qurtarandan sonra camaat, söz yox başladı namaza hazırlaşmağa" (62, s. 398).

Şəriət dini ibadətlərin mahiyyətini aşkar edərək göstərirdi ki, namaz və onun müqəddəm şərtləri olan dəstəmaz və azan zəhmətkeş insanların bu dünyada yaşayışını yaxşılaşdırmağa və onun zəngin həyat tərzi keçirməyə fürsət yaradırdı. Həmçinin belə hesab edilir ki, zəhmətkeş insanlar uzun əsrlərdən bəri səmərəli işlə məşğul olmaqla, din və onun ayinlərini yerinə yetirməklə inkişaf etdirmək olar. Çünki zəhmətkeşlik şəraitində hər hansı bir sahəni tənəzzüldən, tərəqqiyə aparmaq olar və geniş miqyasda elm və maarifi yaymaqla bərabər həm də din və dini ayinlərin yaşaması üçün iqtisadi zəmini genişləndirir.

Müsəlman aləmində ən geniş yayılmış dini ayinlərdən biri də ramazan ayında oruc tutmaqdır. İlahi hikmət xəzinəsi olan "Qurani-Kərim"in nazil olduğu ramazan ayı başqa aylara nisbətən üstün qərar verilmişdir. Hətta ayların "sultanı" adı da verilmişdir. Ramazan ayının fəlsəfi aspektlərini dərindən yüksək qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev 27 sentyabr 2008-ci il tarixdə Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edərək demişdir: **"İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu Ramazan ayı insanların qəlbini və təfəkkürünü nurlandıran, onları əminamanlığa, vəhdətə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müsəlmanlar bu ayda Allaha və din qarşısında vicdani borcunu yerinə yetirmək fürsəti əldə edir, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının fərəhini,**

**mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar".**

Müsəlman şəriətində ramazan ayının orucu "əs-saum" bizə gəlib çatan şəkildə on vacibi əməllərdən (firu-din) biri namazdan sonra ikinci vacib olan əməldir ki, hicrətin ikinci ilində (624-cü ildə) tədbiq edilməyə başlamışdır. O vaxta qədər müsəlmanlar özlərindən qabaq olan kəslər kimi hər ayın üç günün oruc tuturdular. Sonuncu səmavi kitab olan Qurani-Kərim Allaha ibadətin bu şəklini inkişaf etdirərək orucu ay təqvimi hicri-qəməri ilinin doqquzuncu ayı olan Ramazan ayının son on gecəsindən biri "Qədr gecəsi"ndə göy aləmlərindən yer üzünə "vəhy" nazil edilməsinin başlanması ilə əlaqələndirilmiş və müsəlmanları "sayı bəlli olan günləri oruc tutmağa çağırmışdır. Bu günlər Ramazan ayıdır ki, insanlar üçün hidayət və hidayətə açıq aydın dəlillər olan, haqqı batildən ayırd edən Quran onda nazil edilmişdir. Sizlərdən kim o ayı görərsə və şahidi olarsa onu oruc tutsun deyə buyrulmuşdur" (Bəqərə-185).

Belə hesab edilir ki, oruc ikən insan dünya ləzzətlərindən çəkinir, adi işlərini davam etdirsə də özünü ancaq Allaha ibadətə həsr edir, Ona ixlaskar olur, nəfsini bütün nöqsanlardan təmiz saxlayır və bu vaxt artıq onun qəlbinə şeytan yol tapa bilmir. "Ramazan" sözünün mənası "günahları yandırıb məhv etmək, aradan aparmaq" anlamını verir.

Oruc dedikdə insan niyyət etdikdən sonra özünü yeməkdən, içməkdən, qəliz və qatı tozdan, qusmaqdan, imalədən, başı tamamilə suda saxlamaqdan, sübh əzanına qədər qüsullu qalmaqdan, cima, istimna, Allahın, Peyğəmbərin və İmamların adından yalan demək və o cümlədən bir sıra digər əməllərdən insan özünü qorumalıdır. Ramazan ayı orucunu Allaha yaxınlıq (qürbətən iləllah) niyyəti ilə tutulur. Niyyət gecə edilir, həmçinin bütün ayın hamısı üçün əvvəlinci gündən niyyət etmək olar. Oruc vaxtı isə gündüzdür, sübh açılandan, gün batana qədər. "Sübh çağı sizə ağ sap qara sapdan seçilincəyə qədər yeyin, için sonra gecəyə orucu bitirin" (Bəqərə-187).

Məsləhət görülür ki, oruc vaxtı sürmə və müşk çəkməkdən, tütün iyləməkdən, rahatlanmaq üçün hama girməkdən, nərgiz və reyhan iyləməkdən, öpüşməkdən imtina edilsin. Oruc vaxtı yalan danışmamaq mühüm şərtdir.

Oruc günlərinin tutulma vaxtını müəyyən etmək üçün insan təzə ayı yəni "əl-hilal" görməklə, yaxud Şəban ayının 30-cu gününün ötməsi ilə və adi hesablama yolu ilə müəyyən etmək olar.

Oruc tutmaq insanı bir daha Allaha yaxınlaşmağa fürsət verir ki, ac qarnına İlahi bir varlığa əl tutaraq ondan öz hidayəti üçün arzu diləsin və hacətinə çatsın. Bu bir həqiqətdir ki, oruc halında insan öz Xaliqindən nə istəsə yerinə yetər inşaallah. Çünki həzrəti İsa əleyhis-salamın dövründə ondan göydən zəhmətsiz ruzi gəlməyi istəyib "maidə" (bərəkətli süfrə) nazil olmağı arzu etdilər. Allah Təala həzrəti İsaya buyurdu: Ey Məryəm oğlu İsa insanlara de: otuz gün oruc tutsunlar və sonra mənə dua etsinlər və mən onların duasını qəbul edərəm. Otuz gün oruc tutaraq Allaha dua etdilər Allah Təala göydən "maidə" göndərərək onların duasını qəbul etdi.

Oruc tutmaq tək Allaha ibadətdən başqa insanın cismi və mənəvi saflığını təmiz saxlayan bir əməldir ki, bütün insan orqanizməsi qidasız qalaraq təmizlənir, bədəndə olan zərərli mikroblar məhv olur, istər mədə, beyin, istərsə də başqa əzalarda olan hüceyrələr aram olaraq rahatlanır. Nə qədər ki, insan cismən əziyyət çəkir, bir o qədər ruhən rahatlıq tapır.

Səmavi kitab olan Qurani-Kərim oruc tutmağın insanlar üçün asanlıq olaraq vacib etmişdir. Səfərdə olanların, xəstə olanların, taqətsiz qocaların, hamilə qadınların, körpəsi olan və südü az olan anaların, əsir olanların oruc tutması üzürlü sayılır. Oruc tutmaqdan üzürlü olanlar üzürləri aradan gedəndən sonra o günlərin qəzası onlar üçün gələn ramazan ayına qədər tutmaq vacibdir və yaxud kəffarə olaraq yoxsulları, fəqirləri yedirtməlidirlər. Orucu qəsdən pozan adam, onun qəza və kəffarəsini yəni bir günə altmış bir gün oruc tutmalıdır. Və yaxud

altmış fəqir qarnı doyurmalı, o da mümkün olmasa bir qul azad etməlidir.

İslam dinində mövcud olan bir çox dini büsatlar kimi orucluq da tarix etibarilə çox qədimdir. İlin bir ayında yeməmək, içməmək, pəhriz saxlamaq hələ İslam dinindən əvvəl qədim ərəb və qeyriərəb millətlərin tayfaları arasında mövcud olmuşdur.

VII əsrin əvvəllərində Ərəbistanda yaşamış ərəb qəbilələrini birləşdirmək üçün İslam dininin əsasını qoyan həzrəti Məhəmməd əleyhis-salam onun zəruri şərtlərini işləyib hazırlayarkən İslama qədər ərəblər və bir çox başqa ibtidai xalqlar arasında mövcud olan bir çox adətləri, o cümlədən də pəhriz saxlamağı qəbul etmiş, zaman keçdikcə isə bu, özünün məna və məzmununu dəyişmişdir. Qıtlıq nəticəsində ərəblər arasında yaranan pəhriz saxlamaq İslam dini tərəfindən mənimsənildikdən sonra Allahın müəyyən etdiyi ən vacib ibadətlərdən biri kimi zəhmətkeş insanlar arasında təbliğ olunmağa başlanmışdır. Şəriət qanunları İslam dinində olan orucluq ayininin tarix etibarilə İslamdan çox-çox əvvəl olmasına işarə edərək İslam dininin banisi həzrəti Məhəmməd əleyhis-salamın öz ifadələri ilə qeyd edərək göstərir ki, "oruc əvvəlki ümmətlərə vacib olduğu kimi mənim ümmətimə də vacib olmuşdur".

İslam dininin orucluq ayini insanı müəyyən müddət dünya nemətlərindən məhrum edərək, ona xeyir-bərəkət gətirən bəyənilmiş adətlərindən biridir. Allaha ibadət adı ilə ramazan ayının uzun gecələrini rahat yatmayan gecə və gündüz ac-susuz qalmalarına baxmayaraq "Ya Allah, Ya Rəbbəl Aləmin" sözləri dillərindən düşməyən, səhərdən axşama kimi həm zəhmətlə çalışmaq, həm də ibadətlə məşğul olub Allahı zikr etməklə axirət rahatlığına çatmaq ümidi ilə mənalı həyat keçirirlər.

Hər bir çətinliyin arxasında yeni bir rahatlıq durur. Bunun üçün də orucluğun arxasında bağışlanmaq və sağlamlıq durur. Çünki çox yeyib mədəni doldurmaq insan sağlamlığı üçün nə qədər qorxuludursa ac qalıb oruc tutmaq o qədər insan sağlamlığına xeyirdir. Dahi Azərbaycan şairi Nizami Gəncəvi deyirdi:

Həddən çox yeməyə sən etmə adət,
Mədəni doldurmaq zəhmətdir-zəhmət.

Öz əsərlərində dini mövzulara tənqidi yanaşmasına baxmayaraq yazıçı-publisist C.Məmmədquluzadə də orucluğun hər bir şeydən pəhriz saxlamalı olmağın və axar sərin suyun içilməsindən məhrum olmağın dəyərini qiymətləndirərək "Xatiratında" deyirdi: "Dodaqlarım yanır, boğazım quruyur... Duru bulaq suyu dəmir lülədən şırıltı ilə axıb tökülür daşların üstünə. Amma heç kəsin cürəti yoxdur haman sudan içsin; çünki indi mahi-mübarəki-rəmazandır. İndi dodaqlar gərək quruya, onunçun ki, mahi-mübarəki-rəmazandır" (62, s. 403).

Orucluq ayının pəhrizində mömin müsəlmanlar üçün bütün günü ac və susuz qalıb öz bədənlərini zəiflətməkdən başqa həm də imkan olduqca müqəddəs Qurani-Kərimdən bir neçə surə oxumaq və Allah haqqında təfəkkür etmək müstəhəbbi bir iş sayılır. Ona görə Allah haqqında düşünməlidirlər ki, axirətdə oruc tutanlar baldan şirin və süddən ağ olan Kövsər suyu ilə sirab olunacaqlar. Şəriət hökmləri ramazan ayında oruc tutub səhərdən axşama kimi ac və susuz qalmağın insan orqanizminə xeyirdən başqa heç kəsə bir zərər vermədiyini göstərir. İslam dininə görə ramazan ayında oruc tutan adam nəinki yemək və içməkdən özünü məhrum etməlidir, habelə oruc tutan kəs dərmanları da içməkdən imtina etməlidir.

Dini təlimlər orucluq günlərində elm və maariflə geniş məşğul olmaq, çoxlu kitab oxumaq kimi dini və dünyəvi işlərlə məşğul olmağı qadağan etmir.

Müqəddəs İslam dininin göstərişlərinə əsasən, ramazan ayı kim özünü gündüzlər yemək-içməkdən qorumaqla əlavə həmin ayın on doqquzuncu gecəsi ilə otuzuncu gecəsi arasında yatmayıb qədr gecəsini "əhya" ("oyaq qalmaq") saxlayarsa, özünü Allah yolunda çətinliyə salaraq dua və sənaları layiqincə yerinə yetirərsə onun savabı daha da böyük olar. Bu savabın nəticəsində nəinki həmin şəxsin özü, hətta onun bütün əcdadı və qohum-əqrabasının cəmi günahları bağışlanıla bilər. İslam dininin bu hörmətli gecəsinin yəni, sonuncu səmavi kitab olan Qurani-Kərimin nazil olunduğu gecə hörmətinə mömin müsəlmanlar ramazan ayının

axırıncı on (10) gecəsini ehtiramla yad edirdilər. Həmin ayda oruc tutmaq, namaz qılmaq və dua oxumaqla və həmçinin bunlara əməl etməklə Allah yaratdığı öz bəndəsinin arzu və istəklərini həyata keçirərək naümid etmir.

Tanınmış tənqidçi yazıçı Cəlil Məmmədquluzadə anasının sidq ürəklə Allaha bağlı olduğunu qeyd edərək onun namaz və oruc kimi vacibatlarını yerinə yetirərkən hansı çətinlikləri çəkdiyini xatırladır və bunların insana nə qədər sağlam ruh verdiyini qeyd edir: "...Anam Allahın qorxusundan cınqırını çıxarmazdı, amma gündüz zəhməti və orucluq aclığı bir yandan, gecə ibadəti bir yandan, özü də bir gecə yox, on iki gecə yazıq arvadı əldən salardı və oturduğu yerdə çox vaxt qəşş edərdi və yıxılardı" (62, s. 414).

İslamın ramazan ayında tutulan orucun xeyiri barədə din göstərir ki, ramazan ayında insan orqanizmasında olan bütün mikroblar məhv edilir, sinir sistemi nizamlanır, insan istər-istəməz səbrli və təmkinli olur, insanın aclığa və susuzluğa müqaviməti çoxalır, insan günahlardan silkinir və yeni sağlam həyat tərzi keçirməyə başlayır.

Mömin müsəlmanları yüksək əhval-ruhiyyədə saxlayan orucluq onları mənəvi və cismani cəhətdən möhkəmləndirməkdən əlavə, həm də onlara maddi xeyir verir. Orucluqda müsəlmanların bir ay yemək və içməyə "qənaət" etmələrinə görə onlara çoxlu nemətlər nəsib edilir. Belə ki, oruc tutub ac qalan insanlar fiziki cəhətdən zəif olsalarda onlarda ruh yüksəkliyi daha da artıq olur. Nəticədə onlarda zəhmətə həvəs yüksək olur və səmərəli məhsul əldə etmək bacarığı təmin edilir. Bu günə kimi bir milyarddan artıq müsəlman camaatı cismani çətinliklərə baxmayaraq on səkkiz saat yay günlərini, qışın isə soyuq günlərini ac-susuz oruc tutmaqla, İlahi məhəbbətin tərənnümünü dərk edərək özlərini təsərrüfatdan, əməksizlikdən, zəhmətdən də məhrum etməmişlər.

Dinin yüksək göstərişi sayəsində mömin müsəlmanlar tam min dörd yüz otuz dörd il ərzində saf duyğularla insanlara sevinc gətirən ramazan ayında bir ay oruc tutmaqla Yaradan qarşısında əyilmək, Ondan yardım diləməklə gözəl günlərini səmərəli keçirmək sözün əsl mənasında təqdirə layiqdir.

## MƏHƏRRƏMLİK MƏRASİMİNİN FƏLSƏFİ MAHİYYƏTİ

Azərbaycan xalqının inanc məsələlərindən biri də məhərrəmlik ayıdır. Xalqımız bir qayda olaraq o ayda şəhid olmuş peyğəmbər övladlarına hörmət və ehtiram əlamətini bildirərək şənlik hesab edilən hər hansı bir ünsürlərdən özlərini çəkindirir və matəm saxlayırlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müsəlman aləmində faciəli və haqsız yerə qətlə yetirilən şəhidlərin ildönümünü yad edərək öz fəlsəfi fikirlərin belə təsvir etmişdir: ***"Müsəlman aləmində faciəli, müqəddəs bir günün xatirəsi qeyd olunur. Bu gün Həzrəti Məhəmməd (s) peyğəmbərin nəvəsi Həzrəti İmam Hüseynin (ə) qətlə yetirildiyi gündür. Biz ulu babalarımızın Vətən, torpaq, haqq, ədalət yolunda şəhid olduğu günü yad edirik"(63, s. 134).***

Həmçinin Naxçıvan əlyazmalarının fəlsəfi mahiyyətinə nəzər saldıqda görürük ki, bu matəm ilə əlaqədar xeyli yazılı materiallar vardır. Bunlardan əsas mühm hesab edilən "Qumru" kitabıdır ki, müəllif Fazili Dərbəndi öz yaradıcılıq nümunəsi çox yüksək səviyyədə göstərmişdir. Əsərin demək olar ki, əksər hissələri matəmlə əlaqədardır.

Həmin günün matəm saxlanılması dinin ən geniş yayılmış adətlərindən biri, məhərrəmlik təziyədarlığı və bununla əlaqədar yas saxlamaq, sinazən deyib sinə vurmaq və ən önəmlisi şadlıq etməkdən çəkinərək həya etmək mühüm əlamətlərdəndir. İllərdən bəri məhərrəmlik təziyədarlığının keçirilməsi, onun mahiyyətinin açıqlanması ilə bərabər onun əmələ gəlməsi və tarixinin də aydınlaşdırılması zəruridir. Düzdür vaxtı ilə məhərrəmlik və təziyədarlıq ayininin əmələ gəlməsi, onun siyasi mənası haqqında ateist və materialist olmuş bəzi ədiblər keçirilən bu matəm barədə çox tənqidi fikirlər irəli sürərək öz mənfi fikrlərini söyləmişlər. Amma buna baxmayaraq müsəlmanlar tərəfindən İmamların ölüm gününün böyük bir matəm məclisinə çevrilməsinin əhəmiyyəti olduqca zəruridir. Belə hesab etmək olar ki, məhərrəmlik

təziyədarlığı öz tarixi kökləri etibarı ilə Həzrəti Məhəmməd əleyhis-salamın rehlətindən (dünyadan köçməsi) sonra dinin müqəddəsliyi uğrunda gedən mübarizə ilə bağlıdır. Həzrəti Məhəmməd əleyhis-salamın rehlətindən sonra haqq, ədalət rəmzi olan müqəddəs İslam dininin yüksək səviyyədə idarə olunmasında layiqi olmayan adamlar xilafətdə siyasi hakimiyyətə sahib olmaq üstündə onun xələfləri arasında ixtilafa başladılar. Bu ixtilaflar qan axıtmaq bahasına həll olundu. Bu qanlı vuruşmalarda həlak olmuş Peyğəmbərin əsl vəsilərinin şərəfinə düzələn təziyadarlıq sonralar İslam dininin şiə məzhəbini qəbul etmiş müsəlman xalqlarında daha da mübariz olmaq əzminə çevrilmişdir. Həqiqətlər tam aydınlığı ilə göstərir ki, bu tarixi hadisənin dərin mənasını anlamaqla belə qənaətə gəlmək olur ki, Həzrəti Məhəmməd əleyhis-salamdan sonra həzrəti Əli əleyhis-salam və onun ardıcıllarının apardığı mübarizə siyasi hakimiyyətə sahib olmaq deyil, əksinə zülmə qarşı haqqı, ədaləti üzə çıxarmaqdır.

İslam dininin təfsirçiləri tarixi həqiqətləri doğru və düzgün şərh edərək belə bir real gerçəkliyi izah etmişlər ki, həqiqətən haqq iş və Alahın buyuruqlarını yerinə yetirmək uğrunda vuruşan İmamlar şəhid olmağı könüllü sürətdə özlərinə yol seçmişlər. Onların məzmunlu izahına görə Haşimilər qəbiləsi kifayət qədər qoşun toplayıb çox asanlıqla müxalifət tərəfə qalib gələ bilərdi. Lakin İmamlar bunu istəmədi. Ona görə ki, İmam səyyidüş-şühəda bunu bilirdi ki, bu bivəfa dünya üç günlükdür, bunun hər bir hərəkət və cəlalının axırı yenə ölümdür, şəhid olub axirətdə əbədi bir səadət qazanmaq hər şeydən üstündür.

Dinin bütün ehkamları kimi, onun ayrı-ayrı ayinləri də fəlsəfi hikmətlərlə doludur. Din təfsirçiləri göstərirlər ki, Allah yolunda İmamlar könüllü olaraq şəhid olmağı qəbul etmişlər. Bununla yanaşı şəhid olan İmamların şəninə düzəldilmiş təziyadarlıq İmamların haqq, ədalət uğrunda getdiyi yolun tərəfdarı kimi qeyd olunur. Haqqın, ədalətin carçısı olan İmamlar öz haqq səslərini belə izhar edirdilər: "doğrudur, məlunlar mənim başımı kəsib nizəyə vurub gəzdirərlər, amma bu əmrin özü Allahın öz məsləhəti ilə olub, çünki mən özüm o saat behiştdə əyləşib Quranın dərin mənalı ayələrini talib edərəm".

VII əsrdə Kərbəlada haqq, ədalət uğrunda mübarizə apararaq şəhid olmuş İmamların yad edilməsi uzun illər şiəməzhəb

müsəlmanların xatirindən çıxmamış və hər il məhərrəm ayında böyük izdihamla yad edilir. İnandırıcı fakt ondan ibarətdir ki, həqiqətən haqq iş üstə mübarizə edən İmamlar şimr kimi bir əxlaqsız, qeyri-insani davranışa malik olan adam tərəfindən qətlə yetirilmişdir. Həqiqi müsəlmanlar təziyə saxlamaqla, yad etməklə İmamların haqq səsinə səs verir və dinin pak məsumlarını uca tutaraq mədh edirlər.

Müxtəlif təfsirçilər məhərrəmlik təziyədarlığının yaranmasına qida verən tarixi hadisələri təhlil edərək belə bir nəticəyə gəlirlər ki, haqq, ədalət uğrunda çalışan adam hər bir bəşər övladı üçün əzizdir, məkan və zamanından asılı olmadan. Bu mənada həmişə haqq, ədalət tərəfdarı olan Azərbaycan xalqının milli köksündən, milli mentalitetindən gələn bu təziyədarlıq hər zaman böyük izdihamla səsləşir və ictimaiyyət tərəfindən təbii qəbul edilərək unudulmur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: ***"Biz bundan sonra da Qurani-Şərifin, Həzrəti Məhəmməd (s) peyğəmbərin qoyduğu yol ilə gedəcək və haqq, ədalət Vətən yolunda şəhid olmuş Həzrəti İmam Hüseynin (ə) və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq"(63, s. 135).***

Məhərrəm ayının günləri elə bir gündür ki, "hər kəs İmam yolunda bir qətrə göz yaşı töksə, axirətdə onun cəmi günahları bağışlanar" deyiminə əsas gətirmək olar. Çünki İmamlar şəhid olmaqla bildirirdilər ki, din və onun ehkamları hürriyyət əldə etmək və əsarətdən yaxa qurtarmaq, yer üzündə ədalətə haqq qazandıran, onu müdafiə edən bir ideoloji vasitədir. Ona görə də bütün İmamlar, dinin bütün ehkamlarına və ondan səmərəli və ağıllı istifadə edərək bəşəriyyət qarşısında böyük şücaət göstərmişlər.

Xuda, gəlib bu Hüseyn aləmə şəhadət üçün,
Qəbul edibdi şəhid olmağı şəfaət üçün.

Azərbaycan xalqının milli ənənəsinə, adətinə, məsləkinə və dininə çevrilmiş İmamların bu təziyədarlıq mərasimi böyük əminliklə qorunub saxlanılmaqla hər il yüksək səviyyədə yad edilir. Ümummilli lider Heydər Əliyev deyirdi: ***"Əmin olduğumu bildirirəm ki, xalqımız öz milli ənənələrinə, adətlərinə, dininə, məsləkinə həmişə sadiq qalacaqdır"(63, s. 135).***

Zaman keçdikcə böyük şair və yazıçılarımız bu matəm barədə öz zəngin əsərlərin yaratmış, bu da öz növbəsində Azərbaycan ədəbiyyatşünaslığında mərsiyyə janrına çevrilmişdir.

Naxçıvan əlyazma mətnlərinin əksəriyyəti dini zəmində yazıldığına baxmayaraq müasir Azərbaycan ədəbiyyatşünaslığı üçün qiymətli əsərlər inciləri kimi sayılır. Bu baxımdan orta əsr əlyazma mətnlərində Azərbaycan şairlərinin yaratdığı mərsiyə janrı, poeziyamızın əsas bir qolunu təmsil edərək gələcək nəsil üçün yaşatmışdır. Azərbaycan ədəbiyyatşünaslığında əlyazma mətnlərinin yaratdığı mərsiyə janrı böyük Nizami şəxsiyyətində parlaq ulduza çevrilmişdir. Nizaminin yaratdığı əvəzedilməz sənət əsərləri xalqımızın ədəbi-fikir tariximizdən xəbər verir.

"Nizami Gəncəvinin sönməz yaradıcılıq incilərindən sayılan "Leyli və Məcnun" əsərində "Dər vəfati Leyli" epizodunda mərsiyə janrı Orta əsr poeziyamızın nadir sənət incilərindən hesab olunur" (69, s. 49). Həmçinin Nizami Gəncəvinin Xaqani Şirvaniyə yazdığı heyfslənmə beyti mərsiyə janrının əsasından xəbər verir.

Hey deyirdim ki, mənə mərsiyə Xaqani yazar,
Heyf, Xaqaniyə mən mərsiyə yazdım axir.

Böyük Azərbaycan şairi Xaqani Şirvaninin qələmə aldığı "Dər mərsiyə imam Məhəmməd Yəhya" və "Dər mərsiyə Kafiyyəddin Əmir" (69, s. 40-45) əsərlərində mərsiyə janrı bir daha xalqımızın bu janrda yazıb yaratdığı şairlərin istedadından xəbər verməkdədir.

Dahi söz ustası Məhəmməd Füzulinin yaratdığı "Hədiqət-üs-süəda" ("Xoşbəxtlər bağı") kimi irihəcmli əsəri məhz bu qəbildəndir. Hələ Füzuli dövründə yazılan növhə şeri sonralar böyük vüsət tapmış və şairlərimizin çoxu bu şer növünə rəğbət göstərmiş, həmin janrda öz məharətlərini sınamışlar. Şerimizin bu sahəsində qələm çalan şairlərimiz bəzən qeyri-adi müvəffəqiyyətlərə nail olmuş və əsrlərlə xalqımızın hafizəsində öz yanıqlı şerlərilə həkk olunmuşlar. Xüsusilə Dəxil, Raci, Qumri, Pürğəm və Sərraf təxəllüsü ilə məşhur olan şairlərimiz öz yaradıcılığında qəzəl, müxəmməs və rübaiyə geniş yer vermələrinə baxmayaraq, yalnız mərsiyədə misilsiz məharət nümayiş etdirmişlər.

Azərbaycan ədəbiyyatşünaslığında misilsiz iz buraxan xalqımızın sevimli şairlərindən Qasım bəy Zakir, Seyyid Əzim

Şirvani, Mirzə Ələkbər Sabir, Xurşudbanu Natəvan və Hacı Molla Məhəmməd Naxçıvani kimi şairlərimiz də bu mövzuya müraciət edərək layiqli əsərlər yazmışlar.

Füzulinin dərin bədii və elmi təfəkkürə malik olan mərsiyə janrında yazdığı əsərləri getdikcə daha çox geniş yayılmış, ona ümumdünya şöhrəti qazandırmışdır. Bütün bunlar Füzulinin insan qəlbinin mahir alıcısı olması, onun bəşəri hissləri, saf və təbii eşqi, həyati tələblərdən doğan ictimai mövzuları yüksək bədii səviyyəyə qaldırması ilə əlaqədardır. Füzuli qədim Şərq və Yunan filosoflarının bədii, fəlsəfi irsinə yaxından bələd olmaqla, onları təfəkkür süzgəcindən keçirmiş və yaxınlıq ümumiləşdirmələri əsasında öz əsərlərin yazmışdır. Bunula belə Füzulinin mərsiyə janrında qələmə aldığı "Hədiqət-üs-süəda" əsəri Şərq İslam fəlsəfi-fikri ilə yanaşı qeyri fəlsəfi düşüncələri də özündə birləşdirir. İslamın sönməyən çırağı olan, din qoruyucusu kimi tarixə düşən, Kərbəla hadisəsinin əsas baş qəhrəmanı imam Hüseyn əleyhis-salam və onun əhli-beytinə dərin düşüncələrlə həsr etdiyi "Hədiqət-üs-süəda" əsəri özünün əsrarəngliyi ilə bu gündə sevilməkdə davam edir. Füzuli bu əsəri yazmaqla sanki mənəvi dünyasını rahatlaşdırmışdır. Bu hadisəyə öz münasibətin bildirərək **"Mərsiyə dər həqqi-xamisi-ali-əba həzrəti-seyyid-üş-şühəda"** epizodunda belə deyir:

Mahi-mühərrəm oldu, şəfəqdən çıxıb hilal,
Qılmış əza, töküb üzə xun birlə əşki-al.
Övladi-Müstəfayə mədəd qılmamış Fərat,
Keçirməsünmü yerlər bu ani infial?
Çoxdur hekayəti-ələmi-şahi-Kərbəla,
Əlbətdə, çox hekayət olur məvcibi-məlal.
İbrətlə bax qəmi-şühəda şərhin etməyə,
Hər səbzə Kərbəladə açıbdır zəbani-hal.
Təcdidi-matəmi-şühəda qıldı ruzigar,
Zar ağla, ey könül, bu gün olduqca ehtimal.
Mahi-mühərrəm oldu, müsərrəf həramdir,
Matəm bu gün şəriətə bir ehtiramdır.
Şad olmasın bu vaqidə şad olan könül,
Bir dəm bəlavü qüssədən azad olan könül.
Ey dərdpərvəri-ələmi Kərbəla Hüseyn,
Ey Kərbəla bəlalərinə mübtəla Hüseyn.

Yad et, Füzuli, Ali-əba halın, eylə ah,
Kim, bərqi-ah ilə yaxılır xərməni-günah.(70, s. 5-6)

"Hədiqət-üs-süəda" Füzuli yaradıcılığında özünəməxsus bir yer tutur. Əsərin dini mahiyyətdə olmasına baxmayaraq, XVI əsr Azərbaycan nəsr dilinin öyrənilməsində çox mühüm rolu vardır. Belə bir faktı da qeyd etmək lazımdır ki, klassik Azərbaycan şer dilində nisbətən, nəsr dili az öyrənilməmişdir. "Hədiqət-üs-süəda" əsəri bu boşluğun doldurulmasında ən mühüm əhəmiyyətli mənbədir.

Həmçinin müəyyən məxəzlərdən aydın olur ki, həzrəti imam Hüseyn əleyhis-salamın Kərbəla çölündə Allah yolunda özü və 72 nəfər qəhrəmanın, cəsur, qorxmaz tərəfdarlarından biri azərbaycanlı olmuşdur. Bu haqda Füzulinin şəhidlik abidəsi olan "Hədiqət-üs-süəda" əsərində həmyerlimizi "Müslimi-Azərbaycani" kimi təqdim edir. Böyük şairimiz Azərbaycan oğlunun uca şəhidlik zirvəsinə yüksəlməsini, pəhləvanlıq və qəhrəmanlıq şücaətinin heyrətli anlarını dərin poetik məna çalarları ilə nəzmə çəkmişdir: "Andan sonra Müslimi-Azərbaycani saqiyi-bəzm-rəzm olub, nə nəreyi-məstanə ilə Gunbədi-Gərdunə sədalar bıraxıb çox bixəbərləri cami-fənadan sərməst etdi. Gah şəmşiri-atəşbarla rəzm edib, gah tiri tizrəftarla müharibə qılurkən kəsrəti-cərahətdən zəf olub mərkəbindən düşdü... Andan sonra anın nəqdi-pakı və xələfi-salehi meydanə girib, babayi-büzürgvarının intiqamını alıb bir şəqi zərbətiylə bəzmi-gahi-bəqayə intiqil etdi"(71, s. 242).

Şair həmin kədərli səhnəni dərin qüssə ilə belə anladır:

Xoş ol arif ki, bildi mülki-dünyanın sərəncamın,
Həyatından təməttə bulmayıb içdi əcəl camın. (71, s. 242)

Sözün fəlsəfi mahiyyətini, məna və dəyərini Məhəmməd Füzuli qədər poetik bir dildə əks etdirən, sözü bədii təfəkkürün süzgəcindən keçirib əlvan rənglərlə boyayaraq ondan alınmaz qəsrlər tikən və orada sultanlıq edən, zaman durduqca da sultanlıq edəcək ikinci ustad bir şair olmamışdır, nə vaxtsa olması da inama sığmır. Sözdən incilər düzən və bu incilərlə külli kainatın bədii ponoramasını yaradan da M.Füzuli olmuşdur. Məhz Azərbaycan ədəbiyyatşünaslığında Füzuli poeziyasının dərinliklərinə vardıqca hər bir sözün ayrıca rəng çalarlarına malik olduğunu aydınca görür və dünyanın yalnız sözdən yarandığına bütün varlığınla inanırsan.

Azərbaycan ədəbiyyatşünaslığında olduğu kimi dünya ədəbiyyatında qəzəl və poemaları ilə şöhrət qazanan şair mərsiyə janrında da qələmini sınamış, əsl ustad olduğunu təsdiq etmişdir.

Azərbaycan əlyazma mətnlərində mərsiyə janrının bəzi xüsusiyyətləri demək olar klassik ədəbiyyatla həmyaşıddır. Bu janrın əsas növhələri Nizami, Xaqani, Nəsimi və Füzulidən başlamaqla öz intibah dövrün yaşamışdır. Sonralar bu janr ədəbiyyatımızda qüdrətli şairlər tərəfindən davam etdirilərək böyük inkişaf yolu keçmişdir. Ancaq təsüf hissi ilə demək lazımdır ki, sovet hakimiyyəti illərində İslam dininə olan qadağalarla bağlı ən böyük zərbə bəlkə də mərsiyə janrında yazılan ədəbiyyatımıza dəymişdir. Beləki o dövrdə ərəb əlifbası ilə yazılmış bütün əsərlər yandırılarkən mərsiyə janrında yazılan əlyazma mətnlərinin böyük əksəriyyəti məhv edilmişdir. Lakin insanların hafizəsindən tam da silib atmaq mümkün olmamışdır. Nəhayət, son dövrün yadigarlarından olan Məhəmmədhüseyn Şəhriyar mərsiyə ədəbiyyatına müraciət edərək onu yenidən yazılı şəkildə dirçəltməyə müvəffəq olmuşdur. Azərbaycanın xalq şairi Qabil də Qanlı yanvar hadisələrindən qəhərlənərək bu janra müraciət etmiş və "Xalqımı, millətimi gülləbəran eylədilər" adlı mərsiyəsini yazmışdır.

Göründüyü kimi mərsiyə janrı bütün dövrlərdə öz aktuallığını qoruyub saxlamış, insanların dərdini, kədərini, ağrı-acısını bədii rəngarəngliklə özündə əks etdirmişdir.

Xalqımızın unudulmaz şairi Mirzə Ələkbər Sabir Azərbaycan ədəbiyyatı tarixində əsasən satira janrının ən qüdrətli nümayəndəsi kimi tanınır.Bəlkə çoxları bilmir ki, böyük satira ustası həm də qəlb sızladan, insanın ruhuna təskinlik gətirən gözəl mərsiyə nümunələri də yaratmışdır. Bu baxımdan onun "Yaralı" adlı mərsiyəsi olduqca təsiredicidir. Şair burada Kərbəla müsibətini ürək ağrısıyla nəzmə çəkərək imam Hüseyn əleyhis-salamın məktəbini, onun getdiyi xətti-hərəkətini, şəhidlik məqamını ön plana çəkir, əhli-beyt sevərlərinə vətən sevgisini, əqidə və xeyirxah amallar yolunda canından belə keşməyi təlim etdirir. Şair mərsiyə janrının mətlə beytində belə xitab edir:

Nəzəri lütf ilə bax səhəti Şirvanə Hüseyn,
Qıl Kərəm həşridə bu cəmi-pərişanə Hüseyn,
Yaralı quş kimi Sabir gəlüb əfqanə Hüseyn,

Bəzmi matəmdə açıb nohə deyərlər yaralı.

XIX əsr nohə ədəbiyyatının məşhur nümayəndələrindən biri tanınmış Hacı Molla Məhəmməd Naxçıvani də yaratdığı əsərlərinin əksəriyyətini mərsiyə janrına həsr etmişdir. Şərq aləmində tanınan və sevilən "Səhabəd-dümu", "Qürrətul-əbsar", "Kəşkülü-nur" kimi əsərləri buna bariz nümunədir. Kərbəla hadisəsinə aydınlıq gətirən müəllif deyir:

Xuda, gəlib bu Hüseyn aləmə şəhadət üçün,
Qəbul edibdi şəhid olmağı şəfaət üçün.
O vaxtın hörmətinə Kərbəlada qan içəcək,
Əliyyi Əkbərinin qəddinə kəfən biçəcək.(37, s. 478)

Bu mövzuda adları çəkilən şair və yazıçılarımız xeyli yaradıcılıq işləri aparmaqla bir daha Azərbaycan əlyazma mətnlərində mərsiyə janrının bəzi xüsusiyyətlərini ən ali poetik dildə qələmə almışlar. Poeziyamızın bir qolunu təmsil edən mərsiyə janrının tədqiqi günümüzün ən aktual mövzularındandır.

Bütün bu fəlsəfi fikirlərin məntiqi nəticəsidir ki, xalqımız öz tarixi keçmişini, adət-ənənələrini, milli dəyərlərini unutmur, yaddan çıxarmır və onun təhrif olunmasına yol vermir.

## QURBAN BAYRAMININ MÜHÜM ƏHƏMİYYƏTİ

Məlum olduğu kimi, islam dininin ən geniş yayılmış adətlərindən biri də Qurban bayramıdır. İctimai cəmiyyət belə hesab edir ki, islam dininin başqa ayin və mərasimləri kimi Qurban bayramı da zəhmətkeşlərə ideoloji təsir göstərməklə, onların şüurunu dini duyğularla və real gerçəkliklə əzmləşdirməkdən başqa, həm də dinin maariflənməsi istiqamətində atılan böyük mənəvi yardımdır. Məhz bu baxımdan Azərbaycan Respublikasının Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Milli Elmlər Akademiyası və Qafqaz Müsəlmanları İdarəsinin məlumatına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabineti 2012-ci ildə Novruz, Ramazan, Qurban bayramları haqqında 07 dekabr 2011-ci il tarixli 198 nömrəli qərar qəbul etmişdir ki, bunların da əsas mahiyyəti və əhəmiyyəti olduqca böyükdür.

1400 il bundan əvvəl nazil olmuş sonuncu səmavi kitab Qurani-Kərimin şərh etdiyinə görə Qurban bayramı bəşəriyyətdə ən böyük müqəddəs bayramdır ki, buna da İslam aləmində "Eyd əl-əzha" ("Qurban bayramı") və yaxud "Eyd əl-kəbir" (Böyük bayram) deyilir. Bu bayram dinə etiqad edən bütün insanlar üçün ən əziz gün sayıldığına görə onu müqəddəs bir mərasimə çevirmişlər. Tarixi faktlarla yanaşı milli sərvətimiz olan Naxçıvan əlyazma mətnlərində göstərilir ki, Qurban bayramı islam dinindən qabaq meydana gəlsə də, onun əsas ehkamları İslam dini ilə sıx bağlıdır. Qurban bayramı, hicri-qəməri təqvimi ilə zilhiccə ayının 10-da böyük sevinclə qeyd edilir. Bu bayram həzrəti İbrahim əleyhis-salamın əhdinə vəfa edərək oğlu İsmayıl əleyhis-salamı Allah yolunda qurban kəsməyə hazır olması və İlahidən oğluna əvəz göndərilmiş qoç qurbanlığı kəsməsi ilə əlaqədar qeyd edilir, odur ki, bu bayrama İsmayıl qurbanı da deyilir.

Əlyazma Risalələrdə göstərilir ki, Qurbanlıq heyvan qoyun, keçi, dana və dəvədən ibarət ola bilər: dəvədirsə - beşillik, danadırsa

– ikiillik, qoyun və ya keçidirsə - birillik, yaxud bu yaşlara yaxın olmalıdır. Dəvə və dananı yeddi adam birləşib qurban kəsə bilər. Üstündə bir eybi olan (kor, şikəst, axtalanmış, buynuzu sınıq, dişi tökülmüş, çox arıq və s.) heyvanı qurban kəsmək caiz deyil (düzgün deyil). Qurban kəsərkən belə niyyət edilir: "Bismillah, bu qurbanı kəsirəm (çox adam iştirak edirsə - kəsirik), qübətən iləllah". Sonra "Bismillah" və "Əllahu əkbər" deyə bu duanı oxuyurlar: "İnni vəccəhtu vəchiyə lilləzi fətərəs-səmavati vəl-ərzə, hənifən müslimən və ma ənə minəl-müşrikin. İnnə cəlati və nüsuki və məhyayə və məmati lillahi Rəbbil-aləmin, la şərikə ləhu və bizalikə ümurtu və ənə minəl-müslimun, əllahummə, minkə və ləkə. Bismillahi vəllahu əkbər" (Mən tovhidi iqrar edən müsəlman kimi və müşriklərdən olmadığım halda üzümü göyləri və yeri yoxdan vücuda gətirənə tuturam. Həqiqətən, namazım da, ibadətlərim də, diriliyim də, ölümüm də Aləmlərin Rəbbi Allah üçündür. Onun şəriki yoxdur. Mənə bu əmr edilib, bir halda ki, mən özümü Allaha təslim edənlərdənəm. İlahi, bu Səndəndir və Sənədir. Allahın adı ilə. Allah böyükdür!). Qurbanı kəsdikdən sonra bu duanı oxuyurlar: "Allahummə, təqəbbəl minni" (İlahi, qurbanımı qəbul et) və yaxud bir neçə adam şərik olarsa "Allahummə, təqəbbəl minna" (İlahi, qurbanımızı qəbul et).

Hələ İslamdan əvvəl ibtidai insanlar təbiətlə mübarizədə aciz olduqlarından, özlərini təbiətin qulu hesab etmiş və buna görə də təbiəti "mərhəmətə" gətirmək üçün heyvan, bəzən də insan qurbanı kəsirmişlər. Qurban kəsmək adəti sonradan islama qədər mövcud olan dinlər tərəfindən qəbul edilmişdir. Xüsusən tarix etibari ilə İslamdan qabaq olan Yəhudi dinində bu haqda İbrahim (Abram) və İsmayıl hadisələri barədə inanc yaradılmışdır. İslam dinində mövcud olan Qurban bayramı öz nəzəri qidasını bu hadisədən almış və ərəblərin işğal etdikləri ölkələrdə islam dinini qəbul edənlər arasında yayılmışdır.

İslam dinində mövcud olan Qurban bayramının tarix etibarı ilə çox qədim olduğu və peyğəmbər həzrəti Məhəmməd əleyhis-salamın dövründə geniş maraq doğuran bu bayram ən sevimli günə çevrilmişdir.

Naxçıvan əlyazma mətnlərində əhəmiyyətli dərəcədə mühüm hesab edilən Qurban bayramının yaranması tarixini izah etməklə

bərabər göstərmək olar ki, bu bayram Yəhudi dinində də insanların Allaha və Onun göndərilmişlərinə itaət etmək üçün yaradılmışdır. İnsanlar arasında birlik yaratmaq üçün İbrahim əleyhis-salam dindən ağıllı bir adət kimi istifadə edərək iman gətirən insanlara müraciət edərək deyirdi ki, Allah mənə oğlum İsmayılın əvəzində ildə bir qoyun qurban kəsməyimi əmr etmişdir. Siz də Allahın razılığını ələ gətirmək üçün Allahın bu buyurduqlarına əməl etməyiniz tövsiyə edilir. İbrahim əleyhis-salamın bu tövsiyəsi ilə inanan zəhmətkeş insanlar onun göstərişlərinə əməl etməyə başlayır və beləliklə, insandan qada-bəlanı uzaqlaşdıran qoyun qurbanları kəsilməsi icra edilirdi.

"Qurban" Xudavəndi aləmin bayramıdır, mümkünü olan müsəlman gərək qurban kəssin deyən və bunun İslam dinindəki bayramların hamısından mənalı və müqəddəs bir tarix olduğunu söyləmək lap yerinə düşər. Çünki həzrəti İbrahim Xəlilin (Allahın dostu ləqəbi) yadigarı olan Qurban bayramı bütün müsəlman əhalisi üçün səciyyəvi xarakter daşıyır. O mənada ki, bütün dünyanın hər yerində olan "kureyi-ərzin" (yer kürəsinin) müxtəlif yerlərində sakin olan müsəlmanlar qurban kəsməyə məşğuldurlar. Bununla belə "Aləmi-İslama" (İslam aləminə) nəzər edəndə vüsətli bir mənzərə, camaat mədəni, dostluq məhəbbəti, insanların elmi cəhətdən maariflənməsi, qeyrətli üməralar, ticarət düzgünlüyü, ziraət (əkinçilik) qaydasında və s. rast gəlirik.

Qurban bayramının yaxınlaşması münasibəti ilə müsəlmanlar öz insani borclarını yerinə yetirməklə bu bayramın əzəmət, şərafət və hörmətinə dair dürəfşan söhbətlər və nəsihətlər aparmaqda, bu bayramın nə qədər müqəddəs olduğunu dərk edərək göstərirdilər ki, bəşəriyyətdə həmişə sevilə bilən bu müqəddəs gün öz mahiyyətinə görə çox əhəmiyyətlidir. Qurban bayramı münasibəti ilə uzun illərlə əzizlərini itirmiş insanlar öz valideyinlərini ziyarət etməklə onları rəhmətlə yad edir və Allahdan onların bağışlanması üçün dualar edib və Quran tilavət edirlər. Hər bir müsəlman özünü borclu bilərək Qurban bayramının yaxınlaşmasını xəbər verməlidir ki, Qurban bayramı barəsində məlumatı olsun.

Hər bir zəngin zəhmətkeş müsəlmanın borcudur ki, Qurban bayramında İslam dininin başqa şərafətli günləri kimi kasıb və yoxsulların qarnını doyursun. Bunun yoxsullar üçün çox böyük bir

əhəmiyyəti vardır, çünki onları ancaq sevindirmək, onların qəlbini ələ gətirmək ən böyük bir vasitədir. Zilhiccə ayının yaxınlaşması münasibəti ilə müqəddəs islam hümmətinin qurbanlıq qoyunlar alıb tədarük görmələrini, bıçaqları itiləyib Allah yolunda qurban qanı axıtmağa hazır olduqlarını, yoxsullara əl tutmaqla Allah hörmətinə, İbrahim Xəlil xatirinə, İsmayıl eşqinə qurban kəsmələrini sevincli həyat bayramı, itaət bayramı və yoxsullara, xəstələrə və qoca kimsəsizlərə qulluq etmək bayramı adlandırılan bu gün, İbrahim Xəlil bayramı kimi milyonlarca ali mütəfəkkir yetirən müsəlman dünyası üçün çox əhəmiyyətlidir. Hər bir yetərincə dolanışığı olan müsəlman haqq və həqqaniyyət axtarışında olmalı, bu bayram günlərində qurban kəsib yoxsullara bir pay verməklə savab işlərlə məşğul olmalıdır. O səbəbə fəqirlərin süfrəsi başında əyləşib onlarla yeyib-içmək, əlsiz-ayaqsızları yada salmaq, onların hər bir çətinliyə rast gələnini doyuzdurmaq, bütün xeyir işlərdə özünü kənar saxlamamaq, söz yox ki, Qurban bayramı yoxsullarla ünsiyyət yaratmaq üçün bir vasitədir, çünki doğrudan da Allah sevən bu qədər savab işlərin yerinə yetirilməsi üçün yoxsulları yedirdib, içirməyin Allahın razılığını qazanmaq, Onun məhəbbətini əldə etmək nə qədər zəruri və əhəmiyyətlidir.

Dinimizin Qurban bayramı haqqında buyurduğu bu ehkamlar açıq göstərir ki, Qurban bayramı yoxsulları, kasıbları və kimsəsizləri doydurmaq və dinə etiqad edən hər bir insanın Allahdan asılılığını daha da qüvvətləndirmək üçün bir vasitə olduğunu başa düşməsidir. Dini duyğularla yaşayan müsəlmanlar belə hesab edirlər ki, dinin bütün bayram və mərasimləri, o cümlədən də zilhiccə ayında kəsilən qurbanlar zəhmətkeşlərə həm maddi, həm mənəvi cəhətdən xeyir verdiyi halda onun savabı isə Allah yanında böyük mənəvi qiymətdir.

## ZİYARƏTİN MÜXTƏLİF NÖVLƏRİ

*"İslamın müqəddəs abidələrini, Həzrəti Məhəmməd (s) peyğəmbərin məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm"*

***Heydər Əliyev***

Naxçıvan əlyazmaları geniş və universal əhəmiyyətli mətnlər sırasındadır. Bu universallığı ilə seçilən əlyazmalardan biri də "Məfatihul-Cinan" ("Cənnətlər açarı") əsəridir ki, böyük həcmə malik olan bir mənbə hesab edilir. Əsərin müəllifi Şeyx Abbas Qumi İslam dinində ən geniş yayılmış mərasimlərdən biri də "müqəddəs" ziyarətgahlara getmək və orda olan müqəddəsləri ziyarət etmək barədə mövzuları açıqlamışdır. Məkkə şəhərində yerləşən müqəddəs Kəbə evində saxlanılan metiorit qara daş parçasına, peyğəmbər və onun nəslindən olan müxtəlif əşyalara hörmət edilməsi bu cür "müqəddəs" ziyarətgahlar cümləsindəndir. Ziyarətgahların ehtiramı gözlənilməklə yad edilən bir neçə "müqəddəs" yerlərin adları o adamlara verilməklə əbədiləşir. Bu "müqəddəs" yerlərdən ən üstünü sayılan Məkkə şəhərində yerləşən "Kəbə" evidir ki, oranı ziyarət edən "Hacı" müqəddəs titulunu qazanır. Məkkənin müqəddəsliyi Qurani-Kərimin Ali-İmran surəsinin 97-ci ayəsində bəyan edilir: "Onda İbrahimin məqamı vardır. Kim ora daxil olsa amandadır. Allahın insanların - əlbəttə ora getmək imkanı olan kəsin – boynuna düşən haqqı budur ki, o evə gedərək oranın Həcc əməllərini yerinə yetirsinlər. Kim nankorluq etsə, həqiqətən, Allahın aləmdəkilərə ehtiyacı yoxdur" (16, s. 62) deyə buyrulmuşdur.

Müsəlman aləmində "Hacc" yüksək adından sonra İslamın saf amallar uğrunda yaşaması mübarizəsi naminə, fanatizm və xürafatdan yaxa qurtarmaq əzmini öz canı bahasına qurban verib şəhidlik zirvəsinə çatan İmam Hüseyn əleyhis-salamın ziyarətgahıdır ki, oranı ziyarət edən "Kərbəlayi" müqəddəs titulunu qazanır. Bundan sonra peyğəmbər nəslinin qərib vilayətdə səkkizinci nəvəsi

olan İmam Rza əleyhis-salamın ziyarətidir ki, oranı ziyarət edən "Məşhədi" müqəddəs titulunu qazanmış olur. "Müqəddəs" yerlərə ziyarət etmək mərasimi də İslam dinində mövcud olan digər mərasimlər kimi öz tarixi kökləri etibarı ilə qədim dinlərə bağlıdır.

Adı çəkilən əsərdə müəllif islam dinini qəbul etmiş şiə məzhəb xalqların müqəddəs saydığı Məkkə, Mədinə, Nəcəf, Kərbəla və Məşhəd şəhərinin İslam dininə etiqad edən zəhmətkeşlər üçün mənəvi saflıq və səadət mərkəzləri adlandırmışdır. Var-dövlətin çoxalması ilə könüllü olaraq xums və zəkatın çıxıb evdə öz uşaqlarının, ailəsinin azuqəsini verməklə ağır və ehtiyac içərisində qalmamaq şərti ilə günahlardan çəkinməklə təmizlənmək və o dünyada bağışlanmaq üçün ziyarətə getmək yaxşı əməllərdən hesab edilir. Çünki İslamda ziyarətə getmək və hər hansı müqəddəs yerin ziyarətin etmək böyük xoşbəxtlikdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: ***"İslamın müqəddəs abidələrini, Həzrəti Məhəmməd (s) peyğəmbərin məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm"(63, s. 27).***

Din "müqəddəs" yerləri ziyarət etməklə müsəlmanları mənəvi cəhətdən yüngülləşdirir, insanın mənəvi aləminin zənginləşməsi ilə dünya səyahəti müsəlmanın noosfer fəaliyyətinin genişlənməsinə səbəb olur. Din ziyarət etməyin çox əhəmiyyətli olduğunu göstərərək zəhmətkeş müsəlmanların uzun illər arzu etdiklərini həyata keçirir və gerçəkləşdirir.

Uşaqlarını məktəblərə qoyub dərs oxutmaqla yanaşı qalan imkanlarını ömrünün mənalı keçməsi naminə Məkkə, Mədinə, Kərbəla, Xorasan və başqa müqəddəs yerlərə pul xərcləyən müsəlman valideynlərinin sevinclə dolu olan vəziyyətini qiymətləndirməmək olmaz. Uşaqların məktəblərdə, mədrəsələrdə və universitetlərdə oxuyub Şərq dillərini bilməklə yanaşı valideyinləri ilə müqəddəs yerləri gəzib və yenidən qayıdıb məktəbdə yeni dünyagörüşün formalaşması məhz onların müqəddəs yerlərə getmələrinin səbəbi olmaqla atalarının Məşhəd və Kərbəla kimi ziyarətgahlara dəfələrlə gedib mənalı dünya səyahətinin əldə edilməsi və digər tərəfdən elmi-biliklərin maariflənməsi istiqamətində səmərəli xərc çəkmələridir.

Müqəddəs Qurani-Kərimdə Həcc ziyarətinə gedənlərin daxili aləminin təmiz pak niyyətlərlə açıb göstərən bir neçə ayələr mövcuddur. Yetərincə malı-dövləti olan və evdə qadınının, uşaqlarının yanında illik xərclərini qoyan ailə başçısı müqəddəs Həcc ziyarətinə gedə bilər. "Həqiqətən, insanlar üçün ilk bina olunan ev (məbəd) Məkkədəki evdir ki, o, şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır. Orada aydın nişanələr – İbrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır (təhlükədən kənardır). Onun yoluna (ərzaq, minik və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanları Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə (özünə zülm etmişdir). Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyildir" (16, Ali-İmran surəsi, ayə 96-97, s. 61).

Müəllif "Məfatihül-Cinan" əsərində müsəlman şəriəti ilə bərabər göstərir ki, halal zəhmətlə qazanılmış sərvətlərin ziyarətgah yollarında sərf edilməsi insan mənəviyyatının kamilləşməsinə, güclənməsinə müsbət təsir göstərir. O, ziyarətgahlara getməyin iqtisadiyyata göstərdiyi müsbət təsir onun mal-dövlətinin bərəkət tapmasına səbəb olur.

"Müqəddəs" yerlərə ziyarətə getmək iqtisadi göstəricidən asılıdır. Hər hansı bir şəxs iqtisadi cəhətdən zənginləşərsə Həccə getmək nəinki könüllü, əksinə onun üçün vacib olar. Belə ki, ziyarətə gedən zəvvarların bir qismi Ərəbistan çöllərində isti hava şəraitinə uyğunlaşmalı, digər qismi isə aylarla Ərəbistan səhralarının qumlu çöllərinə tablaşmalı və vacib əməlləri yerinə yetirməlidirlər. Ziyarətgahlara gedib qayıtmağın yaratdığı abı-hava insanlarda müsbət əxlaqi nəticələri bir daha şöhrətləndirir.

Müəllif əsərdə onun fəlsəfi mahiyyətin verməklə qeyd edir ki, şiəməzhəb müsəlmanlar arasında belə bir etiqad vardır ki, həqiqətən kim İmamların qəbrinin yanında və yaxud ətrafında dəfn olunarsa, o qiyamət günü sorğu-suala çəkilən zaman qorxmaz və çox asanlıqla cavab verə bilər. Ona görə də sağlığında bir çox səbəblər üzündən həmin yerlərin ziyarətinə gedə bilməyənlər qəbirlərini öz vətənlərində əmanət basdırırdılar. Sonradan onların ən yaxın qohumları o ziyarətə gedərkən həmin sümükləri də aparıb müqəddəs yerlərdə dəfn edərdilər. Şiə ölkələrindən bu şəhərlərə dəfn olunmuş əmanət sümüklərin gətirilməsi yerli hökümət orqanları və varlıları

tərəfindən müsbət qəbul edilir və onlar üçün şərait yaradılırdı. Qəbir üçün yer almaq, sümükləri dəfn etdirmək və s. məsələlərlə əlaqədar olaraq müsəlmanların heç bir havayı xərcləri çıxılmırdı.

Bu mərasimin həyata keçirilməsi ilə əlaqədar olaraq müsəlmanların nə qədər savab işlərin çəkilməsi xüsusi qeyd etmək olar. Bütün şiə Əmirəlmöminin ölkələrində, əzan cümlə bizim Qafqaz şəhərlərində, ələlxüsus Bakıda, Naxçıvanda, Gəncədə və başqa şəhərlərdən mərhum və mərhumələrin sümüklərini gordan-gora daşımaq qədimdə bir adət olmuşdur. Hələ bundan əvvəl hər il Kərbəla ziyarətinə gedən müsəlman qardaşların əksəriyyətinin torbalarında ya atalarının, ya analarının, qardaşlarının, qohum-əqrabalarının sümükləri gedib Kərbəla torpağında dəfn olunurdu.

Müsəlman doktrinasına görə insan behiştə düşmək üçün bu dünyada lazımi savab qazanmalıdır. Yaxşı əməllərlə insan kamilləşmiş məqama çata bilər. Şəkk yoxdur ki, müqəddəs dinə etiqad edənləri tənqid atəşinə tutanlar az olmamışdır. Şübhəsiz ki, XIX əsrin axırı XX əsrin əvvəllərində Azərbaycan maarifçilik fəlsəfəsində meydana gəlmiş iki qrupun; **ənənəçilər** və **moderniçilər** adlanan yeni ideya düşüncələri üst-üstə düşməmişdir. Məhz bunun nəticəsində də xalqımızın öz milli mentalitet ənənəçiliyini davam etdirmək əvəzində moderniçilik dünyagöründən bəhrələnən bəzi ədiblər müsəlman olmaqlarına baxmayaraq, özlərini müsəlmanlıqdan kənar bir şəxslər hesab edirdilər. Buna da dəlilimiz onun oruc-namazdan uzaq qalmağı və sarsaq-sarsaq komediyalar ortalığa salıb möhtərəm xanlarımıza, bəylərimizə, üləmalarımıza, ağsaqqallarımıza, ağbirçəklərimizə, din xadimlərimizə, insanların ənənəvi prinsipdə maariflənməsi üçün tərbiyələndirən Molla və Axundlara sataşmaq idi. İndi belə güman edək ki, o üzdən iraq ədiblərin sönük və dar çərçivədə dünyagörüşləri, böyük Şeyx Nizami Gəncəvidən, Mövlana Məhəmməd Füzulidən, Mövlana Cəlaləddin Rumidən, Qəzzalidən və bir də irax, İmam və Peyğəmbərdən samballı adamlar olmamışlar ki, bu qədər yüksək mədəniyyət sahibi olan xalqı, milləti, onun milli-mənəvi, dini-əxlaqi dəyərlərini tənqid atəşinə tutalar. Xeyir, əgər hər hansı bir insan özünü tərif etməklə özünü başqalarından ağıllı hesab edə, böyüklük məqamına çatdıra və başqalarını özündən zəif görüb ona qarşı pis münasibətdə olarsa onda

onun özü nadanlığın ən böyük zirvəsindədir. Böyük Azərbaycan şairi Xaqani Şirvani deyirdi:

Nadandı özünü tərif edənlər,
Çox bilirəm demə, bilsən də əgər.

Məkkə, Kərbəla, Xorasan kimi mərkəzi ziyarətgahlardan başqa müsəlman ölkələrinin hamısında, o cümlədən Azərbaycanda da bir sıra yerli ziyarətgahlar vardır ki, bunlar xalq arasında "İmamzadə" və "Pir" adı ilə məşhurdur. Bunların bir çoxu öz mənşəyi etibarı ilə İslamdan çox əvvəlki dövrlərə aiddir, bir qismi isə İslam dininin meydana gəlməsi və başqa ölkələrə yayılması ilə əlaqədar olaraq meydana gəlmişdir. Ruhanilər yerli ziyarətgahlardan insanların əxlaqi tərbiyə, mənəvi saflığı naminə böyük mənfəət götürməklərin qeyd etməklə həmin "pirlərin" kəramətini bir daha çatdırmağa çalışırlar. Azərbaycanın ayrılmaz guşəsi olan qədim Naxçıvan torpağında əsrlər boyu müqəddəs sayılan "Əshabi-Kəhf" məqamında insan üçün əhəmiyyətli olan əxlaqi qaydalardan, xüsusiyyətlərdən, milli-mənəvi dəyərlərdən və müsəlmanlar arasında müqəddəs bilinən: Allah, peyğəmbər, imam, müctəhid, şeyx, imam cümə, təharət, nəcaət, nəzr, səbr, meyyit namazı, qüsl, üsuli-din, firui-din və sair İslamın zəruri ehkamları çatdırılır.

Dünya həyatının faniliyindən, axirət həyatının baqiliyindən hər kimsəni öz ibrətamiz nəsihətləri ilə başa salan imam övladları xalqın inamını və etiqadını qazanan seyyidlərin rolu danılmazdır. Bu seyyidlərdən biri milyonlarla insanların pərəstiş etdiyi Mir-Möhsün Ağadır ki, onun qapısına gedən naümid qayıtmayıb. Bir çox dindarlarla yanaşı böyük şəxsiyyətlər də Ağa Mir-Abu Turab oğlu Mir-Möhsünzadədən (Ətağadan) kömək diləmək məqsədi ilə sağlığında onun özünə, öləndən sonra isə qəbrinə çoxlu nəzir verirdilər. Həqiqətən Allahdan Ətağa vasitəsi ilə kömək diləmək böyük bir reallıqdır. Onun qəbri hələ də inanılmış bütün müsəlman və yaxud qeyri-müsəlman adamlar tərəfindən ziyarətgaha çevrilmişdir. Ətağa haqqında belə demək olar ki, onun çoxda dəb-dəbəli yaşayış yeri olmayan bir yerdə yaşaması insanlarda təcüb doğurmurdu. O vaxt Ağa Bakının İçəri şəhərində yerləşən Oktyabr inqilabının on illiyi adlanan küçədə yaşayırdı. Bir müqəddəs ocağın sahibi "Ətağa" adlı ağanın şəfaverici qapısı ali məslək sahibi adlanan camaat üçün ziyarətgah qərar verilib və "Ağa"nın qabağında ona

qarşı böyük ehtiram nümayiş etdirilirdi. İndi isə onun müqəddəs qəbri-şərifi insanlar üçün böyük bir ziyarətgah mənbəyinə çevrilib.

İslam dinində mövcud olan bu kimi mərasimlərin elmi şəkildə inkişaf etdirib yüksək səviyyəyə qaldırılmasında elm və təhsilin roluna böyük əhəmiyyət vermək lazımdır. Elmi biliyin yüksəlməsi nəticəsində vətənin maarifpərvər insanları o qədər savadlı olmalıdır ki, bunun nüfuzu sayəsində əzizlərin Kərbəlaya aparılmasını, cəmi mömin insanların behişt hissiyatlarının reallığı, onların cəhənnəmi də və behişti də haqq olaraq cəmiyyətin formalaşmasına yardım etsin.

Müasir şəraitdə din və dini fəaliyyətlərin yaşamasını yeni quruluş üçün ən zəruri və məqsədyönlü bir sahə hesab etmək olar.

Müqəddəs İslamın "müsəlman müstəsnalığı" təliminin təbliğinə böyük əhəmiyyət verilmişdir. Demək olar ki, onun əsrlər boyu müsəlman və qeyri-müsəlman olanlar bir yerdə mehriban yaşamış, ticarət əlaqələri etmiş və səmimiyyəti qoruyub saxlamışlar. Hər bir dinə məxsus olan insanların inandığı İlahi kitab (səmavi kitab) müqəddəs tutulmuş və onun ayələrinin bir çoxu məhz bu məsələyə həsr olunmuşdur. Həzrəti Məhəmməd peyğəmbər əleyhis-salamın bütün yaradıcılığında müsəlman paklığı yüksək tutulmaqla yanaşı, başqa millətlərə hər hansı bir mənfi münasibət bəsləmək kəskin surətdə tənqid edilmiş və əsl demokratik cəmiyyətin yaranması üsulu meydana gəlmişdir. Hindistanın tanınmış görkəmli siyasi və dövlət xadimi Cavahir Nehru bu haqda belə bir fikrə gələrək deyirdi: "İslam özü ilə insanlara qardaşlıq ideyası və bütün müsəlman olanların hamısının bərabərliyi ideyasını da gətirmişdir. Demək olar ki, xalqa müəyyən dərəcədə demokratiya verilmişdir" (64, s. 152).

İslamın beş əsas əxlaqi prinsiplərindən birinə çevrilmiş "kafirlərə" qarşı "müqəddəs müharibə" və ya "cahad-qəzavət" müsəlman xalqlarının həyatında çox mühüm əhəmiyyətli rol oynamışdır. İslam dinində göstərilir ki, "kafirlərlə dostluq etmə, müsəlmana zərbə vurub xəyanət edən adamlarla oturub-durma, onlara inanma. Bələliklə, müsəlman aləmi anlayır ki, dünyanın başqa xalqları arasında böyük bir əlaqə saxlamaq lazımdır, lakin bu şərtlə ki, onlarla hər hansı bir əlaqə saxlamaqda dini ehkamın pozulmaması baş verməsin.

Quran və onun əsasında yaradılan müsəlman qanunları bütün dünya xalqlarının coğrafiya və etnoqrafiyasını iki hissəyə bölərək sadə və asan bir formul ilə ifadə edirlər: müsəlmanlar və müsəlman olmayanlar. İslam dini müsəlman olmayan millətlərə həmişə müsbət münasibət bəsləmiş və onları islam mədəniyyəti ilə maarifləndirmişlər.

Heç də həmişə qeyri-müsəlmanlar, müsəlmanlara yaxşı münasibət bəsləməmişdi, elə zaman olub ki, onları özlərinə düşmən hesab ediblər. Bu uzun bir müddət ərzində həmişə deyilmiş və bizə təlqin edilmişdir ki, üzdəniraq, mənfur erməni millətinin müsəlmana bəslədiyi kin-nifrət, qəzəbi danılmazdır. Ona görə də kim desə ki, ermənilər və ona bənzərlər bizim düşmənimizdir, burada o qədər bir hünər göstərməyib, o səbəbə ki, bu sözü biz uşaqlıqdan kürsü başında Fatma nənələrimizdən də eşitmişik.

Məhz bu səbəbdən də tarixi köklərimizi təkrar etməsək, yeni sözləri ortaya qoymaq çətin olar. Çünki Azərbaycanın böyük maarifçi mütəfəkkiri Abbasqulu Ağa Bakıxanov deyirdi: "Vətən tarixini öyrənmək milli özünüdərkə, vətənpərvər hisslərin inkişafına təkan verir" (20, s. 86). Bu baxımdan lazımdır ki, hamıya məlum olan düşmənlərimizi heç zaman zehni-idrakımızdan kənara qoymayaq və az da olsa öz ətrafımıza baxıb görək öz içimizdə nə kimi xüsusiyyətlər var.

Odur ki, müsəlmanlar özlərinin əsl düşmənlərini kənar yerlərdə, müsəlman olmayan xalqların içərisində axtarmaqla yanaşı, öz aralarında da axtarmalıdırlar. İslama sitayiş edən millətlərin düşməni əcnəbilər, "kafirlər" olmaqla, birinci növbədə onların gözünü bağlayaraq aldadan, inkişaf etmiş xalqlarla əlaqəsini məhdudlaşdıran, mənəvi paklıq rəmzi olan İslam dininin yaratdığı həmrəylik əleyhinə zidd kəsilən qeyri-insani "nəfs" keyfiyyətlərdi. Müsəlmanlar "kafirlik" və "murdarlıq" adı ilə dünyanın başqa xalqlarından ayıraraq onların mütərəqqi inkişafına kömək olan və ümumiyyətlə tərəqqisinə ciddi şəkildə nail olan böyük mütəfəkkirləridir. Ona görə də müsəlmanların yanında ən möhtərəm şəxs hesab edilən mütəfəkkirlərin bütün təbəqələrinin əxlaqlı hərəkətlərindən, yaxşı əməllərindən, mənalı işlərindən, ibrətamiz hərəkətlərindən danışmaq və onu açıb göstərməmək mümkün deyildir.

Onu da göstərmək olar ki, Naxçıvan, Ordubad və hətta İrəvan kimi böyük müsəlman şəhərlərində hər tərəfli müsəlman vəkili, Şərq

aləmində tanınmış müsəlman həkimi, savadlı müsəlman oxumuşu mövcud olmuşdur. Bunun səbəbkarı isə müsəlman təhsili görmüş, onun elmini "Vacib" hesab edən və müsəlmanları onlarla yaxın əlaqə saxlamağa çalışaraq yaxınlaşmağa vadar edən hörmətli və qabaqgörən mütəfəkkirlər olmuşdur.

Mütəfəkkirlər başqa millətlərin o cümlədən ermənilərin pislikləri, onların "natəmiz" olmasını irəli sürdükləri və müsəlmanların onlarla yaxınlaşmamasını, bəzi əlaqəsini qadağan etməklə, müsəlman əqidəsinin nə qədər saf və təmiz olması demək idi. Həmçinin "murdarlıq"dan uzaq olmaq məsələsini müsəlmanları bütün sahələrdə inkişaf etdirmək, hər hansı bir xəstəliklərdən uzaq olmaq prinsipi qeyd edilirdi. İslam dini əxlaqı adamlara təlqin edirdi ki, müsəlman olmayanlar-xristianlar, yəhudilər və s. natəmizdirlər, murdardırlar. Buna görə də başqa millətlərlə, başqa dinlərə qail olanlarla əlaqədə olmaq günahdır. Odur ki, dindar müsəlmanlar rus və erməninin yaş əlini murdar, rus, gürcü yağını, pendirini murdar, müsəlmanlarınkını isə təmiz, pak hesab edirdilər. Hətta müsəlmanlar belə bir əqidədə idilər ki, müsəlman olmayanların qabları da murdardır, ondan istifadə etmək olmaz. Müsəlman əqidəsi göstərir ki, müsəlmanları belə bir təmiz və sağlamlıq vəziyyətə salan İslamın ehkamları və onları əldə rəhbər tutan möhtərəm mütəfəkkirlərdir. Bütün varlığı ilə cəhalətin buxovlarından azad etmək müsəlmanları pak amallar uğrunda belə başa salmaq olmuşdur ki, dünyada bir təmiz var bir də murdar. Təmiz odur ki, həm cismi, həm də mənəvi təmizliklə yanaşı etiqadca da müsəlman olsun. Murdar odur ki, zahiri çox pakizə və təmiz də olmuş olsa, onun etiqadı müsəlman deyil, ermənidir, rusdur, gürcüdür və başqa qeyri-müsəlmandır.

İslam əqidəsi, müsəlmanlarla rusların, ermənilərin və başqa qeyri-müsəlmanların həm özlərini hərəkət və rəftarlarını, əxlaq və davranışlarını, həm də onların həyat və məişətini, yaşayış tərzini qarşı-qarşıya qoyaraq etiqadlı olana üstünlük verir, onlara rəğbət bəslənilir. Müqəddəs dinin ayinlərində dəfələrlə göstərilmişdir ki, müsəlman aləmi heç də bir müsəlmanın hesab etdiyi kimi deyil, ümumi inkişaf əxlaq normalarından ibarətdir. Onu bu normalara çatdırmaq üçün birinci növbədə insan özünü kəsafət və çirkablardan təmizləməlidir.

## NƏTİCƏ

Əsərin məntiqi nəticəsi onu göstərir ki, öz xalqını sevən və ona ümid bəsləyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev şəxsiyyəti böyük insanlar, siyasi liderlər, dövlət xadimləri tərəfindən yüksək səviyyədə qiymətləndirilmişdir. Nikolay Baybakov dahi şəxsiyyət haqqında deyirdi: "Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram".

Millətinə, dilinə, dininə daim bağlı olan, ona hörmət bəsləyən, Azərbaycan xalqının milli düşüncəsində qürur mənbəyinə çevrilən ümummilli lider Heydər Əliyevin böyük nüfuzu və məqamı həmişə uca tutulmuşdur. Asiya Müsəlmanları Komitəsinin sədri, Küveytin vəqflər və islam işləri nazirinin müavini Adil Abdulla əl-Fəlah dahi şəxsiyyət haqqında deyirdi: "Dünya şöhrətli siyasi xadim Heydər Əliyev nəinki Azərbaycanda, həm də bütün dünyada layiqli qiymət qazanmışdır. Sevinirəm ki, Allah Azərbaycana belə bir müdrik rəhbər bəxş etmişdi. Onun sözləri və fikirləri tarixə qızıl hərflərlə yazılmışdır. Heydər Əliyev İslam aləmində çox böyük nüfuz sahibi idi".

Pakistan Parlamentinin sabiq sədri Kilyani dahi şəxsiyyətin böyük nüfuzundan danışarkən demişdir: "Heydər Əliyev bütün Yaxın Şərqdə və islam aləmində böyük nüfuza malikdir".

Dahi şəxsiyyətin varlığı bütün Türk dünyası üçün sevinc, onu cismən itirməyimiz isə hamımız üçün kədərdir. "Azərbaycanın bu gün yürütdüyü uğurlu və tarazlaşdırılmış xarici siyasətinin memarı olan Heydər Əliyevi itirməyimiz tarixi və mədəni tellərlə bir-birinə bağlanmış olan xalqlarımızı dərindən kədərləndirmişdir" deyən qardaş Türkiyə Cümhuriyyətinin başçısı Abdullah Gül, dahi şəxsiyyətin ruhu qarşısında öz hörmət və ehtiramını bildirmişdir.

Bu gün fəxr ilə yad etdiyimiz Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyev daha böyük si-

malara layiqdir. "Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimi müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularındandır" Qırğızıstanın xalq yazıçısı Çingiz Aytmatov dərin düşüncə yaradıcılığında öz hörmət və ehtiramını ulu öndərə o cür tərənnüm etdirmişdir.

Gürcüstan Respublikasının sabiq Prezidenti Eduard Şevardnadze dahi şəxsiyyət Heydər Əliyevin fəlsəfi ideyalarının fenomenini qiymətləndirməklə nəinki Azərbaycanda bütün Qafqazda milli düşüncədə indi və gələcəkdə nə qədər rol oynadığını qeyd edərək deyirdi: "Qafqazın müstəqilliyi ilə azadlığın işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcək".

Əxlaqi dəyərlərimizi zənginləşdirən qədim Nuh yurdu olan Naxçıvan əlyazmaları sözün əsl mənasında zəngin xəzinə və yeni-yeni elmi biliklərin inkişaf etdirilməsi üçün etibarlı bir mənbə yoludur. Çünki bu yol dahi şəxsiyyət Heydər Əliyev yoludur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri çox hörmətli Vasif Talıbov 1995-ci il dekabrın 16-da keçirilən Ali Məclisin birinci sessiyasında demişdir: "Naxçıvan Muxtar Respublikasında inkişafın bir yolu var: - bu, möhtərəm Heydər Əliyevin yoludur".

Həqiqətən yaradılan bu yollarla əldə olunan imkanlardan istifadə etmək və düzgün istiqamətə yönəltmək isə mühüm əhəmiyyət kəsb edir. Uzaqgörən ümummilli lider Heydər Əliyevin fəlsəfi ideyaları, ibrətamiz kəlamları və unudulmaz ibrət dərsləri bu baxımdan qiymətləndirilmiş, əldə olunan nəticələr isə onu deməyə imkan verir ki, gələcək nəsillər əxlaqi dəyərlərimizin qorunub saxlanılması, milli-mənəvi dəyərlərimizə sahib olmağın gələcək üçün mühüm əhəmiyyət kəsb etməsini dərk edərək, keçmişini və gələcəyini dərindən mənimsəyərək bir daha qürur hissi ilə deyəcəkdir: "Azərbaycan xalqının memarı və qurucusu, ölməz zəka sahibi Heydər Əliyev həmişə olduğu kimi, bu gün də bizə gərəkdir".

# ƏDƏBİYYAT


1. H.Əliyev. Allahın yolunda hamımız bir olaq. Bakı:Azərnəşr, 1993, 31 s.
2. Dövlət və Din (ictimai fikir toplusu), Bakı, 2008,
3. Dövlət və Din (ictimai fikir toplusu jurnalı). Bakı, 2010, may – iyun 3 (17), 255 s.
4. Dövlət və Din (ictimai fikir toplusu jurnalı),Bakı, 2010 sentyabr-oktyabr 5(19), 255 s.
5. H.Əliyev. Müstəqillik yolu. Bakı: 1997.
6. Dövlət və Din (ictimai fikir toplusu jurnalı), Bakı, 2011, yanvar-fevral 1(21), 255 s.
7. Dövlət və Din (ictimai fikir toplusu jurnalı), Bakı, 2009, aprel, 2 (10), 255 s.
8. Fəlsəfə ensiklopedik lüğəti, Bakı, 1997, 520 s.
9. Əliyev Q.C. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı, Qismət. 2003.
10. Aslanova R. İslam və mədəniyyət. Bakı, 2002, 406 s.
11. Əliyev M. Antiqloballaşma // "Ekologiya Fəlsəfə Mədəniyyət" (Toplum). Bakı, 2003, 195 s.
12. Кулиев Г.Г. "Архетипичные Азери: лики менталитета". Баку, 2002, 250 с.
13. İbrahimov S. Şərq Peripatetizmi və İslamda İmamilik. Təbriz: "Firuzan", 1385, 188 s.
14. Маркс К., Ф.Энглес. Соч., том. 1, 700 с.
15. Величко В.Л. "Кавказ". С.Петербург, 1904, 256 с.
16. Qurani-Kərim. Tərcümə edənlər: Bünyadaov Z. Məmmədəliyev V. Bakı: 1992, 714 səh.
17. Qurani-Kərim Təfsiril-bəyan. Tərcümə və təfsir edən: Şeyxül-islam Həsən Mövlazadeye Şəkəvi, Tiflis: 1907, 537 səh.
18. Məhəmməbaqir ibn Məhəmmədtəqi. Zadəl-Məad, əlyazması, Təbriz: 1288 h.q. 399 səh.
19. Vəlixanlı N.M., XI əsrin görkəmli alimi Əbu-r-Reyhan əl-Biruni, Azərb. SSR EA Xəbərləri (Tarix, fəlsəfə və hüquq seriyası), 1973, №3; 14-17 səh.
20. İmanov H.R. Fəlsəfə. Bakı: Turan evi, 2005, 420 səh.
21. Hacı Molla Məhəmməd Naxçıvani. "Qürrətul-Əbsar", əlyazması, Təbriz: 1318 hicri-qəməri (1897 miladi), 546 səh. AMEA NB Əlyazmalar Fondu
22. Bünyadov Z.M. Azərbaycan Atabəylər Dövləti (1136-1225-ci illər). Bakı: Elm, 1985, 258 s.
23. Məmmədov Z. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. Bakı: Elm, 1986, 176 s.
24. Müxtəsər tibb. Əlyazması. M.Füzuli adına Əlyazmalar İnstitutu. Şifri: A-576. 10963. 125 vərəq.

25. İbn Sina. Qanun. Əlyazması. M.Füzuli adina Əlyazmalar İnstitutu. Şifri: M-136. 17026. 537 h.q. (miladi 1142). 190 vərəq.
26. Rüstəmov Y. Sosial-siyasi və hüquqi təlimlər tarixi. Bakı, Azərbaycan Universitetinin nəşriyyatı, 2007, 423 s.
27. Эрнст Гомбри Х. История искусства. Москва, 1998, 360 с.
28. Великие мысли великих людей. Москва, РК, 1998, 455 с.
29. Абд ар-Рахман ибн Абд ал-Хакам. Завоевание Египта, ал-Магриба и ал-Андалуса, Пер. с арабского С.Б.Певзнера, Москва, 1985, 280 с.
30. Абу Рейхан Бируни. Избранные произведения, Ташкент, 1963, 430 с.
31. Nağıyev C.Q. Qədim Şərq ədəbiyyatı tarixi. Bakı, Asiya – 2004, 545 s.
32. Xıdırov C. Şərqin tarixi abidələri. Bakı, Adiloğlu, 2004, 370 s.
33. İbn əl-Vərdi. Xəridət əl-əcaib və fəridət əl-qəraib, Misir 1324 h.q. 540 s.
34. Məmmədov H. Naxçıvan sancağının müfəssəl dəftəri, Araşdırma, qeyd və şərhlərin müllifi, Bakı: 2001. 374 s.
35. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı: Elm, 1977. 158 s.
36. Naxçıvani H. Əs-Sihah əl-əcəmiyyə, Bakı: Şərq-Qərb, 1993, 295 s.
37. Naxçıvani M. Səhabəd-Dümu, Naxçıvan Əlyazmalar Fondu, 1295 h.q. 492 s.
38. Seyidbəyli E. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri, Bakı: Elm, 2000. 280 s.
39. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, II cild, Bakı: Azərnəşr, 1997.
40. Əliyev H. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Bakı, 1999.
41. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989.
42. Tahirov R. İslam tarixi. Bakı, 1994.
43. Gəncəvi N. Xosrov və Şirin, Bakı,Yazıçı; 1983, 401 s.
44. Əl-Ustad Ə.B. Munisnamə, Naxçıvan, 2008, 143 s.
45. Dirçəliş jurnalı, (Azərbaycan dilində) Bakı, 1999.
46. Əl-Heydərəbadi Məhəmməd Həmdullah. Məcmuət əl-vəsaiq əs-siyasiyyə lil-əhd ən-nəbəvi vəl-xilafə ər-raşidə. Qahirə, 1956.
47. Əl-Təbəri Əbu Cəfər Məhəmməd ibn Cərir. Tarix əl-üməm vəl-müluk. II cild, Qahirə, 1939.
48. Əl-Həməvi Yaqut. Mücəm əl-büldan, Ic. Qahirə, 1906.
49. İslam: tarix, fəlsəfə, ibadətlər, Bakı: Elm, 1994, 336 s.
50. Qurbanov Ə.C. Beynəlxalq münasibətlərdə din-islam amili. Bakı, 2000.
51. Rasim Əfəndi. Azərbaycan dekorativ – tətbiqi sənətləri, Bakı: 1976.
52. Rzayev M.H. Şəxsiyyət müasir transformasiya şəraitində. Bakı, 2007.
53. Быстрицский Е.К. Ликност в мире културу. Киев, 1992.
54. Керимов К. Султан-Мухаммед и его школа. Москва, 1970.
55. Anri Masse. İslam, Bakı: Ensiklopediya, 1992, 256 s.
56. Məhəmməd peyğəmbərin həyatı. Bakı: Azərnəşr, 1990, 159 s.
57. Quran. Bakı: Qismət, 1997, 645 s.
58. Nəsirəddin Tusi. Əxlaqi-Nasiri, Bakı: Elm 1989, 256 s.

59. S. İbrahimov. Şərq peripatetizın fəlsəfəsində insan amili, Naxçıvan, 2011, 76 s.
60. Bir dəstə gül, Bakı: 1999, 147 s.
61. Əliqulu Mirzayi Naxçıvani. Əqaide-Fəlsəfe, Əlyazma, 1285 h.q. 517 səh. Naxçıvan Əlyazmalar Fondu.
62. Məmmədquluzadə. Seçilmiş əsərləri, I cild, Bakı: 1951, 450 səh.
63. H.S.İbrahimov. Hacı Molla Məhəmməd Naxçıvaninin "Səhabəd-Dümu" əsərində fəlsəfi düşüncələr, I-II cild, Naxçıvan: İdeya, 2011, 320 səh.
64. Politolojiya (Dərslik), Bakı: 2005, 267 səh.
65. Şeyx Abbas Qumi. Mənazil əl-Axirət, Əlyazması, 1347 h.q. 159 səh.
66. Mirəhmədov Ə. Azərbaycan mətnşünaslığının vəziyyəti və inkişaf perspektivləri-Azərbaycan mətnşünaslığı məsələləri. Bakı, "Elm", 1979, 215 s.
67. Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi, Bakı, 1994, 340 s.
68. Şərifli K. Azərbaycan əlyazma kitabı və kitabxanaları, Bakı, 2009, 190 s.
69. Doktor Əbulqasim Radəftər. Çənd mərsiyə əz şairan, Tehran, 1365, 122 səh.
70. Dahilərin göz yaşı. Mərsiyələr. Azərbaycan SSR Elmlər Akademiyası Əlyazmalar İnstitutu. Bakı, 1990, 112 səh.
71. Məhəmməd Füzuli. Hədiqət-üs-süəda, Bakı, Gənclik, 1993, 410 səh.
72. Məhəmməd Füzuli. Leyli və Məcnun, 1958, 166 səh.
73. Məhəmməd Füzuli. Leyli və Məcnun, əlyazması, 1085 h.q. (miladi 1674) 166 səh.
74. Salahov M. və Cəfərov Ə. Əshabi Kəhf. Bakı: 2006, BUN, 62 səh.
75. Göydağlı Ə. Seçilmiş əsərləri. Bakı: Cavid-AN, MMC, 2009, 260 səh.
76. Naxçıvani Ə. Əshabi Kəhf. Bakı: Təhsil, 2012, 244 səh.
77. Əliyev R. Dinin əsasları. Bakı: İrşad, 2002, 236 səh.
78. Şəhid Sədri. Fiqhin əsasları və şərhi., əlyazması.
79. Qumri. Kənzil məsaib. Əlyazması.
80. Sədrəddin ibn-i Fazil Məhəmməd Hüseyn Qəzvini. Riyaz əl-Qüds. Əlyazması.
81. Məhəmməd Həsən. Kitab əl-ibadət. Əlyazması.
82. Seyyid Rəzi. Nəhcül Bəlağət. Əlyazması.
83. Məhəmməd Həsən Ordubadi. Nücüm elmi. Əlyazması.
84. Hacı İsmayıl Sirrin. Sual – cavab. Əlyazması.
85. Risalə. Əlyazması.
86. Mirzə Məhəmməd Haşim ibn Müseyyib Naxçıvani. Həqaiqu ət-tarix. Əlyazması.
87. Məhəmmədəli Təbətəbai. Riyazəl məsail fi əl-fiqh. Əlyazması.
88. Əbu Əli Sina. Şəfa. Əlyazması.
89. Əbdül Lətif. Təfsir fatihətül kitab. Əlyazması.
90. Məhəmməd Mehdi. Şərh və təfsir,ayat və hədis. Əlyazması.

91. Əbu Nəsir Məhəmməd. Sirac əl qulub. Əlyazması.
92. Milli elmlər akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. AMEA və AAK, Bakı: Elm, 2003, 287 səh.
93. Heydər Əliyev. Azərbaycan XXI əsr və üçüncü minilliyin ayrıcında. Bakı: 2001.
94. Cəfərov V. Azərbaycan müstəqillik yollarında: problemlər, mülahizələr. Bakı: 2003.
95. Azərbaycan XX əsrin astanasında. Bakı: 1997.
96. Rzayev M. Novruzov M. Qloballaşma və şəxsiyyət. Bakı: 2010.
97. Məmmədov F. Kulturologiya. Bakı: Çıraq, 2008.
98. Mətanət Sıraçlı (Həsənov) Naxçıvan ədəbi mühitindən..., Bakı: 2007, 80 səh.
99. Nigar Cərulla qızı. Fəlsəfi-bədii fikir tarixində şəxsiyyət konsepsiyası. Bakı: Günəş, 2000.
100. Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan. Bakı: 1993, 157 səh.
101. Füzuli M. Seçilmiş əsərləri: 5 clddə, 5 cild, Bakı: Elm, 1985, 216 səh.
102. Şərifli K. Mətnşünaslığın nəzəri əsasları. Bakı: Nurlan, 2011, 366 səh.
103. Şərifli K. Mətnşünaslığın əsasları. Bakı: 2003, 312 səh.
104. Şərifli K. Mətnşünaslığın. Bakı: 2001, 252 səh.
105. İbrahimov. S. İran, Əfqanıstan, Tacikistan ədəbiyyatı. Bakı: Ağrıdağ, 2011, 376 səh.
106. İbrahimov S. Mətnşünaslıq. Bakı: 2010, 200 səh.
107. Rzayev M. Fəlsəfə tarixi. Naxçıvan: Qeyrət, 2010, 278 səh.
108. Rzayev M. Fəlsəfənin tədrisində şəxsiyyət probleminin təhlili metodikası. Bakı: 2009, 119 səh.
109. Şükürov A. Müstəqil dövrün fəlsəfəsi və filosofları. Bakı: Səda, 2007, 396 səh.
110. İbrahimov S. Şərq peripatetizmi və islamda imamilik. Təbriz. 1385. 188 səh.
111. Kazımov İ. Naxçıvan: Əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair(1828-1920-ci illər) Bakı: 2007, 175 s.
112. İmanov H. Əhədov A. Orta əsr islam Şərqində fəlsəfi fikir. Bakı: 1998, 192 səh.
113. Məmmədov N. Azərbaycanın yer adları. Bakı: 1993, 184 səh.
114. Məmmədov Z. Şərq fəlsəfəsi. Bakı: 1999, 304 səh.

# MÜNDƏRİCAT


ÖN SÖZ ....................................................................................................5

**I FƏSİL.** ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN DİNƏ VERDİYİ YÜKSƏK FƏLSƏFİ DƏYƏRLƏR....................8

MÜSTƏQİLLİK DÖVRÜNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ..................... 15

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN ŞƏRQ MƏDƏNIYYƏTI ILƏ BAĞLILIĞI. TARİXİ KÖKLƏRİ VƏ FƏLSƏFİ DƏYƏRLƏRİ ....................21

HEYDƏR ƏLİYEV FƏLSƏFƏSİ MİLLİ DÜŞÜNCƏMİZİN FENOMENİDİR..........35

**II FƏSİL.** NAXÇIVANIN MİLLİ-MƏNƏVİ SƏRVƏTİ OLAN ƏLYAZMA MƏTNLƏRİNİN ARAŞDIRILMASI....................41

MİLLİ DƏYƏRLƏRİMİZİ ZƏNGİNLƏŞDİRƏN "NOVRUZ" ƏLYAZMA VƏ MÜASİR MƏNBƏLƏRDƏ.................... 48

HACI MOLLA MƏHƏMMƏD NAXÇIVANİNİN "QÜRRƏTUL-ƏBSAR"ƏSƏRİ HAQQINDA....................57

ƏLYAZMA MƏTNLƏRDƏ NAXÇIVAN ATABƏYLƏR DÖVRÜNÜN TİBB ELMİ....................64

XII ƏSR NAXÇIVAN ƏDƏBİ MÜHİTİNİN ƏN QİYMƏTLİ ƏSƏRLƏRİNDƏN OLAN "MUNİSNAMƏ" ....................72

"ƏSHABİ KƏHF" ƏHVALATI NAXÇIVAN ƏLYAZMASINDA.................... 93

NAXÇIVAN MƏDƏNİYYƏTİNİN TARİXİ ƏHƏMİYYƏTİ ORTA ƏSRLƏRDƏ....................158

ŞƏRQ ALƏMİNDƏ DƏRRAKƏ SƏVİYYƏSİ VƏ ƏXLAQİ KAMİLLİK....................166

HACI MOLLA MƏHƏMMƏD NAXÇIVANİNİN "SƏHABƏD-DÜMU" ƏSƏRİNDƏ MÖVLUD HEKAYƏSİ....................169

ƏLİQULU MİRZAYİ NAXÇIVANİNİN "ƏQAİDE FƏLSƏFƏ" ƏSƏRİNDƏ ASKETİZM TƏLİMİ....................184

**III FƏSİL.** QƏDİM ŞƏRQ MƏDƏNİYYƏTİNİN SOSİAL-SİYASİ TƏLİMLƏR SİSTEMİ....................196

ORTA ƏSRLƏRDƏ ŞƏRQ ƏXLAQININ YARANMASI VƏ TƏKMİLLƏŞMƏSİ....................204

İCTİMAİ HƏYATDA OLAN ƏXLAQİ MÜNASİBƏTLƏR....................224

QADIN ƏXLAQININ HÜQÜQİ NORMALARI....................241

İNSAN ÜÇÜN ƏN GÖZƏL ƏMƏL NAMAZ VƏ ORUCDUR....................245

MƏHƏRRƏMLİK MƏRASİMİNİN FƏLSƏFİ MAHİYYƏTİ....................253

QURBAN BAYRAMININ MÜHÜM ƏHƏMİYYƏTİ....................261

ZİYARƏTİN MÜXTƏLİF NÖVLƏRİ....................265

NƏTİCƏ.................... 273

ƏDƏBİYYAT.................... 275

**Hacı Səbuhi İbrahimov**

Heydər Əliyev
və
əxlaqi dəyərlər

Yığılmağa verilmiş 20.02.2013.
Çapa imzalanmış 06.03.2013.
Formatı 70X100 1/16. "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 17,5 ç.v.
Sifariş № 266 Tiraj 100 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.